Xalqın qəzeti!

# Xalq qəzeti

№ 83 (30487) 25 aprel 2024-cü il, cümə axşamı

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | xalqqazeti.az

## Uğur formulu: dürüstlük və səmimiyyət




Səhifə ⇨ 6

# Türk dünyası xalqlarımızın ümumi ailəsidir

## *Qırğızıstan Prezidenti Sadır Japarovun Azərbaycana dövlət səfəri*






**Azərbaycan Respublikasına dövlət səfərinə gələn Qırğız Respublikasının Prezidenti Sadır Japarovun aprelin 24-də rəsmi qarşılanma mərasimi olub.**

Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı meydanda Qırğızıstan Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Azərbaycan Prezidenti İlham Əliyev Qırğızıstan Prezidenti Sadır Japarovu qarşıladı.

Fəxri qarovul dəstəsinin rəisi Qırğızıstan Prezidentinə raport verdi.

Prezident Sadır Japarov Azərbaycan əsgərlərini salamladı.

Dövlət başçıları fəxri qarovul dəstəsinin qarşısından keçdilər.

Qırğız Respublikasının və Azərbaycan Respublikasının Dövlət himnləri səsləndirildi.

Azərbaycan nümayəndə heyəti Qırğızıstan Prezidentinə, Qırğızıstan nümayəndə heyəti isə Azərbaycan Prezidentinə təqdim olundu.

Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında Azərbaycan Prezidenti İlham Əliyevin və Qırğızıstan Prezidenti Sadır Japarovun qarşısından keçdi.

Dövlət başçıları rəsmi foto çəkdirdilər.

## QHT müzakirələri: Erkən nikahlar



Səhifə ⇨ 12

## Valyuta ehtiyatlarımız 68,5 milyard dollara çatıb



Səhifə ⇨ 15

## Rusiyanın dəyişən yanaşması – Qərb maraqları, “3+3” və “Qafqaz evi”

### *Ölkənin Xarici İşlər Nazirliyinin yaydığı bəyanata sözardı*

**Rusiya Xarici İşlər Nazirliyinin “Cənubi Qafqazda Rusiya maraqlarının təşviqi” mövzusunda keçirdiyi kollegiya iclasının yekunlarına dair bəyanatındakı ayrı-ayrı məqamlar barədə söz açacağıq. Əvvəlcə bildirək ki, qurumun mövzuya yer ayırması adi məsələ sayıla bilməz.**



Nəzərə alaq ki, nazirliyin kollegiya iclas Qarabağdakı Rusiya sülhməramlılarının bölgəni tərk etmələri ilə bağlı qərar məsələsində Moskvanın Cənubi Qafqaza marağının sıradan çıxmasına dair diskussiyaların gücləndiyi bir dövrə təsadüf edir. Deməli, XİN bəyanatı ilə göstərir ki, region maraq dairəsi baxımından Rusiya üçün əvvəlki əhəmiyyətini qorumaqdadır.

Əlbəttə, Kremlin Cənubi Qafqaz maraqları heç cür ikinci plana keçə bilməz. Yəni, Rusiya sülhməramlılarının Qarabağdan çıxmalarının vurğuladığımız tərzdə təqdimatı yolverilməzdir. Əksinə, hesab edirik ki, hazırda regionun Moskva üçün vaciblik əmsalı daha yüksəkdir. Ən əsası, artıq vaciblik tamam fərqli mərhələyə qədəm qoyur. Görünür, Rusiya məsələyə artıq hərbi baxımdan yanaşmır. Daha doğrusu, gücə mövcudluq aləti kimi baxmır. Sırf Azərbaycan məsələsinə gəldikdə, Moskva Bakıya hər planda etimad göstərir. Əmindir ki, Bakı özünün müstəqil xarici siyasət xətti ilə Cənubi Qafqazda balanlaşdırılmış kurs yeridir və bu kursda Kremlin mənafeləri heçə sayıla bilməz.

***

Rusiya XİN-in sözügedən kollegiya iclası ilə verdiyi mesaj daha çox “Rusiyasız Cənubi Qafqaz” ritorikasını formalaşdıran qüvvələrədir. Həmin qüvvələr hazırda Moskva və Cənubi Qafqaz mövzusunda “Axilles dabanı” görüntüsünü yayırlar ki, gələcək planlar üçün psixoloji üstünlüyə yiyələnsinlər. Axı Qərb ictimaiyyəti Ukrayna müharibəsindən bezib. Bununla bağlı Avropanın müxtəlif ölkələrində etirazlar səslənməkdədir. Hətta “köhnə qitə”nin bəzi ölkələrində Rusiyanın yenilməz obrazı formalaşıb. Belə bir durumda Avropanın sıravi sakinlərinə anti-Rusiya cəbhəsinin Cənubi Qaqfaz səngərinin işə düşdüyünü anlatmaq mümkünsüzdür. Ona görə Rusiyanın zəifliyi təbliğatı aparılır. Təbliğat ona hesablanıb ki, region şüurlarda, belə demək mümkünsə, rahat lukum kimi qəbul edilsin. Bu platformada “Ukrayna demokratiyasını qorumaq”, “Ukrayna xalqının azadlıq mübarizəsini dəstəkləmək” tipli pafosa hesablanmış deyimlər keçərli deyil. Hərçənd, “Ermənistan demokratiyasını qorumaq” kimi şüarların səsləndirildiyini, İrəvanın avtoritarlarla mübarizədəki qala təsəvvürünün formalaşdırıldığını söyləməliyik. Ancaq...

*(ardı 13-cü səhifədə)*

## Anti-paşinyançıların anti-erməni bəhanəsi

### *Məqsəd bütün vasitələrlə sülhə mane olmaqdır*



**Azərbaycan və Ermənistan arasında yaradılmış delimitasiya və demarkasiya üzrə komissiyanın aprelin 19-da keçirilən iclasında Qazax rayonunun işğal altındakı 4 kəndinin ölkəmizə qaytarılması ilə bağlı qəbul olunan qərar, bundan sonra demarkasiya prosesinin başlaması, aprelin 23-də ilk sərhəd dirəyinin qurulması Hayastanda hakimiyyətə qarşı çıxanların əllərinə yeni bəhanələr verib. Onlar iki ölkə arasında etimadın yaradılmasına, sülhün əldə olunmasına xidmət edəcək bu məsələni necə deyərlər, süngü-bıçaqla qarşılayıblar.**

1991-ci ildə işğal olunan 4 kəndin (Bağanıs Ayrım, Aşağı Əskipara, Xeyrımlı və Qızılhacılı) delimitasiya prosesi çərçivəsində ölkəmizə qaytarılması Nikol Paşinyan hökumətinin “xəyanəti və satqınlığı” kimi qiymətləndirilir. Etiraz edənləri əsasən 3 qrupa bölmək olar. Birinci qrupa 20 il ərzində (1998-2018) Ermənistanı çapıb-talayan, onu vassala, asılı dövlətə çevirən və erməni cəmiyyətinin bu gün haqlı olaraq talançılar adlandırdığı keçmiş prezidentlər Robert Koçaryan və Serj Sarkisyan tərəfdarları, onların parlamentdəki fraksiyalarına üzv olan deputatlar, ikinci qrupa Paşinyan tərəfindən vəzifədən çıxarıldıqdan sonra müxalifət düşərgəsinə keçənlər, üçüncü qrupa isə 4 kənddə məskunlaşmış şəxslər daxildir. Əvvəlki iki qrupa daxil olanlar sonuncuların qızışdırılmasında xüsusi rol oynayırlar.

*(ardı 16-cı səhifədə)*

# Məhdud tərkibdə görüş



Aprelin 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qırğız Respublikasının Prezidenti Sadır Japarov ilə məhdud tərkibdə görüşü olub.

# Sənədlərin imzalanması mərasimi



**Aprelin 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Qırğız Respublikasının Prezidenti Sadır Japarovun iştirakı ilə Azərbaycan-Qırğızıstan sənədlərinin imzalanması mərasimi olub.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Qırğız Respublikasının Prezidenti Sadır Japarov “Azərbaycan Respublikası və Qırğız Respublikasının Dövlətlərarası Şurasının ikinci iclasının Qərarı”nı və “Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Qırğız Respublikasının Prezidenti Sadır Japarovun Birgə Bəyannaməsi”ni imzaladılar.



Azərbaycan Respublikasının səhiyyə naziri Teymur Musayev və Qırğız Respublikasının səhiyyə naziri Alımkadır Beyşenaliyev “Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi ilə Qırğız Respublikasının Səhiyyə Nazirliyi arasında səhiyyə və tibb elmi sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu”nu imzaladılar.

Azərbaycan Respublikasının energetika naziri Pərviz Şahbazov və Qırğız Respublikasının energetika naziri Taalaybek İbrayev “Azərbaycan Respublikasının Energetika Nazirliyi ilə Qırğız Respublikasının Energetika Nazirliyi arasında energetika sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu”nu imzaladılar.

Azərbaycan Respublikası Baş nazirinin müavini Əli Əhmədov və Qırğız Respublikasının iqtisadiyyat və kommersiya naziri Daniyar Amangeldiyev “Azərbaycan Respublikası Nazirlər Kabineti ilə Qırğız Respublikası Nazirlər Kabineti arasında 2024-2029-cu illər üzrə Əməkdaşlıq Proqramı”nı imzaladılar.

Azərbaycan Respublikasının rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev və Qırğız Respublikasının rəqəmsal inkişaf naziri Nuriya Kutnayeva “Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə Qırğız Respublikasının Rəqəmsal İnkişaf Nazirliyi arasında Qırğız Respublikasında dövlət xidmətləri mərkəzlərinin təkmilləşdirilməsinə dair Anlaşma Memorandumu”nu imzaladılar.

Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov və Qırğız Respublikasının xarici işlər naziri Jeenbek Kulubayev “Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi ilə Qırğız Respublikasının Maliyyə Nazirliyi yanında Dövlət Gömrük Xidməti arasında qarşılıqlı ticarətdə statistik məlumatların mübadiləsi sahəsində əməkdaşlıq haqqında Protokol”u və “Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi ilə Qırğız Respublikasının Maliyyə Nazirliyi yanında Dövlət Gömrük Xidməti arasında gömrük idarəetməsinin təkmilləşdirilməsi məqsədilə əməkdaşlıq və qarşılıqlı yardım haqqında Saziş”i imzaladılar.

Azərbaycan Respublikasının ədliyyə naziri Fərid Əhmədov və Qırğız Respublikasının ədliyyə naziri Ayaz Bayetov “Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi ilə Qırğız Respublikasının Ədliyyə Nazirliyi arasında hüquqi sahədə qarşılıqlı fəaliyyət haqqında Saziş”i imzaladılar.

Azərbaycan Respublikasının elm və təhsil naziri Emin Əmrullayev və Qırğız Respublikasının təhsil və elm naziri Doqdurkul Kendirbayeva “Azərbaycan Respublikası Hökuməti ilə Qırğız Respublikası Nazirlər Kabineti arasında təhsil və elm sahəsində əməkdaşlıq haqqında Saziş”i imzaladılar.

Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin rəisi Vüsal Hüseynov və Qırğız Respublikasının əmək, sosial təminat və miqrasiya naziri Qulnara Baatırova “Azərbaycan Respublikası Hökuməti ilə Qırğız Respublikası Nazirlər Kabineti arasında miqrasiya sahəsində əməkdaşlıq haqqında Saziş”i imzaladılar.

Azərbaycan Respublikasının iqtisadiyyat naziri Mikayıl Cabbarov və Qırğız Respublikasının iqtisadiyyat və kommersiya naziri Daniyar Amangeldiyev “Azərbaycan Respublikası Hökuməti ilə Qırğız Respublikası Nazirlər Kabineti arasında Azərbaycan-Qırğız İnkişaf Fondunun yaradılması haqqında Sazişə dəyişikliklərin edilməsi haqqında Əlavə Saziş”i və “Azərbaycan Respublikası ilə Qırğız Respublikası arasında gəlirlərə görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında Saziş”i imzaladılar.

Səfər çərçivəsində ümumilikdə 18 sənəd imzalanıb.

# Azərbaycan və Qırğızıstan Dövlətlərarası Şurasının 2-ci iclası



**Aprelin 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Qırğız Respublikasının Prezidenti Sadır Japarovun iştirakı ilə Azərbaycan və Qırğızıstan Dövlətlərarası Şurasının 2-ci iclası keçirilib.**

**İclasda çıxış edən Azərbaycan Prezidenti İlham Əliyev dedi:**

- Hörmətli Sadır Nurqojoyeviç.

Hörmətli qonaqlar.

Bir daha Azərbaycana “Xoş gəlmisiniz!” deyirəm.

Sizi ölkəmizdə görməyimizə çox şadıq. Bu, Sizin dövlət səfərinizdir. Əminəm ki, səfərin yekunları ölkələrimiz və xalqlarımız arasında qardaşlıq, dostluq münasibətlərinin möhkəmləndirilməsi işinə xidmət edəcək.

Bu gün Sizinlə məhdud dairədə ikitərəfli qarşılıqlı fəaliyyət üzrə bir çox məsələləri müzakirə etdik. Həm ikitərəfli münasibətlərin inkişafı məsələlərində, həm də bizim beynəlxalq təşkilatlarda iştirakımızla bağlı məsələlərdə, beynəlxalq strukturlar çərçivəsində qarşılıqlı dəstək üzrə mövqelərimiz tam üst-üstə düşür. Bu gün Dövlətlərarası Şuranın ikinci iclasını keçirəcəyik, müvafiq nazirliklərin nümayəndələrinin görülən işlər haqqında hesabatını dinləyəcəyik. Prinsip etibarilə ölkələrimiz arasında qarşılıqlı fəaliyyətin möhkəmləndirilməsi üzrə iş heç vaxt dayandırılmayıb. Müvafiq nazirliklər, idarələr daimi təmasdadırlar, fəal qarşılıqlı fəaliyyət göstərirlər və müntəzəm məsləhətləşmələr keçirirlər. Ona görə də əminəm ki, bugünkü səfər həm də nazirlər üçün qarşılıqlı fəaliyyətimizin aktual məsələlərinin müzakirəsinə imkan yaradacaq.

Bu gün Sizinlə artıq investisiya sahəsində əməkdaşlığın perspektiv məsələlərini müzakirə etdik və dediyim kimi, Azərbaycan-Qırğızıstan İnkişaf Fondunun vəsaitlərini artırırıq, çünki bu imkandan istifadə etmək istəyən biznesmenlərdən çoxlu müraciətlər daxil olur. Beləliklə, zənnimcə, bu, investisiya sahəsində qarşılıqlı fəaliyyətin mühüm aləti olacaq.

Həmçinin energetika sahəsində əməkdaşlıq məsələləri müzakirə olundu. Qırğızıstanın bu sahədə böyük potensialı var və Azərbaycan şirkətləri bərpaolunan enerji sahəsində işləməkdə maraqlıdır. Bu gün bu mövzunu da müzakirə edəcəyik.

Əlbəttə, biz gələcəkdə ölkələrimiz arasında əmtəə dövriyyəsinin artırılmasına ümid edirik. Bunun üçün perspektivlər mövcuddur. Bu gün imzalanacaq sənədlər bu istiqamətdə yaxşı baza yaradacaq.

Əlaqələrimizi daha böyük məzmunla tamamlamaq üçün, əlbəttə, gələcəkdə nəqliyyat sahəsində də fəal əməkdaşlıq edəcəyik. Çünki həm Qırğızıstanda, həm də Azərbaycanda nəqliyyat sahəsində iri infrastruktur layihələri həyata keçirilir, fəaliyyətimizin birləşdirilməsi və əlaqələndirilməsi yeni dəhlizlər açmaq, yeni nəqliyyat arteriyaları yaratmaq üçün müstəsna dərəcədə əhəmiyyətlidir.

Çox şadam ki, bu gün Sizinlə qırğız xalqının böyük oğlu Çingiz Aytmatovun abidəsinin açılışında iştirak edəcəyik. Bu, ölkələrimiz arasında sıx qardaşlıq münasibətlərinin daha bir təzahürüdür.

Bir daha xoş gəlmisiniz.

*

**Qırğızıstan Prezidenti Sadır Japarov dedi:**

- Hörmətli İlham Heydər oğlu, sağ olun.

Hörmətli iclas iştirakçıları.

Hörmətli İlham Heydər oğlu, əvvəlcə icazə verin, qardaş Azərbaycana dövlət səfəri etməklə bağlı dəvətinizə, həmçinin mənə və Qırğız Respublikasının nümayəndə heyətinin üzvlərinə göstərilən səmimi qəbula görə Sizə təşəkkürümü bildirim.

Qırğızıstan-Azərbaycan dostluğu haqqında Sizin sözlərinizə məmnuniyyətlə qoşulmaq istəyirəm, Sizinlə tam razıyam. Qonaqpərvər Azərbaycan torpağında Sizinlə bir daha görüşməyimə, Qırğızıstan-Azərbaycan əməkdaşlığının gələcək inkişafı haqqında fikirlərimi bölüşməyimə ürəkdən şadam. Əminəm ki, bu səfər iki ölkə arasında münasibətlərin dərinləşməsinə böyük töhfə olacaq, bu gün imzalanan sənədlər isə əməkdaşlığımızın genişlənməsinə kömək edəcək.

Hörmətli İlham Heydər oğlu, bütün sahələrdə praktiki əməkdaşlıq üçün geniş imkanlarımızın olduğu barədə Sizin fikrinizlə razıyam. Qardaş ölkələrimiz arasında münasibətlər möhkəm bünövrə - xalqlarımızın dərin tarixi və mənəvi əlaqələri üzərində qurulub. Biz Qırğızıstan ilə Azərbaycan arasında strateji tərəfdaşlığın müntəzəm surətdə davam etməsi baxımından bu səfərə böyük əhəmiyyət veririk. Qırğızıstan gələcəkdə də dövlətlərarası münasibətlərin yüksək səviyyədə və hökumətlərarası, regionlararası və gələcək əməkdaşlıq mexanizmləri üzrə sonrakı inkişafına hazırdır. Məhdud formatda görüşdə biz artıq əməkdaşlığımızın bir çox mühüm məsələlərini müzakirə etdik, onun əsas istiqamətlərini, prioritetlərini qeyd etdik və Dövlətlərarası Şuranın iclası çərçivəsində müzakirələri davam etdirəcəyik. Çox sağ olun.

**Prezident İlham Əliyev:** Sağ olun.

# Prezidentlər mətbuata bəyanatlarla çıxış ediblər

**Aprelin 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Qırğız Respublikasının Prezidenti Sadır Japarov mətbuata bəyanatlarla çıxış ediblər. Əvvəlcə dövlətimizin başçısı mətbuata bəyanatla çıxış etdi.**

## Prezident İlham Əliyevin bəyanatı

- Hörmətli Sadır Nurqojoyeviç.

Hörmətli qonaqlar.

Əziz dostlar.

Bu gün Azərbaycanda dövlət səfərində olan əziz dostumuz və qardaşımız Sadır Nurqojoyeviç Japarovu salamlamağa şadıq. Səfər ölkələrimiz arasında dostluq, qardaşlıq münasibətlərinin möhkəmləndirilməsinə töhfə verəcək.

İndicə münasibətlərimizin gələcək inkişafını əhəmiyyətli dərəcədə müəyyən edəcək sənədləri imzaladıq. Onların hər biri böyük əhəmiyyətə malikdir. Sadır Nurqojoyeviç ilə imzaladığımız Birgə Bəyannaməni xüsusi qeyd etmək istərdim.

Qarşılıqlı fəaliyyətimizin gündəliyi kifayət qədər genişdir. Bu gün biz həm məhdud tərkibdə, həm də geniş heyətdə qarşılıqlı fəaliyyətimizin əsas məsələlərini müzakirə etdik, Dövlətlərarası Şuranın ikinci iclasını uğurla keçirdik, müvafiq idarələrin rəhbərlərinin məlumatlarını dinlədik və müvafiq tapşırıqlar verdik. Əminəm ki, bu səfər və onun nəticələri qarşılıqlı fəaliyyətimizin möhkəmləndirilməsi, ticarət dövriyyəsinin artması və bütün istiqamətlər üzrə əməkdaşlığa dair praktiki müstəvidə özünü aydın şəkildə göstərəcək.

Bizim hər il qarşılıqlı səfərlərin həyata keçirilməsi üzrə yaxşı ənənəmiz formalaşıb. Mən ötən il, ondan əvvəlki il Qırğızıstanda olmuşam, həmçinin keçən il və ondan əvvəlki il Sadır Nurqojoyeviç bizi ziyarət edib. Bizim hələ yayda Şuşada Türk Dövlətləri Təşkilatının qeyri-rəsmi Zirvə görüşünün keçirilməsi zamanı Azərbaycanda görüşmək imkanımız olacaq. Həmçinin Sadır Nurqojoyeviçi noyabr ayında COP29 beynəlxalq konfransında iştiraka dəvət etdim. Hər bir görüş qarşılıqlı fəaliyyətin, ünsiyyətimizin gücləndirilməsi, eləcə də ikitərəfli və çoxtərəfli əməkdaşlığın mühüm məsələlərinin həlli baxımından əhəmiyyətli və dəyərlidir.

Azərbaycan Mərkəzi Asiya Ölkələrinin Əməkdaşlıq Şurasının zirvə görüşündə fəxri qonaq qismində iştirak edib. Məni qardaş həmkarlarım dəvət etmişdilər. Elə bu yaxınlarda Azərbaycanın xarici işlər naziri Mərkəzi Asiya və Fars körfəzi ölkələrinin xarici siyasət idarələrinin başçılarının nazirlər səviyyəsində görüşünə dəvət olunmuşdu. Bütün bunlar təbiidir, çünki Azərbaycanı Mərkəzi Asiya ilə çoxəsrlik əməkdaşlıq, dostluq, qarşılıqlı fəaliyyət bağları birləşdirir. Bu gün Mərkəzi Asiya və Xəzər regionları, Xəzər və Cənubi Qafqaz regionlarının bir hissəsi olan Azərbaycan enerji resursları, nəqliyyat yolları, ticarət baxımından böyük əhəmiyyət kəsb edir. Burada böyük potensial görürük. Ən başlıcası, qardaş ölkələrdən olan ənənəvi tərəfdaşlarımızla qarşılıqlı fəaliyyəti möhkəmləndiririk. Onların arasında Qırğızıstanla əməkdaşlıq xüsusi əhəmiyyətə malikdir.

Çox şadam ki, biz iqtisadi-ticari sahədə fəal əməkdaşlıq edirik. Ticarət dövriyyəsinin dəfələrlə artmasına dair bu gün rəqəmlər səsləndirildi. Baxmayaraq ki, mütləq rəqəmlər hələ çox böyük deyil. Amma potensialın artması tendensiyası mövcuddur. Bu gün, həmçinin Azərbaycan-Qırğız İnkişaf Fondunun Nizamnamə fondu haqqında Sazişə əlavə imzalandı. Biz Nizamnamə fondunu 4 dəfə - 25 milyon dollardan 100 milyon dollara qədər artırdıq. Başlıca səbəb odur ki, çoxlu müraciət var. Bizə məruzə edildi ki, Qırğızıstanda investisiya layihələrinin həyata keçirilməsi üçün fonda 40-dan çox müraciət daxil olub. Ona görə də düşünürəm ki, 100 milyon dollar da son hədd deyil. Biz müvafiq hökumət strukturlarına birgə investisiya fondu çərçivəsində layihələrin həyata keçirilməsi mexanizmini daha tez reallaşdırmaq üçün birlikdə tapşırıq verdik.

Amma bu, ticarət dövriyyəsinin artırılması üçün yeganə mexanizm deyil. Bizim investisiya siyasəti üzrə başqa formalarımız da var. Bu gün məruzə olunduğu kimi, artıq İssık-Kul gölünün sahilində Azərbaycanın maliyyələşdirdiyi beşulduzlu otelin tikintisinə başlanılıb, bizə söz verildiyi kimi, o, növbəti ilin sonunda hazır olacaq.

**(ardı 3-cü səhifədə)**

# Prezidentlər mətbuata bəyanatlarla çıxış ediblər

(əvvəli 2-ci səhifədə)



Mən işğaldan azad edilmiş ərazilərin bərpası və yenidən qurulması işində dəstəyə görə Sadır Nurqojoyeviçə xüsusi təşəkkürümü bildirmək istərdim. Qırğızıstan Prezidentinin təşəbbüsü ilə Qırğızıstan Ağdam rayonunda orta məktəbin tikintisini öz vəsaiti hesabına həyata keçirəcək. Sabah biz birlikdə Füzuli və Ağdam rayonlarında olacağıq, məktəbin təməlinin qoyulmasında iştirak edəcəyik. Bu qardaş dəstəyinə görə çox minnətdarıq. Bu, bizim üçün böyük əhəmiyyətə malikdir.

Bu gün biz, həmçinin energetika, nəqliyyat sahələrini geniş müzakirə etdik. Burada da potensial görürük. Biz Qırğızıstanda bərpaolunan enerji üzrə investisiya layihələrində maraqlıyıq. Nəqliyyat sahəsinə gəldikdə, həm Qırğızıstanda, həm də Azərbaycanda irimiqyaslı nəqliyyat layihələri, dəmir yolunun tikintisi həyata keçirilir. Əlbəttə, artıq indi nəqliyyat marşrutlarının rəqəmsallaşdırılmasının və tarif siyasətinin razılaşdırılması baxımından məsləhətləşmələr aparmağa başlamaq lazımdır. Biz Xəzər, Mərkəzi Asiya vasitəsilə Avropaya marşrutu təkcə məsafə nöqteyi-nəzərindən deyil, həm də kommersiya cəlbediciliyi baxımından əlverişli etməliyik.

İkitərəfli əməkdaşlıq formatından çox danışmaq olar. Əlbəttə, bu günlərdə Azərbaycanda Qırğızıstan Mədəniyyəti Günlərinin keçirilməsini xatırlamamaq olmaz. Bu gün həmkarımla qırğız xalqının böyük oğlu Çingiz Aytmatovun Bakıdakı abidəsinin açılışında iştirak edəcəyik. Bu, onun xatirəsinə ehtiram əlaməti, həmçinin Qırğızıstan-Azərbaycan qardaşlığının daha bir rəmzidir.

Biz bütün istiqamətlər üzrə fəal qarşılıqlı fəaliyyəti davam etdirmək niyyətindəyik. Deməliyəm ki, bu gün imzalanan sənədlər hələ imza atılan sənədlərin hamısı deyil. Sənədlərin bir hissəsi müvafiq dövlət strukturlarında imzalanır. Beləliklə, biz, həmçinin münasibətlərimizin möhkəm qanunvericilik bazasını yaradırıq.

Hörmətli Sadır Nurqojoyeviç, bir daha xoş gəlmisiniz. Sizə, Qırğızıstandan gələn bütün dostlarımıza Azərbaycanda xoş vaxt keçirməyi arzulayıram.

Sağ olun.

*

Sonra Qırğızıstan Prezidenti mətbuata bəyanatla çıxış etdi.

### Prezident Sadır Japarovun bəyanatı

- Hörmətli kütləvi informasiya vasitələrinin nümayəndələri.

Xanımlar və cənablar.

Əvvəlcə Azərbaycan Respublikasının Prezidenti hörmətli İlham Heydər oğlu Əliyevə Azərbaycan Respublikasına dövlət səfərinə dəvətə görə səmimi-qəlbdən təşəkkürümü bildirirəm. Azərbaycanlı qardaşlarımıza ənənəvi səmimi qonaqpərvərliyə və səmimi qəbula görə nümayəndə heyətimizin adından minnətdarlığımı bildirirəm. Biz bərəkətli Azərbaycan torpağında növbəti dəfə olmağa şadıq və gözəl Bakı şəhərinə heyranlığımızı ifadə edirik. Azərbaycan Respublikasının Prezidenti hörmətli İlham Heydər oğlu Əliyevin rəhbərliyi ilə parlaq gələcəyini inamla quran və Azərbaycan dövlətini möhkəmləndirən qardaş Azərbaycan xalqının uğurlarına sevinirik.

Bu gün Azərbaycan Respublikasının hörmətli Prezidenti ilə Dövlətlərarası Şuranın ikinci iclası çərçivəsində ikitərəfli əməkdaşlığın demək olar ki, bütün aktual məsələləri üzrə ətraflı danışıqlar apardıq, iki ölkənin müxtəlif nazirliklərinin rəhbərlərinin hesabatlarını dinlədik. İclasın yekunu olaraq iki ölkənin qarşılıqlı fəaliyyətinin daha da genişləndirilməsinə yönəlmiş qərarlar qəbul olundu. Vurğulamaq istəyirəm ki, danışıqlar ənənəvi dostluq, şəffaflıq və etimad şəraitində keçdi. Bu da ölkələrimiz arasında qardaşlıq əlaqələrini xarakterizə edir. Görüşümüzün yekunlarına dair Qırğız Respublikası ilə Azərbaycan Respublikası arasında strateji tərəfdaşlığın möhkəmləndirilmiş münasibətlərinin qurulması üzrə Birgə Bəyannamə imzalandı. Bu sənədin imzalanması praktikada formalaşmış ikitərəfli strateji münasibətlərin daha dərin xarakterini rəsmi şəkildə təsbit edir.

Biz Azərbaycan-Qırğız İnkişaf Fondunun fəaliyyət perspektivlərini müzakirə etdik, Azərbaycan tərəfindən İssık-Kul gölünün sahilində beşulduzlu otelin tikilməsi məsələsinə toxunduq, Ağdam rayonunda Qırğızıstan tərəfindən orta məktəb binasının tikilməsini nəzərdən keçirdik. Məktəbin tikintisi Qırğızıstanın münaqişədən zərər çəkmiş regionlarda sülhün bərpasına töhfəsidir. Sabah məktəbin tikintisinə başlamazdan əvvəl onun təməlinin qoyulmasını planlaşdırırıq.

Bundan başqa, iqtisadi və humanitar əməkdaşlıq üzrə Qırğızıstan-Azərbaycan birgə hökumətlərarası komissiyasının növbəti iclasının keçirilməsi ilə bağlı razılıq əldə olundu. Komissiyanın fəaliyyəti ölkələrimiz arasında ticarət dövriyyəsinin artırılması üzrə mövcud məsələlərin müzakirəsi və inkişafı üçün səmərəli platformadır. Danışıqlar əsnasında Mərkəzi Asiya və Cənubi Qafqazdan keçən beynəlxalq nəqliyyat dəhlizlərinin inkişafı məsələsində iki ölkənin qarşılıqlı fəaliyyətinin perspektivləri müzakirə olundu.

Bu gün müxtəlif sahələrdə daha sıx fəaliyyətə yönəlmiş ikitərəfli sənədlər imzaladıq. İmzalanan sənədlər arasında Qırğız Respublikası ilə Azərbaycan Respublikası arasında ortamüddətli perspektivdə ikitərəfli qarşılıqlı fəaliyyətin əsas Yol xəritəsi qismində istifadə olunacaq əməkdaşlığın inkişafına dair beşillik kompleks proqramı ayrıca qeyd etmək istərdim. Həmçinin Qırğız Respublikası ilə Azərbaycan Respublikası arasında gəlirlərə görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında Sazişi qeyd etmək istərdim ki, bu, iki ölkənin təsərrüfat subyektlərinin qarşılıqlı iqtisadi fəaliyyətinin həyata keçirilməsində böyük əhəmiyyətə malikdir.

Biz bu həftə Bakı şəhərində Qırğız Respublikasının Azərbaycan Respublikasında keçirilən Mədəniyyət Günləri ilə möhkəmlənən mədəni-humanitar sahədə qarşılıqlı fəaliyyətlə bağlı məmnunluq ifadə etdik. Dünyaşöhrətli məşhur yazıçı, qırğız xalqının və Türk dünyasının oğlu, Azərbaycan xalqının dostu Çingiz Aytmatovun xatirəsinin yad edilməsinə görə Azərbaycan tərəfinə dərin minnətdarlığımızı bildiririk. Bu gün Bakı şəhərində onun heykəlinin açılışını planlaşdırırıq.

Bu il Azərbaycanda və Qırğızıstanda Türk Dövlətləri Təşkilatı çərçivəsində yüksək səviyyədə keçiriləcək qarşıdakı tədbirləri müzakirə etdik. Mən hörmətli İlham Heydər oğlunu təbrik etdim və fürsətdən istifadə edərək bütün qardaş Azərbaycan xalqını qlobal miqyaslı tədbirin – BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) keçirilməsi hüququnu əldə etdiyinə görə təbrik edirəm. Həqiqətən bu, mühüm hadisədir və biz ürəkdən şadıq ki, qardaş ölkə belə irimiqyaslı tədbirə ev sahibliyi edir.

Sonda bugünkü danışıqların nəticələrindən və əldə olunmuş razılaşmalardan məmnunluğumu vurğulamaq istəyirəm. Onlar dövlətlərimizin bütün sahələrdə sıx əlaqələri inkişaf etdirmək, iki ölkənin xalqlarının maraqları naminə dostluq münasibətlərini hərtərəfli möhkəmləndirmək əzmini açıq şəkildə nümayiş etdirir.

Səmimi qonaqpərvərliyə görə Azərbaycan Respublikasının Prezidenti hörmətli İlham Heydər oğlu Əliyevə bir daha dərin minnətdarlığımı ifadə edirəm. Azərbaycan xalqına sülh və gələcəkdə də tərəqqi arzulamaq istəyirəm.

Təşəkkür edirəm.

# Bakıda Çingiz Aytmatovun abidəsinin açılış mərasimi

**Aprelin 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Qırğız Respublikasının Prezidenti Sadır Japarov Bakıda görkəmli qırğız yazıçısı Çingiz Aytmatovun abidəsinin açılış mərasimində iştirak ediblər.**





**Mərasimdə çıxış edən Prezident İlham Əliyev dedi:**

- Möhtərəm Sadır Nurqojoyeviç.

Hörmətli qonaqlar, əziz dostlar.

Bu gün Qırğızıstan ilə Azərbaycan arasında qardaşlıq münasibətləri tarixində əlamətdar gündür. Bu gün qırğız xalqının böyük oğlu Çingiz Aytmatovun abidəsi açılır. Əminəm ki, bu, dostluğumuzun, qardaşlığımızın və birliyimizin daha bir rəmzi olacaq.

Çingiz Aytmatov dünyaşöhrətli yazıçı, həyatı boyu həm Sovet İttifaqı məkanında, həm də dünya miqyasında öz xalqını layiqincə təmsil etmiş qırğız xalqının böyük oğludur.

Azərbaycanda onun yaradıcılığını sevir və fəal vətəndaş mövqeyinə, milli ruhuna və köklərinə sadiqliyinə görə ləyaqətli insan kimi hörmət bəsləyirdilər. Xatirimdədir, o, vəfatından bir az əvvəl Azərbaycana səfər etmişdi və mən onunla görüşmək, bir çox məsələlərdə uzun söhbət aparmaq imkanı əldə etdim. Həmin gün mən onu ehtiram əlaməti olaraq və münasibətlərimizin möhkəmlənməsi işində xidmətlərinə görə Azərbaycan dövlətinin yüksək mükafatı olan "Dostluq" ordeni ilə təltif etdim. O, hər zaman haqq-ədalətin tərəfində olub. Təsadüfi deyil ki, o, təkcə yazıçı kimi deyil, həm də ictimai xadim kimi keçmiş SSRİ məkanında və dünya miqyasında böyük hörmət qazanmış şəxsiyyət idi və onun xatirəsi, əlbəttə ki, qırğız xalqının, bütün qardaş xalqların qəlbində yaşayır.

Mən Qırğızıstanda dövlət səfərində olarkən onun məzarını ziyarət etdim və Azərbaycan xalqının onun xatirəsinə olan dərin ehtiramını bildirdim.

Əlamətdar haldır ki, abidə Qırğızıstan Prezidentinin dövlət səfəri çərçivəsində açılır. Bu gün biz bir çox məsələlər, o cümlədən humanitar əməkdaşlıq məsələləri ilə bağlı çox səmərəli və mühüm danışıqlar apardıq. Bildiyiniz kimi, bu günlərdə Bakıda Qırğızıstan Mədəniyyəti Günləri keçirilir və rəmzi haldır ki, məhz belə təntənəli tədbirlər və dövlət səfəri çərçivəsində Bakı şəhərinin mərkəzi küçələrindən biri olan Azadlıq prospektində biz bu gün bu tədbirdə iştirak edirik.

Mən Azərbaycan və Qırğızıstan xalqlarını bu əlamətdar hadisə münasibətilə təbrik etmək istərdim. Çingiz Aytmatovun Bakıdakı abidəsi bizim birliyimizin, dostluğumuzun və qardaşlığımızın rəmzinə çevriləcək. Həm də demək istərdim, əminəm ki, bütün Türk dünyası öz layiqli nümayəndəsi ilə fəxr edir və əlbəttə, hamımızın təəssüfləndiyimiz yeganə məqam onun dünyasını çox tez dəyişməsidir. Bu, çox gözlənilməz oldu, artıq qeyd etdiyim kimi, mən onunla Bakıda onun vəfatından bir qədər əvvəl, demək olar ki, bir neçə ay əvvəl görüşmüşəm və o, həmişə olduğu kimi, enerji ilə dolu idi və yaxşı göründürü, öz planlarından danışırdı. 2008-ci il idi, amma mən bu görüşü dünən kimi xatırlayıram.

Hamımızı bir daha təbrik edirəm, bir daha bu xoş sözləri deyirəm, xoş gəlmisiniz, hörmətli cənab Prezident. Əminəm ki, Qırğızıstan ilə Azərbaycanın, xalqlarımızın dostluğu və qardaşlığı əbədi olacaq. Sağ olun.

*

**Qırğızıstan Prezidenti Sadır Japarov dedi:**

- Hörmətli İlham Heydər oğlu.

Hörmətli dostlar. Bu gün biz gözəl Bakı şəhərində böyük bir hadisəni – öz istedadı və insan ruhunun dərindən dərk etmək məharəti ilə dünyamıza işıq salan görkəmli qırğız yazıçısının və bütün türk xalqının oğlunun abidəsinin açılışını qeyd etmək üçün toplaşmışıq.

Qırğızıstan adından Azərbaycan Prezidenti möhtərəm İlham Heydər oğlu Əliyevə ölkəmizə və Çingiz Aytmatova olan ehtiramına görə təşəkkürümü bildirirəm. Bu abidə Çingiz Aytmatovun yaradıcılıq irsinə böyük hörmət və ehtiramın ifadəsidir.

Möhtərəm İlham Heydər oğlu, əziz dostlar, sevindirici haldır ki, Azərbaycan tərəfi ölkələrimiz arasındakı mədəni əlaqələrə böyük diqqət yetirir. Bu, xalqların yaxınlaşması baxımından son dərəcə vacibdir. Çingiz Aytmatovun xatirəsinin əbədiləşdirilməsi münasibətlərimizdə əlamətdar hadisədir. Biz bilirik ki, Çingiz Aytmatov və onun Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevlə dostluğunu xüsusilə vurğulamaq istərdim. Onların münasibətləri unikal və dayanıqlı idi. Hər iki şəxsiyyət tarixdə silinməz izlər qoyub. Heydər Əliyev onu yazıçı və ziyalı şəxs kimi yüksək qiymətləndirirdi. O deyirdi ki, dünya ədəbiyyatı xəzinəsinə gözəl əsərlər bəxş edən Çingiz Aytmatov həm Qırğızıstanın, həm də bütün Türk dünyasının qürurudur.

Möhtərəm İlham Heydər oğlu, Çingiz Aytmatovun yubileyinin qardaş Azərbaycanda yüksək səviyyədə keçirilməsinə Sizin şəxsi töhfənizi də yüksək qiymətləndiririk. Fərmanınıza əsasən, Çingiz Aytmatov ilk dəfə 2008-ci il fevralın 25-də yüksək "Dostluq" ordeni ilə təltif edilib. Çingiz Torekuloviç, sadəcə, yazıçı deyildi, əsərləri ruhun dərinliklərinə nüfuz edən, bizi həyatın, sevginin, insan taleyinin mənası barədə düşünməyə vadar edən əsl söz dahisi idi. Onun "Cəmilə", "Ağ gəmi" kimi əsərləri təkcə öz gözəlliyi və müdrikliyi ilə diqqəti cəlb etmir, həm də bizi onun böyük yaradıcılıq istedadına heyran qoyur. Bu abidənin Bakıda ucaldılması Qırğızıstanın və Azərbaycanın qardaş xalqları arasında dərin bağlılığın rəmzidir. Bu, Çingiz Aytmatovun yaradıcılığının hamımızı gözəllik, müdriklik və ahəngdarlıq uğrundakı vahid məqsəd ətrafında birləşdirdiyinin bariz sübutudur. Gənc nəslin ölkələrimizin qarşılıqlı münasibətlərinin tarixini, tarixi şəxsiyyətlərini, Qırğızıstan Respublikası ilə Azərbaycan Respublikası arasında mövcud əməkdaşlıq səviyyəsini əzəldən müəyyən etmiş liderlərin rolunu bilməsi və dərk etməsi çox vacibdir.

İkitərəfli münasibətlər nöqteyi-nəzərindən qeyd etmək istərdim ki, Azərbaycan Prezidentinin Qırğızıstana ilk səfəri 1995-ci ildə Heydər Əliyev tərəfindən, "Manas" dastanının 1000 illik yubileyinin qeyd edilməsi məqsədilə həyata keçirilib. Həmin vaxt o, bu kəlamları demişdi: "Biz bir-birimizi üreyimizlə hiss edirik və başa düşürük". Bu qısa, lakin çox təsirli və səmimi ifadə ilə o, Qırğızıstan və Azərbaycanın həqiqətən qardaş xalqlar olduğunu nəzərdə tuturdu. Bu gün açılışına toplaşdığımız abidə hər kəsin böyük yazıçı ilə təmasda ola biləcəyi, xatirəsini ehtiramla yad edəcəyi və yaradıcılığından ruhlana biləcəyi bir yerə çevriləcək. Qoy, bu abidə hər kəsə insan ruhunun əzəmətini və sözün gücünü xatırlatsın.

İcazə verin, bu abidənin yaradılmasına öz enerjisini, istedadını və vaxtını sərf etmiş hər kəsə dərin minnətdarlığımı bildirim. Qoy, bu abidə Çingiz Aytmatovun öz yaradıcılığında çox gözəl əks etdirdiyi dəyərlər ətrafındakı birliyimizin və əbədi bağlılığımızın rəmzi olsun.

Bir daha Azərbaycan tərəfinə səmimi-qəlbdən təşəkkürümü bildirmək və qardaş Azərbaycan xalqına sülh, xoşbəxtlik və firavanlıq arzulamaq istəyirəm. Diqqətinizə görə təşəkkür edirəm.

*

Dövlət başçıları Çingiz Aytmatovun abidəsi üzərindən ağ örtüyü götürdülər.

Qeyd edək ki, dünyaşöhrətli yazıçı, qırğız ədəbiyyatının görkəmli nasiri, diplomat və ictimai xadim Çingiz Aytmatovun xatirəsinin əbədiləşdirilməsi məqsədilə Bakıda ucaldılan abidənin eskiz layihələrinin hazırlanması üçün Mədəniyyət Nazirliyi tərəfindən 2023-cü il iyunun 15-dən iyulun 31-dək heykəltəraşlar arasında açıq müsabiqə elan edilib. Müsabiqəyə ölkəmizin heykəltəraşları tərəfindən 21 əsər təqdim olunub.

Ötən il avqustun 8-də təsdiq olunmuş işlərin dəyərləndirilməsi və müsabiqənin yekun nəticələrinin müəyyən olunması məqsədilə Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəzdində fəaliyyət göstərən Ekspert Komissiyası tərəfindən qaliblər seçilib. Birinci yerə Xalq rəssamı Natiq Əliyevin hazırladığı eskiz layihəsi layiq görülüb.

Çingiz Aytmatovun bürüncdən hazırlanmış, hündürlüyü 3 metrə yaxın olan heykəlinin çəkisi təqribən 6 tondur. Abidənin önündə Azərbaycan və ingilis dillərində hazırlanan müvafiq məlumat lövhəsi quraşdırılıb.

*

Sonra dövlət başçıları Azərbaycan və Qırğızıstanın tanınmış mədəniyyət və incəsənət xadimləri ilə görüşüb söhbət etdilər.

Sonda xatirə şəkli çəkdirildi.

# Ali qonağın şərəfinə dövlət ziyafəti



Aprelin 24-də Bakıda, "Gülüstan" sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından Qırğız Respublikasının Prezidenti Sadır Japarovun şərəfinə dövlət ziyafəti verilib.

Ziyafətdə Azərbaycanın və Qırğızıstanın musiqi əsərlərindən ibarət konsert proqramı təqdim olunub.

# "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 9 iyun tarixli 906-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və sərəncamlarında dəyişiklik edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 9 iyun tarixli 906-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 29 iyul tarixli 169 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 7, maddə 431 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında dövlət gənclər siyasətinin həyata keçirilməsi ilə bağlı Tədbirlər Planı"nın IV bölməsinin 1-ci hissəsinin "Tədbirin adı" sütununda "istehsalat təcrübəsi" sözləri "ixtisas üzrə təcrübə" sözləri ilə əvəz edilsin.

2. "Ali təhsil müəssisələrində və magistratura səviyyəsi üzrə Azərbaycan Milli Elmlər Akademiyasında yeni maliyyələşmə mexanizminin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 10 fevral tarixli 220 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 2, maddə 84 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

2.1. adından "və magistratura səviyyəsi üzrə Azərbaycan Milli Elmlər Akademiyasında" sözləri çıxarılsın;

2.2. 1-ci hissədən "və 2015/2016-cı tədris ilindən başlayaraq magistratura səviyyəsi üzrə Azərbaycan Milli Elmlər Akademiyasında" sözləri çıxarılsın;

2.3. 3-cü hissədən "və magistratura səviyyəsi üzrə Azərbaycan Milli Elmlər Akademiyası" sözləri çıxarılsın;

2.4. 4-cü hissə üzrə:

2.4.1. 4.1-ci bənddən "və magistratura səviyyəsi üzrə Azərbaycan Milli Elmlər Akademiyasında" sözləri çıxarılsın;

2.4.2. 4.2-ci bənddən ", Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsinə" sözləri çıxarılsın;

2.4.3. 4.4-cü bənddən "və magistratura səviyyəsi üzrə Azərbaycan Milli Elmlər Akademiyasına" və ", magistratura səviyyəsi üzrə Azərbaycan Milli Elmlər Akademiyasının" sözləri çıxarılsın.

3. Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 26 dekabr tarixli 432 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 12, maddə 1585 (Cild I) ilə təsdiq edilmiş "Bakı Xoreoqrafiya Akademiyasının Nizamnaməsi"nin 4-cü hissəsində aşağıdakı dəyişikliklər edilsin:

3.1. 4.19.1-ci yarımbənddə "istehsalat təcrübəsi" sözləri "ixtisas üzrə təcrübə" sözləri ilə əvəz edilsin;

3.2. 4.19.2-ci yarımbənddə "istehsalat" sözü "ixtisas üzrə" sözləri ilə əvəz edilsin;

3.3. 4.20-ci bənddə "istehsalat təcrübəsi müdiri" sözləri "ixtisas üzrə təcrübə rəhbəri" sözləri ilə əvəz edilsin;

3.4. 4.23.5-ci yarımbənddə "istehsalat" sözü "səhnə və ixtisas üzrə" sözləri ilə əvəz edilsin.

4. "Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi publik hüquqi şəxsin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 11 aprel tarixli 860 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 4, maddə 665 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

4.1. 1-ci hissədən ", Azərbaycan Milli Elmlər Akademiyasında magistratura səviyyəsinə" sözləri çıxarılsın;

4.2. həmin Fərmanla təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi publik hüquqi şəxsin Nizamnaməsi"nin 2.1.2-ci yarımbəndindən ", Azərbaycan Milli Elmlər Akademiyasında magistratura səviyyəsinə" sözləri çıxarılsın.

5. "Azərbaycan Respublikasının dövlət ali təhsil müəssisələrində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində ödənişli əsaslarla təhsil alan məcburi köçkünlərin təhsil xərclərinin ödənilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 14 sentyabr tarixli 1722 nömrəli Sərəncamında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 9, maddə 821 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

5.1. adından "və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində" sözləri çıxarılsın;

5.2. 1-ci hissədən "və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsinə" sözləri çıxarılsın.

6. "Doktorantlara, ali təhsil, orta ixtisas və peşə təhsili müəssisələrində, həmçinin Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində təhsil alan tələbələrə təqaüdlərin verilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 14 fevral tarixli 961 nömrəli Sərəncamında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 2, maddə 291 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

6.1. adından, preambuladan, 1-ci, 2-ci və 4-cü hissələrdən ", həmçinin Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində" sözləri çıxarılsın;

6.2. 1.2-ci bəndin birinci abzasından "və Azərbaycan Milli Elmlər Akademiyasında" sözləri çıxarılsın.

7. "Orqanizmin funksiyalarının 61-100 faiz pozulmasına görə, habelə 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslərin təhsil haqqı xərclərinin ödənilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 3 may tarixli 1155 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 5, maddə 876 (Cild I) 1-ci hissəsindən ", Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində" sözləri çıxarılsın.

8. "Doktorantlara, ali təhsil, orta ixtisas və peşə təhsili müəssisələrində, həmçinin Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində təhsil alan tələbələrə verilən təqaüdlərin məbləğinin artırılması və "Doktorantlara, ali təhsil, orta ixtisas və peşə təhsili müəssisələrində, həmçinin Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində təhsil alan tələbələrə təqaüdlərin verilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 14 fevral tarixli 961 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 13 yanvar tarixli 3718 nömrəli Sərəncamında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 1, maddə 111 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

8.1. adından (birinci halda) və 1-ci hissədən ", həmçinin Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində" sözləri çıxarılsın;

8.2. 1.2-ci bəndin birinci abzasından "və Azərbaycan Milli Elmlər Akademiyasında" sözləri çıxarılsın.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 24 aprel 2024-cü il**

# A.İ.İsmayılovun 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasında informasiya təhlükəsizliyinin təmin edilməsi sahəsində uzunmüddətli səmərəli fəaliyyətinə görə Allahverən İbiş oğlu İsmayılov 3 cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 24 aprel 2024-cü il**

# Ulu öndər Heydər Əliyevin məzarını ziyarət



**Qırğız Respublikasının Prezidenti Sadır Japarov aprelin 24-də Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil qoyub.**

Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə tər güllər düzülüb.

Görkəmli dövlət xadimi Əziz Əliyevin və tanınmış həkim-alim Tamerlan Əliyevin məzarları üzərinə də gül dəstələri qoyulub.

# Şəhidlərin xatirəsinə ehtiram



**Azərbaycanda səfərdə olan Qırğız Respublikasının Prezidenti Sadır Japarov aprelin 24-də Şəhidlər xiyabanını ziyarət edib.**

Prezident Sadır Japarov Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini ehtiramla yad edib, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyub.

Sonra Bakının ən hündür nöqtəsindən paytaxtımızın mənzərəsini seyr edən ali qonağa Şəhidlər xiyabanının tarixi və şəhərdə görülən abadlıq-quruculuq işləri barədə məlumat verilib.



# Heydər Əliyev Beynəlxalq Aeroportunda qarşılanma



**Qırğız Respublikasının Prezidenti Sadır Japarov aprelin 24-də Azərbaycan Respublikasına dövlət səfərinə gəlib.**

Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Qırğız Respublikasının Prezidenti Sadır Japarovu Azərbaycan Respublikası Baş nazirinin müavini Şahin Mustafayev, xarici işlər nazirinin müavini Fariz Rzayev və digər rəsmi şəxslər qarşıladılar.

**AZƏRTAC**

# ADA Universitetində “COP29 və Azərbaycan üçün Yaşıl Baxış” mövzusunda beynəlxalq forum

## *Prezident İlham Əliyev forumda iştirak edib*

**Aprelin 23-də ADA Universitetində “COP29 və Azərbaycan üçün Yaşıl Baxış” mövzusunda beynəlxalq forum keçirilib.**



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev forumda iştirak edib və tədbir iştirakçılarının suallarını cavablandırıb.

Forumu açan ADA Universitetinin rektoru **Hafiz Paşayev** dedi**:** Zati-aliləri cənab Prezident İlham Əliyev.

Hörmətli ADA Universitetinin 6-cı Siyasət Forumunun iştirakçıları.

Sizi ildə iki dəfə təşkil edilən siyasət forumumuzda salamlamaqdan böyük şərəf duyuram. Bu dəfə bizim tədbirdə 30 ölkədən 64 iştirakçı var. Prezident Əliyevin şəxsi təşəbbüsü və dəstəyi sayəsində sabah biz Ermənistanın işğalından azad olunmuş və artıq məcburi köçkünlərin qayıdışına şahidlik edən gözəl Laçın şəhərinə səfər edəcəyik.

2023-cü ilin dekabrında baş tutmuş sonuncu forumdan sonra Azərbaycan yekdilliklə BMT-nin İqlim Dəyişikliyi Konfransına ev sahibliyi edəcək ölkə seçilmişdir. Bu, Azərbaycanın qlobal miqyasda güclü diplomatiyasının əlaməti və çoxtərəfli danışıqlar zamanı etibarlı tərəfdaş nüfuzunun təsdiqidir. Bundan əvvəl Azərbaycan BMT Təhlükəsizlik Şurası, Qoşulmama Hərəkatı və Türk Dövlətləri Təşkilatı kimi beynəlxalq təsisatlarda uğurla sədrlik etmişdir.

Bakı dünyanın neft sənayesinin yarandığı yerdir. Bu gün isə rəmzi məna ondan ibarətdir ki, qarşıdan gələn noyabr ayında on minlərlə iştirakçı iqlim dəyişikliyi nöqteyi-nəzərindən planetimizin gələcəyini müzakirə etmək üçün COP29-la bağlı Bakıya səfər edəcəkdir.

ADA Universiteti aidiyyəti beynəlxalq təsisatlarla birgə təlimlərin, konfransların və tədqiqatların təşkil edilməsi ilə COP29 Təşkilat Komitəsinin akademik tərəfdaşı olmaqdan şərəf duyur. Bu forum regional təhlükəsizlik, enerji keçidi və yaşıl artımla bağlı Azərbaycanın baxışının təqdim olunması, Qarabağda yaşıl və ekoloji cəhətdən təmiz zonaların yaradılması, Azərbaycanda külək və günəş enerjisi layihələri, Avropa İttifaqına qədər uzanan yaşıl enerji dəhlizlərinin gələcəyi və digər mövzular baxımından yanaşmasını təqdim etməklə qlobal siyasət müzakirələrinə öz töhfəsini verəcək.

Bununla yanaşı, biz diqqətimizi erməni işğalının nəticələrinin ətraf mühitə təsiri, o cümlədən çox ciddi mina problemi və bunun fəsadlarının aradan qaldırılması üçün beynəlxalq hüquq alətlərinə yönəltməliyik.

Zati-aliləri cənab Prezident, fürsətdən istifadə edərək Sizi və ölkəmizi Qazax rayonunun kəndlərinin sülh yolu ilə qaytarılması kimi diplomatik uğur münasibətilə təbrik etmək istərdim. Yorulmaz səyləriniz sayəsində regionumuzda firavanlıq və inkişafın bərqərar olunması işində Sizə uğurlar arzu etmək istəyirik. Gərgin qrafikinizə baxmayaraq, bu gün ADA Universitetində tədbirə vaxt ayırdığınıza görə Sizə təşəkkür edirik. Ümid edirik ki, bugünkü müzakirələr və Qarabağa sabahkı səfər qlobal qarşıdurma dönəmində regional inkişaf hadisələrinə daha da aydınlıq gətirəcək. Heç şübhəsiz ki, bu, bizim iştirakçı ekspertlərə gələcək təhlillərində və dərc ediləcək materiallarında yardımçı olacaqdır. Cənab Prezident, buyurun, söz Sizindir.

**Prezident İlham Əliyev:** Hörmətli qonaqlar, hamınızı görməyə şadam, Azərbaycana xoş gəlmisiniz. Sizə ölkəmizdə xoş vaxt keçirməyi və hər zaman olduğu kimi, məhsuldar müzakirələr arzu edirəm. Bu tədbirə növbəti dəfə dəvətə və sizinlə söhbət aparmaq imkanına görə təşəkkür edirəm.

Mən müntəzəm olaraq ADA Universitetinin forumlarında iştirak edirəm və artıq qeyd edildiyi kimi, biz sonuncu dəfə ötən il dekabrın əvvəlində görüşmüşük. O vaxtdan bəri Azərbaycanda və ətrafda bir çox hadisələr baş verib və deyərdim ki, bütün bu hadisələr müsbət məcrada cərəyan edib. Buraya Ermənistan ilə Azərbaycan arasında münasibətlərin normallaşdırılması prosesi və sərhədlərin delimitasiyası daxildir. COP29-a gəldikdə isə, bu, beynəlxalq ictimaiyyət tərəfindən Azərbaycana olan böyük ehtiramın və dəstəyin göstəricisidir və biz hazırlığın fəal mərhələsindəyik. Bizim bir ildən az vaxtımız var idi və yaxşı nəticələr əldə etmək üçün biz olduqca fəal və səmərəli çalışmalıyıq.

Əlbəttə, bizim üçün COP29 çox böyük məsuliyyətdir. Burada söhbət təkcə təşkilati məsələlərdən deyil, nəticələrin əldə edilməsindən də gedir.

Siz sabah Laçına səfər edəcəksiniz. Mən burada çoxlu tanış simalar görürəm və bilirəm ki, forum iştirakçıları artıq Şuşa, Ağdam və Zəngilanda olublar, bu dəfə isə Laçına səfər edəcəklər. Ancaq yeni iştirakçılar da var və əminəm ki, siz səfərinizdən zövq alacaqsınız. Laçın Azərbaycanın ən füsunkar bölgələrindəndir və yaşıl gələcək haqqında danışırıqsa, görəcəksiniz ki, Laçın tamamilə yaşıldır.

Bu gün irimiqyaslı inkişaf gedir, Laçın şəhərinin və onun yaxınlığındakı bir kəndin yenidən qurulması sizə Qarabağın və Şərqi Zəngəzurun gələcəkdə tam bərpa edilmiş simasının şahidi olmaq imkanı verəcək.

Ötən ilin may ayında mən 30 ildən sonra oraya qayıdan Laçın şəhərinin ilk sakinlərinə evlərinin açarlarını təqdim etdim. Hazırda isə növbəti sakinlər oraya qayıdırlar və doğma yurdlarına geri qayıtmaq arzusunda olan məcburi köçkünlərin faiz nisbəti gözlədiyimizdən də artıqdır. Hətta oranı heç vaxt görməyən gənc nəsil belə orada olmaqdan həzz alır. Bu, Azərbaycan xalqının öz köklərinə həqiqətən də nə qədər bağlı olduğunu nümayiş etdirir.

Laçın 1992-ci ilin mayında - Şuşanın işğalından 10 gün sonra işğal edilmişdir. Bu, Birinci Qarabağ müharibəsinin ən faciəvi hadisələrindən biri idi, çünki bunun nəticəsində Ermənistan ilə Azərbaycanın Qarabağ bölgəsi arasında quru əlaqəsi yarandı və bu, Ermənistandan bizim torpaqlara çox böyük həcmdə silahların daşınmasına, çoxsaylı hərbi personalın daxil olmasına imkan yaratdı.

Laçının azad edilməsi də bizim güclü siyasi iradəmizin göstəricisi idi. Laçının böyük hissəsi siyasi vasitələrlə azad edilib. İkinci Qarabağ müharibəsi zamanı biz Laçın rayonunun cənub hissəsini azad etdik və bunun özü də mühüm hərbi qələbə idi. Lakin rayonun əksər hissəsi, o cümlədən Laçın şəhəri siyasi vasitələrlə azad edilib. Beləliklə, mən işğal edilmiş ərazilərin hərbi-siyasi yolla azad olunduğunu deyəndə Laçın bunun bariz nümunəsidir.

Hazırda isə biz siyasi yolla davam edirik. Əminəm ki, biz bütün məqsədlərimizə siyasi vasitələrlə nail ola bilərik və məhz bunu nümayiş etdiririk.

Giriş nitqimlə vaxtınızı çox almaq istəmirəm. Hesab edirəm ki, müzakirələrə daha çox vaxt ayırmalıyıq. Məni dəvət etdiyinizə və bizimlə birlikdə olduğunuza görə bir daha təşəkkür edirəm.

**Prezidentin köməkçisi Hikmət Hacıyev:** Təşəkkür edirəm, cənab Prezident. İcazənizlə müzakirəmizə və sual-cavab hissəsinə keçək. Birinci sual üçün Almaniyanın Beynəlxalq və Təhlükəsizlik Məsələləri üzrə Alman İnstitutunun dosenti Daria İsaçenkoya söz verilir.

**Daria İsaçenko:** Bu fürsətə görə təşəkkür edirəm. Mənim sualım Avrasiya inteqrasiyası ilə bağlıdır. Son 2-3 il ərzində Azərbaycan Avrasiya İqtisadi İttifaqının zirvə toplantılarında və digər beynəlxalq tədbirlərində iştirak edir. Siz Avrasiya inteqrasiyasında maraqlısınızmı və burada Bakı üçün hansı üstünlükləri görürsünüz? Azərbaycanın bu təşkilata üzvlüyü gözləniləndirmi? Əlavə bir sualım da var. Bu həftə Siz Almaniyaya səfər edəcəksiniz. Bu səfərdən hansı gözləntiləriniz var? Bu fürsətə görə bir daha təşəkkürümü bildirirəm.

**Prezident İlham Əliyev:** Bəli, biz həqiqətən də həm Prezident, həm də Baş nazir səviyyəsində Avrasiya İqtisadi İttifaqının tədbirlərinə dəvət edilmişik. Mən bir dəfə fəxri qonaq qismində belə tədbirdə iştirak etmişəm və əslində, Ermənistan istisna olmaqla, Avrasiya İqtisadi İttifaqının bütün üzvləri ilə Azərbaycanın sıx tərəfdaşlıq münasibətləri var. Yəni, bizim üçün bu ölkələr qrupu qeyri-adi deyil, biz onları çox yaxşı tanıyırıq. O ki qaldı, Avrasiya İqtisadi İttifaqı ilə daha sıx əməkdaşlıq planlarına, Azərbaycan özünü təmin edən iqtisadiyyata malikdir və hətta böhran dövründə dayanıqlı artım nümayiş etdirir. Bizim xarici borcumuz olduqca aşağı səviyyədədir və hazırda ÜDM-in 8 faizindən aşağıdır. Biz bu göstərici üzrə aparıcı dövlətlər sırasındayıq. Dayanıqlı, daxili resurslara söykənən və şaxələndirilmiş iqtisadiyyata, Avrasiya İqtisadi İttifaqına üzv dövlətlərlə yaxşı ikitərəfli iqtisadi əlaqələrə malik olmağımız bizə kifayət edir. Əlavə inteqrasiyanın praktiki üstünlüklərini görsək, əlbəttə ki, bunları dəyərləndirəcəyik. Üstün və mənfi cəhətlərini dəyərləndirib düzgün qərar qəbul edəcəyik.

Bizdə olan məlumata görə, üzv dövlətlər arasında vaxtaşırı iqtisadi fikir ayrılıqları meydana gəlir və dediyim kimi, Ermənistan istisna olmaqla, Avrasiya İqtisadi İttifaqının bütün üzvləri ilə bizim çox yaxşı münasibətlərimiz, o cümlədən iqtisadi əlaqələrimiz var. Biz çəkişmə vəziyyətində olmaq və ya iqtisadi tərəfdaşlarımıza xələl gətirə biləcək addımlar atmaq məcburiyyətində qalmaq istəmirik. Bir daha təkrar edirəm ki, beynəlxalq təsisatlarda üzvlüklə bağlı atdığımız bütün addımlarımız hər zaman praqmatizmə əsaslanıb. Bunu Qoşulmama Hərəkatına üzvlüyümüzlə bağlı da söyləyə bilərəm. Biz 10 ildən bir az artıqdır ki, Qoşulmama Hərəkatına üzv olmuşuq. Bu, düşünülmüş və düzgün təhlil edilmiş addım idi. Bundan sonra biz bu təsisatda sədrliyi öz üzərimizə götürdük, imkanlarımızı nümayiş etdirdik və çoxsaylı dostlar qazandıq.

Hazırda bizim belə planlarımız yoxdur. Lakin gələcəkdə bunu nəzərdən keçirməyəcəyimizi deyə bilmərik. Hər şey yaxınlaşmanın hansı əlavə iqtisadi faydanın verəcəyindən asılı olacaq. Belə bir üstünlük görsək, qərar qəbul edəcəyik. Əks təqdirdə, bugünkü vəziyyət bizi qane edir.

Azərbaycan-Almaniya əlaqələrinə gəldikdə deyərdim ki, son ay ərzində biz daha fəal təmaslar görürük. Mən ötən ilin martında Almaniyaya dəvət edilmişdim və bu səfər baş tutdu. Prezident və Kanslerlə görüşlərim oldu. Kanslerlə biz, həmçinin fevral ayında Münxendə görüşdük. Bu dəfə isə mən COP29-a ev sahibliyi edən ölkənin Prezidenti qismində Petersberq Konfransına dəvət olunmuşam. Bu, Almaniyada təşkil edilən ənənəvi konfransdır və adətən COP-a ev sahibliyi edən prezident oraya dəvət olunur.

Bununla bərabər, orada Almaniyanın rəhbərliyi ilə görüşlər olacaq və hesab edirəm ki, hazırda bizim əməkdaşlığımız yaxşı məcrada inkişaf edir. Burada qarşılıqlı iqtisadi maraq mövcuddur. Bu yaxınlarda mən Almaniyanın işgüzar dairələrini təmsil edən bir qrup nümayəndə – Alman İqtisadiyyatının Şərq Komitəsinin üzvləri ilə görüşmüşəm. Əməkdaşlıq, sərmayə qoyuluşu və dövlət strukturları ilə müqavilələrin bağlanılmasına dair planlar var. Əlbəttə ki, siyasi təməl hər zaman vacibdir. İstər Azərbaycanda, istərsə də Almaniyada biznes dairələri hər zaman siyasi riskləri qiymətləndirir və ölkələrarası əlaqələr sabitdirsə, biznes bunu rəhbər tutur. Hətta deyərdim ki, hazırda biz ikitərəfli münasibətlərimizin ən fəal dönəmlərindən birindəyik və bunu çox müsbət qiymətləndiririk.

**Hikmət Hacıyev**: ABŞ-ın Ceymstaun Fondunun İdarə Heyətinin üzvü Metyu Brayza.

**Metyu Brayza**: Cənab Prezident, burada olmaq şərəfinə görə çox təşəkkür edirəm. Bu, mənim üçün ən maraqlı söhbətlərdir və Sizin bütün suallara bu cür təfərrüatlı, hər hansı bir qeydlərdən istifadə etmədən cavab verməyiniz məni valeh edir. Mən rektor Hafiz Paşayevə də təşəkkürümü bildirmək istəyirəm.

Keçən ilin sentyabrından 9 ay ötür və görün nə qədər heyranedici hadisələr baş verib. Bu səhər bu haqda söhbət edirdik - Azərbaycan bütün ərazisində suverenliyini bərpa etmək üçün nəhəng addımlar atdı, bu ərazilərdə innovativ texnologiyalar tətbiq edilir və yaşıl enerji zonaları yaradılır, ağıllı şəhər və kəndlər qurulur və COP29. Qazaxın kəndləri geri qaytarıldı, Rusiya sülhməramlıları Azərbaycanı tərk edir. Yəni, inanılmaz hadisələr baş verdi.

COP29-un təşkil edilməsi, əlbəttə ki, məsuliyyətlidir və bu, hər kəsi məşğul edən tədbirdir. Ancaq bu işin strateji kommunikasiya tərəfi də var və strategiya nədən ibarətdir? Bütün sadaladığım amillər daxil olmaqla Azərbaycanın hekayəsi haqqında danışmaq yerinə düşərdi. Yəni, Azərbaycanın təbliği kimi deyil, çünki o zaman burada manipulyasiyanın baş verdiyini söyləyənlər ola bilər. Amma hər şeyi olduğu kimi anlatmaq lazımdır, çünki insanlar dinləyirlər. Onlar Azərbaycanın və COP29-un uğur qazanmasını istəyirlər. Beləliklə, strateji kommunikasiya planı nədən ibarətdir?

Mən Xəzər hövzəsini əhatə edən regional QHT-lər, şirkətlər və həmfikir insanlardan ibarət daha geniş qrupun toplantısının keçirilməsini təklif edərdim. Burada diqqət Azərbaycanın COP29-da sədrliyinin sülh prosesindən qaynaqlandığına yönəldilməlidir. Çünki ötən ilin dekabrında burada Siz bizə söylədiniz ki, Paşinyan COP-la bağlı vetosunu aradan qaldırdı. Bu, çox gözəl hekayədir, ancaq bir mexanizm olmadan onu eşitdirmək mümkün olmayacaq. Bəlkə COP29 çərçivəsində bir bəyanat hazırlanıb qəbul oluna bilər ki, bu da hər il müəyyən işçi qrupunun yaradılması ilə nəticələnsin. Təşəkkür edirəm.

**Prezident İlham Əliyev:** Çox sağ olun. Əlbəttə, biz bu təklifləri nəzərdən keçirəcəyik. Biz iqlim dəyişikliyi ilə mübarizə baxımından COP29-un uğurlu olmasını istəyirik. Eyni zamanda, bu, bizim üçün hekayəmizi diqqətə çatdırmaq fürsətidir. Siz tamamilə haqlısınız ki, bizim dünyaya deyəcək sözümüz çoxdur. Biz həqiqəti söyləməliyik və hesab edirəm ki, ev sahibliyi etməyin üstünlüklərindən biri on minlərlə qonağın gəlməsi olacaqdır. Onların əksəriyyəti buraya ilk dəfə səfər edəcək. Onlar iki həftə və hətta daha az vaxtda vəziyyəti qiymətləndirmək imkanı əldə edəcəklər. Özlərini necə hiss edirlər, ölkəni necə görürlər və bizim planlarımızın nədən ibarət olduğunu öyrənəcəklər.

Siz də qeyd etdiyiniz kimi, sonuncu görüşümüzdən sonra çoxlu hadisələr baş verib. Bunların hamısı müsbət hadisələrdir, hər hansı geriləmə və ya böhran baş verməyib. Əksinə, biz uğura uğur əlavə edirik və ən azı həm Azərbaycanda, həm də regionda hər kəs anlayır ki, bunlar təsadüfi hadisələr deyil. Bütün bu işlər düşünülmüş siyasətin, strategiyanın, düzgün taktikanın və siyasətimizin, diplomatiyamızın bir sıra digər aspektləri üzərində qurulub.

Siz tamamilə düzgün qeyd etdiniz ki, COP29 sülh prosesinin nəticəsidir. Budəfəki COP-un mövzusu maliyyə olmasına baxmayaraq, ev sahibi ölkə olaraq biz gündəliyə bir neçə əlavə edə bilərik və belə məsələlərdən biri sülh olacaqdır. Birincisi, ona görə ki, biz məhz sülh prosesi sayəsində COP29-a ev sahibliyi etmək hüququ qazandıq. Çünki burada Ermənistan vetosunu aradan qaldırdı və biz də qarşılıqlı addımlar atdıq. Burada söhbət təkcə COP-dan və ötən dekabrdan getmir. Burada aramızda etimadın yaranmasından söhbət gedir. Çünki ən böyük çağırış qarşılıqlı etimadın olmaması və ya onun çox aşağı səviyyədə olmasıdır.

Bu hal isə bizim heç də hər dəfə hər müstəvidə bir-birimizə qarşı addım atmalı olmadığımızı nümayiş etdirir. İlk dəfə idi ki, biz beynəlxalq arenada bir-birimizə qarşı addım atmaq məcburiyyətində qalmadıq. Yəni, biz qarşılıqlı dəstək verməsək də, bitərəf qaldıq və bunun özü də bir nailiyyət idi.

Atdığımız addımların nəticələrinin daha bir nümunəsi sərhədin delimitasiyasıdır. Əlbəttə, iki ölkə, xüsusilə də iki xalq arasında daha çox etimadın artırılması üçün görüləcək işlər çoxdur. Lakin burada əsas məsələ tendensiyanın nədən ibarət olması, hansı istiqamətdə irəliləməyimizdir və söylədiklərimin bariz nümunələri var. COP29-un Azərbaycanda keçirilməsi münaqişənin həll olunmasının və sülh danışıqlarında irəliləyişin nəticəsidir.

Bu tədbirin sizin fəaliyyətinizlə inteqrasiya olunması və təkliflərinizin praktiki tətbiqi üçün əlavə məlumat verməyiniz lazım olacaq. COP çərçivəsində bir sıra yan tədbirlər keçiriləcək. Aparıcı beynəlxalq təşkilatlar hətta özlərinin zirvə toplantılarını təşkil edəcəklər.

Bəlkə həmin dövrdə digər bir forum haqqında düşünə bilərsiniz. Adətən siz dekabr ayında toplaşırsınız. Bir az tarixini dəyişdirə bilərsiniz. Mən sizi bu tədbirə dəvət edirəm. Vaxtınız imkan verəcəksə, sizi burada görməkdən məmnun olardıq.

Əlavə nə edə biləcəyimiz haqqında da düşünə bilərik. Bu gün Qafqaz qlobal miqyasda hadisələrin sürətlə inkişaf etdiyi bölgədir və onların düzgün məcraya yönəldilməsi üçün biz proaktiv olmalıyıq. Biz oturub gözləməli deyilik. Belə olduğu halda, biz uduzacağıq, rahatlaşmaq vaxtı deyil.

İkinci Qarabağ müharibəsindən dərhal sonra deyirdim ki, bizim bu hadisəni qeyd etməyə vaxtımız yoxdur. Bu, belə də oldu. Biz bunu xüsusi qeyd etmədən işimizə davam etdik. Bu işlər davam edir, çünki görüləcək işlər çoxdur.

Hesab edirəm ki, bu, gündəlik Cənubi Qafqazda təhlükəsizlik tədbirlərinin gücləndirilməsi ilə nəticələnəcək. Ümumilikdə Cənubi Qafqazda üç ölkə arasında ən azı məsləhətləşmə formatı yaradıla bilər ki, bu, gələcək əməkdaşlığa yol açsın. Bu, misilsiz bir fürsətdir. Sülh şəraitində müstəqillik yoluna qədəm qoyan Baltik dövlətlərindən fərqli olaraq, Sovet İttifaqının süqutu bizi bu imkandan məhrum etdi. Biz müharibələrlə üzləşdik. İndi isə bu səhifəni çevirmək üçün fürsət var, biz bunu edirik və COP29 bunun gözəl nümunəsidir.

Bu gün Ermənistan ilə Azərbaycan arasında sərhəddə gördükləriniz, pərdəarxası görmədikləriniz, iki ölkənin nümayəndələri arasındakı təmaslar, daha açıq və konstruktiv müzakirələr də bu qəbildəndir. Sərhəd delimitasiyası məsələsində Azərbaycan və Ermənistan olduqca konstruktiv davranış nümayiş etdirir. Görünənlər bunun bir parçasıdır – bu, bir nəticədir. Lakin bu nəticə müntəzəm təmaslardan və müsbət dinamikadan qaynaqlanır. Biz bu işi konsolidasiya etməli və irəliləməliyik.

**Hikmət Hacıyev**: Nigar Göksel, Türkiyənin Beynəlxalq Böhran Qrupunun Türkiyə və Kipr üzrə direktoru.

**Nigar Göksel**: Çox təşəkkür edirəm cənab Prezident. BMT-nin iqlim üzrə Zirvə toplantısına ev sahibliyi münasibətilə Sizi təbrik edirəm və bu, bizləri də sevindirir. Əslində, Siz demək olar ki, mənim sualıma artıq cavab verdiniz. COP29 ərəfəsində Azərbaycan-Ermənistan sülh danışıqlarının hansı mərhələdə olacağını görürsünüz? Zirvə toplantısına ev sahibliyi Ermənistan-Azərbaycan dialoquna və daha geniş əməkdaşlığa hansı töhfəni verə bilər?

**Prezident İlham Əliyev:** Artıq müzakirə etdiyimiz kimi, sülh danışıqları prosesində ciddi irəliləyişə nail olmaq ehtimalının yüksək olması qənaətindəyəm. Bir az geriyə qayıdaraq deməliyəm ki, sülh prosesinin təşəbbüskarı məhz Azərbaycan olmuşdur. Çünki İkinci Qarabağ müharibəsi başa çatandan sonra regionda və onun hüdudlarından kənarda bir növ boşluq yarandı, bundan sonra nələrin baş verməli olduğunu bilən yox idi. Yəni, məsələ bundan ibarət idi - müharibə başa çatıb, bu, tam həll demək deyil və bundan sonra nə etməli?

Biz danışıqlara başlamaq təşəbbüsünü irəli sürmək qərarına gəldik və bunu ictimai şəkildə bəyan etdik. İlkin mərhələdə Ermənistan tərəfindən buna münasibət bildirilmirdi. Bu, tərəfimizdən başadüşülən idi, çünki müharibənin nəticələri onlar üçün o qədər də asan deyildi. Daha sonra isə biz sülh sazişinin baza prinsiplərini təşkil edən beş prinsipi ortaya qoyduq və onları açıqladıq.

Əslində, danışıqlar məhz həmin prinsiplər əsasında başlanıldı. Ermənistan bəzi digər mövzular əlavə etdi və bu, başlıca maneə yaratdı. Çünki onlar iki suveren ölkə arasında olan sülh sazişinə dırnaqarası “Dağlıq Qarabağ” məsələsini daxil etmək istəyirdilər. Bu, bizim üçün tamamilə qəbuledilməz idi, çünki dırnaqarası “Dağlıq Qarabağ” Azərbaycanın Qarabağ regionu olub və olacaq, bu, Azərbaycanın daxili məsələsidir. Bu, irəliləyişə nail ola bilməməyimizin başlıca səbəbi idi.

**(ardı 6-cı səhifədə)**

# ADA Universitetində “COP29 və Azərbaycan üçün Yaşıl Baxış” mövzusunda beynəlxalq forum

**(əvvəli 5-ci səhifədə)**

Onlar bütün bu dövr ərzində həmin müddəanın daxil olunmasını israr edirdilər, bu isə bizim üçün tamamilə qəbuledilməz idi və biz razılığa gələ bilməyəcəyimizi görürdük.

Bu, ötən ilin sentyabrına - suverenliyimizi tam bərpa edənədək davam etdi. Lakin burada növbəti problem yarandı. Ermənistan tərəfi fasilə yaratdı və ən azı iki ay bizim şərhlərə münasibət bildirmədi. Çünki bizim şərhlərin mübadiləsi praktikası var, hər iki ölkənin xarici işlər nazirləri bununla müntəzəm məşğuldur və bu günədək saziş layihəsinə dair şərhlərin 7-8 dəfə belə mübadiləsi baş tutub.

Danışıqlar isə bu yaxınlarda bərpa olunub. Mənim Ermənistanın baş naziri ilə görüşüm yalnız iki ay bundan əvvəl olub. Bundan sonra isə xarici işlər nazirləri görüşüb və biz bu təkliflə çıxış edən Almaniya və onun Kansleri cənab Şoltsa, habelə Ermənistanın və Azərbaycanın xarici işlər nazirlərinin görüşünə ev sahibliyi edən xanım nazir Berboka təşəkkürümüzü bildiririk. Deyə bilərəm ki, biz yalnız indi mahiyyət baxımından real danışıqlara yaxınlaşırıq. Çünki suverenliyimizin və ərazi bütövlüyümüzün tam bərpasından sonra Ermənistan həmin müddəanı aradan qaldırdı və əlbəttə ki, artıq Qarabağ kəlməsinin heç bir aspektini dilə gətirmir. Bununla da ən mühüm maneə aradan qalxdı və hesab edirəm ki, digər müddəalar razılaşdırıla bilər, çünki orada hər-hansı bir yenilik, yeni icad yoxdur, bütün prinsiplər beynəlxalq hüququn normalarına və praqmatik yanaşmaya əsaslanır.

Qazaxıstan tərəfi Ermənistan və Azərbaycan xarici işlər nazirlərinin Qazaxıstanda görüşünün təşkili ilə bağlı bizə müraciət edib. Biz buna razılığımızı vermişik və Ermənistan da buna razı olsa, iki ölkənin xarici işlər nazirlərinin növbəti görüşü Qazaxıstanda baş tuta bilər. Burada bir məqama aydınlıq gətirmək istərdim. Söhbət hər hansı vasitəçilikdən getmir. Çünki bu gün sərhədimizdə baş verənlər onu nümayiş etdirir ki, bizimlə heç kəsin işi olmadığı, bu vəziyyətin kiminsə siyasi ambisiyaları naminə istifadə edilmədiyi halda biz gec-tez razılığa gələ bilərik.

Beləliklə, biz yalnız platforma, məkan barədə danışırıq. Belə bir təklif üçün Qazaxıstan hökumətinə də minnətdarıq. Hesab edirəm ki, indi biz Ermənistan tərəfinin cavabını gözləməliyik. Amma yenə də müzakirə olunan məsələnin mahiyyətinə qayıdaraq hesab edirəm ki, biz razılaşmaya ola bilsin heç vaxt olmadığı qədər yaxınıq. Çünki işğal dövründə biz razılaşmaya heç vaxt bu qədər yaxın olmamışdıq. Həmin vaxt biz əsas prinsiplər üzərində razılığa gələ bilmirdik. Məşhur “Madrid prinsipləri”, biz heç onların üzərində razılığa gələ bilmirdik. Həmin vaxt bizdə sülh müqaviləsinin layihəsi belə yox idi. Amma indi bu layihə bizdə var. İndi sülh razılaşmasının necə olmalı olduğuna dair bizdə ümumi anlayış var. Biz, sadəcə, təfərrüatlar üzərində çalışmalıyıq. Lakin əlbəttə ki, hər iki tərəfə vaxt lazımdır, çünki sülh müqaviləsi imzalandığı təqdirdə, bu, hər iki ölkə üçün tarixi razılaşma olacaqdır. Buna görə hər bir söz, hər bir nöqtə, hər bir paraqraf vacibdir. Lakin vacib olan odur ki, hər iki tərəfin bunu etmək üçün siyasi iradəsi var.

**Hikmət Hacıyev**: Ceyms Şarp, Böyük Britaniyanın Azərbaycandakı sabiq səfiri.

**Ceyms Şarp:** Bildiyiniz kimi, COP26 üç il bundan əvvəl Qlazqoda keçirilmişdir. Bizim fikrimizcə, COP sədri kimi sizə fürsətlər verilir, lakin, eyni zamanda, üzərinizə öhdəliklər də qoyulur. Sədrin əsas öhdəliyi iqlim dəyişikliyi ilə mübarizə aparmaq üçün ölkələrin qərarlaşdırmalı olduqları bir çox məsələlərlə bağlı konsensusa gəlmək olacaq. Bizim öhdəliyimiz digərlərindən etmək istədiklərimizi özümüz edib liderlik sərgiləmək idi və biz başqalarından tələb etdiklərimizdən kənara çıxırdıq. Həmin vaxtı biz sizə və Muxtar Babayevə müraciət edərək Azərbaycanın 2050-ci ilə qədər sıfır karbon tullantıları öhdəliyini üzərinə götürməsini təşviq edirdik. Həmin vaxt siz bu öhdəliyin tələblərini yerinə yetirə bilmədiniz, lakin ümid edirik ki, sədr olaraq siz bu öhdəliyin tələblərini yerinə yetirəcəksiniz. Fürsətlər baxımından biz bu mövzunu artıq qismən müzakirə etmişik. Bu, regionda, Qafqazda, Xəzər hövzəsində, Mərkəzi Asiya regionunda diqqət mərkəzində olmaq üçün bir fürsətdir. İqlim dəyişikliyi nəticəsində Xəzər dənizinin geri çəkilməsi, artan səhralaşma və mən, əlbəttə ki, Mərkəzi Asiyada və Qafqazda müşahidə etdiyimiz sərhədlər arasından keçən çaylar mübahisələri kimi bu regionun üzləşdiyi ekoloji problemləri nəzərdə tuturam. Beləliklə, bu ekoloji problemlərin, regionun ekoloji problemlərinin öhdəsindən konkret necə gələcəyinizlə bağlı ideyalarınızı eşitmək mənim üçün maraqlı olardı. Təşəkkür edirəm.

**Prezident İlham Əliyev:** Təşəkkür edirəm. Hətta COP29-un keçirilməsi bizə həvalə edilməmişdən əvvəl biz ekoloji problemlərlə ciddi məşğul olurduq və iqlim dəyişikliyinin mənfi fəsadlarını azaltmağa çalışırdıq. Siz də doğru qeyd etdiyiniz kimi, hər kəs xüsusilə yayda çimərliyə gedəndə dənizin hər il geri çəkildiyini görə bilər və bu, heç vaxt belə olmamışdır. Bir vaxtlar dəniz irəliyə gəlib geri çəkilirdi, lakin bu, bir proses idi. İndi isə dəniz yalnız geri çəkilir. Bu, ətraf mühit, eləcə də ticarət üçün ciddi problemdir. Biz gəmilər üçün daha çox kanal qazmalıyıq və əgər Xəzər dənizinin geri çəkilməsi olduğu kimi davam edərsə, biz nəinki təkcə ciddi ekoloji problemlə, kommunikasiya layihələri ilə də bağlı problemlər yaşayacağıq. Çünki hazırda icra edilməkdə olan vacib layihələrdən biri - Orta Dəhliz Xəzər dənizindən keçir. Beləliklə, burada bir çox məsələlər var. Biz burada ətraf mühitin mühafizəsi ilə bağlı çoxlu işlər görürük. Siz bir neçə il burada yaşamısınız və bizim gündəliyimizi bilirsiniz. Biz Abşeron yarımadasının təmizlənməsi ilə bağlı çoxlu işlər görürük və bunun bariz nümunələrindən biri Ağ Şəhər layihəsidir, hansı ki, əvvəllər “Qara şəhər” adlanırdı. Bilmirəm hamınız orada olmusunuz ya yox, əgər olmamısınızsa, sizə gedib oranı ziyarət etməyi məsləhət görərdim. Biz onilliklər ərzində tamamilə çirklənmiş ərazidə - şəhərin içində şəhər saldıq. Bakının bu hissəsindən avtomobillə keçəndə pis qoxu gəldiyinə görə həmişə pəncərəni bağlayardıq. İndi isə bu, yaşıl şəhər planlaşdırılmasının və həyata keçirilməsinin nümayişidir. Digər bir misal isə Bibiheybət buxtasıdır. Ceyms Bond haqqında filmlərdən biri burada çəkilmişdir. O filmi izləmisinizsə, buxtanın əvvəllər necə göründüyünü görə bilərsiniz. Lakin indi o, Bakının ən yaşıl ərazilərindən biridir. Beləliklə, bunlar kimi bir çox nümunələr var. İndi biz, həmçinin Qarabağda və Şərqi Zəngəzurda su resursları üzərində fəal çalışırıq. İşğal dövründə biz bu resurslardan məhrum olmuşduq. Mənbəyini Azərbaycandan götürən əsas çaylar məhz orada yerləşir. İşğal dövründə ermənilər, sadəcə, su anbarlarını bağlayırdılar və su tələb olunan mövsümdə bizi sudan məhrum edirdilər, suyu qışda buraxırdılar. Beləliklə, Azərbaycanın Şərqi Zəngəzurda və Qarabağda suvarılmalı olan yüz minlərlə hektar ərazisi suvarılmırdı. İndi biz geri qayıtmışıq və su ehtiyatlarımız üzərində nəzarət bizdədir. Biz bir neçə böyük su anbarı və su kanalı tikməyi planlaşdırırıq. Bunları təkcə o hissədə yox, eyni zamanda, Azərbaycanın mərkəzi hissəsində də etməyi nəzərdə tuturuq. Bizim planlarımız artıq bəyan olunub və bunlar bizə həqiqətən indi itkiyə gedən hər bir damla suya qənaət etməyə imkan verəcək. Köhnə kanallarımızda təxminən 30 faiz su itkimiz var. Modernləşdirmə və yeni texnologiyalardan sonra su itkisi 5 faizdən artıq olmayacaq. O ki qaldı, transsərhəd çaylara, bu, bizi ən çox narahat edən məsələdir, çünki biz bu vəziyyətə nəzarət edə bilmirik. Bunun obyektiv və subyektiv səbəbləri var. Obyektiv səbəb, əlbəttə ki, iqlim dəyişikliyidir. Obyektiv olaraq çaylarda daha az su var, lakin, eyni zamanda, biz bilirik ki, bu çaylar üzərində onların dayazlaşmasına gətirib çıxaran hidrotexniki layihələr var. Eyni mənzərəni, məsələn, Volqa çayında da görürük. Çünki Volqa çayı Xəzər dənizi üçün əsas su mənbəyidir və indi Volqa çayında su təbii ki, azdır. Beləliklə, Xəzər dənizinin geriyə çəkilməsi iqlim dəyişikliyi səbəbindən deyil, həm də Volqa çayının Xəzər dənizini lazımi qədər su ilə təmin etməməsindəndir. Əlbəttə ki, bu, çoxtərəfli əməkdaşlıq məsələsidir. Biz bu məsələləri qonşularımızla həll etməyə çalışırıq və faktiki olaraq onların üzərində işləyirik. Çünki əlaqələndirilmiş tədbirlər görməsək və müvafiq addımlar atmasaq biz hamımız bundan əziyyət çəkəcəyik. Lakin nəticələrlə bağlı ümumilikdə danışsaq, biz bütün üzv ölkələrlə fəal işləməyə sadiqik. Hesab edirəm ki, bunun üçün yaxşı imkanlar var.

Qoşulmama Hərəkatına dörd il ərzində sədrlik etməklə Azərbaycan özünə çoxlu etibarlı dost qazandı. Azərbaycanın da daxil olduğu Qlobal Cənub ölkələrinə bu gün xüsusi diqqət lazımdır. Əlbəttə ki, iqlim məsələləri ilə bağlı fikir ayrılığının bir səbəbi inkişaf etmiş, inkişaf etməkdə olan və zəif inkişaf etmiş ölkələrin məsuliyyətidir. Bu ortaq məsuliyyət ədalətli olmalı və əlbəttə ki, iqlim problemlərinə mənfi təsir açıq şəkildə müzakirə edilməlidir. Hesab edirik ki, bu əlaqələrə, həmçinin bir çox Avropa ölkələri ilə yaxşı əlaqələrə malik olmaqla biz koordinator və ya körpü rolunu oynaya bilərik. Eyni zamanda, neft və qazla zəngin olan ölkə kimi bu, bizə neft və qaz hasil edən ölkələrlə qarşılıqlı əlaqədə olmaq, neft və qazla zəngin olan ölkələr üçün məsuliyyət platforması yaratmaq imkanını verir. Çünki Azərbaycan da daxil olmaqla, bu ölkələr ciddi addımlar atmalıdır. Biz bunu OPEC+ adlanan platformada artıq nümayiş etdirmişik. Burada hasilatın əlaqələndirilmiş azaldılması neft qiymətlərinin sabitləşməsinə gətirib çıxarmışdır. Biz neft və qaz hasil edən ölkələrin maliyyə töhfəsi üzrə əlaqələndirilmiş səylər göstərməliyik və bu, tamamilə obyektiv olacaq. Biz də bunu etməyə hazırıq. COP29 üçün sanki bir yenilik olan digər bir məsələ ondan ibarətdir ki, biz üçlük mexanizmini yaratdıq. Bu, COP28-i keçirmiş Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ) və COP30–u keçirəcək Braziliya ilə birlikdə bu formata malik olmaq üçün Azərbaycanın təşəbbüsü idi. Artıq nazirlərin görüşü baş tutub və bu, bizə planlaşdırmaya kömək edəcək. Çünki 2024-cü ilin noyabrında Bakıda keçiriləcək COP29 bitəcək. Lakin proses davam etməlidir. Biz indi tədbirin hazırlanması və keçirilməsi üzrə Birləşmiş Ərəb Əmirliklərinin böyük təcrübəsindən yararlanırıq. Bu üçlükdə birlikdə olmaq bir sinerji, koordinasiya və proqnozlaşdırma yaradır.



İdeyalarla bağlı bizim başqa planlarımız da var, lakin ola bilsin ki, onları açıqlamaq hələ bir az tezdir. Lakin biz sədrliyə özümüzü nümayiş etdirmək, ölkəmizi təqdim etmək fürsəti kimi baxmırıq. Baxmayaraq ki, bu məsələ də vacibdir. Biz buna beynəlxalq arenada ən təxirəsalınmaz məsələnin praktiki həllinə töhfə vermək imkanı kimi baxırıq. Sizi görməyə şadam, cənab səfir.

**Hikmət Hacıyev:** Aleksandr Hecazi, İsveçrənin Cenevrə Universitetində Qlobal Ətraf Mühit Siyasəti Proqramının direktoru.

**Aleksandr Hecazi:** Çox sağ olun. Salam cənab Prezident. İcazə verin, həmkarlarım kimi, Sizi COP29-a sədrlik münasibətilə təbrik edim. Biz İsveçrədə Azərbaycana çox böyük marağın olduğunu görürük. Siz böyük qonşularla əhatə olunaraq Avrasiyanın mərkəzində yerləşirsiniz və biz çox böyük maraqla Azərbaycanın öz yolunun təqdim edilməsi vədinə sadiq olduğunu görürük. Biz bayaq Azərbaycan gəncləri ilə danışırdıq. Azərbaycanın iki uğur hekayəsinin bir araya gətirilməsi məsələsinə gəldikdə - birincisi, onun qlobal enerji səhnəsində ən böyük tərəflərdən biri olması, digəri isə yeni rol aldığı ekoloji səhnədə məşhur oyunçulardan birinə çevrilməsidir. Mən son bir neçə ildə strateji infrastrukturun yaradılmasına yatırdığınız böyük investisiyaları, məsələn, Bakı limanını nəzərdə tuturam - bir–birinə zidd ola bilən bu iki elementi - enerji ticarətini və enerjinin inkişafı və ekoloji idarəetməni. Azərbaycan, Azərbaycan xalqı və region üçün bir miras qoymaq baxımından investisiya yatırdığınız bu infrastrukturların istifadəsini necə görürsünüz? Təşəkkür edirəm.

**Prezident İlham Əliyev**: Çox sağ olun, çox yaxşı sualdır və bu məsələni qaldırdığınıza görə təşəkkür edirəm. Əvvəla qeyd etmək istəyirəm ki, Azərbaycanda 1994-cü ildən bəri bütün neft əməliyyatları beynəlxalq ətraf mühit mühafizəsi standartlarına əsasən aparılır.

Bizim əsas investorlarımız dünyanın aparıcı enerji şirkətləridir və sözsüz ki, hər kəs onların ətraf mühitə diqqət yetirdiyinin yaxşı bir nümunə olduğunu bilir. Söhbət təkcə onların dəniz qurğularında fəaliyyəti zamanı bu məsələyə diqqət yetirmələrindən deyil, eyni zamanda, əsas neft və qaz boru kəmərlərinin tikintisi zamanı quşlara, tısbağalara və digər heyvanlara göstərdikləri xüsusi qayğıdan gedir. Həmçinin arxeoloji qazıntılar. Bəzi hallarda onlar mühüm arxeoloji tapıntılara görə marşrutu dəyişmək məcburiyyətində qalmışlar. Beləliklə, bu, birinci məsələdir. Digər məsələ ondan ibarətdir ki, müstəqillikdən əvvəl, Sovet İttifaqı, çar Rusiyası dövründə bizim enerji resurslarımız ətraf mühitə heç bir diqqət yetirilmədən istismar olunurdu. Məhz bu minvalla Bakı dünyanın ən çirklənmiş şəhərlərinin birinə çevrilmişdi. Bizdə neft gölləri, neft sızıntıları var idi. Biz ekoloji fəlakət olan bu dəhşətli mirası təmizləmək üçün yüz milyonlarla, hətta milyardlarla dollar xərcləmək məcburiyyətində qalmışdıq. İndi Bakıda gördüklərinizin 10 il, 20 il bundan əvvəl hansı vəziyyətdə olduğunu heç təsəvvürünüzə belə gətirə bilməzsiniz. Çünki biz çoxlu rekultivasiya, çoxlu təmizləmə işlərini icra etdik və ekoloji cəhətdən təmiz olan bir çox təşəbbüsləri həyata keçirdik. İndi isə COP29-un sədri olaraq bizim üzərimizdə olan məsuliyyət səviyyəsi, əlbəttə ki, artmaqdadır. Çünki birincisi, biz sədrliyimizə çox ciddi yanaşırıq, ikincisi, biz diqqət mərkəzindəyik. Sədrlik veriləndən dərhal sonra müxtəlif QHT-lər və media tərəfindən bizə qarşı hücumlar olmuşdur - yenə də neft hasil edən ölkə COP-a sədrlik edir. Sanki elə bilin ki, bu, bizim günahımız idi. Mənim isə onlara mesajım ondan ibarət idi ki, bizim neft ölkəsi olmağımız bizim günahımız deyil. Baxın görün, biz bu resurslardan necə istifadə edirik. Əvvəla baxın görün ki, biz bu resurslardan ölkənin inkişafı, yoxsulluğun azaldılması, sərvətin ədalətli paylanılması üçün necə istifadə edirik. Sonra baxın görün ki, biz ondan infrastruktur, yaşıl enerji üçün necə istifadə edirik. Beləliklə, bu gün biz sabit neft və artan qaz hasilatına malikik, eyni zamanda, yaşıl enerji layihələrini inkişaf etdiririk. Bununla əlaqədar bir vacib məsələ Avropada qazıntı yanacağı ilə bağlı qoyulmuş məhdudiyyətlərdir. Biz burada bir ziddiyyət görürük və biz bu məsələni artıq avropalı tərəfdaşlarımız qarşısında qaldırmışıq. Bir tərəfdən Avropa, Avropa İttifaqı Azərbaycandan əlavə qaz istəyir - bu məqsədlə təqribən iki il bundan əvvəl Avropa İttifaqı ilə Azərbaycan arasında energetika sahəsində strateji tərəfdaşlıq üzrə bəyannamə imzalanmışdır. Bu sənədə əsasən bizim Avropaya qaz təchizatımız 2021-ci ildə 8 milyard kubmetrdən 2027-ci ildə 20 milyard kubmetrə qədər artmalıdır. Bu, bir öhdəlik deyil, bu, bir hədəfdir. Biz bu hədəfə doğru gedirik. Bu il Avropaya qaz təchizatımız təqribən 12 milyard kubmetr olacaq. Bu, 2021-ci illə müqayisədə 4 milyard kubmetr çoxdur. Beləliklə, biz daha çox investisiya qoymalı idik, daha çox qaz hasil etməli idik, lakin qazıntı yanacağı layihələrini maliyyələşdirmək üçün maliyyə institutları ilə bağlı məhdudiyyət var. Məsələn, Avropa İnvestisiya Bankı bu məsələni tamamilə portfelindən çıxarmışdır. Avropa Yenidənqurma və İnkişaf Bankı qazıntı yanacağı layihələri üçün kiçik bir vəsait ayırıb. Beləliklə, Avropa Azərbaycandan necə əlavə qaz əldə etmək istəyir ki, heç maliyyələşməni də təmin etmir. Çünki belə bir layihə üçün neft və ya qaz boru kəmərlərinin olub-olmamasından asılı olmayaraq, bizim icra etdiyimiz bütün layihələrdə korporativ maliyyələşmə 30 faiz səviyyəsindədir. Qalan hissə borca götürülmüş vəsaitdir. Beləliklə, bu, birinci sualdır.

İkinci sual isə ondan ibarətdir ki, Avropa bizdən daha çox hasil etməyi və daha çox təchiz etməyi istəyir. Yeri gəlmişkən, Avropa, Avropada interkonnektorların tikintisi layihələrini də icra edir. Lakin, eyni zamanda, bizə heç bir zəmanət vermir ki, bizim qazımıza uzun müddət ərzində tələbat olacaq. Beləliklə, biz yalnız 5-10 il üçün milyardlarla investisiya yatırıb sonra xərclərimizi geri qaytarmaya bilmərik. Cənub Qaz Dəhlizi və “Şahdəniz” layihəsinin 2-ci mərhələsinə yatırılmış investisiyalar bu gün hələ də sıfır balansına çatmayıb. Biz hələ də borcu geri ödəyirik. Qaz satışından əldə etdiyimiz vəsaiti borcun ödənilməsinə sərf edirik. Beləliklə, bunlar Avropa ilə Azərbaycan arasında qaz əməkdaşlığına dair bizim həll etməli olduğumuz iki ən önəmli məsələdir.

Yaşıl enerji və qazıntı yanacağının birləşməsi ilə bağlı. Hesab edirəm ki, qazıntı yanacağına dünyada hələ uzun illər ərzində tələbat olacaq. Bu gün qazıntı yanacağına tələbatın olmayacağını söyləmək sadəlövhlük olardı. Dünya buna hazır deyil, dünya iqtisadiyyatı buna hazır deyil və sənaye buna hazır deyil. Beləliklə, hesab edirəm ki, ən yaxşı yol çata bilməyəcəyimiz hədəfi qoymaqdansa, sinerji yaratmaq və təkamül yolu ilə irəliləməkdir. Bizə gəldikdə, biz bunu edirik. Biz artıq investorlarımızla birlikdə yaşıl enerji layihələrinə investisiyalarımıza başlamışıq. Keçən ilin oktyabrında biz 240 meqavat gücündə ilk günəş elektrik stansiyasının açılışını etdik. Bu il isə əlavə dörd günəş və külək elektrik enerjisi stansiyasının təməli qoyulacaq və onların ümumi gücü 1300 meqavat olacaq. Bu isə bizim potensialımızı 1500 və hətta ondan da artıq edəcək. Lakin bu, sadəcə, başlanğıcdır. Çünki bizim həm dənizdə, həm də quruda nəhəng külək və günəş elektrik enerjisi potensialımız var. Buraya su elektrik stansiyalarını da əlavə etsək, - sadəcə, Qarabağda və Şərqi Zəngəzurda son 3 ildə su elektrik stansiyalarının gücü 170 meqavata yaxın olub və bu, yalnız başlanğıcdır, - beləliklə, biz elektrik enerjisi istehsalı üçün istifadə etdiyimiz qazın əhəmiyyətli bir hissəsini bərpaolunan enerji mənbələri ilə əvəz edəcəyik. Bu, tamamilə realdır. Mənim dediyim bizim planlarımız deyil. Artıq müqavilələr imzalanıb, torpaq sahələri nəinki təkcə seçilib, hətta onlar artıq tikinti üçün də ayrılıb. Ola bilsin bir neçə aydan, maksimum 3-4 aydan sonra biz mənim dediklərimin hamısını öz gözümüzlə görəcəyik.

Azərbaycanda bərpaolunan enerji resurslarının istehsalını 5 qiqavata qədər artırsaq, bu, elektrik enerjisi üçün istifadə etdiyimiz təbii qazın böyük bir hissəsini əvəz edəcək və biz bərpaolunan enerji resurslarından istifadə üzrə hədəfimizə hətta daha qısa müddət ərzində çata bilərik. Əlbəttə, burada olan sinerji ondan ibarətdir ki, elektrik enerjisi stansiyalarına göndərilməyən qənaət edilmiş qaz ona indi ehtiyacı olan və gələcəkdə də ehtiyacı olacaq Avropaya nəql ediləcək. Lakin Avropanın təkcə buna ehtiyacı olmayacaq. Avropaya əlavə yaşıl enerji mənbələri də tələb olunacaq. Çünki Avropa ölkələrinin yatırdığı nəhəng investisiyaları nəzərə alsaq, onların hələ də çatışmazlığı olacaq. Beləliklə, onlara əlavə enerji tələb olunacaq və biz bunun üzərində çalışırıq. Bildiyiniz kimi, Xəzər dənizindən Qara dənizə, oradan da Avropaya doğru gedən yaşıl kabel layihəsinin indi texniki-iqtisadi əsaslandırmasının sonuncu mərhələsidir. Texniki-iqtisadi əsaslandırma hazır olan kimi biz prosesə başlayacağıq. Biz artıq praktiki cəhətdən bu kabelin Mərkəzi Asiyaya qoşulması imkanını da müzakirə edirik. Beləliklə, indi dediyim kimi, biz layihəni genişləndiririk. Çünki layihə Qara dəniz kabel xətti kimi, yəni, Gürcüstanın Qara dəniz sahilindən Rumıniyanın Qara dəniz sahilinədək uzanan layihə kimi başlamışdır. Biz layihəni Xəzər dənizinə qədər genişləndirdik və indi biz onu daha da, Xəzərin şərq sahilinə - Qazaxıstana qədər genişləndiririk.

Qazaxıstanda və Özbəkistanda bərpaolunan enerji resursları ilə bağlı investisiya layihələrini nəzərə alaraq, nisbətən qısa müddət ərzində bu ölkələr elektrik enerjisi qıtlığı yox, elektrik enerjisi profisiti olan ölkələr sırasına daxil olacaq. İxrac marşrutu isə yenə də Azərbaycandan Avropaya gedəcək. Bütün bu məsələlər geosiyasət və regional əməkdaşlıq ilə sıx əlaqədardır. Birincisi Azərbaycan həmişə enerji layihələrini siyasətdən ayırmışdır. Lakin, eyni zamanda, onları yalnız müsbət mənada inteqrasiya etmişdir. Bizim bütün enerji layihələrimiz əməkdaşlığa aparır. Bu gün Cənub Qaz Dəhlizi ilə əhatə olunan ölkələrə nəzər salsanız görərsiniz ki, bu ölkələrin bəziləri arasında münasibətlər heç də yaxşı deyil. Lakin bu layihələr onları birləşdirir. Bu, müştərək maraqdır. Burada uduzan tərəf yoxdur və əslində, enerji sülhə doğru aparır. Tarixdən biz bilirik ki, neft müharibəyə, qan tökülməsinə gətirib çıxarır. İndi isə biz paradiqmanı dəyişirik və hələ ki, buna müvəffəq olmuşuq.

Azərbaycan artıq 30 ildir ki, beynəlxalq neft şirkətləri ilə əməkdaşlıq edir. Xəzər dənizinə xarici şirkətləri dəvət edən ilk ölkə biz olmuşuq və hesab edirəm ki, bizim gələcəyimiz daha da parlaqdır. Biz qazıntı yanacağından istifadəni dayandırmayacağıq, biz bunu etməyəcəyik. Lakin, eyni zamanda, diqqətimizi yaşıl gündəliyə yönəldəcəyik. Bu suala görə bir daha çox sağ olun. Həmçinin bu məsələni daha da ətraflı müzakirə etsək, yaxşı olardı. Ola bilsin COP29-un keçirilmə tarixinə bir az qalmış mübadilə üçün daha çox ideyalarımız olsun və bu məsələni də bizim konfransdakı gündəliyimizə daxil edək.

**Hikmət Hacıyev**: Çianq Siaoy, Şanxay Beynəlxalq Araşdırmalar İnstitutunun Rusiya və Mərkəzi Asiya Araşdırmaları Mərkəzinin direktoru.

**Çianq Siaoy:** Təşəkkür edirəm. Salam cənab Prezident. Sualım Çin ilə Azərbaycan arasında ikitərəfli əlaqələrlə bağlıdır. Bildiyimiz kimi, Azərbaycan Cənub və Şimal, Şərq və Qərb arasında unikal və çox önəmli körpü rolunu oynayır. Transxəzər Beynəlxalq Nəqliyyat Dəhlizinin inkişafında Çin ilə Azərbaycan arasında əməkdaşlıq perspektivlərini necə görürsünüz? Çox sağ olun.

**Prezident İlham Əliyev:** Təşəkkür edirəm. Bizim münasibətlərimiz çox uğurla, qarşılıqlı hörmət və dəstək, hər iki ölkənin ərazi bütövlüyünün tanınması əsasında inkişaf edir. Azərbaycan Tayvanda seçkilərə münasibətini bildirən ilk ölkələrdən biri olmuşdur. Biz nəinki təkcə bu məsələ ilə bağlı narahatlığımızı bildirdik, biz, eyni zamanda, bu seçkiləri qınadıq. Bizim “vahid Çin” siyasətimiz çinli tərəfdaşlarımıza çox yaxşı məlumdur və Çin də həmişə Azərbaycanın ərazi bütövlüyünü dəstəkləmişdir. Beləliklə, bu, bizim əməkdaşlığın bir əsası idi. Lakin indi əməkdaşlıq həm siyasi, həm iqtisadi, həm də nəqliyyat sahələrində genişlənir. Mən Prezident Si Cinpinlə dəfələrlə görüşmüşəm və görüşlərimizdən çox yaxşı təəssüratlarla ayrılmışam. Əslində, bu görüşlər bizim münasibətlərə əlavə təkan verir. Biz indi Azərbaycanda sənaye sektorunda investor qismində daha çox Çin şirkətlərini görürük və bunu çox yüksək qiymətləndiririk. Bizim müntəzəm siyasi təmaslarımız var və hər bir ölkə yüksək səviyyəli nümayəndə heyətlərini qəbul etmişdir.

**(ardı 7-ci səhifədə)**

# ADA Universitetində “COP29 və Azərbaycan üçün Yaşıl Baxış” mövzusunda beynəlxalq forum

(əvvəli 6-cı səhifədə)

Əlbəttə ki, siz də qeyd etdiyiniz kimi, nəqliyyat məsələsi daha böyük önəmə malikdir. Bu gün Transxəzər Nəqliyyat Dəhlizinə heç vaxt olmadığı qədər ehtiyac var. Biz Çindən gələn və Azərbaycandan keçən yüklərin ildən-ilə artdığını görürük. Yeri gəlmişkən, ötən ay Qazaxıstan Prezidentinin Azərbaycana dövlət səfəri zamanı biz Siandan çıxmış və Bakıya çatmış konteyner qatarının birgə qarşılanma mərasimini keçirdik. Beləliklə, bu, ölkələrimiz arasında əməkdaşlığımızın birgə nümayişi idi. Sözsüz ki, Qazaxıstanla Çin daha fəal əməkdaşlıq edir. Lakin Azərbaycanla Çin də əməkdaşlıqlarını çox ümidverici və çox nəticəyönümlü şəkildə inkişaf etdirir.

Mənim Orta Dəhliz layihəsinin böyük gələcəyinə güclü inamım var. Burada, Azərbaycanda biz faktiki olaraq bütün lazımi infrastrukturu, o cümlədən müasir, yeni dəniz limanını inşa etmişik. Yeri gəlmişkən, hazırda biz dəniz limanının genişləndirilməsi üzərində işləyirik. Çünki bugünkü 100 min TEU və 15 milyon ton ümumi yükaşırma qabiliyyəti yetərli olmayacaq. Biz artıq bunu başa düşürük. Biz bunu 25 milyon tona və 500 yüz min, yaxud hətta bir milyon TEU-ya çatdırmaq istəyirik ki, təkcə Çindən deyil, həm də Mərkəzi Asiyadan həcmi artan yükləri qəbul etmək imkanımız olsun. Çünki söylədiyim kimi, bugünkü geosiyasi mühitdə bu marşruta ehtiyac var. Biz buna institusional dəstəklə bağlı başqa addımlar da atırıq, çünki fiziki infrastruktur yetərli deyil. Biz artıq Azərbaycan, Qazaxıstan və Gürcüstan arasında birgə müəssisə yaratmışıq. Hazırda biz nəqliyyat marşrutunun rəqəmsallaşdırılması üzərində fəal işləyirik. Gömrük administrasiyamızda süni intellekt sistemi tətbiq edirik ki, yüklərin emalı daha az vaxt aparsın, yüklər üzərində tam şəffaflıq və nəzarət olsun. Beləliklə, dəmir yolu, dəniz limanlarının və s. inşası ilə yanaşı, hazırda bizim etdiklərimiz bundan ibarətdir.

Siz, həmçinin hazırda Azərbaycan üçün daha az əhəmiyyət daşıyan Şimal-Cənub nəqliyyat dəhlizini qeyd etdiniz. Bizim bu qovşaqda yerləşməyimiz həqiqətən mən deyərdim coğrafi lütfdür ki, hər iki yol bizim ərazimizdən keçir. Şimal-Cənub dəhlizinə gəldikdə, artıq bizi Rusiya və İran sərhədi ilə birləşdirən dəmir yolu infrastrukturumuz var. Tezliklə biz yeni dəmir yolu infrastrukturunu inşa etməyə başlayacağıq, çünki təkcə Rusiyadan Fars körfəzinə azı 15 milyon ton yükün gəlməyini gözləyirik. Əgər biz əks istiqamətdən yük əlavə etsək, düşünürəm ki, 15 milyon ton, sadəcə, başlanğıcdır. Hazırda bizim Şimal-Cənub dəmir yolumuzun Azərbaycan seqmenti 6-7 milyon ton yük qəbul edə bilir ki, bu, bizim üçün və tranzitorlar üçün yetərlidir. Lakin gələcək üçün bizim əlavə dəmir yoluna ehtiyacımız olacaq. Artıq biz maliyyənin toplanması üzərində işləyirik və gələn ildən gec olmayaraq bunun praktiki inşasına başlayacağıq. Faktiki olaraq Rusiya sərhədindən Bakıya qədər olan hissə artıq yenidən qurulur. İndi isə bizim Bakıdan İran sərhədinə qədər olan hissənin yenidən qurulmasına ehtiyacımız var. Bununla bağlı son olaraq bildirim, bu yollar iki ayrı yol olmayacaq, çünki bu, yüklərin Cənubdan Qərbə və ya Şimaldan Qərbə daşınmasına imkan verəcək. Mövcud infrastrukturdan istifadə etməklə bu, artıq indi baş verir. Yeni infrastrukturla isə həcm daha böyük olacaq və əlbəttə ki, bu, Azərbaycanın geosiyasi əhəmiyyətini artıracaq və heç şübhəsiz, bizə əlavə maddi mənfəət qazandıracaq.

**Hikmət Hacıyev**: Yoko Hirose, Yaponiyanın Keio Universitetinin professoru.

**Yoko Hirose:** Cənab Prezident, yaratdığınız bu böyük imkana görə Sizə təşəkkür edirəm. Mən Azərbaycan və keçmiş SSRİ regionu üzrə ixtisaslaşmış professoram. Ötən il mən Azərbaycan Xarici İşlər Nazirliyinin “Diplomatiya aləmi” jurnalı üçün Sizin və atanızın məcburi köçkünlərlə bağlı necə böyük siyasət yürütdüyünüzə dair bir məqalə yazdım. Mən xüsusilə Sizin nailiyyətlərinizə hörmətlə yanaşıram və bu gün bu imkana sahib olmaqdan şərəf duyuram.

Hazırda Azərbaycan və Türkiyə beynəlxalq nüfuzlarını artırır. Mən inanıram ki, Azərbaycan beynəlxalq və regional nüfuzunu artırdıqca Zəngəzur dəhlizinin əhəmiyyəti daha da artacaq. Zəngəzur dəhlizinin açılmasına gəlincə, mən belə başa düşürəm ki, Ermənistan və İran ona qarşı çıxır. Azərbaycanın Zəngəzur dəhlizi ilə bağlı baxışı və siyasəti nədən ibarətdir? Bundan başqa, Rusiya bu yaxınlarda sülhməramlı missiyasını Qarabağdan çıxardı. Amma 2020-ci il üçtərəfli Bəyanata əsasən, Zəngəzur dəhlizi açılanda Rusiyanın Federal Təhlükəsizlik Xidmətinin sülhü təmin etməsi nəzərdə tutulur. Bununla bağlı nə baş verəcək? Bundan əlavə, gələcəkdə Qarabağ məsələsi ilə bağlı Azərbaycan-Rusiya münasibətləri necə olacaq? Təşəkkür edirəm.

**Prezident İlham Əliyev:** Təşəkkür edirəm. Siz bir neçə sual verdiniz, çalışacağam ki, hamısını cavablandırım. Zəngəzur dəhlizinə gəlincə, qeyd etdiyiniz kimi, bu, 2020-ci il noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanatda açıq şəkildə əks olunub. Bəli, “Zəngəzur dəhlizi” sözü qeyd olunmayıb, lakin deyilib ki, Azərbaycanın şərq hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsi olmalıdır və Rusiya sərhəd təhlükəsizliyi qüvvələri nəzarəti təmin etməlidir. Bu sənəd Prezident Putin, baş nazir Paşinyan və mənim tərəfimdən imzalanıb. İndi Ermənistan 3 ildən artıqdır ki, bu müddəanı faktiki olaraq pozur və yenə də deyirəm, onlar bunu özləri imzalayıblar. İndi onlar bu paraqrafdan, necə deyərlər, canlarını qurtarmaq istəyirlər. Lakin bu, mümkün deyil. Onlar nə edirlər? Onlar, sadəcə olaraq, Naxçıvan Muxtar Respublikası ilə quru yolu əlaqəsini qurmaq imkanını bloklayırlar. Bu davranış sözsüz ki, çox məyusedicidir. Üçtərəfli Bəyanatın necə imzalanması ayrı söhbətin mövzusudur. Şəraitin necə olduğunu da hər kəs bilir. Amma Ermənistan baş nazirinin imzası var idi və buna hörmət edilməlidir. Göründə ki, proses dayandı, biz faktiki olaraq başqa bir variant axtarmalı olduq və onu tapdıq. Biz İran tərəfi ilə məsləhətləşmələrə başladıq və İran ərazisindən, daha dəqiq desək, Araz çayının cənub hissəsindən keçid yolu yaratmaqla bağlı razılığa gəldik. Nəqliyyat üçün bizim cəmi iki körpüyə və ola bilsin dəmir yolu üçün iki əlavə körpüyə ehtiyacımız var. Yeri gəlmişkən, avtomobil körpülərinin inşasına başlanılıb. Orada hətta Azərbaycandan və İrandan yüksək vəzifəli rəsmilərin iştirakı ilə təməlqoyma mərasimi keçirildi. Sonda nə olacaq? Ermənistan uduzacaq. Onlar qovşaq olmaq istəyirlər, onu sülh qovşağı adlandırırlar. Amma sülh qovşağına çevrilmək üçün, ilk növbədə, onlar bizimlə razılaşmalıdırlar. Çünki əgər Azərbaycan buna razılıq verməsə, bu, sadəcə, bir kağız parçası və ya bəyanat olacaq. Bizimlə razılaşma olmadan bu, tamamilə faydasızdır. Əfsuslar olsun ki, onlar bunu regiondan çox uzaqda yerləşən müxtəlif ölkələrlə müzakirə etməyə çalışırlar. İşə gələndə isə bunu bizimlə müzakirə etmək istəmirlər. Bizim mövqeyimiz çox aydındır. Üçtərəfli Bəyanata hörmət edilməlidir.

Azərbaycanın əsas hissəsindən Naxçıvan Muxtar Respublikasına Ermənistan ərazisi vasitəsilə quru yolu beynəlxalq nəzarət və təhlükəsizlik mexanizmi ilə təmin edilməlidir. Əgər onlar bəzi səbəblərdən indi Rusiya sərhəd təhlükəsizlik qüvvələrinin olmağını istəmirlərsə, onlar bunu deməlidirlər. Lakin bir daha deyirəm, onlar bunu özləri imzalayıblar və öz imzalarına hörmət etməlidirlər. Beləliklə, aydındır ki, onlar tranzit ölkə olmaq imkanını itirəcəklər. Onlar heç vaxt tranzit ölkə olmayıblar, mən müstəqil ölkə kimi nəzərdə tuturam və heç vaxt olmayacaqlar. Çünki sülh qovşağı ilə bağlı bütün bu fərziyyələr Azərbaycan olmadan qətiyyən real deyil. Əgər düşünürlər ki, kimsə gəlib İrandan Ermənistana və Gürcüstana dəmir yolu inşa edəcək, onlar elə birini tapmalıdırlar ki, kim bilir bəlkə də hansısa səbəbə görə 5-7 milyard ABŞ dolları xərcləsin. Halbuki İran ilə Azərbaycan arasında quru əlaqəsi var, Şimal-Cənub Nəqliyyat Dəhlizi tikilir və Azərbaycanla Gürcüstan arasında dəmir yolu əlaqəsi mövcuddur. Hər halda, gələcəklərini necə planlaşdırmaq onların öz işidir.

Bizim planlarımıza gəlincə isə qeyd etdiyim kimi, tikinti başlayıb. Gələn il biz işğal dövründə ermənilər tərəfindən sökülmüş, Füzulidən Zəngilana gedən dəmir yolunun inşasını tamamlamağı planlaşdırırıq. Demək olar ki, hazırdır. Bundan sonra avtomobil körpüsü ilə yanaşı, biz İrana və oradan geriyə Naxçıvana dəmir yolu körpüsü tikməyi planlaşdırırıq. Bu, bizə və digər ölkələrə bu yoldan Fars körfəzinə daşımalar üçün istifadə etməyə imkan verəcək. Çünki bu, Şimal-Cənub nəqliyyat marşrutunun daha bir genişlənməsi olacaq. Çünki Ermənistandan yan keçməklə Naxçıvana gələcək, sonra genişlənmə Culfa vasitəsilə İrana və İranın dəmir yoluna doğru olacaq. Eyni zamanda, Naxçıvanla Qars arasında dəmir yolu əlaqəsinin qurulmasına dair plan var ki, Türkiyə hökuməti bunu artıq elan edib. Bu, həm də Şərq-Qərb nəqliyyat dəhlizinin bir hissəsi olacaq. Bizim hazırda Zəngilana çəkdiyimiz dəmir yolu ilə daşımaların bugünkü həcmi 5 milyon tona yaxındır. Əgər daha çox yükün olduğunu görsək, o, genişləndirilə bilər. Sözsüz ki, Azərbaycan dünya okeanına birbaşa çıxışı olmadan regional nəqliyyat mərkəzi kimi öz mövqeyini gücləndirəcək. Ermənistan isə 30 ildən çox müddətdə olduğu kimi, dalan olaraq qalacaq.

Rusiya sülhməramlılarına gəlincə, Rusiya və Azərbaycan prezident administrasiyaları tərəfindən artıq açıqlama verilib ki, onlar Azərbaycanın Qarabağ regionunu vaxtından əvvəl tərk edirlər. Bu, Rusiya və Azərbaycan liderlərinin birgə qərarı idi. Mən, həmçinin sizə bu məsələ ilə bağlı necə danışıqlar apardığımız barədə məlumat verə bilərəm. Düşünürəm ki, bu, maraqlı olardı. Mən artıq bir neçə dəfə azərbaycanlı jurnalistlərlə görüşlərimdə açıqlamışam ki, noyabrın 9-u günü biz Prezident Putinin vasitəçiliyi ilə, - çünki bizim erməni həmkarımızla heç bir təmasımız yox idi, - üçtərəfli Bəyanatla bağlı danışıqlar zamanı bir neçə telefon



danışığı apararaq üçtərəfli Bəyanatın hər bir bəndini razılaşdırdıq. Ona görə də bu, demək olar ki, noyabrın 10-u səhərədək davam etdi. Ona görə biz həmişə deyirik ki, Bəyanat noyabrın 10-da imzalanıb. Çünki artıq Bakı vaxtı ilə gecə saat 2 və ya 3-ün yarısı idi. Rusiya sülhməramlıları məsələsi təqdim olunmuşdu və Ermənistanın mövqeyi ondan ibarət idi ki, onlar üçün vaxt məhdudiyyəti olmamalıdır. Başqa sözlə, onlar orada həmişəlik qalmalıdırlar. Biz bununla razılaşa bilməzdik və israr etdik ki, vaxt məhdudiyyəti olmalıdır. Bu, hər iki tərəfin razılaşa bilmədiyi ən çətin hissələrdən biri idi. Bizim üçün bu, Bəyanatın ən prinsipial hissələrindən biri idi və bizim mövqeyimiz ondan ibarət idi ki, əgər biz buna razılaşmasaq, Bəyanat olmayacaq və müharibə davam edəcək. Həmin vaxt bizim qoşunlarımız Xankəndinin yaxınlığında idi. Biz qondarma Laçın dəhlizinə de-fakto nəzarət edirdik və biz Şuşanı azad edəndən sonra mühasirəyə alınmış 15 min erməni hərbçinin aqibəti hər kəsə tamamilə aydın idi. Onlar ya təslim olmalı idilər, ya da onlar üçün daha da pis olacaqdı. Biz dedik, yaxşı, əgər heç bir razılaşma olmayacaqsa, biz davam edirik, bir neçə saata Xankəndiyə daxil olacağıq. Beləliklə, Ermənistan razılaşmalı oldu. Zənnimcə, onlar indi başa düşürlər ki, biz haqlı idik. Beləliklə, 5 illik müddət və heç bir tərəf etiraz etmədiyi təqdirdə uzadılma, əslində, qoşunların çıxarılmasının başlanğıc nöqtəsi oldu. Əgər həmin cədvəlimiz olmasaydı, vəziyyət necə olardı, biz bunu ancaq təxmin edə bilərik. Amma yenə də qeyd edirəm ki, qoşunların vaxtından əvvəl çıxarılması Azərbaycanla Rusiya arasında məsləhətləşmələrə əsasən qəbul olunmuş qərar idi. Azərbaycan hər zaman beynəlxalq öhdəliklərinə sadiqdir. Bizim mövqeyimiz ondan ibarət idi ki, əgər orada 2025-ci ilin noyabrı yazılıbsa, bu, elə 2025-ci ilin noyabrı da olmalıdır. Lakin, eyni zamanda, hər iki tərəf - Rusiya və Azərbaycan açıq-aydın başa düşürdü ki, əslində, onlar daha tez tərk edə bilərlər. Lakin yenə də bu, birgə verilmiş qərar idi və düşünürəm ki, bu qərar Rusiya-Azərbaycan əlaqələrini yalnız gücləndirdi.

Bildiyiniz kimi, dünən mən Rusiyada idim. Ona görə də biz görüşümüzün vaxtını dəyişdik. Mən bu səhər saat 3-ün yarısı qayıtmışam. Bu səbəbdən sizdən görüşü səhər keçirməməyi xahiş etdim. Beləliklə, əminəm ki, bu qərar bizim əlaqələrimizi, həmçinin ikitərəfli əlaqələrin ictimaiyyət tərəfindən qəbulunu və qiymətləndirilməsini gücləndirdi. Çünki bu onu göstərir ki, ölkələrin normal kommunikasiya kanalları olanda, onlar bir-birinə hörmət bəsləyəndə, əməkdaşlıq edəndə, bir-birinə qarşı heç nə etməyəndə ən həssas məsələlərlə bağlı razılığa gələ bilərlər və bu nümunə bunun bariz göstəricisidir. Dünən biz Rusiya ilə Azərbaycan arasında əlaqələrin strateji məzmununu bir daha təsdiqlədik və əminəm ki, bu, bizim ölkəmizin, Rusiyanın və regionun xeyrinədir.

**Hikmət Hacıyev**: Kreyq Olifant, Böyük Britaniya Xarici Siyasət Mərkəzinin baş məsləhətçisi.

**Kreyq Olifant:** Cənab Prezident, belə sıx qrafikdə fikirlərinizi bizimlə bölüşməyə vaxt ayırdığınız üçün Sizə təşəkkür edirəm. İcazənizlə, digərləri kimi, mən də vaxtında və yerində təşkil olunmuş bu cür müzakirələrdə görüşmək üçün yaradılan əvəzolunmaz fürsətə görə Sizə və təşkilatçılara minnətdarlığımı bildirim. Sualım artıq qismən cavablandırılıb, ancaq sərhədlərin delimitasiyası barədə, o cümlədən haqqında eşitdiyimiz qaytarılan kəndlərlə yanaşı, daha mürəkkəb məsələ olan eksklavlar barədə əlavə şərh verə bilərsinizmi? Əlbəttə, biz ötən həftədəki xoş xəbərləri çox yaxından izləyirik. İrəliyə aparılan razılaşmaların yerinə yetirilməsi perspektivlərini və ümumi anlaşma mexanizminə təsirini necə qiymətləndirirsiniz? Bir qədər əvvəl sülh prosesi kontekstində COP29-dan bəhs etdiniz. Mənə maraqlıdır, bu açıqlama ilə bağlı sual verə bilərəmmi? Noyabrda COP29-un keçirilməsini 2024-cü il ərzində sülh prosesində ümumi razılaşmanın əldə edilməsində irəliləyiş üçün əlverişli vasitə kimi görürsünüzmü? Təşəkkür edirəm.

**Prezident İlham Əliyev:** Təşəkkür edirəm. Düşünürəm ki, COP29-dan əvvəl Azərbaycanla Ermənistan arasında razılaşmanın, ən azı baza prinsipləri ilə bağlı razılaşmanın əldə olunması tamamilə realdır. Hesab edirəm ki, baza prinsipləri ilə bağlı razılığa gəlmək və sonra məzmunun təfərrüatlarına daha çox vaxt ayırmaq da bir variantdır. Lakin hətta layihə hazır olsa da, düşünürəm ki, bunun üçün hər iki tərəf gərgin işləməli və ola bilsin görüşləri bir gün deyil, bir neçə gün keçirməlidir.

Delimitasiya və sülh razılaşması iki ayrı məsələdir. Düşünürəm ki, onları birləşdirmək və bir-birindən asılı etmək yanlış olar. Bunun çox sadə bir səbəbi var. Bizim Ermənistanla sərhədimiz təxminən min kilometrdir, ola bilsin daha çox və ya daha az. Bu sərhədin böyük hissəsi 30 ildən çox işğal altında olub - Kəlbəcərdən, Murovdağdan Araz çayına qədər təxminən 500 kilometrdir. Sovet dövründə hətta bizim inzibati sərhədlərimiz olanda Ermənistan Sovet Respublikası ilə Azərbaycan Sovet Respublikası arasında inzibati sərhədin bir hissəsi müəyyən olunmamışdı. Sərhədin böyük hissəsində məskunlaşma tamamilə olmayıb, dağların hündürlüyü 3500 metrdir, ilin 9 ayı qarla örtülü olur. Bu, həqiqətən də çox mürəkkəb relyefdir. Praktiki nöqteyi-nəzərdən qısa müddətdə bu sərhədin delimitasiyası mümkün deyil.

Regional məsələlərin digər iki nümunəsi. İki dost ölkə olan Azərbaycan və Gürcüstan, həmçinin iki dost ölkə olan Ermənistanla Gürcüstan 30 ildən çox müddətdə öz sərhədlərinin delimitasiyasını apara bilməyib. Qeyd etdiyim kimi, ona görə yox ki, bizim problemlərimiz var, - həm Ermənistanın, həm də Azərbaycanın Gürcüstanla dost münasibətləri var, - ona görə ki, bu, mürəkkəb məsələdir. Bizim Gürcüstanla sərhədimiz, yəni, sərhədin razılaşdırılmış hissələri cəmi 70 faiz təşkil edir. Bu, ləng gedən prosesdir, bu proses yüksək dəqiqlik tələb edir. Ona görə də biz Ermənistanla Azərbaycan arasında sərhədin delimitasiyasını gözləyib sonra sülh razılaşması imzalasaq, bizə daha 30 il vaxt lazım olacaq. Bizim təklifimiz bu iki məsələni ayırmaqdan ibarətdir. Bunu deyərkən kiminsə bizim mövqeyimizi yanlış şərh etməsini və ya, necə deyərlər, fərziyyələr irəli sürməsini istəmirəm. Azərbaycan və Ermənistan 2022-ci il oktyabr Bəyanatı ilə bağlı razılığa gələndə bu, açıq-aşkar onu göstərdi ki, bizim əlaqələrimiz yaxşı məlum olan 1991-ci il Alma-Ata Bəyannaməsinə əsaslanacaq. İkincisi, biz dedik ki, Ermənistana qarşı ərazi iddialarımız yoxdur, əgər onların Azərbaycana qarşı ərazi iddiaları olmasa. Biz Ermənistana nümayiş etdirdik ki, əgər onlar Azərbaycana qarşı ərazi iddialarını davam etdirsələr, bizim Ermənistana qarşı ərazi iddialarımız olacaq. Bunun nəticəsi necə olacaq, düşünürəm ki, hər kəs başa düşür. Onlar Azərbaycana qarşı ərazi iddialarını açıq şəkildə aradan qaldırandan və Qarabağı ölkəmizin tərkib hissəsi kimi tanıyandan sonra əlbəttə ki, bizim tərəfimizdən Ermənistana qarşı heç bir ərazi iddiası olmayacaq. Mən, sadəcə olaraq, buna aydınlıq gətirmək istədim ki, bəzən buradan uzaqda yerləşənlər ermənilərdən daha çox erməni kimi davranmaq, bizim siyasətimizi və addımlarımızı yanlış təqdim etmək istəyəndə bizim siyasətimiz və mövqeyimiz yalnız praqmatizmə əsaslanır.

Delimitasiyanın Qazaxın işğal olunmuş kəndlərindən başlanması bizim təklifimiz idi. Biz Ermənistan tərəfinə dedik, əgər onlar həqiqətən də nümayiş etdirmək istəyirlərsə ki, bu istiqamətdə irəliləməyə hazırdırlar, bunu etməlidirlər. Çünki bu kəndlər məskunlaşmış kəndlərdir, mübahisə obyekti ola biləcək məskunlaşma olmayan təpələr deyil. Orada azərbaycanlılar məskunlaşmışdılar və kəndlər işğal edilmişdi. Onlardan biri hətta Sovet İttifaqı dövründə - 1990-cı ildə faktiki olaraq bizə qarşı müharibə başlayanda işğal edilmişdi. Dördüncüsü 1992-ci ildə artıq Sovet İttifaqının süqutundan sonra işğal olunmuşdu. Düşünürəm ki, dövlət sərhədimizin təxminən 10 və ya 12 kilometri artıq delimitasiya olunmuş hesab edilir. Bu, mühüm məqamdır. Təsadüfi deyil ki, bir çox region və qeyri-region ölkələri artıq buna öz dəstəklərini ifadə edib. Prosesin necə davam edəcəyini görəcəyik. Əvvəl qeyd etdiyim kimi, hər iki tərəf konstruktivlik nümayiş etdirdi, hər iki tərəf bu məsələnin həssaslığını, eyni zamanda, beynəlxalq hüquqla öhdəliyi başa düşür və düşünürəm ki, eyni yanaşma sonrakı mərhələdə nümayiş olunsa, biz daha sürətlə irəli gedə bilərik.

Bizim hər zaman praqmatizm nöqteyi-nəzərindən qaldırdığımız bir məsələ də var ki, sərhəd, heç şübhəsiz, prinsiplərə əsasən delimitasiya olunmalıdır. Lakin, eyni zamanda, sərhədin elə hissələri var ki, hər iki tərəf üçün problemlər yaradır. Bu, yollar, bəzən təhlükəsizlik mexanizmi, bir-birinin ərazilərinin dərinliyinin görünməsi ilə bağlı olur. Ona görə də biz kreativ olmalıyıq. Biz bir xətti tutaraq “kor pişik” kimi bu xətlə getməməliyik. Biz xətti əsas kimi götürürük, amma məntiqli olmalıyıq və hər iki tərəf üçün təhlükəsiz, hər iki tərəf üçün rahat olacaq sərhədlə bağlı razılığa gəlməliyik. Baxmayaraq ki, qeyd etdiyim kimi, sərhədin və ətraf ərazilərin böyük hissəsi məskunlaşma olmayan yerlərdir, insanların bir-birinə yaxın yaşadığı hissələr var. Onlardan biri məhz həmin 4 kəndin ərazisidir ki, yaşayış məntəqələri arasında məsafə ola bilsin bir neçə yüz metr və ya ondan da azdır. Biz bu dörd kəndlə bağlı məsələni faktiki olaraq İkinci Qarabağ müharibəsindən dərhal sonra qaldırdıq, biz onları heç vaxt unutmuruq.

Eksklavlar məsələsi başqadır, çünki onlar daha mürəkkəbdir və digər ölkənin əhatə etdiyi ərazidə yerləşir. Buna görə onlara delimitasiya prosesində baxılmalıdır. Əgər Ermənistan tərəfi onları indi - ikinci mərhələdə nəzərdən keçirmək istəyirsə biz hazırıq. Onlar məsələyə sonra baxmaq istəyirlərsə, biz yenə də hazırıq. Delimitasiya başa çatdıqdan dərhal sonra – hazırda Qazax rayonunun dörd kəndinin sahəsində demarkasiya aparılır. Düşünürəm ki, hər iki tərəf, yəni, iki Delimitasiya Komissiyası növbəti addımlar üzərində razılığa gəlməlidir. Biz həmin məsələyə ayrıca epizod kimi baxılmasını istəmirik və delimitasiya işini davam etdirmək istəyirik. Təklif edirəm ki, iş bəlkə də ən asan hissədən başlasın. Əgər Ermənistan tərəfi ən çətin hissədən başlamaq istəyirsə, məsələn eksklavlar, biz onun üçün də hazırıq.

**Hikmət Hacıyev:** Stanislav Pritçin, Dünya İqtisadiyyatı və Beynəlxalq Münasibətlər İnstitutunun Mərkəzi Asiya sektorunun rəhbəri (Rusiya Federasiyası).

**Stanislav Pritçin:** Cənab Prezident, Sizi salamlayıram. Vaxt ayırdığınıza görə çox sağ olun. Azərbaycanın enerji balansı ilə bağlı əhatəli cavablarınızdan sonra sualım öz aktuallığını bir qədər itirdi. Bununla belə cəhd edəcəyəm. Sual nüvə enerjisi ilə bağlıdır, çünki ətraf mühitə vurulan ziyan baxımından, ola bilsin, o, ən az ziyanlı enerji mənbələrindən biridir. Xüsusən də nəzərə alsaq ki, hətta günəş panellərinin utilizasiyası adətən çox baha başa gəlir. Eyni zamanda, ətraf mühitə ziyan vurmadan həmin prosesi təşkil etmək çox çətindir. Bununla belə, hazırda biz nüvə enerjisində xüsusi sıçrayışı görürük. Məsələn, köhnəlmiş reaktorlarda istifadə olunmuş xammalın müasir surətli neytron reaktorlarında istifadəsi mümkündür. Rusiyanın “Rosatom”u bu sahədə aparıcı şirkətlərdən biridir. Bu perspektivdən yanaşaraq xüsusən də nəzərə alsaq ki, Azərbaycanda nəhəng qaz ehtiyatları var və onlar da tükənməyən deyil, uzunmüddətli ekoloji məsələlər baxımından Azərbaycan aşağı gücü olan reaktorlardan və ümumiyyətlə, nüvə enerjisi stansiyalarından istifadəni enerjiyə tələbat sahəsində həll variantı kimi görürmü?

**Prezident İlham Əliyev:** Sağ olun. “Rosatom” bizə müxtəlif ideyalarla müraciət edib. Hazırda onlarla məsləhətləşmələr prosesindəyik. Düzgün qeyd etdiniz, bizim nəhəng qaz ehtiyatlarımız var. Qaz isə bərpaolunan enerji ilə yanaşı, ən təmiz enerji mənbəyi hesab edilir. Bu baxımdan təhlükəsizliyimiz təmin olunub. Hətta indi elektrik enerjisini ixrac edirik. Rusiya ilə mübadilə əməliyyatlarını da aparırıq. Bütün il ərzində biz Rusiyaya və geriyə təxminən eyni həcmdə elektrik enerjisini idxal-ixrac edirik. Biz, həmçinin elektrik enerjisini Gürcüstana və onun ərazisi ilə Avropaya ixrac edirik. Daxili istehlaka gəldikdə, bizə əlavə mənbələr lazım deyil.

İkinci arqument ondan ibarətdir ki, həmin məsələ texnoloji inkişaf və mütəxəssislərin hazırlanması, o cümlədən uzunmüddətli enerji siyasətimizin strategiyasının formalaşdırılması baxımından bizim üçün maraqlı ola bilər. Ona görə biz bu mövqedən çıxış edərək həmin potensialın qiymətləndirilməsində maraqlıyıq.

(ardı 8-ci səhifədə)

# ADA Universitetində “COP29 və Azərbaycan üçün Yaşıl Baxış” mövzusunda beynəlxalq forum

**(əvvəli 7-ci səhifədə)**



Xüsusən də siz qeyd etdiniz ki, hazırda həmin enerji mənbəyi yeni texnologiyalar əsasında heç vaxt görünmədiyi qədər daha cəlbedici və təhlükəsizdir. Vacib məsələ xərclərlə bağlıdır və onları kim qarşılayacaq? Artıq qeyd etdiyim bərpaolunan enerji layihələrinə gəldikdə, onların hamısı xarici sərmayədarlar tərəfindən maliyyələşdiriləcək. Digər sözlə, Azərbaycan bu sahəyə bir dollar belə sərmayə yatırmayacaq. Əgər yerli şirkətlər sərmayədar olmaq istəyirlərsə, əlbəttə ki, bu, mümkündür. Lakin Azərbaycan dövləti sərmayədar olmayacaq. Bizim sərmayə yatıracağımız sahə yalnız elektrik enerji şəbəkəsi olacaqdır, çünki biz minlərlə meqavatla ölçülən külək və günəş enerjisini qəbul etmək üçün elektrik enerjisi şəbəkəmizi gücləndirməliyik.

Nüvə enerjisinə gəldikdə, adətən qəbul edən ölkə xərcləri qarşılayır və bu, çox bahalıdır. İqtisadi nöqteyi-nəzərdən, düşünürəm ki, hazırda hətta kredit sazişi olsa belə, bu cür razılaşmaya girmək düzgün olmazdı. Əgər kredit sazişi olarsa, siz onu qaytarmalısınız. Ətraf mühitin qorunması baxımından, bəli, biz təbii ki, onun tərəfdarıyıq, lakin o dərəcədə olmalı deyil ki, siz müəyyən məsələyə maliyyələşməni başqa mənbələrdən taparaq bir neçə milyard xərcləyəsiniz. Bunları xərc olmadan etmək mümkündür. Bu, əslində, Azərbaycanın mövqeyidir. Biz qapını bağlamırıq, lakin eyni zamanda, bu baxımdan o dərəcədə fəal siyasət də yürütmürük. Biz dəyərləndirmə mərhələsindəyik və əlbəttə, həmin məsələnin əhəmiyyətli hissəsi bazarlarla bağlıdır, çünki hətta indi qabaqcıl bazara çıxışı əldə etmək üçün biz çox uzun yol qət etməliyik və minlərlə kilometrlik ötürücü xətləri, o cümlədən Qara dənizin dibi ilə xətləri çəkməliyik. Beləliklə, ixrac bazarları timsalında mümkündür, lakin yerli istehlaka gəldikdə, bu, problem kimi görünür.

**Hikmət Hacıyev:** Giorgi Qvrimadze, Gürcüstan İctimai Kanalının xəbərlər və cari işlər redaksiyasının direktoru.

**Giorgi Qvrimadze:** Cənab Prezident, vaxt ayırdığınıza görə çox sağ olun. Burada olduqca maraqlı görüşə məni dəvət etmiş təşkilatçılara təşəkkürümü bildirmək istəyirəm. İcazənizlə, mən sualımı öz regionumuza aid edim. Sualım regional əməkdaşlığımız haqqında olacaq. Bu səhər tələbələrlə aparılmış müzakirələr zamanı inkişafı təmin edən əsas şərtlərdən biri kimi sabitlik və təhlükəsizlik haqqında çox söhbətlər oldu. Regiona isə məhz bu lazımdır. Bir tərəfdən, biz hamımız praqmatik mövqe tuturuq ki, region daxilində birgə enerji imkanlarını inkişaf etdirmək üçün səylərimizi birləşdirək. Məsələn, qeyd etdiniz ki, ənənəvi enerji ehtiyatları ilə yanaşı, Sizin yaşıl enerji ilə bağlı planınız var. Ermənistanın nüvə enerjisi imkanları var. Gürcüstanın və bütövlükdə, regionun su ehtiyatları mövcuddur. Siz enerjinin ötürülməsi imkanları haqqında danışdınız. Digər tərəfdən isə, Siz Türkiyə Prezidenti Ərdoğan ilə 2020-ci ildə “3+3” formatını, sülh sazişini və bir çox məsələləri qeyd etdiniz. Ümid edirik, saziş baş tutacaq. Lakin bütün praqmatik nəticələrə baxmayaraq, Siz dayanıqlı sabitlik və təhlükəsizlik haqqında nə söyləyə bilərsiniz? Bunun regionumuzda olacağına inanırsınızmı? Çünki hər hansı regional əməkdaşlığın mümkün iştirakçıları arasında kifayət qədər mürəkkəb münasibətlər var. Demək istəyirəm ki, çox mürəkkəb bölgədə tək bir ölkənin inkişafı haqqında danışmaq çətindir. Sizə dayanıqlı regional əməkdaşlıq lazımdır və Sizin fikrinizcə, regionumuz daxilində bu cür əməkdaşlıq üçün dayanıqlı platforma hansı ola bilər? Təşəkkür edirəm.

**Prezident İlham Əliyev:** Düşünürəm ki, əgər biz Azərbaycan ilə Ermənistan arasında uzunmüddətli toqquşmaya son qoysaq və lap yaxın zamanda sülh sazişini imzalasaq, onda sizin dedikləriniz reallığa çevrilə bilər. Çünki əslində, Cənubi Qafqaz ölkələrinin potensialı artıq məlumdur və biz hansı sahələrdə birgə işləyə biləcəyimizi də bilirik. Siz elektrik enerjisi sahəsini qeyd etdiniz və üç ölkənin potensialını düzgün müəyyən etdiniz. Bəli, elədir. Lakin əgər biz, məsələn, Azərbaycan ilə Gürcüstan arasında təbii qaz sahəsində əməkdaşlığı buraya əlavə etsək, görərik ki, o, qarşılıqlı şəkildə faydalıdır və bu gün Gürcüstan təbii qaz təchizatı sahəsində təhlükəsizliyini 100 faiz təmin edib. Gürcüstanda iqtisadiyyatın və sənayenin artımı nəticəsində istehlak da ilbəil artır. Biz təchizatımızı hər il artırırıq və hazırda, düşünürəm ki, o, artıq üç milyard kubmetrə çatıb. Gürcüstanın qaz təchizatının təxminən 100 faizini Azərbaycan təmin edir. Potensial qaydada xüsusən də, Gürcüstan üçün qaz qiymətinin çox əlverişli və güzəştli olmasını nəzərə alaraq, Ermənistan da Azərbaycan qazını ala bilər. Yaxınlıq, infrastruktur baxımından, əlbəttə ki, bu cür əməkdaşlıq təbii olardı.

Biz Zəngəzur dəhlizi haqqında danışanda, onu təkcə dəmir yolu və ya avtomobil yolu kimi görmürük, o cümlədən onu potensial qaydada əlaqə, kabel kimi də görürük. Çünki elektrik kabellərindən biri əgər Ermənistandan keçərsə ixrac imkanlarımızı artıra bilər. Potensial qaydada, o, hətta qaz boru kəməri də ola bilər, çünki bu gün Naxçıvana təbii qazı təchiz etmək üçün biz İranla razılaşmamıza arxalanırıq. Yəni, qaz Naxçıvana İran vasitəsilə gedir. Hazırda biz digər boru kəmərini çəkirik. Türkiyədən Naxçıvana gedən kəməri maliyyələşdiririk və o yolla Azərbaycan qazı nəqil olunacaq. Lakin bu, sol qulağınızı sağ əl ilə qaşımağa bənzəyir. Əgər o, Ermənistandan keçərsə, hamı üçün faydalı olar və əlbəttə ki, çox xərclərə qənaət etmiş olarıq. Bir çox digər məsələlər də bu cür çözülə bilər. Bilirəm ki, Ermənistan Qara dənizin dibi ilə çəkiləcək kabelə qoşulmaq istəyir, çünki o, əlavə enerji imkanlarını yaradacaq. Lakin onlar Azərbaycanla münasibətləri səliqə-sahmana salmadığına görə qoşula bilmirlər. Hazırda Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan kimi dörd ölkə var və Bolqarıstan da qoşulmaq üzrədir. Beləliklə, başqa yol yoxdur və bu, konsensus əsasında olan qərardır. Bu səbəbdən sülh sazişi başlanğıc nöqtəsidir.

Sülh sazişindən sonra gələcəyimizin planlaşdırılmasına gəldikdə, əlbəttə ki, bunu etməliyik. Biz həmin gürcüstanlı həmkarlarımızla praktiki əhəmiyyət təşkil edən məsələləri, daşımalar, enerji, potensial ticarət münasibətlərinə aid işlər barədə məsləhətləşmələrə başlamaq üçün üçtərəfli məsləhətləşmə məsələsini bir neçə dəfə müzakirə etmişik. Lakin Ermənistan hər dəfə imtina edib və gürcüstanlı həmkarlar bunu çox yaxşı bilirlər. Regional əməkdaşlıq bölgə ölkələri ilə yaxşı münasibətlərə əsaslanmalıdır və düşünürəm ki, bu, Cənubi Qafqaz üçün ən yaxşı ssenaridir. Yeri gəlmişkən, Azərbaycan, Gürcüstan və Türkiyə arasında üçtərəfli əməkdaşlıq formatımız var və müxtəlif nazirliklərin rəhbərləri dövri olaraq görüşürlər. Bir sözlə, bütün bunlar mümkündür, lakin sülh sazişi məsələsində bizə nəticə lazımdır. Səmimi desək, nə Gürcüstan, nə Azərbaycan bu gün öz enerji təhlükəsizliyi və ya daşımalar təhlükəsizliyinə gəldikdə, hər hansı çətinliklərlə üzləşmirlər. Bu, yalnız Ermənistanda çatışmır.

Açığı desək, mənim üçün böyük sual olaraq qalır: nəyə görə onlar Zəngəzur dəhlizinə qarşı bu cür canfəşanlıqla çıxırlar? Nəyə görə onlar bunu təhlükə kimi görürlər? Onlarda bir növ fobiya var və mən bunun izahını bilmirəm. Onlar hətta “dəhliz” sözünə qarşı çıxırlar. Düşünürlər ki, dəhliz suverenliyin pozulması deməkdir. Biz Azərbaycan ərazisindən keçən Şimal-Cənub Nəqliyyat Dəhlizindən danışanda, bizdə belə fobiya yoxdur. Dəhliz yaxşı məlum olan beynəlxalq sözdür və onlar Zəngəzur dəhlizinin adını eşitdikcə sanki ağıllarını itirirlər. Bir sözlə, bu, çox qəribədir. Lakin bir daha qeyd etmək istəyirəm ki, biz gələcək haqqında düşünməliyik.

Hesab edirəm ki, siz düşünməli mühüm məsələləri və sülh sazişindən sonra inkişafın planlaşdırılması məsələsini qaldırdınız. Bu məqamda mən həmin məsələ haqqında düşünmək üçün, həmçinin həmkarlarımızı və iştirakçıları dəvət edirəm. Bəlkə bu cür sessiyanın təşkili üçün Gürcüstanda müəyyən qeyri-formal görüşlər, seminar təşkil olunsun və potensial araşdırılsın, çünki hazırda biz yalnız baş verə biləcək məsələləri görə bilərik. Ola bilər ki, düşünmədiyimiz bir çox digər məsələlər də ortaya çıxa bilər. Bir sözlə, biz buna müsbət baxırıq. Düşünürük ki, regional proseslərə region ölkələri tərəfindən baxılmalıdır. Yeri gəlmişkən, müzakirə etdiyimiz məsələ əla nümunədir: delimitasiya, Qazaxın dörd kəndinin qaytarılması göstərir ki, biz ikitərəfli qaydada birgə işləyəndə yaxşı nəticələrə nail ola bilərik.

**Hikmət Hacıyev:** Ellen Vasilina, Forum Təşəbbüsü Təşkilatının prezidenti və təsisçisi (Fransa).

**Ellen Vasilina:** Sağ olun, cənab Prezident. Burada olmaqdan və Azərbaycana yenidən gəlməkdən şərəf duyuram.

**Prezident İlham Əliyev:** Sağ olun.

**Ellen Vasilina:** Təşəkkür edirəm. Mənim bir neçə sualım var. Lakin düşünürəm ki, əgər icazə versəniz, digər sualları da əlavə edəcəyik, çünki düşünürəm ki, Siz sualların əksər hissəsinə artıq cavab verdiniz. Əlbəttə ki, əsas sual belədir: COP-dan nəyə nail olmağı ümid edirsiniz? Lakin yenə də, fikrimcə, Siz bunun da əksər hissəsinə artıq cavab verdiniz. Elədirmi? Həmçinin BMT-nin 2030-cu ilədək inkişaf məqsədlərinə nail olmaq üçün Azərbaycan enerji təhlükəsizliyini, təchizat və tələbatı, dayanıqlı iqtisadi və sosial sahələri hansı şəkildə əlaqələndirmək istəyir? Hansı sərmayələri planlaşdırır? İcazənizlə, buna bir qədər əlavə də edim. Cənab Prezident, təhsil məsələlərinə toxunaq. ADA-da görüşdüyümüz gənc tələbələrdən ibarət növbəti nəsli qarşıdan gələn çağırışlara necə hazırlayırsınız? Sağ olun, cənab Prezident.

**Prezident İlham Əliyev:** Sağ olun. Düşünürəm ki, burada - ADA-da olmaq təhsil siyasətinin yaxşı təzahürüdür. Həqiqətən, hər kəsə tam aydındır ki, yatırmağa çalışdığımız ən yaxşı sərmayə təhsilə, gənc nəslə yatırdığımız sərmayədir. Bu, bizim üçün əsas prioritetlərdən biridir. Bizim beynəlxalq tərəfdaşlarla xüsusi proqramlarımız var. Gənc nəslimizin aparıcı beynəlxalq universitetlərdə təhsili üçün xüsusi Prezident proqramı mövcuddur. Eyni zamanda, Azərbaycanda yüksək səviyyədə təhsil prioritetdir. Biz, həmçinin hər ikisini bir araya gətirməyə çalışırıq və hazırda xaricdə təhsil Prezident proqramı əsasında maliyyələşdirilir. Eyni zamanda, biz yerli potensiala əsas diqqət yetiririk və yəqin siz bilirsiniz ki, bu yaxınlarda bizim Azərbaycan-İtaliya Universitetinin ayrıca binası olacaq. Onun təməli qoyulub, lakin tikintisi davam edir. Bizim uzun illər fəaliyyət göstərən Azərbaycan-Fransız Universiteti var. Həmçinin Rusiya Federasiyasının iki universiteti - Moskva Dövlət Universiteti və Tibb Akademiyasının filialları da fəaliyyət göstərir.

Dayanıqlı inkişaf və enerji məsələsinə gəldikdə, düşünürəm ki, iqtisadi göstəricilərimiz və sosial proqramlarımız gəlirlərin ədalətli şəkildə paylanmasını təmin etmək üçün neft və qaz vəsaitlərini yoxsulluq və işsizlik kimi məsələlərin həllinə yönəltdiyimizi aydın şəkildə göstərir. Enerji əməkdaşlığımıza başlayanda və neft satışından ilk gəlirləri əldə edəndə Azərbaycanda yoxsulluğun səviyyəsi 50 faizə yaxın idi. Yəni, hər iki adamdan biri yoxsul idi. Qaçqınlar arasında bu göstərici 75 faizi ötürdü. Vəziyyəti təsəvvür edə bilərsiniz! Hazırda biz həmin göstəricini 5 faizə qədər azaltdıq. Eyni vəziyyət işsizlikdə müşahidə olunur. Hazırda Qarabağda sosial infrastruktur yaradılır, genişmiqyaslı tikinti gedir. Lakin əvvəllər hər yer o cür idi. Müasir xəstəxanalar, klinikalar, universitetlər, məktəblərin tikintisi üzrə xüsusi proqram var. Bir sözlə, sosial infrastruktur ən vacib məsələlərdən biridir. Məşğulluğa aid məsələ hər zaman diqqət mərkəzində olub, çünki əhali artır. İlbəil bizim on minlərlə yeni vətəndaşımız dünyaya gəlir və beləliklə, biz məşğulluq məsələlərində hər zaman diqqətli olmalıyıq. İşsizliyin bu qədər aşağı səviyyədə olması bizi rahat etməli deyil. Əgər siz inkişaf məsələsini həll etməsəniz, çətin olacaq. Xüsusən də indi - dördüncü sənaye inqilabı zamanı bir çox ixtisas və peşələrə ehtiyac qalmır. Beləliklə, biz ciddi çağırışla üzləşəcəyik. Buna görə biz gənc nəslimizi hələ mövcud olmayan, lakin iki-üç ildən sonra yaranacaq yeni işlərə hazırlamalıyıq.

Peşə təhsilinə xüsusi diqqət yetiririk. Hazırda bütün ölkədə peşə təhsili mərkəzlərinin açılmasına dair xüsusi proqramımız var. Rayonların iqlim şəraiti və ya inkişaf istiqamətindən asılı olaraq məktəblər açırıq. Məsələn, biz turizm yerlərində turizm peşə məktəblərini açırıq. Digər yerlərdə, sənayeyə aid mərkəzlər açılır. Bu, müəyyən elementlərin toplusudur. Lakin, əlbəttə ki, əsas məqsəd təhsilin səviyyəsini bu gün olduğu kimi yüksək səviyyədə saxlamaqdır. Bu gün mütləqdir ki, ölkənin inkişafına töhfə vermək üçün gənc nəsillər təlimdən keçməlidir. Yadımdadır, ilk dəfə gənclərin xaricə təhsil üçün göndərilməsi proqramına başlayanda müəyyən fikir var idi ki, biz onların geri qayıtması üçün təminat almalıyıq, çünki bu cür olmasa, biz çox vəsait xərcləyəcəyik və onlar oxuduqları yerdə qalacaqlar. Dedim, yox! Bildirdim ki, biz ölkəmizdə elə şərait yaratmalıyıq ki, onlar qayıtmağa üstünlük versinlər. Beləliklə, hazırda mən görürəm ki, Birləşmiş Ştatlarda, Britaniya və Avropanın digər ölkələrində təhsil almış tələbələrin əksəriyyəti geri qayıdır. Bu, onu göstərir ki, biz düzgün yoldayıq. Biz daha ürəkdən çalışmalıyıq ki, gənc azərbaycanlılar ölkəni tərk etməsin, çünki bu, postsovet məkanında bir çox ölkələrdə problemlərdən biridir. Yəni gənc nəsil ölkəni tərk etməyə üstünlük verir və sonra əhalinin azalması ilə üzləşirsiniz. Bizdə isə əhali artımı var. Bəzi ölkələrin fərqli problemləri var. Bilmirəm, hansı problem daha sərtdir. Düşünürəm ki, bizim vəziyyət daha yaxşıdır, çünki ölkədə əhali çox olanda, siz daha güclüsünüz. Lakin siz onları işlə, evlə, layiqli şəraitlə, səhiyyə ilə təmin etməlisiniz və biz bu işləri görürük. Biz neft və qazın satışından əldə edilən gəlirlərin əksər hissəsini sosial sahəyə yönəldirik. Sağ olun.

**Hikmət Hacıyev:** Amerika Birləşmiş Ştatlarının Prinston Universitetinin professoru, Diplomatiya Tarixi və Təcrübəsi Proqramının direktoru Maykl Reynolds.

**Maykl Reynolds:** Cənab Prezident, bizimlə görüşmək üçün vaxt ayırdığınıza görə bir daha təşəkkürümü bildirirəm. Təbii ki, bu görüşü mümkün etdiyinə və sabah səfərimizi təşkil etdiyinə görə ADA Universitetinə, xüsusi olaraq, onun rektoru səfir Paşayevə minnətdaram. Bir professor kimi, mən öz gənclərinin gələcəyi üçün Azərbaycanda təhsilə bu qədər böyük diqqət yetirdiyinizi eşitməkdən çox məmnun oldum. Bu gün biz əvvəlcə bir sıra bacarıqlı azərbaycanlı tələbələrlə görüşdük və onlarla aparılan söhbətin səviyyəsi mənə xoş təsir bağışladı. Beləliklə, mən bunu eşitməkdən çox şadam. Səfərdən yenicə qayıtdığınızı və Moskvada Vladimir Putinlə görüşdüyünüzü nəzərə alaraq, mən Yaponiyadan olan həmkarımın verdiyi sualı davam etdirmək istərdim. Siz və biz hamımız bildiyimiz kimi, Rusiya 200 ildən artıq müddətdə bu regionda çox mühüm rol oynayıb və güclü mövqedə olub. Hazırda, ola bilsin, o, öz hərbçilərinin sayını azaldır. Sülhməramlılar Azərbaycandan çıxırlar və görünür, o, Ermənistanda da onların sayını azaldır. Eyni zamanda, bir sual yaranır. Regionda Rusiyanı əvəz etməyə çalışan bəzi kənar qüvvələr var və Rusiyanın Cənubi Qafqazda gələcək rolu ilə bağlı fikirlərinizi öyrənmək mənim üçün maraqlı olardı. Cənubi Qafqazda digər kənar qüvvələrin rolu barədə şərhlərinizi verərdiniz. Sizcə, bu, necə ola bilər, bu, regionda Azərbaycan üçün hansı faydanı gətirə bilər? Həmin qüvvələr hansı təhlükələri gətirə bilər? Təşəkkür edirəm.

**Prezident İlham Əliyev:** Sağ olun. Rusiya Azərbaycanın qonşusudur və bu ölkə ilə müxtəlif sahələrdə bizim çox fəal əməkdaşlığımız var. Dünən Prezident Putinlə görüş zamanı biz həmin məsələləri, iqtisadi əməkdaşlığımızı və xüsusən də daşımalar sahəsində işbirliyimizi geniş şəkildə müzakirə etdik. Əlbəttə ki, əməkdaşlığın böyük hissəsi humanitar sahəyə aiddir. Azərbaycanda 300-dən artıq rus məktəbi var və insanlar rus məktəblərində təhsil almağa üstünlük verərək onları seçirlər. Bir sözlə, ümumi məsələlərimiz çoxdur və regional ölkə - Qafqaz ölkəsi olaraq, - çünki Qafqazın müəyyən hissəsi Rusiya hüdudları daxilindədir, - əlbəttə ki, Rusiya bu regionu heç zaman tərk etməyəcək. Çünki onun özü bu regiona aiddir və düşünürəm ki, Cənubi Qafqazın bütün ölkələri Rusiya ilə qarşılıqlı hörmət, suverenlik, ərazi bütövlüyü və qarşılıqlı maraq əsasında yaxşı münasibətlərin qurulmasında maraqlı olmalıdırlar. Düşünürəm ki, Azərbaycanın nümunəsi bunun mümkün olduğunu aydın şəkildə göstərir.

Yeri gəlmişkən, bu, rusiyalı həmkarımla dünən müzakirə etdiyimiz mövzulardan biri oldu. Biz elə bir format yaratmışıq ki, o, qarşılıqlı şəkildə faydalıdır. Müəyyən fobiya, bəzi stereotip və təşviqat var. Lakin düşünürəm ki, Azərbaycana gəldikdə, görə bilərsiniz, bunlar həddindən artıq şişirdilir. Siz öz suverenliyinizi, formal deyil, real müstəqilliyinizi, müstəqil siyasətinizi qoruyaraq, Rusiya ilə yaxşı münasibətdə ola bilərsiniz və bu, tamamilə mümkündür. Sadəcə, Rusiya-Azərbaycan münasibətlərinə baxmaq kifayətdir. Yeri gəlmişkən, biz həmin mövzunu müzakirə etdik. Keçmiş Sovet İttifaqında bir çox xalqlar var ki, onlar ya etnik, ya dini baxımdan Rusiyaya yaxındır. Amma onların Rusiya ilə münasibətlərinə baxın və bizim Rusiya ilə münasibətlərə baxın. Ona görə əminəm ki, həmin müsbət tendensiya davam edəcək. Azərbaycan Cənubi Qafqazda mühüm rol oynayır, bu rol artır və o, yalnız və yalnız faydalıdır.

Buraya gəlmək istəyən digər qüvvələrə gəldikdə, biz buna, əlbəttə ki, xüsusi diqqət yetirməliyik və öz resurslarımızı lazımi qaydada ölçməliyik. Demək istəyirəm ki, Azərbaycan olaraq, biz həmin prosesi necə apara bilərik, yaxud ona necə təsir göstərə bilərik. Bizim üçün təsəvvür etdiyiniz kimi, əsas narahatlıq Ermənistanda potensial və mövcud revanşist meyillərdir. Bizim narahat olmağa tam haqqımız var, çünki Ermənistan bizə qarşı təcavüz edib, ərazimizi işğal edib, bir milyon insanı öz evlərindən qovub, ərazilərimizi talayıb və hər şeyi dağıdıb, ərazimizin 20 faizini yerlə-yeksan edib.

Beləliklə, Ermənistanda baş verənlərin hamısına çox ciddi yanaşmaq üçün tam haqqımız var. Ancaq biz onların daxili işlərinə və ya uzaqda yerləşən başqa ölkələrlə münasibətlərinə heç bir halda qarışmırıq. Biz heç vaxt heç bir ölkənin daxili işinə qarışmırıq və bunu bütün qonşularımız bilir. Amma bu, bizim milli təhlükəsizliyimizlə bağlı bir məsələdir. Biz Fransanın, Hindistanın və Yunanıstanın Ermənistanı bizə qarşı necə silahlandırdığını və bunu açıq, nümayişkaranə şəkildə etdiyini, sanki bizə nəyisə sübut etməyə çalışdığını görüb, sakit oturub gözləyə bilmərik. Biz, sadəcə, oturub gözləyə bilmərik və biz bu mövqeyi Ermənistan hökumətinə, indi Ermənistanın qayğısına qalmaq istəyənlərə açıq şəkildə bildiririk. Bizə qarşı ciddi təhlükə görsək, ciddi tədbirlər görməli olacağıq. Bəziləri təhlükəli, bəziləri isə təhlükəli olmayan, amma bu o dərəcədə vacib deyil, həmin silahlar Ermənistana çatdırılır. Ona görə bir daha bu platformadan istifadə edərək Ermənistana mesajım budur ki, bunu etməyin. Yenə deyirəm, mənim mesajım qətiyyən təkəbbürlü xəbərdarlıq kimi qəbul edilməməlidir. Xeyr. Onların nə etməsindən asılı olmayaraq, müdaxilə etməyəcəyəm. Bu, onların həyatı və onların ölkəsidir. Amma onlar bizə qarşı hərbi güc nümayiş etdirəndə, bəzən öz qoşunlarını sərhədimizdə cəmləyəndə biz sakit otura bilmərik. Bu, bizim təhlükəsizliyimizdir və narahat olmağa haqqımız var. Ona görə də mənim onlara və onlardan Azərbaycana qarşı forpost kimi istifadə etmək istəyənlərə mesajım budur ki, bunu etməyin. Ermənistana nə qədər silah göndərilsə də, onların bizə qarşı heç bir şansları yoxdur. İkinci Qarabağ müharibəsi də bunu nümayiş etdirdi. Cəmi 44 gün adi insanların, sadəcə, gəzintiyə çıxa bilmədiyi dağlara çıxdıq və biz bunu yüngül silahlarla etdik, onların ordusunu tamamilə məhv etdik.

Separatizmə son qoyduğumuz bir neçə saatlıq antiterror əməliyyatı ilə də biz onlara gücümüzü nümayiş etdirdik. Bizim Ermənistana qarşı yenə də pis niyyətimiz yoxdur. Bizim onların ərazisinə heç bir iddiamız yoxdur, amma onlar başa düşməlidirlər ki, birincisi, bu silahlar onlara kömək etməyəcək. İkincisi, bu, təhlükəlidir və mənim vəzifəm onlara, həmçinin onların arxasında duran və onları manipulyasiya edənlərə xəbərdarlıq etməkdir ki, bu, həqiqətən təhlükəlidir və onlar mənim dediklərimə qulaq asmalıdırlar. Çünki bilirlər ki, sözlərimə qulaq asmalıdırlar. Mənim tövsiyəm budur. Bundan başqa, Ermənistan qlobal qarşıdurma üçün digər bir namizəd ola bilər. Təəssüf ki, bizim sərhədlərimizə yaxın bu hallar da mövcuddur. Beləliklə, bunlardan Qərblə Rusiya arasında qlobal qarşıdurma üçün istifadə oluna bilər və əgər bu, onlar üçün ən yaxşı ssenaridirsə, qərar onlarındır. Ancaq bu, fəlakət ola bilər. Bu gün onlara hərtərəfli və davamlı dəstək vəd edənlər, əgər ilk güllə sərhəddə atılsa qaçacaqlar. Mən tam əminəm. Avropalı sülh müşahidəçiləri adlanan, bizə qarşı binokl diplomatiyasından istifadə edib nə isə nümayiş etdirməyə çalışan, - bilmirəm nə nümayiş etdirmək istəyirlər, - ehtiyatda olan hərbçilər və polislər bizim cavab vermədiyimizə görə bizə minnətdar olmalıdırlar. Əminəm ki, ciddi bir şey olsa, onlar qaçacaqlar. Deməli, biz vəziyyəti belə görürük və yenə də regionda təhlükəsizliyə, sabitliyə gedən yol Azərbaycan-Ermənistan münasibətlərinin normallaşmasından keçir. Onlar, yəni, Ermənistanı nəzərdə tuturam, normal qonşu olmağı öyrənməli, qonşularına qarşı ərazi iddialarına son qoymalıdırlar. Biz bəzi müsbət tendensiyaları görürük. Lakin bu, kifayət deyil. Bu, yalnız sözlərdir və biz onların fikirlərini necə dəyişdirə biləcəyini bilirik. 2019-cu ildə deyirdilər ki, “Qarabağ Ermənistandır” və bu, müharibənin başlanmasına təkan verdi. İndi isə “Qarabağ Azərbaycandır” deyirlər.

Bilmirəm, bəlkə beş ildən sonra ölümcül silahlarla təmin olunanda yenə deyəcəklər ki, “Qarabağ Ermənistandır”. Biz nə edək? Biz gözləyə bilmərik. Bu məsələni qaldırdığınız üçün təşəkkür edirəm. Hesab edirəm ki, bu, İrəvana mesaj göndərmək üçün yaxşı bir fürsət idi.

**Hikmət Hacıyev:** Cənab Prezident, təşəkkür edirəm. Bizimlə iki saatdan çox vaxt keçirdiniz və ən vacib sualları cavablandırdınız. Siyahımızda kifayət qədər, xeyli sayda suallarımız var, amma bilirəm ki, həqiqətən çox məşğulsunuz, ancaq bir-iki sual verməyə icazə verə bilsəniz şad olardıq.

**Prezident İlham Əliyev:** İştirakçılar yorulmayıbsa, davam edə bilərik. Cavablarımda mümkün qədər qısa olmağa çalışaram.

**Hikmət Hacıyev:** İulian Çifu, Rumıniyanın Münaqişələrin Qarşısının Alınması və Erkən Xəbərdarlıq Mərkəzinin prezidenti.

**İulian Çifu:** Çox sağ olun, cənab Prezident. Məni buraya dəvət etdiyinizə görə Sizə minnətdaram. Həmçinin Sizi təbrik etməliyəm ki, rus qoşunları vaxtından xeyli tez geri çəkilib. Çox yaxşı haldır ki, işğal bitdikdən 10 il sonra çıxmırlar.

**(ardı 9-cu səhifədə)**

# ADA Universitetində “COP29 və Azərbaycan üçün Yaşıl Baxış” mövzusunda beynəlxalq forum

(əvvəli 8-ci səhifədə)



Beləliklə, mənim sualım enerji təhlükəsizliyi üzrə Avropa İttifaqı ilə ortaq layihəmiz olan Rumıniya, Macarıstan və sair ölkələrə təmiz enerji nəql etmək üçün nəzərdə tutulan kabellə bağlıdır. Beləliklə, əslində, bildiyiniz kimi, məlumat kabelləri ilə başqa bir layihəmiz var, sualtı kabel ilə bağlı bir sıra layihələr mövcuddur. Geniş Qara dəniz regionu ilə bağlı vəziyyət bu gün kifayət qədər mürəkkəbdir və sualtı infrastrukturun təhlükəsizliyi üzrə və təhlükəsizliyi necə yaxşılaşdıra biləcəyimiz barədə fikirləriniz varsa, yaşıl enerjinin daşınması, həm də Qara dəniz regionunun təhlükəsizliyi ilə bağlı şərh verməyinizi Sizdən xahiş etmək istərdim. Çox sağ olun.

**Prezident İlham Əliyev:** Düşünürəm ki, bu məsələni, ilk növbədə, Qara dəniz ölkələri həll etməlidir. Çünki bizim məsuliyyətimiz yəqin ki, Qara dənizin sahillərinə yaxın bitəcək. Əgər biz ənənəvi yanacaq layihələrimizə paralellər aparsaq, hər bir ölkə öz boru kəmərinin seqmentinə cavabdehdir. Məsələn, Azərbaycanda heç vaxt boru kəmərinə müdaxilə, qeyri-qanuni müdaxilə, boru kəmərindən oğurluq və ya hər hansı digər xoşagəlməz hadisələr baş verməmişdir. Deməli, hər bir ölkə - Azərbaycan, Gürcüstan və Türkiyə öz ərazisində təhlükəsizliyi təmin edib, Cənub Qaz Dəhlizində də elə belədir. Beləliklə, yaşıl enerji kabelinə gəlincə, mən əminəm ki, Qara dəniz ölkələri bununla da məşğul olacaq. Biz kömək edə bilmərik, çünki fiziki olaraq orada deyilik. Amma hesab edirəm ki, bu, bir növ hücuma, müdaxiləyə, nüfuza məruz qalmamalıdır, çünki bu, heç kimə qarşı deyil. Bu kabel bütün Xəzər dənizi, Qafqaz və Qara dəniz ölkələrinin marağındadır. Amma yenə də təbii ki, mən əminəm, müvafiq ölkələr Qara dənizin onların yurisdiksiyasına aid olan hissəsində bununla məşğul olacaqlar.

**Hikmət Hacıyev:** Laszlo Vasa, Macarıstan Beynəlxalq Münasibətlər İnstitutunun baş elmi işçisi.

**Laszlo Vasa:** Cənab Prezident, yenidən burada olmaq fürsəti əldə etdiyimiz üçün minnətdarlığımızı bildiririk. Təşkilatçılara təşəkkür edirik. Mən burada olmaqdan və Sizə sual verməkdən çox məmnunam. Suallarımdan bəziləri cavablandırılıb, ancaq qısa bir sualım var. Türkmənistan təbii qazının Azərbaycan vasitəsilə Avropaya çatdırılması imkanlarını necə dəyərləndirirsiniz?

**Prezident İlham Əliyev:** Əvvəla, bu qərar verilərsə, onu Türkmənistan verməlidir. Əgər onlar Xəzərə, oradan da Azərbaycandan keçərək Avropaya gedəcək Transxəzər qaz kəmərini çəkmək barədə qərara gəlsələr, bizə müraciət edəcəklər. İndiyə qədər bunu etməyiblər. Təbii ki, biz bu layihənin təşəbbüskarı kimi çıxış etməyəcəyik. Çünki adətən layihəni resursların sahibi olan ölkə həyata keçirir. Məsələn, Bakı-Tbilisi-Ceyhanın və ya Cənub Qaz Dəhlizinin təşəbbüskarı və bir növ əlaqələndiricisi məhz Azərbaycan idi və bütün ev sahibliyi edəcək dövlətlərlə sazişləri və istehlakçılarla müqavilələri Azərbaycan razılaşdırırdı və imzalayırdı. Beləliklə, tranzit ölkənin layihəni maliyyələşdirməsi və ya təşəbbüskar kimi çıxış etməsini xatırlamıram. Hələlik Türkmənistandan bizə belə bir mesaj gəlməyib, ona görə də buna şərh verə bilmərəm. Bununla bağlı çoxlu müzakirələr gedir. Ancaq məsləhətim odur ki, əvvəlcə müxtəlif amilləri qiymətləndirin, birincisi, bunu kim maliyyələşdirəcək? İkincisi, Avropa maliyyə institutlarının ənənəvi yanacaq layihələrinin maliyyələşdirilməsinə məhdudiyyətlər qoyması, bu qazın kimlər tərəfindən alınacağı və qazın Azərbaycana çatdırılmasından sonra nə baş verəcəyi ilə bağlı dediklərimi nəzərə alsaq, onda təsisatlara aid olmayan maliyyələşdirmə necə olacaq? Çünki bu gün Cənub Qaz Dəhlizi tam doludur. Beləliklə, biz bu gün TANAP-ın və TAP-ın genişləndirilməsi haqqında düşünürük. Deməli, kimsə Xəzərin dibi ilə boru kəmərinin çəkilməsi üzrə razılaşmanın baş tutduğunu düşünürsə, bu, elə deyil. Çünki ya Bakıdan Avropaya qədər başqa boru xətti olmalıdır, ya da bilmirəm. Deməli, burada suallar çoxdur və cavab yoxdur. Ona görə də şərhlərim buna əsaslanır.

**Hikmət Hacıyev:** Jakub Korejba, Polşanın Avrasiya Araşdırmaları Mərkəzinin qeyri-rezident tədqiqatçısı.

**Jakub Korejba**: Cənab Prezident, təşəkkür edirəm. Yenidən burada olmaq çox xoşdur. Tarixi hadisənin şahidi olan bir alim və nəzəriyyəçi üçün bu, sevincli anlardır, çünki burada şahidi olduğumuz şey gələcəyin qurulmasıdır. Mən Polşadan gəlirəm, o ölkədən ki, həmişə maraqlı qonşulara malik olub və coğrafi məsafələrə baxmayaraq, ölkələrimizi bir-birinə bənzədən də budur. Bu, mütləq olaraq optimist bir fikir deyil, çünki son bir neçə ay ərzində gördüyümüz kimi, Sizin qonşularınızın heç də hamısı sülh, tərəqqi, əməkdaşlıq və firavanlıqda maraqlı deyil. Ona görə də Sizə sualım budur, Sizcə sülh prosesi zamanı erməni tərəfdaşınızın qeyri-konstruktiv mövqeyi, sadəcə olaraq, teatr oyunu kimi danışıqlar mövqeyinin bir hissəsidirmi? Yoxsa daha uzunmüddətli strategiyadır? Bu, belə davam edərsə, İrəvanın bu təklifi rədd etməkdə davam edəcəyi və regionda sabitliyi pozmaq üçün xarici qüvvələri işə cəlb edəcəyi halda B planı varmı? Bilirəm ki, Azərbaycanın strateji səbri çoxdur. Bunu bir neçə dəfə sübut etmisiniz. Bəs, səbrinizə məhəl qoyulmasa və ondan sui-istifadə edilərsə, belə bir hal üçün alternativ strategiya varmı? Çox sağ olun.

**Prezident İlham Əliyev:** Alternativ strategiya yalnız silahlanma yarışını davam etdirmək ola bilər, bizim başqa seçimimiz yoxdur. Biz buna üstünlük vermirik, xüsusilə nəzərə alsaq ki, işğaldan azad edilmiş ərazilərin bərpası üçün çoxlu maliyyəyə ehtiyacımız var. Amma biz sülh razılaşmasına nail olmasaq, bu o deməkdir ki, Ermənistan, qeyd etdiyiniz kimi, başqa bir şey planlaşdırır. Onlar bu prosesdən yalnız vaxt qazanmaq üçün istifadə edirlər. Bununla belə, inanmaq üçün kifayət qədər əsaslı səbəblərimiz var. Baxmayaraq ki, biz buna əmin deyilik. Tarixi nəzərə alsaq, biz 1992-ci ildən 2020-ci ilə qədər danışıqlar prosesində olmuşuq, əslində isə Ermənistan bu danışıqlardan yalnız işğalı möhkəmləndirmək və işğalı de-fakto əbədi etmək üçün istifadə edib.

Bu, onların planı idi və indi biz nəinki daha çox təhlil edirik, hətta Ermənistanın daxili siyasətini izləyəndə bir daha əmin oluruq ki, onlar indiki hökumət də daxil olmaqla, ərazimizin bir santimetrini belə azad etməyi planlaşdırmırdılar, çünki indiki iqtidarın necə davranması heç kimi çaşdırmalı deyil. Mən Qərbdəki bəzi erməni tərəfdarlarından necə cəsarətli olduqlarını eşidəndə həmişə deyirəm ki, onların cəsarətinin əsasını nə təşkil edirdi? 2020-ci ilin sentyabrı, noyabrı olmasaydı, bu gün yenə də Xankəndidə “Qarabağ Ermənistandır” deyə bağırmağa davam edərdilər. Beləliklə, biz onları cəsarətli etdik, cəsarətli addımlar atırlar, çox konstruktiv olduqları üçün deyil, çox açıq və səmimi olmaqdan qorxduqları üçün düşünə bilirlərsə, deməli qorxurlar. Bilirsiniz, qorxmamaq üçün bizimlə sülh bağlamalıdırlar. Biz də görəcəyik, çünki dediyim kimi, qondarma “Dağlıq Qarabağ” faktı müzakirələrdən çıxarılıb, onlar razılaşıblar ki, bu, sülh sazişində olmayacaq. Deməli, bu, o deməkdir ki, əsas maneə artıq burada deyil və o qədər də vacib olmayan terminologiyaya sadiq olsalar və biz açıq şəkildə görəcəyik ki, onlar yenə də bu vaxtdan istifadə edərək daha çox silah əldə etmək və sonra yenidən bizə hücum etmək istəyirlər. Amma biz onlara bu şansı verməyəcəyik, çünki bu, tamamilə aydındır. Bir daha demək istəyirik ki, onları bizə qarşı yönəltməyə çalışanlar böyük səhv edirlər. Deməli, bizim artıq 30 ilə yaxın işğalla bağlı çox acı təcrübəmiz var. Biz gələcəyimizi real vəziyyətə əsaslanaraq planlaşdıracağıq. Beləliklə, biz prosesi belə görürük. Ona görə də düşünürəm ki, ilin sonuna qədər bu, tamamilə aydın olacaq. Yəni, sülh sazişi imzalanmasa, dediyim kimi, silahlanma yarışı davam etdirilməlidir. Yaxşı, əgər onlar sülh razılaşmasını istəmirlərsə, biz bu müqaviləsiz də yaşaya bilərik, amma bu razılaşma olmadan bizimlə yanaşı yaşamaq onlar üçün rahat olacaqmı? Mən belə düşünmürəm.

Hesab edirəm ki, beynəlxalq hüquqa əsaslanan şərtləri razılaşdırmaq bizim marağımızdan daha çox onların marağındadır və göndərdiyimiz bu təkliflərdə, bu şərhlərdə qəbul edilə bilməyəcək heç nə yoxdur. Yalnız onlar şüurla davranmalı və əlçatmaz şeyləri tələb etməməlidirlər. Həm də onların bilməsi və onlara dəstək olanlar üçün vacibdir ki, 30 illik işğala və İkinci Qarabağ müharibəsinin nəticəsinə göz yumulmamalıdır. Heç kim özünü heç bir şey olmamış kimi aparmamalıdır. Müharibənin nəticəsi həmişə müharibədən sonrakı vəziyyətə təsir edir. Bizim vəziyyətimizdə isə biz üstünlük xətrinə Qələbəmizdən istifadə etmədik. Müharibə zamanı söz verdiyim kimi, dayandıq və dedim ki, ərazimizi tərk etməyinizlə bağlı bizə bir vaxt deyin, dayanaq və biz dayandıq. Bu, cəmi dörd ildir və sonra Dağlıq Qarabağda qondarma prezident seçkiləri keçirib qondarma prezident seçəndə, Moskvadan bir kriminal oliqarx oraya gəlib özünü hansısa ölkənin baş naziri kimi aparmağa və terroru maliyyələşdirməyə, həmçinin müxtəlif insanları təhdid edərək Qarabağda nümayişkaranə şəkildə bizə məhəl qoymamağa başladılar. Onlar bilməli idilər ki, biz buna dözməyəcəyik və biz onlara mesajı dəfələrlə birbaşa və digər kanallarla Brüssel vasitəsilə çatdırdıq: odla oynamayın. Biz istənilən vaxt suverenliyi bərpa edə bilərik və heç kəs bizə mane olmayacaq və bu, baş verdi. Bu, 23 saat deyil, bir neçə saat davam etdi. Yalnız prosedurları yekunlaşdırmaq üçün 23 saat lazım idi, bu, 10 saatdan az davam etdi. Beləliklə, bu, onlara bir dərs oldu. İkinci Qarabağ müharibəsi dərs oldu. Biz ancaq bunu etdik və başqa heç nə etmədik. O zaman bizi kim dayandıra bilərdi? Əgər Qərbi Avropanın hansısa ölkəsində bəzi insanların qorxunc planları olsaydı, bizə kim mane ola bilərdi? Sərhəddəki ehtiyatda olan fransız polisi? Bu, bizi dayandıra bilərdi? Əlbəttə ki, yox! Biz özümüz dayandıq. Çünki biz Ermənistanın ərazisini istəmirik, bizim istədiyimiz yalnız öz ərazilərimizin tam və əbədi nəzarətimizdə olmasıdır.

**Hikmət Hacıyev:** Karlo Marino, İtaliyanın Milan şəhərində İtaliya-Azərbaycan Assosiasiyasının vitse-prezidenti, “Eurasiaticanews”un təsisçisi və direktoru.

**Karlo Marino:** Cənab Prezident, mənə verdiyiniz şərəfə görə təşəkkür edirəm. Mən Azərbaycanın dostuyam, həm də Milanda İtaliya-Azərbaycan Assosiasiyasının vitse-prezidentiyəm. Sualım budur ki, İtaliya ilə Azərbaycan arasında münasibətlərin hazırkı durumu haqqında nə düşünürsünüz? Ölkələrimiz arasında yaşıl iqtisadiyyat sahələrində əməkdaşlıq imkanları mövcuddurmu? Çox sağ olun.

**Prezident İlham Əliyev:** Münasibətlər əladır. İtaliya bizim ən yaxın tərəfdaşlarımızdan və dostlarımızdan biridir. Avropa İttifaqında nəinki yaxşı və etibarlı tərəfdaşdır, bizim çox fəal siyasi əlaqələrimiz var. Mənim İtaliyaya səfərlərim və İtaliya Prezidentinin Azərbaycana səfəri tərəfdaşlığımızın gözəl nümunəsidir. Bu gün İtaliya Qarabağda və Şərqi Zəngəzurda fəaliyyət göstərən aparıcı ölkələrdən biridir.

Əslində, İtaliya hazırda fəaliyyət göstərən şirkətlərin sayına görə Türkiyə şirkətlərindən sonra ikinci yerdədir. Onlar çox mühüm layihələr üzərində işləyirlər. Məsələn, mədəni irsin bərpası üzrə Ağdamda dağıdılmış Qarabağ Xanının sarayının, işğaldan azad edilmiş müxtəlif şəhərlərdə məscidlərin bərpası ilə məşğuldurlar. Beləliklə, iqtisadi əməkdaşlıq əladır. İtaliya bizim əsas ticarət tərəfdaşımızdır. Azərbaycan nefti isə İtaliyanın neft istehlakının əhəmiyyətli hissəsini təşkil edir. Həm də hesab edirəm ki, Azərbaycan İtaliyaya qaz təchiz edən ölkələr arasında ikinci və ya üçüncüdür. Mən, sadəcə, əladır deyirəm. Həmçinin ADA və beş aparıcı İtaliya universitetinin birgə yaratdığı İtaliya-Azərbaycan Universiteti həm də dərin siyasi və mədəni əlaqələrə əsaslanır.

Yaşıl enerji ilə bağlı biz İtaliya şirkətləri ilə işləməkdən məmnun olacağıq. Bunu hələ ki, başlamamışıq. Amma burada potensial mövcuddur. Yeri gəlmişkən, enerji sahəsində İtaliya şirkətləri bizim əsas tərəfdaşlarımızdır. Məsələn, məşhur “Ansaldo” şirkəti hazırda Mingəçevirdə tikilən 1300 meqavata yaxın gücü olan elektrik stansiyası üçün turbinlərin təchizatçısıdır. İtaliyanın digər şirkətləri, məsələn, “Maire Tecnimont” böyük sənaye sahəsinin podratçısı idi. Həmçinin neft emalı zavodumuzun təmirində bizə kömək edir. Beləliklə, bu, həqiqətən çox möhkəm və ildən-ilə böyüyən çoxşaxəli təməldir. Özünüzü Azərbaycanın dostu adlandırdığınız üçün təşəkkür edirəm. İtaliyada çoxlu dostlarımız var. Onların hamısına ən xoş salamlarımı çatdırmağınızı xahiş edirəm.

**Hikmət Hacıyev:** Əbdüləziz Məhəmməd Əl Hor, Qətərin Xarici İşlər Nazirliyinin Diplomatiya İnstitutunun direktoru, səfir.

**Əbdüləziz Məhəmməd Əl Hor:** Cənab Prezident, çox sağ olun. Əslində, mən soruşmaq istərdim ki, Azərbaycan karbohidrogen iqtisadiyyatına əsaslanan bir ölkə olduğundan struktur baxımından iqtisadi inkişafın ekoloji dayanıqlılığının tarazlaşdırılmasında üzləşdiyi əsas çağırışlar hansılardır? Bilirdim ki, bu suala qismən cavab vermisiniz. Ola bilsin, biz digər çağırışları da əlavə edərdik.

**Prezident İlham Əliyev:** Biz iqtisadiyyatımızı artıq müəyyən dərəcədə şaxələndirə bilmişik. Hazırda neft və qaz ümumi daxili məhsulun yarıdan azını təşkil edir. Lakin ixracımızın təxminən 95 faizi neft və qazdır. Beləliklə, bizim əsas məqsədlərimizdən biri hazırda ixracımızı şaxələndirməkdir. Bu, asan olmayacaq. Çünki dediyim kimi, qaz hasilatı və ixracı artacaq. İqtisadiyyatın digər sahələrində ixrac üçün bizə bazarlar lazımdır. Bizim problemimiz ondan ibarətdir ki, müəyyən məhdudiyyətlər və kvotalar səbəbindən Avropa bazarına, Avropa İttifaqının bazarına və sair yerlərə asan çıxışımız yoxdur. Bizim üçün əsas bazarlar qonşu ölkələrdir. İlk növbədə, Rusiya qeyri-enerji məhsulları üçün əsas bazarımızdır və həm də Türkiyə. İxracımızı şaxələndirmək üçün təkcə məhsul istehsal etmək kifayət deyil, bizim çıxışımız da olmalıdır. Ancaq bunun üzərində işləyirik.

İqtisadiyyatımızın digər sahələrinə gəldikdə isə nəqliyyatla bağlı ümidlərimiz böyükdür. Artıq dediyim kimi, dəhlizlərin bu qovşağı böyük iqtisadi fəallıq yaradacaq. Həm də biz bu nəqliyyat marşrutlarını təkcə asanlaşdırma və tranzit kimi deyil, həm də marşrutda sənaye qurmaq imkanı hesab edirik. Ona görə də ümid edirik ki, bölgədən istehsalçılar gəlib bu layihələri həyata keçirəcəklər. Biz indi Ələtdə azad iqtisadi zonanın fəal inkişaf mərhələsindəyik, zonada artıq rezidentlər toplaşır. Beləliklə, biz iqtisadiyyatın digər sahələrinin inkişafı üçün əlimizdən gələni etməyə çalışırıq. Rəqəmsal transformasiya da onlardan biridir. Sənayenin inkişafı indi daha çox elmi yanaşmaya əsaslanır, çünki dediyim kimi, məşğulluq və Dördüncü Sənaye İnqilabına gəlincə, elə yeri gəlmişkən, Davos Ümumdünya İqtisadi Forumu Dördüncü Sənaye İnqilabı üzrə regional mərkəzlərdən biri kimi Azərbaycanı seçib. Bir sözlə, bu da gördüyümüz işlərə verilən qiymətin əlaməti idi. Bərpaolunan enerji mənbələri haqqında həqiqətən də müzakirə etmək üçün böyük potensial var. 157 gigavat potensial yalnız dənizdə mövcuddur. İndi bir çox şirkət bizimlə işləyir və dediyim kimi, bütün bunları mənimsəmək üçün şəbəkəmizi gücləndirməliyik. Ona görə də gələcəyin proqnozlaşdırıla biləcəyini düşünürəm.

**Hikmət Hacıyev:** Loren Vinatye, İsveçrə Humanitar Dialoq Mərkəzinin regional müşaviri.

**Loren Vinatye:** Günortanız xeyir. Əvvəlcə bir şərh vermək istərdim ki, mən humanitar dialoq mərkəzində işləyirəm. Bu, vasitəçilik təşkilatıdır və mən Sizinlə tam razıyam, daha az vasitəçi sülh prosesi üçün daha yaxşıdır. Ona görə də nə vaxtsa işimi dəyişə bilərəm. Sizə Türkiyə ilə bağlı bir sual vermək istərdim. Mən Ermənistanda tez-tez oluram və bəli, Ermənistan siyasi baxımdan dalana dirənib, iflic vəziyyətindədir. Necə düşünürsünüz, Azərbaycan Ermənistanın Türkiyə ilə daha çox körpü qurmasına imkan yarada, Ermənistana irəliyə doğru addım atması üçün lazım olan bu fürsəti verə bilərmi?

**Prezident İlham Əliyev:** Bəli, Ermənistan və Türkiyə münasibətlərinin normallaşması prosesi çərçivəsində hazırda iş gedir və biz bunu dəstəkləyirik. Biz açıq şəkildə bildirdik ki, Türkiyə-Ermənistan münasibətlərinin normallaşmasına tərəfdarıq. Yəqin bilirsiniz ki, Ermənistanın təkcə Azərbaycana deyil, Türkiyəyə də ərazi iddiaları var və bu məsələ də mütləq həll olunmalıdır. Əminəm ki, bilirsiniz, Ermənistanın milli rəmzi Ağrıdağ dağıdır, onların “Ararat” adlandırdıqları dağ Türkiyədə yerləşir. Məncə, bu, qətiyyən qəbuledilməzdir. Mənim şəxsi fikrim belədir ki, onların cəmiyyətlərinə bu cür mesaj vermələri tamamilə yanlışdır.

Yadımdadır, bir dəfə Ermənistanın əvvəlki prezidenti Serjik Sarkisyandan məncə, onun partiyasının bəzi gənc üzvləri ilə görüşdə soruşmuşdular ki, indi “Artsax” adlanan ərazini azad etdik, bəs Qərbi Ermənistan? Onlar belə adlandırırlar və bəziləri indi də Türkiyəni belə təqdim edirlər. Soruşurlar ki, bəs torpaqlarımız nə vaxt azad olunacaq? O dedi ki, “biz öz işimizi gördük, bu da sizdən asılıdır”. Bu, mənim uydurmam deyil, internetdə onun dediklərini, onun bu fikrini olduğu kimi tapa bilərsiniz. Məncə, erməni cəmiyyətinin ən böyük faciəsi budur ki, onlar həqiqətən Türkiyənin həmin hissəsini Türkiyədən ayırıb Ermənistana birləşdirə biləcəklərini düşünüblər. Beləliklə, onlar özlərini çox yüksək qiymətləndirirdilər və bu, ən böyük problemdir. İndi onlar normallaşmaq istəyirlər və biz bunu dəstəkləyirik, lakin onlar bütün bu atributlardan qurtulmalıdırlar.

Azərbaycana gəldikdə isə, onlar öz konstitusiyalarını dəyişməlidirlər. Yenə deyirəm ki, mənim onların işinə müdaxilə etmək istəyim yoxdur, sadəcə, onların konstitusiyasında müstəqillik bəyannaməsinə istinad var, orada qondarma “Dağlıq Qarabağ” Ermənistanın bir hissəsi kimi qeyd olunur. Yaxşı, konstitusiyada belə bir istinad olduqda biz necə sülh müqaviləsini imzalaya bilərik? Yəni, mən deyəndə ki, konstitusiyanı dəyişməlisən, bu, mənim təkəbbürüm deyil və ya mən kobudcasına davranmağa çalışmıram. Çünki bu, ilkin şərtdir. Düşünürəm ki, bu milli rəmzi, Ağrıdağı dəyişdirmək lazımdır. Onların Ermənistanda çoxlu dağları var, başqasını bəyənib seçə bilərlər. Amma qeyd etdiyim kimi, təbii olaraq Azərbaycanla Türkiyə arasında bu məsələdə olduğu kimi, bir çox digər məsələlərdə də əlaqələndirmə var. Çünki Türkiyə və Azərbaycan qlobal miqyasda, dünyada bir-birinə ən yaxın iki ölkədir. Bizi birləşdirən təkcə Müttəfiqlik Bəyannaməsi deyil, bizi birləşdirən çox şey var. Yəni, Türkiyə-Azərbaycan birliyi regional təhlükəsizliyin və sabitliyin mühüm amilidir. İki prosesin paralel getməsinə dair bəlli mövqe var: Türkiyə-Ermənistan yaxınlaşması və Ermənistan-Azərbaycan normallaşması. Bu, bizim mövqeyimizdir. Bu, həm də Türkiyə Prezidentinin mövqeyidir. İdeal vəziyyət o ola bilər ki, bir gündə iki saziş imzalanar - Azərbaycanla Ermənistan arasında sülh sazişi və Ermənistanla Türkiyə arasında bütün kommunikasiyaların açılması ilə normallaşma sazişi. Bu, onilliklər boyu davam edən nifrətə son qoyan və səhifəni çevirərək normal inkişafa başlamaq imkanı olacaq. İrəvan rəsmilərindən nə eşidirik? Eşitdiklərimizi nəzərə alırıq. Həqiqi Ermənistanla mifoloji Ermənistan arasında fərq olmalıdır, biz bu xəbərləri nəzərə alırıq. Onlar həmin Ermənistanı tarixi adlandırırlar, amma mən bunu mifoloji adlandırardım, çünki tarix manipulyasiya obyekti olmamalıdır. Beləliklə, onlar tarix haqqında miflər yaratdılar, heç vaxt erməni etnik kökü olmayan tarixi şəxsiyyətləri öz tarixlərinə daxil etdilər. Deməli, bu, tarixi bir manipulyasiyadır və onlar bir anda bütün bu mifologiyaya inanmağa başladılar. Bu, faciə idi, çünki onlar mifologiya yaratdılar, dünyanın inanmasını istədilər və özləri inanmağa başladılar. Ermənilərin gənc nəslinin Türkiyə ərazisini ələ keçirəcəyini deyəndə, bu, təkcə Serjik Sarkisyanın deyil, onu dinləyənlərin, ona bu sualı verənlərin ciddi psixoloji xəstəliyinin təzahürü idi. Beləliklə, indi Ermənistan hökumətinin sözdən hərəkətə keçəcəyini gözləyirik ki, ona əsasən öz qiymətimizi verək. Onlar başa düşməlidirlər ki, Türkiyə-Azərbaycan ittifaqı daş kimi möhkəmdir, bunu indi və gələcəkdə nəzərə almalıdırlar.

**Hikmət Hacıyev:** Bruno Maçaes, Portuqaliyanın “Flint Global” şirkətinin baş məsləhətçisi.

**Bruno Maçaes:** Günortanız xeyirli olsun. Mən bu müzakirələrdə çox toxunulmayan Avropa İttifaqı haqqında soruşmaq istəyirəm. Bəlkə də Avropa İttifaqı üçün yaxşı əlamət deyil. Bilirsiniz ki, təxminən ayyarım sonra seçkilər keçiriləcək. Beləliklə, yeni Avropa Parlamenti, yeni Komissiya, Avropa Komissiyasının yeni sədri, Avropa Şurasının yeni prezidenti, yeni yüksək nümayəndə, bəlkə müdafiə üzrə yeni komissar, enerji üzrə mühüm komissar seçiləcək. Siz enerji layihələrinin maliyyələşdirilməsi və müəyyən mənada ticarət sahəsində Avropa İttifaqı ilə bağlı bir az məyus olduğunuzu qeyd etdiniz. İstəyirəm ki, Siz Avropa İttifaqı ilə strateji münasibətlərin növbəti beş ili haqqında fikirlərinizi bildirəsiniz. Onlardan Azərbaycanla bağlı nə gözləyirsiniz?

**Prezident İlham Əliyev:** Bəli, gözləntilər Avropa İttifaqının (Aİ) siyasətini və ikitərəfli münasibətlərimizdə nəyə nail ola biləcəyimizi başa düşmək üçün sağlam düşüncəyə əsaslanır. Biz heç vaxt qarşıya çata bilinməyən hədəflər qoymuruq. Ona görə də biz heç vaxt Aİ-yə üzv olmağı qarşıya hədəf qoymuruq. Biz aydın başa düşürdük və başa düşürük ki, bu, real deyil və heç vaxt olmayacaq, biz onların tələb etdikləri hər şeyi etsək belə. Türkiyə buna gözəl nümunədir. Türkiyə namizəd olduqdan sonra bir çox ölkə Avropa İttifaqına qəbul edildi. Amma Türkiyə əhalisinin müsəlman olması səbəbindən qəbul edilmədi, gəlin, çox ədalətli olaq. Biz həmişə çox açıq danışırıq. Türkiyənin bəzi meyarlara uyğun olmadığını söyləmək isə tamamilə əsassızdır.

(ardı 10-cu səhifədə)

# ADA Universitetində "COP29 və Azərbaycan üçün Yaşıl Baxış" mövzusunda beynəlxalq forum

(əvvəli 9-cu səhifədə)

Deməli, bu, bir amil idi. Biz də bunu başa düşürük ki, biz də müsəlmanıq, onlar bizi heç vaxt qəbul etməyəcəklər. Niyə israr etməliyik? Gəlin, məqbul olan qarşılıqlı əməkdaşlıq mexanizmini işləyək. Düşünürəm ki, biz buna çox yaxın idik. Cənubi Qafqazda ayırıcı xətlər çəkmək cəhdlərini görənə qədər çox yaxın idik. Məhz buna görə də biz Avropa Komissiyasının sədrinin, ABŞ Dövlət katibinin və Ermənistanın baş nazirinin Brüsseldə misli görünməmiş görüşü ilə bağlı narahatlığımızı ifadə etdik. Bu qurumun tarixində heç vaxt belə bir görüş olmayıb. Keçmiş Sovet İttifaqından olan hətta Ukrayna, Gürcüstan və Moldova ilə bu cür görüşlər olmadı, amma Avrasiya İqtisadi İttifaqının üzvü, Rusiyanın hərbi müttəfiqi, Rusiyanın hərbi bazasının olduğu Ermənistanla, İran və Türkiyə ilə sərhədində Rusiyanın sərhəd qoşunları duran ölkə ilə keçirildi, dünyanın bu bölgəsində bir növ NATO olan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının üzvü ilə. Bununla bağlı haqlı narahatlığımız var idi. Çünki bizim dəqiq məlumatımız var idi ki, həmin görüşün hərbi komponenti var, biz hələ də inanırıq. Bu, nə dərəcədə reallaşıb, ya yox bilmirəm, amma bu, ciddi narahatlıq doğurur. Bundan əlavə, biz bilirik ki, Avropa İttifaqı Avropa Sülh Fondu adlanan qurumdan əhəmiyyətli maliyyə ayırmağı planlaşdırır. Əslində, bu, silah təchizatını maliyyələşdirən strukturdur. Sülh Fondu adlanır, amma, əslində, sülh deyil. Deməli, bu, yenə bizə qarşıdır və bu da narahatlıq doğurur. Deməli, bizim narahatlığımızın əsas amilləri bundadır. Təəssüf ki, yenə də Ermənistan başqa ölkələrlə və qurumlarla münasibətlərimizə müdaxilə edir. Adını çəkdiyiniz, əvəzlənəcək şəxs kimi - xarici siyasət üzrə ali komissarın adını deməsəm, cavabım dolğun və tam səmimi olmaz. O, Avropa İttifaqı bağdır, qalanı cəngəllikdir demişdi və bu, ictimai bəyanat idi. O, hamımızı cəngəllik adlandırdı: Afrika, Asiya, Latın Amerikası. Avropa Parlamentinin deputatı, hətta Avropa Parlamentinin sədri belə desəydi, təəccüblənməzdim. Çünki məlumdur ki, Avropa Parlamenti islamofobiya və korrupsiya mərkəzlərindən biridir. Amma bunu Avropa İttifaqının diplomatiyasına cavabdeh olan şəxs deyir və Avropa Komissiyasında heç kim, ondan yuxarıda duranlar ona düzəliş etməyib. Heç kim demədi ki, cənab Borrel get bütün dünyanın qarşısında üzr istə. Sən bizə cəngəllik deyirsən, tamam. Ancaq cəngəllik olmasaydı, bağınız, bağçanız quruyardı. Bəs, necə ola bilər ki, işimizi həmişəki kimi davam etdirib özümüzü eşitməmiş kimi göstərə bilərik? Biz bunu deyirik və demişik, mən bunu açıq şəkildə deyirəm. Deməli, bunlar fundamental məsələlərdir. Bəli, bizim enerji sahəsində əməkdaşlığımız var. Bizdən kömək istədilər. Rusiyadan verilən qazda fasilə yarananda gəlib bizdən kömək istədilər. 2022-ci ilin iyulunda - Ukraynadakı müharibədən cəmi bir neçə ay sonra biz bəyannamələr imzaladıq. Bizdən təchizatı artırmağı xahiş etdilər. Dedik ki, yaxşı. Sərmayə qoymağa başladıq, onlara kömək etmək istədik və hələ də kömək etmək istəyirik. Kömək istəyən hər kəs bizə etibar edə bilər. Amma biz də bizə adekvat münasibət görməliyik. Narahatlığımızı ciddi qiymətləndirmək, əslində, ölkəmizin və xalqımızın təhlükəsizliyidir. Biz işğaldan əziyyət çəkdik, Avropa qaçqınlarımıza göz yumdu. İndi Qarabağdan Ermənistana köçmüş insanlara kömək edirlər. Mən dəstəklədim, onlara kömək etmək kimi yaxşı bir iş görürlər. Altmış min, maksimum, çünki qalanları hərbçilər idi. Bəs, bir milyon azərbaycanlı necə? Niyə onlara kömək etmədilər? Onlara kömək etməmələrinin səbəbi nə idi? Beləliklə, biz bu sualları veririk və cavab yoxdur. Yenə də regionun geosiyasətini başa düşərək biz addımlarımızı hansısa gözləntilər və təsəvvürlər üzərində deyil, real vəziyyət üzərində qurmalıyıq. Amma, eyni zamanda, hesab edirəm ki, bütün tərəfdaşlarla, o cümlədən Avropa İttifaqı ilə açıq müzakirələr lazımdır. Əgər onlar Cənubi Qafqazda daha fəal olmaq istəyirlərsə, ərazisinə, əhalisinin sayına, iqtisadi potensialına görə ən böyük ölkə olan Azərbaycanı nəzərdən qaçıra bilməzlər. Azərbaycanı kənarda saxlamaq istəsələr, Cənubi Qafqazda əməkdaşlıq olmayacaq. Bu aydındır. Biz əməkdaşlığa hazırıq, lakin qarşılıqlı hörmətə və qarşılıqlı maraqlara əsaslanırıq. Cavabım belə olacaq.

**Hikmət Hacıyev**: Klaus Larres, Amerika Birləşmiş Ştatlarının Wilson Center / Chapel Hilldəki Şimali Karolina Universitetinin professoru.

**Klaus Larres**: Cənab Prezident, ətraflı fikirləriniz üçün çox sağ olun. Burada olmaq, əlbəttə ki, çox maraqlıdır. Ukrayna müharibəsinin necə həll ediləcəyinə dair fikirlərinizi eşitmək maraqlı olardı. Müharibələr sonu görünmədən uzanır. Bildiyimə görə, Çin Rusiya iqtisadiyyatına, həmçinin onun müharibə səylərinə töhfə verir, ABŞ Konqresində Ukraynaya dəstək paketi qəbul olundu. Avropada narahatlıq artmaqdadır ki, əgər Ukrayna məğlub olarsa, Putin Baltikyanı ölkələrə, Polşaya tərəf baxacaq. Getdikcə gərginləşən, yaxşılaşmayan vəziyyət necə olacaq? Vəziyyəti necə düzəltmək olar? Azərbaycan nə edə bilər? Siz cənab Putinlə dünən görüşmüsünüz, Ukrayna müharibəsi və müharibəyə dair qərarlar barədə hər hansı müzakirələr, təkliflər olubmu? Çox sağ olun.




**Prezident İlham Əliyev:** Xeyr, dünən biz yalnız ikitərəfli məsələlərimizi və Cənubi Qafqazdakı vəziyyətlə bağlı məsələləri müzakirə etdik. Rusiya-Ukrayna müharibəsinin necə başa çatacağını bilmirəm. Əgər kimsə bilirsə, yəqin ki, Nobel Sülh Mükafatına namizəd olmalıdır. Düşünmürəm ki, indi bunun necə başa çatacağını heç kim bilmir. Amma mən bunu belə deyərdim, nə vaxtsa bitəcək, çünki müharibələr gec-tez dayanır. Təcrübəmizdən deyə bilərəm. Biz 1994-cü ilin mayında atəşkəs sazişini imzalayanda, əslində, müharibə dayanmadı. Beləliklə, Rusiya ilə Ukrayna arasında oxşar bir vəziyyət ola bilər. Əgər onlar müharibənin aktiv fazasını dayandırmaq barədə razılığa gəlsələr, bu, müharibənin dayandırılmasına zəmanət olmayacaq. Zaman-zaman, yəni, işğal dövründə təmas xəttində gərginlik, təxribat qrupları olub, snayper döyüşümüz olub, bu və ya bir sıra digər çox təhlükəli hadisələr baş verib. Bizim təmas xəttimiz isə bugünkü təmas xəttindən və ya Rusiya ilə Ukrayna arasındakı döyüş xəttindən xeyli qısa idi. Təsəvvür edin ki, atəşkəs sazişi imzalanıb. Bu, sülhün gələcəyinin zəmanəti olacaq? Yox. Biz 28 il gözlədik və ondan sonra suverenliyimizi güc yolu ilə bərpa etdik. Biz bunu haqlı olduğumuz və edə bildiyimiz üçün etdik. Bizim üçün bu, ölüm-dirim məsələsi idi. Biz o zaman əmin deyildik ki, kimlər Ermənistan tərəfindən çıxış edəcək. Fərqli variantlar ola bilərdi. Onların heç biri bizim üçün xoş deyildi. Amma o zaman biz bu barədə düşünmürdük, ya suveren ləyaqətimizi bərpa etməli, ya da hamımız ölməli idik. Bizim yanaşmamız belə idi. Gözlədik, güc topladıq, beynəlxalq arenada işlədik. Biz mövqeyimizi sübuta yetirməyə və təcavüzün qurbanı olduğumuzu izah etməyə çalışırdıq, lakin bu, heç bir nəticə vermədi. Bəli, beynəlxalq qurumlar qətnamələr, qərarlar qəbul etdilər, amma bunlar icra olunmadı, icra mexanizmi yox idi. Beləliklə, biz bunu güc yolu ilə icra etdik. Dediyim kimi, biz sülhü müharibə ilə gətirdik. Bu da bir seçimdir və bunun mümkün olduğunu nümayiş etdiririk. Odur ki, dediyim kimi, praktiki cavabım yoxdur, məncə, bunun nə vaxt dayanacağını heç kim bilmir. Ancaq dayansa belə, təkrar olunmayacağına zəmanət yoxdur. Azərbaycan nə edə bilər? Heç nə. Tamamilə praktiki baxımdan heç nə. Biz Ukraynaya 30 milyon avrodan artıq humanitar və maliyyə yardımı etdik. Böyük Azərbaycan diasporunun olduğu və bir çox sosial infrastrukturun Azərbaycan tərəfindən bərpa edildiyi İrpen şəhərində yenidənqurma işləri aparırıq. Daha heç bir şey. Bizdən istənilsə də, biz Ukraynaya silah vermirik, bunu açıq şəkildə deyə bilərik, etməyəcəyik. Humanitar yardım - bəli, silah – yox, bu, mənim cavabımdır. Etnik, dini baxımdan bir-birinə çox yaxın olan iki xalq üçün bu, böyük faciədir. Müharibədən qaçmaq şansı var idimi? Məncə, var idi. Əvvəlki illərdə Ukrayna liderlərinin Rusiya ilə normal münasibətlər qurmaq şansı var idimi? Tam əminəm ki, var idi. Bəli, mən indicə Rusiya-Azərbaycan münasibətlərindən danışırdım. Biz qonşuyuq. Biz güclü tərəfdaşlıq əlaqələri qurmuşuq. Biz bir-birimizin suverenliyinə hörmət edirik. Biz bir-birimizin işinə qarışmırıq. Rusiya ilə Ukrayna arasında belə ola bilməzdimi? Əlbəttə, mümkün idi. Ruslar Ukraynaya çox yaxın insanlardır. Niyə baş vermədi? Kimdir günahkar? Mənim fikrim var, amma bunu paylaşmayım. Amma məncə, 2000-ci ilin əvvəllərində şans əldən verildi. Ukraynanın güclü dövlət qurmaq şansı əldən verildi. Bu, mənim təcrübəmə və biliyimə əsaslanan şəxsi fikrimdir. Mən ilk prezidentdən başqa bütün Ukrayna prezidentlərini tanıyırdım və onlarla işləmişəm. Mən 2003-cü ildən bu kürsüdəyəm. Mən bir şey deyəndə bilirəm və təcrübəm olduğu üçün deyirəm, kimsə mənə nəsə deməyib. Mən Rusiya-Ukrayna münasibətlərində bir çox məqamların şahidi olmuşam: gərginlik, dostluq, düşmənçilik, lakin heç vaxt bu gün gördüyümüz səviyyəyə qədər çatmamışdı. Təəssüf ki, bu, faciəli vəziyyətdir və hər gün insanlar ölür. Dayandırılmalıdır. Kim dayandıra bilər? Mən bilmirəm. Yaddaşımdan bəzi epizodları açıqlaya bildiyim üçün maksimum dərəcədə açıq olmağa çalışdım.

**Hikmət Hacıyev:** Krzisztof Straçota, Polşanın Şərq Araşdırmaları Mərkəzində Türkiyə, Qafqaz və Mərkəzi Asiya şöbəsinin müdiri.

**Krzisztof Straçota:** Cənab Prezident, təşəkkür edirəm. Burada olmaq şərəfinə görə təşəkkür edirəm. Düzünü desəm, Sizdən soruşmaq istədiyim sualların çoxunun cavablarını eşitmişəm. Amma hər halda, Yaxın Şərqdəki vəziyyətlə bağlı sual verim. İranla İsrail arasında münaqişə nə qədər risklidir? İranın İsraillə çox yaxşı münasibəti olan qonşusu Türkiyə ilə isə çox dərin ittifaqı var. Düşünürəm ki, Yaxın Şərqdə baş verənlər Sizin üçün son dərəcə vacibdir. Vəziyyət nə dərəcədə ciddidir?

**Prezident İlham Əliyev:** Vəziyyətlə bağlı dediklərimi güman ki, bilirsiniz. Əlavə bir şey yoxdur. Qonşuluğa gəldikdə, bu, bizim coğrafiyamızdır, biz bu coğrafiyada yaşamağa öyrəşmişik. Bəlkə də Avropadan gələnlər üçün bu, çox riskli görünə bilər, amma bu, bizim həyatımızdır, biz onu dəyişə bilmərik. Beləliklə, biz bu coğrafiyada yaşamağa, təhlükəsizliyimizi, dövlətçiliyimizi, həyat tərzimizi qorumağa öyrəşmişik. Mən dəfələrlə müxtəlif auditoriyalarda demişəm ki, Azərbaycanda faktiki olaraq hər hansı ciddi potensial riskimiz yoxdur. Qarşılaşa biləcəyimiz bütün potensial risklər xaricdən gələ bilər. Biz nə etməliyik - qapılarımızı çətinlik törədənlərə bağlı, sadiq qonaqlara açıq saxlamalıyıq. Amma müşahidə edə biləcəyimiz odur ki, hər iki ölkə eskalasiyada maraqlı deyil və bu, yaxşı əlamətdir. Bəlkə də bu cür qarşılıqlı hücumlardan, bəlkə də hər iki tərəfin bu təxribatçı addımlardan çəkinməli olduğunu başa düşməsi lazım idi. Düşünürəm ki, dayanmaq üçün yüksək səviyyəli müdriklik nümayiş etdirdilər. Hesab edirəm ki, başqa mənbələrdən məsləhət olmasaydı belə dayanacaqdılar, çünki onların heç biri bunda maraqlı deyil. Bu, nə bu ölkələrin, nə də bu ölkələrin xalqlarının dünyanın öhdəsindən gələ bilməyəcəyi növbəti dağıdıcı qarşıdurma olacaq. Biz narahatlıq hiss edirik. Biz hadisələrin baş verdiyi coğrafiyada yaşayırıq, burada müharibələr həmişə qonşunuzla necə davranmaq üçün bir yol idi? Təəssüf ki, əsrlər boyu müharibələr və qan tökülmələri meydanı olub cənub, yoxsa şimal? Biz nə edə bilərik? O cümlədən Azərbaycan. Beləliklə, biz müharibəyə son qoyduq, indi tənəzzül baş verir. Nə qədər davam edəcəyini deyəcəyəm. Bunu heç kim bilmir. Təkcə bizdən asılı deyil. Əgər bizdən asılıdırsa, əbədi olaraq qalacaq. Amma bu, təkcə bizdən asılı deyil. Qafqazın bu bölgəsi, - Cənubi Qafqazı nəzərdə tuturam, - bir çox ölkələr üçün getdikcə daha cəlbedici olur. Yerləşmə, təbii ehtiyatlar, qonşuluq vacibdir. Azərbaycan Rusiya və İranla həmsərhəd olan yeganə ölkədir. Başqa heç bir ölkənin onların hər ikisi ilə sərhədi yoxdur. Bu, bizim həyatımızdır, biz onu ləyaqətlə yaşayırıq.

Müstəqilliyimizə maksimum sadiqik və mən hesab edirəm ki, bugünkü Azərbaycan bunun mümkün olduğu yaxşı nümunədir. Coğrafiyadan və çətinlikdən şikayətlər üçün bəhanə kimi istifadə edilməməlidir. Bilirsiniz ki, coğrafiyamız Avropadan fərqlidir, amma bu, bizim həyatımızdır. Biz müstəqil ölkə kimi yaşayıb uğur qazanmalıyıq ki, Azərbaycan xalqına seçimimizin, həyat tərzimizin regionda ən yaxşı olduğunu nümayiş etdirək. Biz bunu etməyə çalışırıq.

**Hikmət Hacıyev**: Nasir Obeydat, İordaniya Universitetinin prezidenti.

**Nasir Obeydat:** Cənab Prezident, ətraflı müzakirəyə görə təşəkkür edirəm. Yenə də suallarımın əksəriyyəti cavablandırıldı, amma Ermənistanla bağlı təcrübənizə əsaslanaraq başqa suallar verəcəyəm. Sizdə də işğal təcrübəsi var. Qəzzada insanların çəkdiyi əziyyət haqqında nə düşünürsünüz? Ölkəniz nə edə bilər, nəzərə alsaq ki, Sizin İordaniyanın Kralı II Abdullah ilə yaxşı münasibətiniz var. Çünki Qəzzada söhbət insan amilindən və insanların əzabından gedir. Nəinki qətllər, həm də yeməyi, ərzağı olmayan insanlar var. Ona görə də bu mövzuda Sizin fikrinizi eşitmək istəyirəm.

**Prezident İlham Əliyev:** Hisslərimiz tamamilə aydındır. Bu faciəni izləyən bütün insanlar kimi, biz də eyni hisslər keçiririk. Sevdiklərini itirən ailələrlə, günahsız qurbanlarla bərabər, uşaqların necə öldüyünü görəndə kədərlənirik, hisslərimiz hər bir normal insanın hissləri ilə tamamilə eynidir. Biz nə edə bilərik? Mən artıq Rusiya-Ukrayna ilə bağlı sualda buna cavab verməyə çalışdım. Edəcəyimiz şey çox deyil. Biz regionun bir hissəsi deyilik və əgər region ölkələri qonşu ölkələrə heç nə edə bilmirlərsə, biz nə edə bilərik? Təəssüf ki, onlar da heç nə edə bilmirlər. Beləliklə, bu məsələ təəssüf ki, görünməmiş faciəyə və həqiqətən də görünməmiş ədalətsizliyə gətirib çıxarır. Hiss etdiyim budur. Amma biz real dünyada yaşayırıq. Biz kağızlara əsaslanan dünyada yaşamırıq. Əlimizdə 28 il ərzində kağızımız var idi. Dünyada ən nüfuzlu olan BMT Təhlükəsizlik Şurasının qətnaməsi idi. Nə olsun? Buna kim əhəmiyyət verirdi? Qoşunlarını çıxarmağı Ermənistandan tələb edən həmin qətnamələri qəbul edənlər belə onların həyata keçirilməsi üçün heç bir iş görmədilər. Bu qətnamələrlə nə etmək lazımdır? Özümüzü bu qətnamə ilə əhatə etməli idik. Biz silahı götürüb ölməyə getdik, elə də etdik. Bu, mənim digərlərinə edəcəyim tövsiyəmdirmi? Xeyr. Mən bir Prezident və Ali Baş Komandan kimi öz adımdan və eyni hissləri yaşayan, eyni dəyəri paylaşan 10 milyon azərbaycanlının adından danışıram. Biz bu hissləri işğal dövründə də, müharibə zamanı da yarana biləcək vəziyyətlərdə keçirmişik. İndi qeyd edirik ki, artıq dörd ildir torpağımızdayıq. Real siyasətin nəzərə alınması üçün bu, acı həqiqətdir. Həmrəylik olsun. Bu, işləkdir? Xeyr. Biz bunu 28 ildir üzərimizdə hiss edirik. Mən nə deyə bilərəm? Hər bir ölkə, icma rəhbərinin bu problemi necə həll etmək üçün öz yolu var. Həmişə danışıqlar aparmağa üstünlük verən liderlər var. Mən də istədim, amma sonra dedim ki, bəsdir. Tövsiyəm odur ki, etdiklərimizi təkrarlamayın. Sadəcə, sizinlə bölüşmək istəyirəm, siz soruşdunuz, nə hiss edirəm? Mən sizə vəziyyəti necə gördüyümü söylədim. Birlik, həmrəylik və sair. İnanmadığım bir şeyi demək istəmirəm. Yumruq. Yalnız dəmir yumruq.

**Hikmət Hacıyev:** Liliana Smieç, Macarıstan Varşava İnstitutu Ludovika Dövlət Xidmətləri Universitetinin Beynəlxalq Əlaqələr üzrə baş direktoru, Fond Şurasının sədri.

**Liliana Smieç:** Bu, mənim üçün böyük şərəfdir. Sualım çox qısadır. Həyata keçirilən əməkdaşlıq strategiyasını nəzərə alaraq, Azərbaycanı Şərq və Qərb dünyası arasında ən əhəmiyyətli körpü kimi görürsünüzmü?

**Prezident İlham Əliyev:** Ən əhəmiyyətli körpü məncə çox təkəbbürlü səslənə bilər. Amma bəli, bu, bir növ mədəniyyətdir. Mən deyərdim, körpü ona görə ki, yerləşdiyimiz coğrafiya cəmiyyətin həyat tərzinə, əhvali-ruhiyyəsinə mütləq təsir edib. Biz Avropada və dünyanın digər yerlərində olanda özümüzü rahat hiss edirik, çünki Azərbaycan cəmiyyəti əsrlər boyu hər iki sivilizasiyanın, yəni, İslam sivilizasiyasının və Avropa sivilizasiyasının dəyərlərini əhəmiyyətli dərəcədə mənimsəmişdir. Beləliklə, şübhəsiz ki, bu yer bizə nəqliyyat əlaqələrinin qurulmasında fəal olmağı diktə edir, çünki mövqeyimizdən istifadə etməsək, heç kim bizi bağışlamaz. Biz sərmayə qoymağa və tikintiyə başladıq. Dediyim kimi, təkcə dəmir yolu və limanlar tikmək kifayət deyildir. Biz ölkələr arasında körpülər qurmalıyıq. Mən dəfələrlə demişəm ki, tranzit olmaq istəyən hər bir ölkə, - hazırda görürük ki, tranzit ölkə olmaq istəyənlərin sayı getdikcə artır, - ilk növbədə, ölkələr arasında körpülər qurmalıdır. Çünki bilavasitə qonşu və qonşunun qonşusu ilə yaxşı münasibət qurmasan, heç vaxt tranzit ölkə olmayacaqsan. Onlar səndən yan keçəcək, səndən qaçacaqlar. Beləliklə, bizim Xəzərin şərq sahilində yerləşən ölkələrlə, bir tərəfdən Mərkəzi Asiya ilə, digər tərəfdən isə Gürcüstan, Türkiyə və bir çox Avropa ölkələri ilə güclü əlaqələrimiz var. Rusiya və İranla Şimal-Cənub marşrutu üzrə, habelə Şərq-Qərb qovşağından və əlaqədən danışmağımızın səbəbi budur. Bu qonşulardan yalnız biri ilə problemimiz olsa, bu, işə yaramayacaq və həyatımızı yaxşılaşdıracaqmı? Əlbəttə, yox.

Dediyim kimi, biz özümüzü xarici potensial risklərdən qorumalıyıq və bu, uğurumuzun təminatı olacaq. Çünki daxildə, dediyim kimi, narahatedici məqamlarımız yoxdur. İndi Rusiya-Ukrayna müharibəsindən sonra siyasi vəziyyət dəyişməkdədir. Belə ki, coğrafiyamıza əvvəlkindən daha çox ehtiyac var. Şimal-Cənub nəqliyyat marşrutundan danışırıq, bu layihə 20 ildən çoxdur müzakirə olunur. Dediyim kimi, Azərbaycanda da altı-yeddi milyon ton yük daşına bilən dəmir yolumuz var. İndi qonşularımıza bu yolun 15 milyon, bəlkə də 30 milyon ton potensialı lazımdır. Eynilə, Rusiya-Ukrayna müharibəsi Belarus və Polşa vasitəsilə tranzit problemlərinə səbəb oldu və Orta Dəhliz əvvəlkindən daha çox diqqət cəlb etdi. Vəziyyət dəyişəcək? Təbii ki, dəyişəcək. Heç bir şey əbədi deyil, lakin biz nəqliyyat layihəmizlə bu situativ dəyişiklikdən faydalanmağa çalışmamalıyıq. Biz müvafiq tarifləri, rəqəmsal nəqliyyat sistemi olan, proqnozlaşdırıla bilən əməkdaşlıqla elə bir platforma yaratmalıyıq ki, bütün sanksiyalar və qadağalar götürüldükdən sonra da bu yoldan istifadə edilsin. Beləliklə, biz bunu etməyə çalışırıq.

**Hikmət Hacıyev:** Krşevan Antun, Xorvatiyanın İnkişaf və Beynəlxalq Münasibətlər İnstitutunun baş əməkdaşı.

**Krşevan Antun:** Zati-aliləri cənab Prezident, çox sağ olun. Burada olmaq şərəfdir. Sizin nitqinizi dinləyərkən mən Xorvatiyadakı tariximizi xatırladım. Bizim ortaq cəhətlərimiz çoxdur: ərazimizin 20 faizi işğal edilib, yüz minlərlə qaçqınımız olub. Odur ki, mən şəxsi cəsarətinizə və ölkənizi azad etdiyinizə görə Sizi və Azərbaycan xalqını təbrik etmək istəyirəm. On ildən artıqdır ki, Azərbaycana gəlib-gedirəm. Mən yeni enerjinin şahidiyəm və inanıram ki, indi Sizin ölkənin yüksəlişi üçün ən münasib vaxtdır. Sizə uğurlar arzulayıram. Beləliklə, qısa bir sual: Enerji layihələrinin, TANAP və TAP layihələrinin genişləndirilməsi baxımından, Adriatik-İon kəmərini nəzərə alaraq, TAP kəmərinə qoşulmaq planı varmı? Çünki bu, Azərbaycan qazının Xorvatiyaya çatdırılmasını təmin edə bilər. Çox sağ olun.

**Prezident İlham Əliyev:** Əvvəlcə, ölkəmiz haqqında dediyiniz xoş sözlərə görə təşəkkür edirəm. Bunu yüksək dəyərləndirirəm. Adriatik-İon boru kəməri ilə bağlı qeyd edim ki, onun qarşısında ciddi problemlər var. Birincisi, bu layihə Avropa İttifaqının ümumi maraq layihələri siyahısına daxil deyil. Ona görə də ona dəstək yoxdur. İkincisi, çox çətin bir ərazidə belə infrastruktur layihəsi qurmaq üçün həmin layihənin üç ölkəsinin istehlak edə biləcəyi təbii qazın həcmi çox aşağıdır. Siz məndən yaxşı bilirsiniz ki, orada dağlar var və sair. Deməli, bu günə qədər həyata keçirilməməsinin səbəbi budur. Alternativ varmı? Bəli, alternativ var və biz bunun üzərində işləyirik. Təbii ki, əgər kimsə Adriatik-İon boru kəmərini tikəcəksə, biz birmənalı olaraq tədarükə başlayacağıq, çünki bizim əlavə qaz ehtiyatlarımız var. Əgər bu, baş verməsə Xorvatiyaya, oradan isə sizin qonşularınıza – Bosniya və Herseqovinaya və Monteneqroya çıxış Macarıstan ərazisindən ola bilər. Çünki biz Macarıstana qaz tədarükünü artıq bir neçə ay əvvəl başlamışıq. Düşünürəm ki, sizin bazara da daxil olmağın yolu budur. Bildiyimə görə, Xorvatiya və Azərbaycan hökumət nümayəndələri artıq bununla bağlı məsləhətləşmələr mərhələsindədirlər. Ona görə də hesab edirəm ki, bu, daha real yoldur, çünki artıq dediyim kimi, biz fiziki olaraq Macarıstandayıq. Biz faktiki olaraq Bolqarıstan vasitəsilə də artıq Serbiya bazarına daxil olmuşuq ki, bu da digər qonşular üçün marşrut ola bilər. Ona görə də düşünürəm ki, biz daha tez və daha az xərclə həyata keçirilə bilən variantları araşdırmalıyıq.

(ardı 11-ci səhifədə)

# ADA Universitetində "COP29 və Azərbaycan üçün Yaşıl Baxış" mövzusunda beynəlxalq forum



(əvvəli 10-cu səhifədə)

**Hikmət Hacıyev:** Con Robertş Böyük Britaniyanın Methinks şirkətinin enerji təhlükəsizliyi üzrə mütəxəssisi.

**Con Roberts:** Bu gün bizim burada olmağımıza və sülh prosesində göstərdiyiniz səylərə görə çox sağ olun. Sizin və ermənilərin razılığa necə nail ola biləcəyinizi gözləmək çox çətin idi. Odur ki, nisbətən tezliklə buna nail olacağınıza dair fikirləri eşitmək çox ruhlandırıcıdır. Buna görə təşəkkür edirəm. Soruşmaq istədiyim sual, əslində, COP və enerji keçidi ilə bağlıdır. Sizcə, Azərbaycanın öz enerji keçidi yolunda bərpaolunan enerji mənbələri ilə mədən yanacaqları, xüsusilə də təbii qaz arasında nisbət nədir?

**Prezident İlham Əliyev:** Düşünürəm ki, mən artıq ənənəvi yanacağı və bərpaolunan mənbələr arasında düzgün tarazlıq haqqında məsələyə toxunmuşam. Hesab edirəm ki, Azərbaycan bunun gözəl nümunəsidir, çünki nəhəng təbii qaz yataqlarına malik olmaq bizim üçün ən azı 100 il ərzində özümüzü və müvafiq tərəfdaşlarımızı təmin etməyə kifayət edəcək. Biz, eyni zamanda, bərpaolunan enerji mənbələrinə investisiyalar cəlb etdik. Sadəcə, onu qeyd edim ki, Günəş və küləyin olması bizim üçün böyük bir vəsilədir. Bakılılar gecə-gündüz əsən küləkdən bəzən şikayətlənirlər. Təxminən ildə 300 gün külək əsir, amma indi o, Xəzər dənizindən nəinki təmiz hava, həm də təmiz enerji gətirəcək. Ona görə də düşünürəm ki, bir neçə ildən sonra biz dediklərimin şahidi olacağıq. Daha əvvəl qeyd etdiyim kimi, artıq başlayan və layihələndirilən təşəbbüslər var. Biz mədən yanacağından yaşıl enerjiyə keçid baxımından lider ölkələr sırasında olacağıq. Biz elektrik enerjisinə olan tələbatımızı bərpaolunan enerji mənbələri ilə təmin etməyi və ehtiyacı olanlara qaz ixrac etməyi planlaşdırırıq. Çox sağ olun.

**Hikmət Hacıyev:** Reyçel Rudolf, Amerika Birləşmiş Ştatları Zhuhai Campus-Pekin Normal Universitetində sosial elmlər üzrə köməkçi professor, tədqiqatçı.

**Reyçel Rudolf:** Salam cənab Prezident. İkinci dəfə burada olmaqdan şadam. Mən çox konkret bir sual vermək istəyirəm. Professor Çianqın Azərbaycan-Çin münasibətləri ilə bağlı sualından irəli gələrək, mən Azərbaycanda daha çox elektrik nəqliyyat vasitələrinin inkişafı ilə maraqlanıram. Bilirəm ki, bu, keçən ay müzakirə edilən məsələdir. Azərbaycanın yerli elektrik nəqliyyat vasitələri bazarının inkişafından danışarkən, Çinin konkret olaraq bu məsələdə hansı rol oynadığını görürsünüz? Çox sağ olun.

**Prezident İlham Əliyev:** Çox sağ olun. Biz Çini bu prosesdə əsas tərəfdaşımız hesab edirik. Bir neçə Çin şirkəti ilə çox məhsuldar danışıqlar apardıq. Düşünürəm ki, artıq qərar BYD şirkətinin xeyrinə verilib, o, tezliklə elektrik avtobuslarının və digər nəqliyyat vasitələrinin istehsalına başlayacaq. Həmçinin düşünürəm ki, əməkdaşlığımızda ilk addım kimi BYD-dən xeyli sayda elektrik avtobuslarının alınması üçün müqavilə də imzalanıb və ya tezliklə imzalanacaq. Eyni zamanda, bildiyimə görə, dövlətimizin Azərbaycanda istehsalatdan alacağı zəmanətli sayda elektrik avtobusları da var. Belə ki, elektrik avtomobilləri ilə bağlı planlarımız təkcə onları almaq deyil, burada istehsalat yaratmaq idi, çünki bizim artıq müxtəlif istehsalçıların avtomobillərini yığan bir neçə müəssisəmiz var. Çox güman ki, yüzlərlə avtobusa ehtiyacımız olacaq, eyni zamanda, BYD-nin müxtəlif növ elektrik avtomobillər istehsalı sahəsində çox məşhur olduğunu nəzərə alırıq. Düşünürəm ki, bazar üçün bu, həm də böyük üstünlük olacaq. Artıq müqavilə bağlanıb. Sənədləşmə prosesinin nə yerdə olduğunu deyə bilmərəm, amma qərar verilib. Beləliklə, biz ilk avtobusları yəqin ki, COP-dan əvvəl idxal etməyi planlaşdırırıq. Hesab edirəm ki, bu, bizim gündəliyimizi beynəlxalq ictimaiyyətə yaxşı nümayiş etdirmək üçün gözəl nümunə olacaq.

**Hikmət Hacıyev:** Voijeç Goreçki, Polşanın Şərq Tədqiqatları Mərkəzinin baş elmi işçisi.

**Voijeç Goreçki:** Çox sağ olun. Sualım turizm, habelə Gürcüstandakı Azərbaycan icması baxımından böyük əhəmiyyət kəsb edən Azərbaycanın sərhədlərinin yenidən açılması perspektivləri ilə bağlıdır. Xüsusilə də Gürcüstanla quru sərhədini nəzərdə tuturam. Çox sağ olun.

**Prezident İlham Əliyev:** Biz təhlükəsizlik, regional inkişaf riskləri və sair haqqında danışırdıq. Ətrafımızda qeyri-sabitliyin müxtəlif sahələrini görürük. Quru sərhədinin bağlı saxlanması qərarı COVID səbəbi ilə verilib. Biz hələ də formal olaraq karantin mərhələsindəyik, amma, eyni zamanda, açıq deməliyik ki, sərhədlərin bağlı qalması qərarı təkcə buna əsaslanmır. Biz indi görürük ki, artıq bir müddət keçdikdən sonra sərhədlərin bağlı olması Azərbaycanda təhlükəsizliyi gücləndirib. Əvvəlki dövrlərdə belə hallar çox olub, bəziləri açıqlanıb, digərlərini ictimaiyyətləşdirməmişik. Kənardan ciddi təhlükə və problemlərlə üzləşirdik. Bütün potensial risklərimizin kənardan ola biləcəyini deyəndə, məhz bunu nəzərdə tuturdum. Məncə, təfərrüatlara çox varmasam, başa düşəcəksiniz. Amma Prezident, milli təhlükəsizlik məsələləri ilə gündəlik məşğul olan bir şəxs kimi deyə bilərəm ki, biz sərhədlərimizi bağladıqdan sonra milli təhlükəsizliyimiz üçün çox böyük faydalar gördük və bu, reallıqdır. Bəli, insanlar bunu nəzərə almalıdırlar. Biz başa düşürük ki, Azərbaycanda insanlar üçün, eləcə də qonşuluğumuzda yaşayan azərbaycanlılar və başqa millətlər üçün narahatlıq var, lakin milli təhlükəsizlik bütün digər hisslərdən və ya bütün digər səbəblərdən üstün olmalıdır. Xüsusən də şimal sərhədimizdə müharibə, cənub sərhədimizdə böhran olduğu bir vaxtda. Ətrafda isə yağışdan sonra göbələk kimi yaranan yeni münaqişə zonası var və mən hesab edirəm ki, Azərbaycan xalqı bunu başa düşür.

Turizmlə bağlı deyə bilərəm ki, turistlərin sayı ildən-ilə artır. Yəqin ki, bu il Azərbaycana daxil olan xarici qonaqların sayı COVID-dən əvvəlki səviyyəyə çatacaq. Bu ilin ilk üç ayında ölkəyə gələn əcnəbilərin sayı 24 faiz artıb. Beləliklə, bu tendensiya ilin sonuna qədər davam edərsə, Azərbaycana üç milyondan çox əcnəbi gələcək ki, bu da COVID-dən əvvəlkindən çoxdur. Yəni, turizm üçün əslində, heç bir fərqi yoxdur. Bəli, Azərbaycandan maşınla qonşu ölkələrə getmək istəyən bəzi insanlar üçün bu vəziyyət əlverişsizdir. Biz bunu başa düşürük. Sərhədin o biri tərəfində, Dağıstanda, Gürcüstanda və İranda yaşayan azərbaycanlılar üçün əlverişsizdir - bildiyiniz kimi, bütün sərhəd boyu qonşu ölkələrdə yaşayan azərbaycanlıların əhatəsindəyik. Amma biz məsuliyyətli olmalıyıq. Deməli, quru sərhədinin açılması ilə bağlı məqam hələ ki, yetişməyib.

**Hikmət Hacıyev:** Rik Faun, Böyük Britaniya Müqəddəs Andrews Universitetinin professoru.

**Rik Faun:** Çox sağ olun, cənab Prezident. Bu misilsiz marafon sual-cavab sessiyasında Qarabağın minalardan təmizlənməsi məsələsinə toxunmamışıq. Bu səfərlərin çox faydalı cəhətlərindən biri hamımız üçün hələ də qalmaqda olan dəhşətli faciəni gözlə görmək imkanıdır. Qısa məlumat verə bilərsinizmi ki, bu problemin əhatəsi nə qədərdir və bu, Qarabağa səfər çərçivəsində görəcəyimiz nəhəng infrastrukturun yaradılmasına hansı təsiri göstərir? Həmçinin beynəlxalq birlik Azərbaycana kömək üçün nə edə bilər? Böyük Britaniyadan dəstək olduğunu bilirəm, amma bu, sadəcə, Azərbaycanın öz öhdəsinə buraxılmış bir məsələ olmamalıdır. Çox sağ olun.

**Prezident İlham Əliyev:** Çox sağ olun. Münaqişədən sonrakı yenidənqurma ilə bağlı bu ən mühüm məsələdə bizə kömək edən Böyük Britaniyaya və digər tərəfdaşlara çox minnətdarıq. Təəssüf ki, Azərbaycana qarşı müharibə davam edir. Mən Rusiya-Ukrayna müharibəsi ilə bağlı sualı cavablandırarkən dedim ki, atəşkəs, hətta müharibənin bitməsi son deyil. Qeyd edim ki, müharibədən sonra minaların partlaması nəticəsində 350-dən çox insan həyatını itirib və ya ağır yaralanıb. Onların əksəriyyəti mülki şəxslərdir. Təəssüf ki, bu rəqəm artacaq, çünki Ermənistanın əllərində olmadığına görə bizə verməkdən imtina etdiyi və nəhayət verməyə razılaşdığı qeyri-dəqiq mina xəritələri əldə etmişik. Dəqiqlik müxtəlif hesablamalardan asılıdır və təxminən 25 faizə bərabərdir. Minatəmizləmə həm də yenidənqurma üçün ən böyük maneədir, çünki minalardan təmizlənmədən biz nəinki insanları, hətta texnikanı daşıya, nə də yol çəkə bilərik. Resurslarımız məhduddur. Ərazilərin Minalardan Təmizlənməsi üzrə Dövlət Agentliyimizdə kadrların sayını artırırıq. Eyni zamanda, Müdafiə Nazirliyimizdə minatəmizləyənlərdən ibarət bir neçə hərbi hissə yaratmışıq, amma yenə də bu, kifayət deyil. Bu, Avropa İttifaqının bizə kömək edə biləcəyi məsələlərdən biri ola bilər və biz bu məsələni qaldırmışıq. Hətta dedik ki, pul vermək istəmirsinizsə, pulu gəlib minatəmizləyən şirkətə verin, əgər kömək etmək istəyiniz varsa. Əslində, bu, ədalətli ola bilər, çünki onlar artıq Ermənistan üçün böyük dəstək paketinin olduğunu bəyan ediblər. Erməni ərazisi işğal və viranə obyekti olmasa da, 2,6 milyard ABŞ dolları ayırmaq istəyirlər. Amma Azərbaycana gəldikdə, təəssüf ki, fərqli yanaşmanın şahidi oluruq. İstənilən ölkə və ya şirkət, həmçinin QHT-lər, bəzi donor təşkilatlar bizə kömək etsəydilər minnətdar olardıq. Bizə daha çox təlim keçmiş kadr lazımdır. Bizə daha çox insan lazımdır və təbii ki, maddi dəstək verilsə, çox minnətdar olacağıq. Olmasa, işləri yenə də olduğu kimi davam edəcəyik. Hər il biz minatəmizləmə agentliyinə büdcəmizdən təxminən 60-70 milyon ABŞ dolları ayırırıq. Yetərli deyil, lakin artırmırıq. Səbəbi maddi imkanımızın olmaması deyil, əslində, təlimləndirilmiş heyətin çatışmazlığıdır, çünki küçədən adam göndərə bilmirsən. Bu, təhlükəli işdir. Yaxşı hazırlıq keçməlidirlər. Bu məsələni qaldırdığınız üçün sizə təşəkkür edirəm.

**Hikmət Hacıyev:** Kamran Boxari, ABŞ-ın Nyu-Laynes Strategiya və Siyasət İnstitutunda Avrasiya təhlükəsizlik və rifah portfelinin direktoru.

**Kamran Boxari:** Çox sağ olun, Zati-aliləri cənab Prezident. Burada olmaq şərəfdir. Səmimiyyinizdən və hamı ilə səxavətlə bölüşdüyünüz fikirlərdən çox zövq aldım. Mən həqiqətən bunu nəzərdə tuturam və ölkənizin ərazisinin azad edilməsinə, COP29-a qədər əldə etdiyi hər bir nailiyyətə görə Sizi təbrik edirəm. Həmçinin gələcək üçün ən xoş arzularımı çatdırıram. Vermək istədiyim suala toxundunuz, amma bir az fərqli tərzdə soruşacağam. Riskdən danışdıq, əlaqələr haqqında danışdıq. Siz Şimal-Cənub dəhlizini qeyd etdiniz. Siz Orta Dəhlizdən danışdınız. Hazırda ölkənin şimalında və təbii ki, cənubunda böyük dəyişikliklər baş verir. Qeyd etdiyiniz kimi, münaqişələr var, lakin İranla onun düşmənləri arasında proseslərin nəzarətdən çıxmasını gözləmirsiniz. Amma İran da daxildə dəyişikliklərdən keçir. Eyni zamanda, qeyd etdiniz ki, Siz və heç birimiz Ukraynadakı müharibənin nə vaxt bitəcəyini proqnozlaşdıra bilmirik. Ancaq müharibə nə qədər uzun sürərsə, fəsadları daha ciddi olacaq. Siz bu strateji mühitin ölkənizin gələcəyə istiqamətləndirilməsinə və qarşınıza qoyduğunuz məqsədlərə nail olunmasına təsirini necə görürsünüz? Çox sağ olun.

**Prezident İlham Əliyev:** Əslində, mən hesab edirəm ki, regionda ən pis vəziyyət olmasa belə, bu çətin mühitdə necə hərəkət etməyin ən yaxşı yolu əvvəlcədən olduğu kimidir. Düşünürəm ki, əsas üsul və əsas həll yolu ədalətli və düzgün olmaqdır. Qonşularımızla yaxşı, bəzən də gözəl münasibətlər qura bilmişik. Uğurun əsasını bunda görürəm. Çünki onlar bizə etibar edə bilərlər və bilirlər ki, bizdən heç bir sürpriz olmayacaq. Ukraynaya münasibətdə bu ölkənin ərazi bütövlüyünə dəstəyimiz dəfələrlə ifadə olunub və bu, bizim mövqeyimizdir, harada danışdığımızdan asılı olmayaraq, bunu gizlətmirik. Eyni zamanda, Rusiya ilə dostluq və strateji tərəfdaşlıq münasibətlərimiz də bu müharibədən əziyyət çəkməyib və zərər görməməlidir. Bu da bizim milli maraqlarımızı əsas götürən hökumətimizin mövqeyidir.

Mən Azərbaycanın təhlükəsizliyinə, inkişafına və sabitliyinə cavabdehəm. Bunun üçün nə lazımdırsa, prinsiplər əsasında edirəm və biz heç vaxt düzgün, doğru və qanuni hesab etmədiyimizi etmirik. Beynəlxalq hüquq baxımından mükəmməl hesab etmədiyimiz bir şey etmirik. Çünki başqalarının pozmamasını istədiyiniz qaydaları özünüz pozursunuzsa, bu, susuz səhraya aparan yolun, sadəcə, başlanğıcıdır və digər qonşularla da eynidir. Artıq İsraillə yaxşı münasibətlərimizdən bəhs olundu. Bəli, elədir. Biz bir-birimizi dost hesab edirik. Bu, bizim İran və ya Fələstinlə münasibətlərimizə təsir edən amil olmamalıdır. Mövqeyim tamamilə birmənalıdır. Yenə də beynəlxalq hüquqa əsaslanaraq, biz Fələstin xalqının öz dövlətinə sahib olmaq istəklərini tam dəstəkləyirik. Biz müxtəlif qurumlarda, o cümlədən İslam Əməkdaşlıq Təşkilatlarında təşəbbüslərlə çıxış etmişik və ya bir çox hallarda müxtəlif tədbirlərdə iştirak etmişik. Biri digərini istisna etməməlidir. Ədalətli olmalısan, addımlarını, bəyanatlarını beynəlxalq hüquq əsasında qurmalısan. Hər şeyi milli maraqlara uyğun etməli, milli maraqlara zidd heç nə etməməlisiniz. Bölgədə xarici tərəflərin ölkənin şahmat taxtasındakı fiqurları hərəkət etdirməsi və bunun hansı nəticələrə gətirib çıxardığı hallar olub - faciə ilə nəticələnib. Xarici güclərin öz milli maraqları var və onlar mütləq sizin maraqlarınızla üst-üstə düşmür. Əgər üst-üstə düşsə yaxşıdır. Yoxsa biz imtina edirik, biz heç vaxt Azərbaycana potensial təhlükə yarada biləcək heç bir təşəbbüsə qoşulmamışıq və İranla, Rusiya ilə, Gürcüstanla, Avropa ilə, qardaş Türkiyə ilə münasibətlərimizdə həmişə ədalətli olmuşuq. Uğur qazanmağımızın səbəbi də budur. Ona görə də heç kim bizdən istəmədiyimiz bir şey gözləmir və bu, artıq əməkdaşlıq formatıdır. Həm də vacib olan odur ki, biz heç vaxt səbəb olmadan heç kimə qarşı heç nə etmirik. İndi bəzi ölkələrdən Azərbaycana qarşı əsassız hücumlarla üzləşirik. Biz cavab veririk. Bu ölkələr, əslində, Azərbaycana qarşı soyuq müharibəyə başlayıblar. Dedik ki, yaxşı, biz bunu qəbul edirik və eyni şeyi təkrarlayırıq. Biz də eyni şeyi edirik və qırmızı xətləri keçmirik, sonuncu körpünü yandırmırıq. Amma biz cavab verəcəyik. Amma biz heç vaxt birinci başlamayacağıq, Ermənistanla da münasibətlərdə eyni idi. Biz onlara hücum etmədik, işğal etmədik, qovmadıq, bunu onlar etdilər və cavabını aldılar. Bəli, 28 ildən sonra, amma hər halda. Buna görə də bu barədə fikirlərimi sizinlə bölüşməyə davam etsəm, yəqin ki, daha dörd saat tələb olunacaq. Odur ki, bununla yekunlaşdırım. Düşünürəm ki, artıq dediklərim kifayətdir və səbirlə dinlədiyiniz üçün sizə minnətdaram. Sizə uğurlar və Laçına maraqlı səyahət arzulayıram.

Sonda xatirə şəkli çəkdirildi.

**AZƏRTAC**

## Azərbaycan İnvestisiya Holdinqi Müşahidə Şurasının iclası

**Aprelin 23-də Azərbaycan Respublikasının Baş naziri, Azərbaycan İnvestisiya Holdinqinin (AİH) Müşahidə Şurasının sədri Əli Əsədovun sədrliyi ilə AİH-in Müşahidə Şurasının iclası keçirilib.**



İclasda holdinqin idarəetməsinə verilmiş portfel şirkətlərin 2023-cü ilin yekunları üzrə fəaliyyət hesabatı, əsas maliyyə nəticələri, o cümlədən ümumi gəlir və EBİTDA göstəriciləri, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (İƏİT) tərəfindən AİH və portfel şirkətlərinin korporativ idarəetməsinin qiymətləndirilməsi layihəsinin nəticələri, "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin fəaliyyəti və strateji baxışı haqqında icmal hesabat, portfel şirkətlərin büdcə tərtibi, təsdiqi və nəzarəti qaydaları və digər cari məsələlər ətraflı müzakirə olunub.

İclasda Azərbaycan İnvestisiya Holdinqinin baş icraçı direktoru Ruslan Əlixanovun və "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin sədri Rauf Vəliyevin məruzələri dinlənilib.

İclasın yekununda AİH-in Müşahidə Şurasının üzvlərinin rəy və təklifləri nəzərə alınmaqla müzakirə olunan məsələlər barədə qərarlar qəbul olunub və holdinqin İdarə Heyətinə müvafiq tapşırıqlar verilib.

Milli Məclisdə

## ABŞ Konqresinin üzvləri Azərbaycan–Ermənistan sülh prosesi barədə məlumatlandırılıb

**Aprelin 24-də Milli Məclisin Amerika Birləşmiş Ştatları ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvləri Azərbaycanda səfərdə olan ABŞ Konqresi üzvlərinin bir qrup köməkçisi ilə görüşüblər.**

Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri, Azərbaycan–ABŞ parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Səməd Seyidov qonaqları Azərbaycan Parlamentində görməkdən məmnunluğunu bildirib və ölkəmizin Amerika Birləşmiş Ştatları ilə münasibətlərindən danışıb.

Komitə sədri Azərbaycanın öz torpaqlarını işğaldan azad edərək ərazi bütövlüyünü və suverenliyini təmin etdikdən sonra bəzi Qərb dairələrinin və beynəlxalq təşkilatların ölkəmizə təzyiqləri, Ermənistan–Azərbaycan münasibətlərinin normallaşdırılması və sülh prosesi, Azərbaycanın işğal edilmiş 4 kəndinin geri qaytarılması barədə Ermənistanla əldə olunmuş razılaşmanın əhəmiyyətindən söhbət açıb. S.Seyidov, həmçinin Rusiya sülhməramlı qüvvələrinin ölkəmizdən çıxması, Azərbaycan tərəfindən bölgədə davamlı sülhün bərqərar olunması istiqamətində atılan addımlar, dünyada gedən proseslər, Azərbaycanın milli maraqları, ölkəmizin multikulturalizm, tolerantlıq ənənələri və digər məsələlər barədə fikirlərini çatdırıb.

Görüşdə iştirak edən Azərbaycan–ABŞ parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvləri qonaqları maraqlandıran suallara cavab verib, ölkəmizin Birləşmiş Ştatlarla münasibətlərinin perspektivləri barədə fikirlərini bölüşüblər.

***Ə.BƏDƏLOV***
***XQ***

# QHT müzakirələri: Erkən nikahlar

**"XQ"də "QHT müzakirələri: Erkən nikahlar" mövzusunda keçirilən "dəyirmi masa"nın budəfəki qonaqları "Yeni Həyat" Humanitar və Sosial Dayaq İctimai Birliyinin sədri Nailə İSMAYILOVA, "Vəfa" Sosial Problemlərin Həllinə Dəstək İctimai Birliyinin sədri Fatma HACIYEVA, "Müasir Azərbaycan Qadını" İctimai Birliyinin sədri Kəmalə MURADLI, "Din və Qadın Hüquqları" İctimai Birliyinin sədri Tünzalə QARDAŞOVA və Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin analitik təhlil və informasiya şöbəsinin müdiri, hüquq üzrə fəlsəfə doktoru Elgün SƏFƏROV idi.**



**Tədbiri giriş sözü ilə açan Baş redaktor Əflatun Amaşov** bildirdi ki, "XQ"də bu mövzunun davamlı olaraq işıqlandırılması, "dəyirmi masa"lar keçirilməsi təsadüfi deyil. Çünki Azərbaycan cəmiyyətində erkən nikah ağrılı problemlərdən biridir. Belə ki, bəzi ailələrdə qızların öz istəkləri, yaxud valideynlərin təzyiqi, habelə digər səbəblərdən erkən nikahlar baş verir. Təbii ki, ölkədə müşahidə olunan belə şərait cəmiyyətdə ciddi narahatlıqla qarşılanır və medianın müzakirə mövzularından birinə çevrilir. Əlbəttə, hökumət strukturları da məsələyə biganə qalmır, müvafiq icra hakimiyyəti orqanları tərəfindən çıxış yolları axtarılır.



Əflatun Amaşov qeyd etdi ki, indiyədək "XQ"nin iştirakı ilə keçirilən "dəyirmi masa"larda ekspertlər, dövlət strukturları nümayəndələri tərəfindən erkən nikah hallarının aradan qaldırılması istiqamətində bir sıra tədbirlərin reallaşdırılması zərurəti vurğulanıb. Problemə həssaslıqla yanaşmaqla zamanın tələbinə uyğun qanunvericiliyə müəyyən əlavə və dəyişikliklər edilməsi, bu yöndə rastlaşılan neqativ halların qarşısının alınması və cəzalandırma ilə bağlı mövcud qanunvericilik bazasının təkmilləşdirilməsi, habelə nikah yaşının azaldılması ilə bağlı istisnanın aradan qaldırılması təklif olunub.

Baş redaktor qonaqları işgüzar, səmərəli müzakirəyə dəvət edərək vurğuladı ki, redaksiyanın fəaliyyətində ölkənin sosial həyatının bütün sahələrindəki müəyyən çətinliklər, eləcə də erkən nikah problemi ilə bağlı məqalələrin verilməsi, "dəyirmi masa"ların keçirilməsi prioritet istiqamətdir. Bugünkü "dəyirmi masa" da həmin silsilənin, bir növ, davamıdır. Bu gün məlum problemə başqa aspektdən yanaşmışıq. Qarşıya qoyduğumuz məqsəd QHT sektoru ilə bağlıdır. Görək, QHT-lər erkən nikahla bağlı təqdim etdikləri layihələri necə həyata keçirirlər? Bu layihələrin cəmiyyətə nə kimi xeyri olacaq? Suallara aydınlıq gətirmək üçün isə mövcud sahədə daha çox iş aparan qurum olduğu üçün AQUPDK-dən nümayəndə, eyni zamanda fəal QHT rəhbərləri kimi sizi də dəvət etdik.

**Nailə İSMAYILOVA:**



– QHT Dövlət Dəstəyi Agentliyinə təqdim etdiyimiz layihə "Erkən nikahın fəsadları" adlanır. Bu mövzu bizim üçün yeni deyil. Belə ki, 7–8 ildir ki, erkən nikah, məişət zorakılığı, insan alveri, uşaq hüquqlarının qorunması ilə bağlı layihələr həyata keçiririk. Bunlar bir-birilə zəncirvari əlaqədə olan ailə münasibətlərində yer tutur. Erkən nikah deyəndə məişət zorakılığını, həm də, bu amillə bağlı insan alverini unutmamalıyıq.

Son vaxtlar erkən nikahla bağlı apardığımız maarifləndirici layihələrlə əlaqədar bölgələrdə oluruq. Bu dəfə həyata keçirəcəyimiz "Erkən nikahın fəsadları" adlı layihə isə 3 ay müddətində Saatlı, Sabirabad və Goranboy rayonlarını əhatə edəcək. Sosial Xidmətlər Agentliyinin bizə verdiyi sosial sifarişi Sabirabadda Günərzi qayğı mərkəzində həyata keçirən zaman həmin rayonda və Saatlıda erkən nikah statistikasının yüksək olduğunu müşahidə etmişdik. Ona görə də sözügedən layihə əsasında məhz o rayonlarda tədbirlər keçirməyi nəzərdə tutmuşuq. Eyni zamanda, gerçəkləşdirəcəyimiz layihələrdə valideynlərin də iştirakını zəruri hesab edirik. Çünki ötən tədbirlərdə qızlardan çox valideynlərin maariflənməyə ehtiyacı olduğunu görmüşdük.

Qeyd edim ki, may ayından başlayaraq hər 3 rayonda erkən nikahlarla bağlı sorğu keçirəcəyik. 100 nəfərin iştirakı nəzərdə tutulan sorğunun ikitərəfli aparılmasını planlaşdırmışıq. Erkən nikaha valideynlərin, eyni zamanda qızların münasibətinin öyrənilməsi qarşıya əsas məqsəd olaraq qoyulub. Bu məsələ ilə bağlı fikirləri öyrəndikdən sonra analaların və qızların iştirakı ilə "dəyirmi masa"lar təşkil edəcəyik. Bu yolla ailə ilə bağlı mövcud stereotipləri sındırmağın, maarifləndirmədə səmərəliliyə nail olmağın mümkünlüyünü düşünürük.

Ailə qurarkən tərəflərin düzgün seçim etməməsi, erkən nikaha qərar verilməsi bu cür ailələrdə narahatlıq doğuran fəsadların yaranmasına, körpələrin sağlamlığında ciddi problemlərin üzə çıxmasına səbəb olur. Bir çox hallarda həmin ailələr dağılır. Belə düşünülməmiş evliliklərdən ən çox ziyan çəkən isə dünyaya gələn uşaqlar olur. Ailə məsuliyyətini düzgün dərk etməyən, özü hələ uşaq ikən dünyaya uşaq gətirən qızlar sonradan çox ciddi problemlərlə üzləşməli olurlar və bunun öhdəsindən gəlməyə çox vaxt gücləri çatmır. Təhsildən ayrılan, heç bir peşə-sənətə malk olmayan, hüquqlarını blməyən qadınlar üzləşdikləri çətinlikləri aradan qaldırmaq iqtidarında belə olmurlar.

Bu gün erkən nikaha girən, rəsmi nikah qeydiyyatında olmayan, ailəsi dağılan çox sayda qadın, ana var ki, hətta həmin izdivacdan dünyaya gəlmiş övladlarına soyad belə ala blmirlər. Heç bir sənətə sahib olmayan belə xanımlar sonradan maddi ehtiyaclarını təmin etməkdən məhrum olurlar. Bu da cəmiyyətdə sosial problemli insanların artmasına gətirib çıxarır.

Aparılan təbliğat və maarifləndirmə işlərinə baxmayaraq hələ də erkən nikahlar bağlanır. Bu faktın özü belə bir problemin hazırda nə qədər aktual olduğunu göz önünə gətirir. Gənclərimizə, xüsusilə də, yeniyetmə qızlarımıza bu sahədə kömək etmək çox vacib məsələdir. Bununla bağlı aparılan maarifləndirmə tədbirləri yeniyetmə və gənclərin gələcək həyatlarının düzgün qurulmasına, vaxtında və düzgün seçim etmələrinə müsbət təsir göstərə bilər.

**Fatma HACIYEVA:**



– Erkən nikahlarla bağlı adları müxtəlif olsa da bir neçə layihə ("Erkən nikah–Yarımçıq qalmış arzular", "Zorla ərə verilmə, erkən nikah" və s.) rəhbəri olmuşam. Hətta bir dəfə narkomaniya ilə bağlı layihə həyata keçirdiyimə baxmayaraq, erkən nikah mövzusu qəlbimə yaxın olduğu üçün bu istiqamətdə işləməyi daha çox düşünmüşəm. Çünki müəlliməm, yeniyetmələrlə işlədiyimdən onların tələblərini yaxşı bilirəm.

Bakı şəhərində regionlarla müqayisədə erkən nikah hallarına az rast gəlinir. Ona görə də müəyyənləşdirdiyim layihələri bölgələrdə həyata keçirmişəm. Bir neçə il İsmayıllı və Abşeron rayonlarının kəndlərində maarifləndirici tədbirlər gerçəkləşdirmişəm. Erkən nikahın və nikahdan kənar uşaq evliliyinin qarşısının alınması məqsədilə Abşeronun bir neçə kəndində layihə icra etmişəm.

Onu da deyim ki, bölgələrimizdən Masallı və Biləsuvar rayonlarında erkən nikaha daha çox rast gəlinir. O bölgələrin əksər kəndlərində qızlar 5-ci, uzağı 6-cı sinifdən məktəbdən çıxarılır. Etiraf edim ki, özüm də erkən (çox gənc yaşda) nikah qurbanı olmuşam. Belə ki, 18 yaşımda tələbə olaraq ailə qurmuş, bir il sonra isə körpə dünyaya gətirmişəm. Erkən nikaha görə günahı həmişə özümdə görmüşəm. Düzdür, sevib el adəti ilə ailə qursam da, erkən nikaha görə çox çətinlik çəkmişəm. O zaman elə bilirdim ki, hər şey son dərəcə gözəl olacaq. Amma ailə nədir, hansı vəzifələri var, uşağa necə qulluq etmək olar kimi sualların cavabından xəbərsiz idim. Öz toyumda gəlin paltarı geyməyin ən böyük səadət olduğunu düşünürdüm. Özüm belə tez ailə qurduğum, bu səbəbdən çox əziyyət çəkdiyim üçün erkən nikaha cəlb edilənlərin əziyyətini də daha yaxşı anlayıram.

Bu mövzu ilə bağlı keçirdiyim layihələrin müsbət nəticəsi olduğundan təkrarən erkən nikahlarla bağlı "Qadınların cəmiyyətə inteqrasiyasında erkən nikah sindromu" adlı layihə təqdim etmişəm. Əvvəlki layihələrdən sonra çox sayda telefon zəngləri almışam. Hətta bir layihənin icrası zamanı bir xanım mənə yaxınlaşıb dərdini danışdı. Onun narahatlıq doğuran bu problemini medianın köməyi ilə aradan qaldırdım. Yaxud Abşeronda 15 yaşlı bir qızın nişanlanması ilə bağlı informasiya aldım. Valideynlər bu məlumatı gizlətməyə çalışsalar da, uşaq faktı təsdiqlədi. Abşeron Rayon İcra Hakimiyyəti nəzdində İctimai Şuranın köməyi ilə hadisəyə müdaxilə etdik. Mərasim baş tutmadı və qızın məktəbə qayıtmasına nail olduq.

Hazırkı layihəmlə bağlı Sabirabad, Salyan, Masallı və Biləsuvar rayonlarının erkən nikahların sayı daha çox olan kəndlərində tədbirlər keçirəcəyik. Əsas məqsədim erkən nikah qurbanlarına dəstək olmaqdır. Qadınların heç olmasa bir sənətə yiyələnərək cəmiyyətə adaptasiyasına kömək etmək istəyirəm. Təhsil almaq istəyənlərin arzusunu gerçəkləşdirməyə dəstək olmaq fikrindəyəm.

Erkən nikahlar fərdin psixi-mənəvi və bioloji cəhətdən inkişafına təsir edən, təhsildən yayındıran, sosiallaşmasına mane olan önəmli faktordur. Evlilik şəxsin seçim edə biləcəyi bir hadisə olduğu halda, erkən evlilik onun seçim haqqının əlindən alınmasıdır. Erkən nikahlar uşaqların həmin yaş dövrünü əllərindən almaqla, ailə, ev, uşaq baxımı kimi məsuliyyətlər daşımaqla şəxsi inkişafına mane olur. Həmin fərdlər təhsildən uzaqlaşır. Uşaq evliliyi qız uşaqlarının həyat yoldaşlarından asılı hala gəlmələrinə və cəmiyyətdə qadın-kişi bərabərsizliyinin yaranmasına gətirib çıxarır.

Qadınların təhsilinin və maddi vəziyyətinin məhdudluğu, tərəflər arasında yaş fərqinin və güc balansının olmaması, qadının azadlığının əlindən alınması bu cür evliliklərin mexanizminin əsasıdır. Adətən, erkən evlilik halları ailələrin razılığı ilə baş tutduğundan, nikaha cəlb edilənlərin 71 faizi evlənməmişdən öncə bir- birlərini görmürlər. Ailə planlaşdırılmasını dərk etmirlər və beləliklə, dünyaya gətirilən uşaqların sayında və sağlamlığında ciddi problemlər meydana çıxır. Depressiyaya düşənlərlə bağlı dünya statistikasnda 10–17 yaş arasında evlənənlərin daha çox intihara meyilliliyi müşahidə olunur.

Erkən nikaha daha çox məruz qalan qızlar gələcəyin anasıdır. Ana isə nə qədər təhsilli, dünyagörüşlüdürsə, onun yetişdirdiyi övlad da bir o qədər savadlı, cəmiyyət üçün faydalıdır. Bunu nəzərə alıb gələcəyin anası olacaq qızların kamil, intellektli, təhsilli insan kimi yetişməsinə şərait yaratmaq lazımdır.

**Kəmalə MURADLI:**

– Rəhbərlik etdiyim qurum QHT-yə Dövlət Dəstəyi Agentliyinin maliyyə yardımı ilə "Erkən nikahlar uşaq hüquqlarının pozulmasıdır" adlı layihəni həyata keçirməyə hazırlaşır. Təşkilat olaraq 1998-ci ildən etibarən müxtəlif layihələr həyata keçirmişik. Hazırkı layihəmiz 1 may 2024-cü il tarixindən başlayacaq və Masallı, Lənkəran, Cəlilabad və Neftçala rayonlarını əhatə edəcək. Layihənin əsas məqsədi isə əhali arasında məlumatlandırma yolu ilə erkən nikahların azaldılması, qadın və uşaq hüquqlarının qorunmasıdır.



Layihəni 2 ay ərzində başa çatdıracağıq. Dərslər bitənə qədər yuxarı siniflərdə təhsil alan qızların iştirakı ilə tədbirlər həyata keçirəcəyik. Peşə məktəbləri, kolleclər və orta məktəblərlə əlaqələr yaradacağıq. Yeniyetmələri erkən nikahlar, məişət zorakılığı ilə bağlı məlumatlandıracağıq. Tədbirlərimizə qadın müəllimləri, bələdiyyə üzvlərini, əlaqədar qurumların nümayəndələrini dəvət edəcəyik.

Problem ondadır ki, qızların erkən ərə verilməsi ilə bağlı qeydiyyat aparılmır. Dövlət orqanları və ictimaiyyət bu faktdan gənc qızların doğuş vaxtı ölməsi və ya az yaşda doğum evinə daxil olarkən xəstəxana qeydiyyatı zamanı xəbər tutur. Bölgələrdə faktların böyük əksəriyyəti gizlədilir. Erkən nikahlar qızların qul kimi satılmasına, reproduktiv sağlamlığına zərbə vurulmasına, uşaq hüquqlarının pozulmasına səbəb olur, psixoloji və mənəvi sarsıntılar yaradır. Qadınların ictimai fəallığına, təhsilinə və ixtisas seçiminə mənfi təsir göstərir. Bu isə bütövlükdə cəmiyyətin milli-mənəvi dəyərlərinə ağır zərbə vurur, psixoloji gərginlik yaradır. Erkən nikahlarda doğulan uşaqlarda müxtəlif xəstəliklər aşkar olunur.

Erkən nikahlara qarşı ən səmərəli mübarizə əhali arasında maarifləndirmə, belə nikahların uşaqların sağlamlığına, ictimai fəallığına və qadın hüquqlarının pozulmasına mənfi təsir göstərdiyini izah etmək, məlumatlığı artırmaqdır. Həyatı dərk etmədən nikaha girənlər sosial-iqtisadi cəhətdən zəif olur və belə ailələrdə boşanmalar daha tez baş verir. Qızlar özlərini maddi cəhətdən təmin, müdafiə edə bilmirlər. Onlar təhsili, peşəsi, ixtisası olmadığından ömür boyu kişidən asılı vəziyyətdə qalır, ailədaxili zorakılıqla, istismarla üzləşirlər.

Valideynlər uşaqların mənəvi inkişafına, fiziki və psixi sağlamlığına xələl yetirməməlidirlər. Uşaqların tərbiyəsində onların istismarına, təhqir edilməsinə, mənəviyyatının alçaldılmasına, qəddarlığa, kobudluğa, biganəliyə yol verilə bilməz. Valideynlik hüquqlarını həyata keçirərkən uşaqların hüquq və mənafelərinə zərər verən valideynlər qanunvericiliklə müəyyən olunmuş qaydada məsuliyyət daşıyırlar.

**Tünzalə QARDAŞOVA:**



– 2017-ci ildən etibarən Dilarə Əliyeva adına Azərbaycan Qadınları Hüquqlarının Müdafiəsi Cəmiyyətinin Cənub nümayəndəsiyəm. "Din və Qadın Hüquqları" İctimai Birliyimiz 2021-ci il noyabrın 22-də dövlət qeydiyyatına alınsa da, fəaliyyətə bir neçə il öncədən başlamışıq. Məqsədimiz dini radikalizmlə mübarizə və qadınların hüquqlarını qorumaqdan ibarətdir. İndiyədək QHT-yə Dövlət Dəstəyi Agentliyinin elan etdiyi 3 qrant layihəsinin qalibi olmuşuq. Həmin layihələrin mövzusu müxtəlif adlarla qadınların hüquqlarının qorunmasına yönəlmişdir.

Toxunduğumuz mövzular aktuallığı ilə seçildiyindən hər zaman ictimai müzakirələrdə böyük maraq doğurub. Erkən nikahlara gəldikdə isə bu yalnız cənub zonasında olan problem deyil, ölkənin müxtəlif ərazilərində bu kimi hallar baş verir. Buna görə də "Erkən və qohumlar arasında nikahın qarşısının alınması" adlı layihənin həyta keçirilməsinə üstünlük vermişik.

Əvvəlki illərlə müqayisədə cənub rayonlarında erkən nikahlar nisbətən azalıb və təhsil alan qızlarımızın sayı üstünlük təşkil edir. Hesab edirik ki, apardığımız maarifləndirmə tədbirləri, gördüyümüz işlərin nəticəsi az da olsa, öz bəhrəsini verməkdədir. Amma maarifləndirmə tədbirlərimizi davam etdirilməli, xüsusən ucqar ərazilərdə yaşayanlar arasında bu məsələ xüsusilə diqqətdə saxlanılmalıdır.

Tədbirlərimizi, əsasən, qızların təhsil almaları və peşələrə yiyələnmələri məsələsinə həsr edirik. Düşünürük ki, təhsil almağa maraq artdıqca erkən nikahlar mütləq şəkildə azalacaq. Erkən nikahların qarşısını almaq üçün maarifləndirmə ilə yanaşı, qanunvericilikdə cəza tədbirləri də sərtləşdirilməlidir. Təcrübəmizdə dəfələrlə olub ki, məktəb yaşlı qızın nişanlanıb. Ailə söhbət zamanı buna qanunla müdaxilə edə bilməyəcəyimizi bildiyi üçün məsələyə laqeydliklə cavab verib: "Qızımı nişanlamışam, toy etmirəm". Qızlar bəzi hallarda xaricdə, xüsusilə Rusiya Federasiyasında yaşayan və işləyən oğlanlarla nişanlanır, bir müddət sonra müalicə və ya müxtəlif adlarla valideynləri tərəfindən ölkədən çıxarılıb evləndirilir.

Əvvəllər rayonlarda dövlət qurumlarında QHT ilə əməkdaşlığa böyük maraq göstərilir. QHT nümayəndələri və cəmiyyətdə nüfuzu ilə diqqət çəkən, problemləri bilən şəxslərlə əməkdaşlıq daha sıx şəkildə olmalıdır ki, onlar da dövlətimizə, Vətənimizə bacardıqları qədər dəstək olsunlar, çətinliklərin aradan qaldırılması istiqamətində tədbirlər həyata keçirib cəmiyyətin inkişafına öz töhfələrini versinlər.

**Elgün SƏFƏROV:**



– Ailə münaqişə məsələlərinin həllini tapması ayrı-ayrı dövlət qurumlarının deyil, ən yuxarı instansiyaların marağındadır və dövlət siyasətinin bir hissəsidir. Dövlət qurumları nümayəndələrinin bildirdiyi fikirlər cəmiyyətdə başqa cür qarşılanır, ictimaiyyətdən, kənddən, məktəbdən, rayondan olan insanların söylədikləri isə vətəndaşlar tərəfindən tamamilə fərqli şəkildə qiymətləndirilir. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin hər rayonda məişət zorakılığı üzrə komissiyası var və bu çərçivədə 11 dövlət qurumu fəaliyyət göstərir. Həmin qurumların məlumatlarına əsasən biz yerlərdə olan hadisələrlə bağlı məlumat alırıq və bilirik ki, erkən nikahın özü məcburetmə olduğuna görə, məişət zorakılığının bir növüdür. Burada fiziki olmasa da, psixioloji məcburetmədən söhbət gedir. Komitə heç bir fakta laqeyd qalmır. Yalnız Ailə, AQUPDK-nin dəstəyi ilə ötən il 30-dan çox uşaq nikahının qarşısı alınıb. Bu, 11 rayonda yerləşən uşaq və ailələrə dəstək mərkəzindən alınan faktdır. Ümumi say yəqin ki, daha böyükdür. Dünyada 750 milyondan çox qadın, uşaq nikahına məruz qalıb. Bu say, ən çox Afrika ölkələrində, Asiyada, Hindistan və Pakistandadır.

Azərbaycanda 2011-ci ildə erkən nikahlardan doğulan uşaqların sayı 5 mindən, uşaq nikahların sayı isə 2 mindən çox idi. Aparılan maarifləndirmə, görülən tədbirlər nəticəsində 2022-ci ildə uşaq nikahların sayı 270, belə nikahdan doğulan uşaqların sayı təxminən 2 min olub. Deməli, ictimai təşkilatların, dövlət qurumlarının, medianın apardığı birgə işin müsbət nəticəsi var. Ötən illərdə həyat, təhsildən yayınma açıqlanmırdı. Amma indi təhsildən yayınma hallarını müəyyənləsdirmək 20 il əvvələ nisbətən çox asandır.

Yaxşı olardı ki, hər bir QHT rəhbəri bu layihələri həyata keçirərkən hər layihədə olmasa da, bəzilərində yalnız qızlarla yox, həm də oğlanlarla birgə işləsin. Çünki reprodiktiv sağlamlıqla bağlı maarifləndirməyə onların da ehtiyacı var. Keçirilən görüşlərdə qızlarla bərabər, həm də oğlanlar iştirak etməlidirlər.

AQUPDK hər kəslə əməkdaşlığa hazırdır. Ayrı-ayrı qeyri - hökumət təşkilatları gördükləri işlərin hesabatlarını komitəyə təqdim etməklə problemin həllinə, bununla da cəmiyyətə daha çox fayda verər. Redaksiyanın resurslarından istifadə edib "XQ", "Xalq TV" və podkastlar vasitəsilə maarifləndirməni daha geniş şəkildə həyata keçirmək olar. Çünki redaksiya sizə dəstəyə hazırdır. Bu sahədə hər birinizə uğurlar arzulayıram.

*Vaqif BAYRAMOV,*
*Zərifə HÜSEYNOVA,*
*Elşən AĞALAR (foto)*
*XQ*

# Azərbaycan–Türkiyə–Rusiya: Cənubi Qafqazda yeni geosiyasi konfiqurasiya

**Prezident İlham Əliyevin Moskvaya səfərinə maraq böyük oldu. Sülhməramlıların Qarabağı tərk etməsi fonunda bu, təbii görünür. Lakin məsələ yalnız bu hadisə ilə məhdudlaşmır. Politoloqlar əmindirlər ki, Azərbaycan Prezidenti böyük siyasətin məharətli liderlərindən biri kimi strateji əhəmiyyəti olan addım atmışdır. Doğrudan da, son zamanlar Cənubi Qafqaz ətrafında baş verən geosiyasi proseslərin məntiqinə və dinamikasına baxanda maraqlı mənzərənin şahidi oluruq.**

Faktiki olaraq regiona geosiyasi təsirlər daha da intensivləşmişdir. İsrail–Fələstin, İsrail–İran və Rusiya–Ukrayna arasında olan gərginliklər də öz təsirini göstərməkdədir. Hər bir halda politoloqlar Cənubi Qafqazda müşahidə edilən geosiyasi prosesləri vurğulanan münaqişələrlə əlaqələndirməyi normal qəbul edirlər. Burada isə bir sıra çox vacib məqamlar özünü göstərir.

### Cənubi Qafqazda qüvvələr balansı və status-kvo

Öncə məsələ başlıca olaraq regionun təhlükəsizliyi ilə bağlıdır. İndi Cənubi Qafqazda qüvvələr balansını necə qurmaq lazımdır ki, mövcud status-kvo saxlansın və eyni zamanda, davamlı sülh trekinə keçmək mümkün olsun. Bu aspektdə məsələnin kəskin şəkildə qoyulmasının əsas səbəbi Cənubi Qafqazda II Qarabağ savaşından sonra formalaşmış yeni geosiyasi trendi bir sıra böyük dövlətlərin qəbul etmək istəməmələri ilə bağlıdır. Onlar hazırda yaranmış imkandan istifadə etmək əvəzinə, ümumi mənzərəni hansı yolla yeni qeyri-sabitlik müstəvisinə çıxarmağın formulunu axtarırlar. Məqsəd də aydındır: Cənubi Qafqazda aparıcı geosiyasi güc kimi özünü təsdiq edən Azərbaycan–Türkiyə birliyini arxa plana atmaq. Təbii ki, əgər işin içində ABŞ, Fransa və digər güclü Qərb dövlətləri varsa, mübarizə aparmaq böyük siyasi məharət, həssas diplomatik addımlar tələb edir. Proseslər təsdiq edir ki, həmin aspektdə İlham Əliyev çox fəallıq göstərir. Bunu faktlardan da görmək olur.

### Xarici siyasətdə multivektorluq və multilaterallıq

Azərbaycanın xarici siyasətində yeni tarixi mərhələnin başlanması ilə maraqlı siyasi çalarlar meydana gəlmişdir. Onların sırasında iki əsas faktoru vurğulamaq olar – multivektorluq və multilaterallıq. Bu faktorlar xarici siyasətin müasir özəlliklərinə aiddir. Multivektorluq çox sayda istiqaməti sistemli və ya şəbəkə formasında bir-birinə uyğunlaşdıraraq siyasi-diplomatik fəaliyyəti nəzərdə tutur. Bu anlamda çoxistiqamətlilik trivial diplomatik hadisə deyildir – ardıcıl diplomatik məharətlilik tələb edir. Multilaterallıq daha mürəkkəb semantik və feili struktura malikdir. Burada müxətlif istiqamətlər, müxtəlif sürətlər və müxtəlif geosiyasi miqyaslar vahid məntiq çərçivəsində aktullaşmalıdır. Yəni onlar abstrakt şəkildə nəzəri formada qalmamalı, birbaşa praktiki-tətbiqi yön almalıdır.

Aydındır ki, multivektorluq və mulilaterallıq xarici siyasətdə böyük fəallıq tələb edir. Azərbaycan postmüharibə mərhələsində həmin istiqamətdə bir çox mühüm addımlar atmışdır. Birincisi, bütün qonşuları ilə münasibətləri əməkdaşlıq və təhlükəsizliyin təmini kontekstində quracağını sübut etmişdir. İkincisi, Azərbaycan geniş geosiyasi məkanda kommunkasiyaların işlək olmasını təmin edən addımlar atmışdır. O cümlədən, Cənubi Qafqazda Bakının təşəbbüsü ilə müxtəlif sahələrə aid və şəbəkə halını almış layihələr reallaşmaqdadır. Üçüncüsü, Azərbaycan Yaxın Şərqdə böyük layihələrdə iştirak üçün ciddi və uğurlu geosiyasi həmlələr etmişdir. Bu sırada Azərbaycanla İraq arasında strateji tərəfdaşlığa aparan və böyük bir nəqliyat layihəsinin reallaşması ilə bağlı olan gedişat olduqca əhəmiyyətlidir. Məsələ həm də ona görə multivektoral və multilateral xarakterlidir ki, Azərbaycan–İraq münasibətləri, Azərbaycan–İran–Suriya–Türkiyə və Yaxın Şərqin bir neçə dövləti arasındakı əlaqələr kontekstində strateji əhəmiyyət kəsb edir. Rəsmi Bakı bu prosesin çox aktiv iştirakçısıdır. Dördüncüsü, Azərbaycan bir geosiyasi həmlə ilə – Rusiya sülhməramlılarının Qarabağdan çıxarılmasını təmin edən siyasi-diplomatik addımlarla regional geosiyasətə yeni nəfəs vermişdir. Onun müsbət nəticəsini artıq hiss edirik – Ermənistan Azərbaycanla birbaşa danışıqların real nəticələr verdiyinə tam əmin oldu və Rusiya Azərbaycanın timsalında etibarlı və perspektivli dost qazandığını etiraf etdi.

### Rusiya ilə münasibətlər: yeni imkanların yaranması

Azərbaycan–Rusiya münasibətlərinin Cənubi Qafqazda yeni geosiyasi konfiqurasiya formalaşması aspektində əhəmiyyətinin çox artdığının göstəricisidir. Məsələ ondan ibarətdir ki, Azərbaycan Rusiya ilə münasibətləri strateji müttəfiqlik haqqında imzalanmış müqavilə əsasında, bütövlükdə, regionun təhlükəsizliyi və inkişafı kontekstində qurur. Rusiya rəsmi nümayəndələrinin



Azərbaycana son səfəri bunu bir daha təsdiq etdi. Tərəflər çox sayda istiqamətlərdə əlaqələri yeni səviyyəyə yüksəltmək haqqında razılığa gəldilər. Masada konkret layihələr vardır. Bakı və Moskva real surətdə onların həyata keçməsində maraqlıdırlar. Təbii ki, Zəngəzur Dəhlizi layihəsi son sırada deyildir.

Bunlar Cənubi Qafqaza Qərbin geosiyasi təsirini artırmağa çalışması fonunda strateji xarakterli məqamı ifadə edirlər. Hər şeydən öncə, Moskva artıq Azərbaycanla münasibətlərə, bütövlükdə, Qafqaz kontekstində və geosiyasi aspektdə baxır. İndi Azərbaycan Kreml üçün adi bir Qafqaz ölkəsi deyildir, əksinə regionun aparıcı və geosiyasi təsiri olan güclü dövlətidir. Bu, olduqca böyük tarixi əhəmiyyəti olan vacib geosiyasi yenilәşmə məqamıdır. Prezident İlham Əliyevin Moskvaya son səfəri də göstərdi ki, Azərbaycan Rusiyanın geosiyasi miqyasda bərabərhüquqlu və fəal tərəfdaşı statusundadır. Cənubi Qafqazda ikinci belə bir dövlət həlelik yoxdur.

Bunlar avtomatik olaraq meydana maraqlı sual çıxarır. Azərbaycan–Rusiya münasibətləri regional miqyasda sülh, əməkdaşlıq və təhlükəsizliyi təmin edə biləcək geosiyasi konfiqurasiyanın bir parçası ola bilərmi? Və bu geosiyasi konfiqurasiyanın tam mənzərəsi necədir? Hazırda regionda mövcud olan real geosiyasi mənzərəyə baxsaq, Türkiyə–Azərbaycan birliyinin aparıcı regional faktor olduğunu görərik. Deməli, bu tandemə Rusiyanın da daxil olması daha güclü bir müttəfiqliyi və gücü yaratmış olar. Bunun üçün də kifayət qədər baza vardır.

Məsələ ondan ibarətdir ki, Türkiyə-Rusiya münasibətləri hazırda Avrasiyada çətin sınaqlardan çıxmış və öz konstruktivliyini sübut etmiş reallıqdır. Məsələn, Qarabağla bağlı situasiyada Qərb və İranın dağıdıcı fəaliyyətlərinə baxmayaraq, Rusiya–Türkiyə əməkdaşlığı regionu bir çox faciələrdən qorudu. Faktiki olaraq, bu iki güclü dövlətin birgə siyasi-diplomatik fəaliyyəti nəticəsində kənar pozucu qüvvələr real heç nə əldə edə bilmədilər. Heç bir təxribat və diplomatik təhrik Ankara–Moskva xəttində gərginlik yarada bilmədi. Artıq bunu kimsə inkar edə bilməz.

Bu prosesin fonunda Azərbaycan–Türkiyə və Azərbaycan–Rusiya münasibətlərinin məzmunu üzərində bir daha dayanmağa ehtiyac görmürük. Lakin bir vacib xüsusiyyəti vurğulayaq: Azərbaycan–Türkiyə–Rusiya geosiyasi "üçbucağı"nda birləşdirici, müxtəlif istiqamətləri uyğunlaşdırıcı və fərqli əlaqələr intensivliyini ortaq ritmə gətirici qüvvə Azərbaycandır! Bakının bu birləşdirici rolunun memarı Prezident İlham Əliyevdir. Azərbaycan liderinin fəaliyyəti sayəsində faktiki olaraq Cənubi Qafqazda postmüharibə dövrünün ilk mərhələsi uğurla başa çatmışdır. Onun əlamətləri hansılardır?

### Postmüharibə dövrünün yeni mərhələsi

Postmüharibə dövrünün ilk mərhələsi Cənubi Qafqazda geosiyasi konstruktivizmə alternativin olmadığını göstərdi. Azərbaycan bütün çətinliklərə və maneələrə baxmayaraq, xarici siyasətdə iki aspekti ardıcıl surətdə həyata keçirdi.

Bunlardan biri region dövlətləri arasında yeni münaqişənin yaranmasına imkan verməməklə bağlıdır. Hər kəs son aylar bu istiqamətdə konkret olaraq Fransanın hansı canfəşanlıq etdiyini xatırlaya bilər. Məhz Azərbaycanın siyasi təmkini və dövlət kimi barışcıl, sülhsevər duruşu yeni münaqişənin alovlanmasının qarşısını aldı. Bununla Bakı Ermənistanı da xilas etmiş oldu.

Digər aspekt Rusiyaya hər tərəfdən yerli-yersiz təzyiqlərin olduğu zamanlarda Azərbaycanın konstruktiv qonşuluq və strateji faydalı geosiyasi mövqe tutması sayəsində iki ölkə arasında münasibətlərin soyumasının qarşısının qətiyyətlə alınması ilə bağlıdır. Üstəlik, əlaqələr yeni səviyyəyə yüksəldi. Azərbaycan ən kritik anlarda Rusiyaya əməkdaşlıq əlini uzatdı. Türkiyə ilə birgə Şimal qonşumuzun zərər görməməsi üçün lazım olan addımları atdı. Kreml bunları qiymətləndirdi. Nəticədə hazırkı xoş bir siyasi mühit formalaşdı.

Beləliklə, Azərbaycanın fəal siyasəti sayəsində postmüharibə dövrünün ilk mərhələsi konkret nəticələrlə xarakterizə olunur.

Birincisi, region dövlətləri arasında münasibətlərin xarakteri müsbətə doğru dəyişmişdir. Rəsmi İrəvan artıq Azərbaycan və Türkiyəni "düşmən ölkələr" kateqoriyasından çıxarmağı düşünür. Etiraf edək ki, bu, Ermənistan dövlətçiliyi üçün xilas məqamıdır.

İkincisi, kommunikasiyaların açılması ilə bağlı Azərbaycanın irəli sürdüyü təkliflərin alternativi olmadığı aydınlaşmışdır. Həmin təkliflər regional sülh və əməkdaşlıq üçün xidmət edir. Hər hansı başqa yol real nəticə verməyəcəkdir. Çünki Azərbaycanın təklifləri, hər şeydən öncə, beynəlxalq hüquqa və faydalı əməkdaşlığa əsaslanır.

Üçüncüsü, region dövlətləri arasında tarixdə ilk dəfə olaraq sərhədlərin qəti və hüquqi müəyyənləşməsinin zəruri olduğu anlaşılmış və qəbul edilmişdir. Ermənistan 4 kəndi qaytarmaqla göstərmişdir ki, sərhədlərin dəqiq müəyyən olunmasına qarşı durmaq fikrində deyildir. Ermənistanın praktiki olaraq buna nə dərəcədə əməl edəcəyini zaman göstərəcək.

Dördüncüsü, birinci mərhələnin yekunlarından biri kimi Rusiyanın Cənubi Qafqazdan getməli olduğu ilə bağlı ideyanın iflasını göstərmək olar. Əksinə, Rusiya, yeni regional konstruktiv geosiyasi konfiqurasiyada ciddi surətdə iştirak edə bilər. Bu imkanı yaradan Azərbaycan oldu. Qərbin güclü təzyiqləri, müxtəlif təxribatları və təhriklərinə baxmayaraq, rəsmi Bakı Rusiyanın təcridi mövqeyini qətiyyən qəbul etmədi. Əksinə, müsbət addımlarla Cənubi Qafqazda Rusiyanın geosiyasi mövcudluğunun zəruriliyini təsdiq etdi. Vladimir Putinin "Azərbaycan dost və müttəfiq dövlətdir" deməyə tam əsası vardır.

Beləliklə, Cənubi Qafqazda postmüharibə dövrünün yeni mərhələsi başlayır. Məncə, bu mərhələnin əsas nəticəsi regional geosiyasi konfiqurasiyanın konkret formatda yaranması olacaqdır. Burada Azərbaycanın yeri və rolu xüsusidir. Bakı aparıcı geosiyasi faktor rolunu daha güclü formada yerinə yetirəcəkdir!

*Füzuli QURBANOV,*
*XQ-nin analitiki, fəlsəfə elmləri doktoru*

(əvvəli 1-ci səhifədə)

# Rusiyanın dəyişən yanaşması – Qərb maraqları, "3+3" və "Qafqaz evi"

Bəli, Cənubi Qafqazda anti-Rusiya cəbhəsi açmaq niyyətini güdənlər Ermənistanı öz maraqları naminə alətə çevirirlər. Onların məqsədlərinə çatmaq üçün üzərində dayandıqları bir sıra gedişlər var. Həmin gedişlərdə iki başlıca məqam diqqət çəkir. Birincisi, Bakı – İrəvan münasibətlərinin nizamlanması məsələsində manipulyasiya, ikincisi isə birbaşa Ermənistan-Rusiya münasibətləri üzərində oyun. Hər iki istiqamət bir-biri ilə əlaqəlidir. Rusiya Xarici İşlər Nazirliyinin "Cənubi Qafqazda Rusiya maraqlarının təşviqi" mövzusunda keçirdiyi kollegiya iclası sonrası yaydığı bəyanatdakı ayrı-ayrı fikirlər də bunun təsdiqidir.

Bəyanatda bildirilir ki, iclas zamanı kollektiv Qərbin "Rusiyaya strateji məğlubiyyət gətirmək" üçün Ukraynanın ardınca postsovet məkanının digər hissələrində, o cümlədən, Cənubi Qafqazda sabitliyi pozmağa çalışdığı vurğulanıb. Eyni zamanda, Rusiyanı region ölkələri ilə birləşdirən müttəfiklik və tərəfdaşlıq münasibətlərini sarsıtmaq, mövcud kollektiv təhlükəsizlik və iqtisadi tərəfdaşlıq mexanizmlərini sıradan çıxarmaq planlarının işə salındığı diqqətə çatdırılıb.

Sənəddə, həmçinin vurğulanıb ki, "sıfır məbləğli oyunlar" məntiqi ilə idarə olunan qərblilərdən fərqli olaraq, Rusiya üçün prioritet həmişə Cənubi Qafqazda sabitliyin, təhlükəsizliyin və rifahın təminatı olub və mövcud yanaşma aktuallığını saxlayır: "Rusiya ölkəni çoxəsrlik ümumi tarix, coğrafi yaxınlıq və sıx insani təmasların birləşdirdiyi regionun bütün dövlətləri ilə qarşılıqlı hörmətə əsaslanan faydalı əməkdaşlığı inkişaf etdirəcək".

Göründüyü kimi, Rusiya Cənubi Qafqazdakı kənar oyunçuların yürütdükləri siyasətə qarşı müqavimət formalaşdırmağa çalışır. Əslində, həm XİN-in iclası, həm də qəbul edilmiş bəyanat müqavimətin ideoloji aspektlərinin vurğulanmasıdır. Təbii ki, Moskva yalnız bu aspektlərlə kifayətlənməyəcək, sistemli iş aparacaq.

Mənəvi baxımdan yanaşsaq, Kremlə 44 günlük müharibənin başa çatmasından sonra regionda qazandığı populyarlığın sıradan çıxmaması lazımdır. Bu baxımdan ölkənin söykəndiyi əsas baza Azərbaycan, Rusiya və Ermənistan liderləri arasında imzalanmış üçtərəfli sazişlər kompleksidir. Ona görə də bəyanatda həmin kompleksin üzərində xüsusi dayanılır. Bildirilir ki, üçtərəfli bəyanatların tam icrasına, o cümlədən, Bakı ilə İrəvan arasında sülh müqaviləsinin razılaşdırılmasına, regionda nəqliyyat kommunikasiyaları blokunun açılmasına nail olunması istiqamətində səylərin davamı zəruridir. Eləcə də Ermənistan – Azərbaycan sərhədinin delimitasiyası istiqamətindəki dəstək önəmlidir.

Bəyanatda diqqət çəkən növbəti məqama keçid alaq. Sənəddə deyilir ki, Rusiya Abxaziya, Gürcüstan və Cənubi Osetiyanın iştirakı ilə Transqafqaz üzrə Beynəlxalq Cenevrə müzakirələri çərçivəsində gücdən istifadə etməməyə dair etibarlı razılaşmaların əldə olunmasına yönələn fəaliyyətini gücləndirəcək. Deməli, vurğu "region region ölkələri üçündür" prinsipi üzərinə qoyulur. Bu, öz yerində, əvvəldə isə bildirdik ki, Qarabağdan Rusiya sülhməramlılarının çıxmaları Moskvanın Cənubi Qafqazla bağlı siyasətində dəyişikliyə gətdiyinin təsdiqidir. Onu da diqqətə çatdırdıq ki, belə yanaşmanın formalaşmasında Azərbaycana olan inam və etimad mühüm əhəmiyyət kəsb edir. Bu yerdə nəzərə alaq ki, Cənubi Qafqaz bir-biri ilə üzvü surətdə əlaqəli vahid orqanizmdir. Müstəsna baxış məhz bu anlayışa söykənməlidir. Yəni, iş yalnız Azərbaycanla aşmır.

Yeri gəlmişkən, "Qafqaz evi" ideyası Qərb siyasi sisteminin məhsuludur. Yada salaq ki, vaxtilə Gürcüstanın sabiq prezidenti Mixeil Saakaşvili tərəfindən dilə gətirilmiş "Qafqaz benilüksü" formulu mövcuddur. Qərb həmin formulu işə salmağı lap çoxdan düşünüb. İdeyanın gerçəkləşməsinə maneçilik törədən başlıca



amil Qarabağ münaqişəsi olub. Qərb daireləri uzun müddət çalışıblar ki, sözügedən təşəbbüs münaqişə həllini tapmadan gerçəkləşsin. Baxış bu olub: Madam ki, üç region ölkəsi arasında sərhəd anlayışı aradan qalxır, torpağın onlardan hansına məxsusluğunun əhəmiyyəti yoxdur.

Əlbəttə, belə münasibət heç cür qəbul edilə bilməzdi və mövcud səbəbdən əməli fəaliyyət müstəvisinə yaxınlaşmadı. Həm də ona görə yaxınlaşmadı ki, elə lap başlanğıcdan "Qafqazın benilüksü" "Rusiyasız Cənubi Qafqaz" formuluna söykənmişdi. Məqsədimiz heç də onu demək deyil ki, Moskvasız regionun mövcudluğu mümkünsüzdür. Əsas olan Rusiyanın qlobal aktor kimi nəzərə alınmamasından gedir. Aydındır ki, bu cür yanaşma, istər-istəməz, gərginliklər formalaşdırır. Çünki Kreml heç kəsə öz maraqlarını asanlıqla güzəştə gedən deyil. İndi də eyni mövqedədir. Sadəcə olaraq, Rusiya həmin maraqların təminatındakı üsul və vasitələrini dəyişməlidir. Ölkənin rəhbərliyi qəbul etməlidir ki, əvvəlki mexanizmlər daha işlək deyil.

Moskva indi yaxşı dərk edir ki, Cənubi Qafqazı ondan qoparmaq istəyənlərin yalnız bir arqumenti var. Rusiya pisdir, getməlidir, vəssalam! Deməli, indi Kreml onların səhv etdiyini göstərməlidir. Bunun yolu qarşılıqlı, bərabərtərəfli əməkdaşlıqdan keçir. Moskva bölgədəki varlığını ənənəvi hegemonluqla, güc nümayişi ilə deyil, yalnız bərabərtərəfli münasibətlər müstəvisində göstərə bilər. Cənubi Qafqazın vahid orqanizm reallığını nəzərə alsaq, həmin orqanizmin bütün hissələri işlək hala gəlməlidir. Və deməli, bölgədə həm də separatizmin kökü kəsilməlidir. Təkcə Qarabağda deyil, elə Abxaziyada da, Cənubi Osetiyada da. Münasibətlər tam rəvan müstəviyə çıxmalıdır. Elə bir müstəviyə ki, orada region ölkələrinin müstəqilliyi əsas götürülsün. Cənubi Qafqaz heç bir halda hansısa kənar oyunçuların geosiyasi maraqlar plasdarmına çevrilməsin, özü ayrıca tərəf olsun. Bu baxımdan Azərbaycanın irəli sürdüyü Türkiyə tərəfindən də ciddi şəkildə dəstəklənmiş "3+3" regional platformasının önəmi böyükdür.

Bəli, məhz sadaladıqlarımıza görədir ki, Rusiya XİN-in bəyanatında "Qafqaz evi" ideyasına söykənmiş "3+3" platformasından söz açılır. Bildirilir ki, kollegiya iclasında regionun üzləşdiyi problemlərin, ilk növbədə, region liderlərinin öz səyləri ilə, kənar müdaxilələr olmadan həlli naminə onların əlaqəsinin və özünü təmin etməsinin gücləndirilməsi vəzifələri nəzərdən keçirilib, mövcud kontekstdə "3+3"-ün (Azərbaycan, Ermənistan, Gürcüstan və İran, Rusiya, Türkiyə) potensialından istifadənin xüsusi əhəmiyyəti vurğulanıb. Ən əsas isə bu istiqamətdə əməli addımlar müəyyənləşdirilib.

***

Sonda bir məqamı vurğulayaq. Tarixdən məlumdur ki, Qərb dünyası keçmiş SSRİ amili üzərində inkişaf tapdı. Yəni, imperiyanın bəyan etdiyi, lakin yalnız nəzəri formada saxladığı prinsip və normaları praktik müstəviyə gətirməklə tərəqqisinə qovuşdu. Məsələn, hazırda Avropadakı sosial cəmiyyət modeli Karl Marksın, Engelsin, elə Leninin kitablarında yazılanlardı. SSRİ-nin formalaşması Qərbdə həmin kitablara marağı artırdığından, nəşrlərdə yazılanlar gerçəkləşib. Əlbəttə, hazırda tənəzzül dövrünü keçirən Qərbdə, necə deyərlər, hesablar kitablarla aparılmır. Vaxtilə SSRİ-nin, sonra Rusiyanın əsas götürdüyü hərbə-zorba metodlarına üstünlük verilir. Moskva yanaşmalarda korrektələrə getməli, əvvəldə vurğuladığımız kimi, Cənubi Qafqaz müstəvisinə münasibətini dəyişməlidir. Dəyişməlidir ki, rəqabətə tab gətirərək, regiondakı maraqlarını qorusun. Bu, günün təxirəsalınmaz tələbidir. Axı Moskvaya "ikinci Ukrayna" lazım deyil. Hesab edirik ki, Rusiya XİN-in kollegiya iclası sonrası verdiyi bəyanatdakı fikirlər həm də haqqında söz açdığımız məqamın ifadəsidir. Əlbəttə, ölkə açıqladığı prinsiplərin həyata vəsiqə qazanması naminə əzmlə çalışmalıdır. Həm də ona görə çalışmalıdır ki, Qərbdən fərqli olaraq, daha səmimi imic qazansın.

*Ə.CANAHGİROĞLU*
*XQ*

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 219** **Bakı şəhəri, 20 aprel 2024-cü il**

**“Elektroenergetika haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2023-cü il 30 dekabr tarixli 1086-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Elektroenergetika haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2023-cü il 30 dekabr tarixli 1086-VIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 2 fevral tarixli 18 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 2, maddə 121 (Cild I); 2024, № 1, maddə 116) ilə təsdiq edilmiş “Elektrik enerjisindən istifadə Qaydaları”nın 3.2-1-ci bəndində “150 kVt-dan” sözləri “200 kVt-dan” sözləri ilə əvəz edilsin.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 30 dekabr tarixli 520 nömrəli Qərarı (Azərbaycan Respub-likasının Qanunvericilik Toplusu, 2019, № 12, maddə 2100 (Cild I) ilə təsdiq edilmiş “Elektrik və istilik qurğularının texniki istismar Qaydası”nın 1.1.3.2-ci yarımbəndinin “c” abzasında, 1.1.3.10-cu yarımbəndində və 1.1.3.11-ci yarımbəndinin ikinci abzasında “150 kVt-dan” sözləri “200 kVt-dan” sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 220** **Bakı şəhəri, 22 aprel 2024-cü il**

**“Ovçuluq haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2023-cü il 24 oktyabr tarixli 1013-VIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Ovçuluq haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2023-cü il 24 oktyabr tarixli 1013-VIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** “Azərbaycan Respublikasında ovçuluqla bağlı bəzi normativ hüquqi aktların təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 30 sentyabr tarixli 147 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 9, maddə 759 (Cild I); Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 8 fevral tarixli 76 nömrəli Qərarı) aşağıdakı dəyişikliklər edilsin:

1.1. həmin Qərarla təsdiq edilmiş “Dövlət ovçuluq kadastrının və ov obyektlərinin monitorinqinin aparılması Qaydası” üzrə:

1.1.1. 1.2-ci bəndə “ov yerlərinin” sözlərindən sonra “, respublika, yerli əhəmiyyətli və fərdi ovçuluq təsərrüfatlarının” sözləri əlavə edilsin;

1.1.2. 1.3-cü bənd ləğv edilsin;

1.1.3. 2.3-cü bəndin ikinci abzasında “və yerli əhəmiyyətli” sözləri “, yerli əhəmiyyətli və fərdi” sözləri ilə əvəz edilsin;

1.1.4. III və IV hissələr aşağıdakı redaksiyada verilsin:

**“III. DÖVLƏT OVÇULUQ KADASTRININ STRUKTURU VƏ TƏRKİBİ**

3.1. Dövlət ovçuluq kadastrı respublika əhəmiyyətli ovçuluq kadastrı barədə məlumatları əks etdirən 1-ci bölmə, ov yerləri, yerli əhəmiyyətli və fərdi ovçuluq təsərrüfatları barədə məlumatları əks etdirən 2-ci bölmədən ibarətdir.

3.2. Dövlət ovçuluq kadastrına ov yerləri, respublika, yerli əhəmiyyətli və fərdi ovçuluq təsərrüfatları barədə aşağıdakı ümumi məlumatlar daxil edilir:

3.2.1. hüquqi statusu və normativ hüquqi bazası;

3.2.2. coğrafi vəziyyəti, sərhədləri və ərazisi;

3.2.3. inzibati və idarə tabeliyi;

3.2.4. mühafizəsi üsulu və rejimi;

3.2.5. ov yerlərinin, respublika, yerli əhəmiyyətli və fərdi ovçuluq təsərrüfatlarının ətrafındakı mühafizə zonaları (ərazisi, sərhədi və rejimi);

3.2.6. ekoloji, elmi, maarifçilik, turizm və rekreasiya, iqtisadi, tarixi və mədəni əhəmiyyəti;

3.2.7. təbiət komplekslərinin və onların komponentlərinin kəmiyyət və keyfiyyət xüsusiyyətləri, öyrənilmə dərəcəsi və bu məlumatların saxlanılma yerləri;

3.2.8. ov yerlərinin, respublika, yerli əhəmiyyətli və fərdi ovçuluq təsərrüfatlarında, onların ətrafındakı mühafizə zonalarında torpaqların və digər təbii sərvətlərin istifadəçiləri və icarəçiləri;

3.2.9. qorunma vəziyyəti, antropogen təsirin dərəcəsi və təhlükə faktorları;

3.2.10. ov obyektlərinin bərpasını və təbii artmasını təmin edən tədbirlər;

3.2.11. işçi ştatları və struktur bölmələri;

3.2.12. mühafizəsini öhdəsinə götürmüş hüquqi və fiziki şəxslər (ünvanı, öhdəlik müddəti və ştatı);

3.2.13. maddi-texniki bazası və maliyyələşdirilməsi;

3.2.14. ov yerləri, respublika, yerli əhəmiyyətli və fərdi ovçuluq təsərrüfatlarında aparılan son müayinələr (aparılan işlərin mövzusu və müddəti);

3.2.15. ov yerləri, respublika, yerli əhəmiyyətli və fərdi ovçuluq təsərrüfatları barədə məlumatları əks etdirən mənbələr.

3.3. Ov yerlərinin, yerli əhəmiyyətli və fərdi ovçuluq təsərrüfatlarının dövlət kadastrına bu Qaydanın 3.2-ci bəndi ilə müəyyən edilən müvafiq məlumatlarla yanaşı aşağıdakı məlumatlar daxil edilir:

3.3.1. ovçuluq təsərrüfatlarının aparılması məqsədilə qanunvericiliklə müəyyən edilmiş qaydada hüquqi və fiziki şəxslərin istifadəsinə və ya icarəsinə verilə bilən ov yerləri;

3.3.2. bütövlükdə və ya qismən, qanunvericiliklə müəyyən edilmiş qaydada bələdiyyələrin, hüquqi və fiziki şəxslərin istifadəsinə və icarəsinə verilə bilən yerli əhəmiyyətli ovçuluq təsərrüfatları;

3.3.3. bələdiyyələrin mülkiyyətlərində olan torpaqlarda qanunvericiliyə uyğun olaraq ov obyektlərini yetişdirib ov yerlərinə buraxmaq məqsədilə yaradıla bilən ovçuluq təsərrüfatları;

3.3.4. ov yerləri, yerli əhəmiyyətli və fərdi ovçuluq təsərrüfatlarında yetişdirilən vəhşi heyvanların növü, sayı və mühafizə rejimi barədə məlumatlar;

3.3.5. hüquqi və fiziki şəxslərin mülkiyyətlərində və ya icarələrində olan torpaqlarda təşkil edilən fərdi ovçuluq təsərrüfatları.

3.4. Kadastrın uçot vahidinə ov yerləri, respublika, yerli əhəmiyyətli və fərdi ovçuluq təsərrüfatları aid edilir.

3.5. Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin (bundan sonra - Nazirlik) və Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin aidiyyəti yerli bölmələri tərəfindən dövlət ovçuluq kadastrına daxil edilən bu Qaydanın 3.2-ci və 3.3-cü bəndlərində nəzərdə tutulmuş məlumatlar Nazirlik yanında Bioloji Müxtəlifliyin Qorunması Xidmətinə (bundan sonra - Xidmət) təqdim edilir.

3.6. Dövlət ovçuluq kadastrı məlumatları Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikası dövlət və bələdiyyə orqanlarının hüquqi aktlarına, elmi tədqiqatların, layihə-axtarışlarının və inventarlaşmanın materiallarına, xüsusi tədqiqatların nəticələrinə, monitorinq məlumatlarına, ov yerləri, respublika, yerli əhəmiyyətli və fərdi ovçuluq təsərrüfatları barədə dəqiq məlumatları olan digər mənbələrə əsasən hazırlanır və yeniləşdirilir.

3.7. Dövlət ovçuluq kadastrı məlumatlarına Xidmət tərəfindən daimi nəzarət edilir. Kadastr məlumatlarının dəyişdirildiyi və yeni məlumatların daxil olduğu hallarda köhnə məlumatlar arxivləşdirilərək daimi saxlanılır. Kadastrda yeni məlumatların daxil edilməsi və dəyişikliklər aparılması tarixi göstərilir və əvvəlki (köhnə) məlumatlar barədə qeydiyyat aparılır.

**IV. DÖVLƏT OVÇULUQ KADASTRININ APARILMASI**

4.1. Nazirliyin və Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin aidiyyəti yerli bölmələrinin təqdim etdikləri kadastr məlumatları əsasında ov yerlərinin, respublika, yerli əhəmiyyətli və fərdi ovçuluq təsərrüfatlarının dövlət ovçuluq kadastrı Xidmət tərəfindən aparılır.

4.2. Ov yerlərinin, respublika, yerli əhəmiyyətli və fərdi ovçuluq təsərrüfatlarının dövlət ovçuluq kadastrının və onların dövlət qeydiyyatının aparılması məqsədilə Xidmət:

4.2.1. Nazirliyin və Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin aidiyyəti yerli bölmələrinə ov yerlərinin, respublika, yerli əhəmiyyətli və fərdi ovçuluq təsərrüfatlarının kadastr məlumatlarının toplanması məqsədilə müraciət edir;

4.2.2. ov yerləri, respublika, yerli əhəmiyyətli və fərdi ovçuluq təsərrüfatları barədə daxil olmuş kadastr məlumatlarının saxlanılmasını təşkil edir və məlumatları təhlil edərək ovçuluq təsərrüfatlarının vəziyyətini qiymətləndirir;

4.2.3. təhlil edilmiş kadastr məlumatlarını ümumiləşdirir və bu Qaydanın III hissəsi nəzərə alınmaqla dövlət ovçuluq kadastrına daxil edilməsini təmin edir;

4.2.4. kadastrın aparılmasına dair məsələlərlə bağlı metodik sənədləri hazırlayır;

4.2.5. ov yerlərinin, respublika, yerli əhəmiyyətli və fərdi ovçuluq təsərrüfatlarının kadastr göstəricilərində il ərzində baş vermiş dəyişikliklər və əlavələr barədə məlumatların toplanması məqsədilə Nazirliyin və Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin aidiyyəti yerli bölmələrinə müraciət edir;

4.2.6. bu Qaydanın 4.2.5-ci yarımbəndi ilə müəyyən edilən məlumatların hər il yanvar ayının 25-nə kimi toplanmasını təmin edir və Nazirliyə təqdim edir;

4.2.7. ov yerlərinin, respublika, yerli əhəmiyyətli və fərdi ovçuluq təsərrüfatlarının növlərinə və kateqoriyalarına aid məlumatların əsas göstəricilərini, kadastrın aparılması üçün tələb olunan digər məlumatları, onların təqdim olunma müddətlərini təyin edir, istifadəsində və ya icarəsində olan ov yerləri, yerli əhəmiyyətli və fərdi ovçuluq təsərrüfatları olan bələdiyyə orqanlarına, hüquqi və fiziki şəxslərə təqdim edir;

4.2.8. ov yerlərinin, respublika, yerli əhəmiyyətli və fərdi ovçuluq təsərrüfatlarının kadastrının tərtibatı və nəşrini, barələrində illik hesabatların hazırlanmasını həyata keçirir;

4.2.9. ov yerlərinin, respublika, yerli əhəmiyyətli və fərdi ovçuluq təsərrüfatlarının yerləşdiyi torpaq sahələrinin hüquqi statusu, coğrafi vəziyyəti, sərhədləri və ərazisi, inzibati və idarə tabeliyi və ov yerlərinin, respublika, yerli əhəmiyyətli və fərdi ovçuluq təsərrüfatlarının ətrafındakı mühafizə zonalarının ərazisi, sərhədi və rejimi barədə məlumatları Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti və aidiyyəti yerli icra hakimiyyəti orqanı ilə razılaşdırır;

4.2.10. ov yerləri, respublika, yerli əhəmiyyətli və fərdi ovçuluq təsərrüfatlarının kadastr məlumatlarının onlayn formada əldə edilməsini təmin edir;

4.2.11. ov yerlərinin, respublika, yerli əhəmiyyətli və fərdi ovçuluq təsərrüfatlarının kadastrın aparılmasında müvafiq proqram təminatını və texnologiyadan istifadəni təmin etmək üçün lazımi tədbirlər görür.

4.3. Nazirliyin və Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin aidiyyəti yerli bölmələri:

4.3.1. bu Qaydanın 3.3.1–3.3.5-ci yarımbəndləri ilə müəyyən edilən hüquqi və fiziki şəxslərə, bələdiyyələrə kadastr məlumatlarının toplanması məqsədilə müraciət edir;

4.3.2. ov yerləri, respublika, yerli əhəmiyyətli və fərdi ovçuluq təsərrüfatları barədə bu Qaydanın 3.2-ci və 3.3-cü bəndləri ilə müəyyən edilən məlumatları toplayaraq Xidmətə təqdim edir;

4.3.3. ov yerlərinin, respublika, yerli əhəmiyyətli və fərdi ovçuluq təsərrüfatlarının kadastr göstəricilərində il ərzində baş vermiş dəyişikliklər və əlavələr barədə məlumatları hər il yanvar ayının 15-nə kimi Xidmətə təqdim edir.

4.4. Bu Qaydanın 3.3.1–3.3.5-ci yarımbəndləri ilə müəyyən edilən hüquqi və fiziki şəxslər, bələdiyyələr:

4.4.1. istifadəsində və ya icarəsində olan ov yerlərinin, yerli əhəmiyyətli və fərdi ovçuluq təsərrüfatlarının kadastrının aparılması barədə məlumatları müraciətə uyğun olaraq Nazirliyin və Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin aidiyyəti yerli bölmələrinə təqdim edir;

4.4.2. istifadəsində və ya icarəsində olan ov yerlərinin, yerli əhəmiyyətli və fərdi ovçuluq təsərrüfatlarının kadastr məlumatlarının yığılmasını, təzələnməsini təmin edir.

4.5. Ov yerlərinin, respublika, yerli əhəmiyyətli və fərdi ovçuluq təsərrüfatlarının kadastr məlumatı 5 ildən bir Nazirlik tərəfindən Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim edilir.”;

1.2. həmin Qərarla təsdiq edilmiş “Ov etmək üçün icazənin verilməsi Qaydası” üzrə:

1.2.1. 2.1-ci bənddən “və üzvlük bileti” sözləri çıxarılsın;

1.2.2. 2.3-cü bəndin üçüncü abzasından “və üzvlük” sözləri çıxarılsın.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 27 yanvar tarixli 10 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 1, maddə 54 (Cild I) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının ərazisində ovçuluğun aparılması Qaydaları”nda aşağıdakı dəyişikliklər edilsin:

2.1. 1.5-ci bəndin birinci cümləsindən “və üzvlük bileti” sözləri çıxarılsın;

2.2. III hissənin yeddinci abzasına “hər il” sözlərindən əvvəl “ovçular cəmiyyətinin üzvü olduğu halda” sözləri əlavə edilsin;

2.3. IV hissə üzrə:

2.3.1. ikinci abzas ləğv edilsin;

2.3.2. üçüncü abzasda “qurtardıqda” sözü “bitdikdə” sözü ilə əvəz edilsin;

2.3.3. doqquzuncu abzas aşağıdakı redaksiyada verilsin:

“heyvanlar aləmi və ovçuluq fəaliyyətini tənzimləyən normativ hüquqi aktlarda nəzərdə tutulan digər hallarda.”.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 221** **Bakı şəhəri, 22 aprel 2024-cü il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin “Dövlət büdcəsinin, büdcədənkənar dövlət fondları büdcələrinin tərtibi, icrası və icrasına nəzarət üzrə əməliyyatların əlaqələndirilməsinə dair Tədbirlər planı”nın təsdiq edilməsi haqqında” 2004-cü il 12 iyul tarixli 93 nömrəli və “Dövlət büdcəsinin gəlirlərinin, o cümlədən dövlət büdcəsinin qeyri-neft gəlirlərinin və dövlət büdcəsinin neft gəlirlərinin proqnozlaşdırılması Qaydası”nın təsdiq edilməsi haqqında” 2020-ci il 10 yanvar tarixli 4 nömrəli qərarlarında dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının “Tibbi sığorta haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” 2022-ci il 9 dekabr tarixli 685-VIQD nömrəli və “Büdcə sistemi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” 2022-ci il 9 dekabr tarixli 686-VIQD nömrəli qanunlarının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** “Dövlət büdcəsinin, büdcədənkənar dövlət fondları büdcələrinin tərtibi, icrası və icrasına nəzarət üzrə əməliyyatların əlaqələndirilməsinə dair Tədbirlər planı”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 12 iyul tarixli 93 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 7, maddə 584 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1-1-ci hissədə “və işsizlikdən sığorta” sözləri “, işsizlikdən sığorta fondu və icbari tibbi sığorta” sözləri ilə əvəz edilsin;

1.2. həmin Qərarla təsdiq edilmiş “Dövlət büdcəsinin, büdcədənkənar dövlət fondları büdcələrinin tərtibi, icrası və icrasına nəzarət üzrə əməliyyatların əlaqələndirilməsinə dair Tədbirlər planı” üzrə:

1.2.1. I bölmənin adında “və işsizlikdən sığorta” sözləri “, işsizlikdən sığorta fondunun və icbari tibbi sığorta” sözləri ilə əvəz edilsin;

1.2.2. 1-ci hissənin birinci abzasında “Tədbirlərin məzmunu” sütununda “və işsizlikdən sığorta” sözləri “, işsizlikdən sığorta fondunun və icbari tibbi sığorta” sözləri ilə əvəz edilsin;

1.2.3. 1.1-ci bənd üzrə:

1.2.3.1. birinci abzasın “Tədbirlərin məzmunu” sütununda “və işsizlikdən sığorta” sözləri “, işsizlikdən sığorta fondunun və icbari tibbi sığorta” sözləri ilə, “Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə” sözləri “müvafiq olaraq Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə və İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinə” sözləri ilə əvəz edilsin;

1.2.3.2. ikinci abzasın “Tədbirlərin məzmunu” sütununda “və işsizlikdən sığorta” sözləri “, işsizlikdən sığorta və icbari tibbi sığorta” sözləri ilə, “Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə” sözləri “müvafiq olaraq Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə və İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinə” sözləri ilə əvəz edilsin;

1.2.4. 1.2-ci bəndin “Tədbirlərin məzmunu” sütununda “və işsizlikdən sığorta” sözləri “, işsizlikdən sığorta fondunun və icbari tibbi sığorta” sözləri ilə əvəz edilsin və həmin bəndin “İcraçılar” sütununa “Nazirliyi” sözündən sonra “, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi” sözləri əlavə edilsin;

1.2.5. 1.3-cü bənd üzrə:

1.2.5.1. birinci abzasın “Tədbirlərin məzmunu” sütununda “və işsizlikdən sığorta” sözləri “, işsizlikdən sığorta fondunun və icbari tibbi sığorta” sözləri ilə əvəz edilsin;

1.2.5.2. “a” və “e” abzaslarının “Tədbirlərin məzmunu” sütununda “və işsizlikdən sığorta” sözləri “, işsizlikdən sığorta fondunun və icbari tibbi sığorta” sözləri ilə əvəz olunsun və həmin bəndin “İcraçılar” sütununa “Nazirliyi” sözündən sonra “, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi” sözləri əlavə edilsin;

1.2.5.3. “c” abzasının “Tədbirlərin məzmunu” sütununda “və işsizlikdən sığorta haqları üzrə sığortaedənlərin” sözləri “, işsizlikdən sığorta haqları üzrə sığortaedənlərin və icbari tibbi sığorta haqları üzrə sığortalıların” sözləri ilə əvəz edilsin;

1.2.5.4. “f” abzasının “İcraçılar” sütununa “Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi” sözlərindən sonra “, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi” sözləri əlavə edilsin;

1.2.6. 1.4-cü bəndin “Tədbirlərin məzmunu” sütununda “və işsizlikdən sığorta” sözləri “, işsizlikdən sığorta fondunun və icbari tibbi sığorta” sözləri ilə, “Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə” sözləri “müvafiq olaraq Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə və İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinə” sözləri ilə əvəz edilsin;

1.2.7. 1.5-ci bəndin “Tədbirlərin məzmunu” sütununda “və işsizlikdən sığorta” sözləri “, işsizlikdən sığorta fondunun və icbari tibbi sığorta” sözləri ilə əvəz olunsun və həmin bəndin “İcraçılar” sütununa “Nazirliyi” sözündən sonra “, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi” sözləri əlavə edilsin;

1.2.8. 3.2-ci, 4.5-ci və 4.6-cı bəndlərin “İcraçılar” sütununa “Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi” sözlərindən sonra “, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi” sözləri əlavə edilsin;

1.2.9. 4.1-ci bəndin “a” abzası üzrə:

1.2.9.1. “Tədbirlərin məzmunu” sütununun birinci cümləsində “və işsizlikdən sığorta” sözləri “, işsizlikdən sığorta fondunun və icbari tibbi sığorta” sözləri ilə əvəz olunsun və həmin sütuna aşağıdakı məzmunda dördüncü və beşinci cümlələr əlavə edilsin:

“İlin sonuna icbari tibbi sığorta fondunun istifadə olunmamış vəsaitləri sığorta ehtiyatlarına yönəldilir. Bu vəsait xərclərin maliyyələşdirilməsinə yönəldilə bilər.”;

1.2.9.2. “İcraçılar” sütununa “Nazirliyi” sözündən sonra “, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi” sözləri əlavə edilsin.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 10 yanvar tarixli 4 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 1, maddə 62 (Cild I) ilə təsdiq edilmiş “Dövlət büdcəsinin gəlirlərinin, o cümlədən dövlət büdcəsinin qeyri-neft gəlirlərinin və dövlət büdcəsinin neft gəlirlərinin proqnozlaşdırılması Qaydası”nın 3.2.4-cü yarımbəndinə aşağıdakı məzmunda 3-cü abzas əlavə edilsin:

“3. İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi tərəfindən mart ayının 1-dək təqdim olunmuş növbəti büdcə ili və sonrakı üç il üçün icbari tibbi sığorta fondunun büdcə layihəsinin ilkin variantı, iyulun 1-dək isə büdcə layihəsinin dəqiqləşdirilmiş variantı;”.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 222** **Bakı şəhəri, 22 aprel 2024-cü il**

**“Cinayət mühakimə icraatında prosessual sənədin verilməsi barədə qəbzlərin formaları”nın təsdiq edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2023-cü il 22 dekabr tarixli 1061-VIQD nömrəli Qanununun tətbiqi və “Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında” Azərbaycan Respublikası Qanununun və həmin Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 387 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 26 yanvar tarixli 2457 nömrəli Fərmanının 2.1.1-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:

“Cinayət mühakimə icraatında prosessual sənədin verilməsi barədə qəbzlərin formaları” təsdiq edilsin (əlavə olunur).

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 223** **Bakı şəhəri, 22 aprel 2024-cü il**

**“Cinayət prosesini həyata keçirən orqana çağırış vərəqələrinin formaları”nın təsdiq edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2023-cü il 22 dekabr tarixli 1061-VIQD nömrəli Qanununun tətbiqi və “Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında” Azərbaycan Respublikası Qanununun və həmin Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 387 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 26 yanvar tarixli 2457 nömrəli Fərmanının 2.1.2-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

“Cinayət prosesini həyata keçirən orqana çağırış vərəqələrinin formaları” təsdiq edilsin (əlavə olunur).

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

**Qeyd: Qərarlara edilmiş əlavələrin tam mətni ilə www.nk.gov.az və www.xalqqazeti.com saytlarında tanış ola bilərsiniz.**

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 225** **Bakı şəhəri, 22 aprel 2024-cü il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 29 dekabr tarixli 620 nömrəli Qərarı ilə təsdiq edilmiş “Sığorta ödənişinin verilməsi Qaydası”nda dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “İşsizlikdən sığorta haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2023-cü il 22 dekabr tarixli 1064-VIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 29 dekabr tarixli 620 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 12 (II kitab), maddə 2565 (Cild I) ilə təsdiq edilmiş “Sığorta ödənişinin verilməsi Qaydası”nın 4-cü hissəsində aşağıdakı dəyişikliklər edilsin:

1. 4.7-ci bənddə “, lakin ümumilikdə 20 faizindən çox olmamaq şərtilə” sözləri “məbləğində” sözü ilə əvəz edilsin.

2. 4.10-cu bəndin birinci cümləsində “30” rəqəmləri “24” rəqəmləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# COP29 Sədrliyi müraciətlərin qəbuluna başlayıb

**COP29 Azərbaycan Əməliyyat Şirkəti 2024-cü ilin noyabr ayında Azərbaycanda keçiriləcək BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasında iştirak edəcək tərəflərin pavilyonlar üzrə rəsmi müraciətlərinin qəbuluna başlayıb.**




Bu barədə COP29 Azərbaycan Əməliyyat Şirkətindən məlumat verilib.

Məlum olduğu kimi, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası bu ilin noyabr ayında Azərbaycanda keçiriləcək. Konfransa hazırlıq prosesində Çərçivə Konvensiyasına daxil olan tərəflərin – 197 üzv dövlət və Avropa İttifaqı olmaqla, 198 nümayəndə heyətinin ölkə pavilyonları və ofis məkanlarının təşkili vacib əhəmiyyət kəsb edir.

Əməliyyat Şirkəti konfrans məkanının “Göy zona”sında yer alan ölkə pavilyonlarının qurulması üzrə ilkin müraciətlə çıxış edən maraqlı tərəflərin istəklərinin tam təfərrüatlı qəbulu və tərəflərin iştirakının yüksək səviyyədə təmin edilməsinə xidmət edən müvafiq proseduru artıq hazırlayıb beynəlxalq ictimaiyyətin diqqətinə təqdim edib.

COP tədbirlərində geniş təcrübəyə sahib olan “Orientations.events” şirkəti vahid prosesin təşkili və icrası üzrə tərəfdaş seçilib. Ölkələrin iştirakını asanlaşdırmaq üçün rəqəmsal platforma olan “COP29 nümayəndəlik xidmətləri portalı” maraqlı tərəflərin istifadəsi üçün təqdim edilib. Portal nümayəndə heyətlərinə COP29-da iştirak üçün maraqlarını ifadə etməyə və onların “Göy zona”da iştirakçılığı ərəfəsində bütün zəruri əlavə xidmətləri seçməyə imkan verir.

Xatırladaq ki, bu ilin noyabr ayında Bakı Olimpiya Stadionu COP29 konfransı və eləcə də “Yaşıl zona” proqramı və tədbirləri üçün vahid məkan kimi xidmət edən beynəlxalq arenaya çevriləcək. BMT-nin təşkilatçı qrupu ilə birgə stadionun ərazisini COP29-un “Göy” və “Yaşıl zona”larına ayıran müfəssəl plan tamamlanma mərhələsindədir.

**XQ**

# Valyuta ehtiyatlarımız 68,5 milyard dollara çatıb

## *10 milyard dollar artım hesabına 1,2 milyard dollar xarici borc ödənilib*

**Prezident İlham Əliyevin müdrik rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü və genişmiqyaslı sosial-iqtisadi islahatlar, kompleks tədbirlər nəticəsində yaranan, eyni zamanda getdikcə möhkəmlənən makroiqtisadi və maliyyə sabitliyi daxili və xarici dövlət borclarının davamlı olaraq azalmasını şərtləndirir. Maliyyə Nazirliyinin məlumatına əsasən, cari ilin yanvar–mart aylarında daxili dövlət borcunun 66,6 milyon manat, xarici dövlət borcunun isə 1 milyard 21 milyon manat ödənilməsi də məhz həmin fikrin bariz ifadəsidir.**



İcrası davam etdirilən layihələr çərçivəsində təqdim edilən operativ məlumatlar və əsas ödənişlər nəzərə alınmaqla, bu il aprelin 1-nə xarici dövlət borcu 5 milyard 507 milyon ABŞ dolları ekvivalentində olub. Daxili dövlət borcalmasının həcminin artırılması, dövlət qiymətli kağızlar bazarının inkişafının dəstəklənməsi, dövlət borcunun orta və uzunmüddətli gəlirlik əyrisinin formalaşdırılması, “Dövlət borcunun idarə edilməsinə dair orta və uzun müddətli Strategiya”ya uyğun olaraq xarici borcun daxili borcla əvəzlənməsi istiqamətində məqsədyönlü borclanma siyasətinin həyata keçirilməsi nəticəsində cari il aprelin 1-nə daxili dövlət borcu 16 milyard 416 milyon manat təşkil edib.

Maliyyə Nazirliyinin məlumatında, həmçinin cari ilin yanvar–mart aylarında respublikada dövlət borcuna və öhdəliklərinə xidmətlə bağlı xərclərin isə ötən ilin eyni dövrü ilə müqayisədə 5,5 dəfə çox –1 milyard 88 milyon manat və yaxud dövlət büdcəsində nəzərdə tutulan vəsaitin 55,15 faizi qədər olduğu bildirilib.

Ölkəmizin dövlət borcunun azalmasında strateji valyuta ehtiyatlarının davamlı artması da əhəmiyyətli rol oynayır. Bununla bağlı qeyd edək ki, 2023-cü ildə ölkəmizin strateji valyuta ehtiyatlarının 17 faiz, başqa sözlə, 10 milyard dollar artaraq 68,5 milyard dollara çatması və bu göstəricinin ÜDM-in 95 faiz səviyyəsinə yüksələrək xarici dövlət borcunu 10 dəfədən çox üstələməsi nəticəsində hesabat dövründə Azərbaycanın xarici dövlət borcu 3,5 faiz azalaraq 6,46 milyard dollar (ÜDM-in 8,9 faizi) təşkil edib.

Bu məqamda onu da xatırladaq ki, cari il mart ayının 31-nə Dövlət Neft Fondunun vəsaitləri 2024-cü ilin əvvəlinə (56 milyard 70 milyon ABŞ dolları) nisbətən 2,3 faiz artaraq 57 milyard 373 milyon ABŞ dolları təşkil edib. Mərkəzi Bankın valyuta ehtiyatları isə bu ilin mart ayında 4,1 milyon dollar və ya 0,03 faiz artaraq 11 milyard 654,4 milyon dollara yüksəlib.

Xarici dövlət borcunun davamlı azalmasını şərtləndirən əsas amillərdən danışarkən onu da qeyd edək ki, bu məsələdə dövlətimizin başçısının 22 iyul 2022 -ci il tarixli müvafiq sərəncamı ilə təsdiqlənən “Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası” böyük əhəmiyyətə malikdir. Strategiyada 2026-cı ilin sonuna ümumi dövlət borcunun ÜDM-də payının 30 faizini, o cümlədən xarici dövlət borcunun 10 milyard dolları üstələməməsi qarşıya mühüm vəzifə kimi qoyulub.

Yeri gəlmişkən, adı çəkilən sənəd imzalanana qədər xarici dövlət borcunun azalması probleminin həllində ölkə Prezidenti tərəfindən 2018-ci il 24 avqust tarixli sərəncamla təsdiqlənən “Azərbaycan Respublikasında dövlət borcunun idarə edilməsinə dair orta və uzun müddət üçün Strategiya”, “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər” mühüm rol oynayıb. Lakin ötən dövr ərzində dünyada baş verən müəyyən hadisələr, məsələn, koronavirus pandemiyası ölkəmizin makroiqtisadi sabitliyinə, məşğulluq və sahibkarlıq subyektlərinin fəaliyyətinə mənfi təsir göstərib. Daha sonra isə işğaldan azad edilən Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının bərpası və yenidən qurulması zərurətindən irəli gələn yeni sosial-iqtisadi çağırışlar meydana gəlib. Bütün bunlar isə “Azərbaycan Respublikasında dövlət borcunun idarə edilməsinə dair orta və uzun müddət üçün Strategiya”da müəyyən düzəlişlər aparılması ilə nəticələnib.

Bu məqamda “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”də ifadə olunan bir məsələni də vurğulamaq yerinə düşərdi. Belə ki, adı çəkilən milli prioritetlərdə bildirilir ki, daxili borcun idarə edilməsi ölkədə maliyyə bazarlarının inkişafını dəstəkləməli, xarici dövlət borcunun dayanıqlı səviyyəsi qorunmalı, dövlət şirkətlərinin borclanmalarına nəzarət gücləndirilməli və bu əsaslarda dövlət borcunun idarəedilməsi təşkil olunmalıdır.

Bax, elə bütün bunlara görə də hazırda istər daxili, istərsə də xarici borcun qarşılanması makroiqtisadi sabitliyin əsas meyarı olan qiymətlərin aşağı və sabit olmasının gerçəkləşdirilməsi, idarəetmənin institusional çərçivəsinin təkmilləşdirilməsi və maliyyə bazarlarının səmərəli fəaliyyət göstərmələri diqqətdə saxlanılır. Nəticə isə xarici dövlət borcunun azalmasını əks etdirən müsbət dinamika ilə müşahidə olunur.

Beləliklə, “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”də yeni çağırışlarla əlaqədar yaranan əlavə maliyyə tələbatının təmin edilməsi üçün icmal büdcənin qeyri-neft baza kəsirinin qeyri-neft ÜDM-ə nisbət göstəricisinin hədəflənən yuxarı həddinin 2024-cü ilin sonuna 24 faiz müəyyənləşdirilməsi, ortamüddətli dövrün sonuna (2027-ci il) 17,5 faiz, dövlət borcunun ÜDM-ə nisbət göstəricisi üzrə isə 2027-ci ilin sonuna hədəflənən yuxarı həddinin 30 faiz səviyyəsində olması zərurət yarandığı bildirilir.

***Vaqif BAYRAMOV***
***XQ***

# 100 min hektar sahəyə çiyid səpiləcək

**Kənd Təsərrüfatı Nazirliyinin ictimaiyyətlə əlaqələr və informasiya təminatı şöbəsindən aldığımız məlumata görə, bu il aprelin 22-dək respublika üzrə pambıq emalı və tədarükü şirkətləri tərəfindən 15 min 167 mülkiyyətçi ilə 100 min hektar sahədə pambıq istehsalı müqaviləsi bağlanılıb və həmin sahələrin 98,3 min hektarında şum işləri başa çatdırılıb, 48,3 min hektarda arat aparılıb. İndiyədək 38 min hektar sahədə çiyid səpini həyata keçirilib.**

Xatırladaq ki, pambıq sahələrindən bol məhsul əldə edilməsi üçün innovativ becərmə, müasir suvarma texnologiyalarının və qabaqcıl təcrübələrin tətbiqinin genişləndirilməsi, elmi-tədqiqat müəssisələri tərəfindən yüksək keyfiyyət göstəricilərinə malik tez yetişən pambıq sortlarının yaradılması, texnika, gübrə, toxum, dərman və su təminatı, subsidiyaların verilməsi ilə bağlı məsələlərə xüsusi önəm verilir.

# Birinci rüb – 3,7 milyard kubmetr səmt qazı

**Bu ilin yanvar–mart aylarında Azərbaycanın neft yataqlarından 3 milyard 745,6 milyon kubmetr səmt qazı hasil edilib. Bu barədə “XQ”yə Dövlət Statistika Komitəsindən məlumat verilib. Bildirilib ki, hesabat dövründə ölkədə istehsal edilən səmt qazının 1 milyard 11,8 milyon kubmetri əmtəəlik məhsulun payına düşüb. Bu da əvvəlki ilin eyni dövrünə nisbətən 2,6 faiz çoxdur.**

Xatırladaq ki, 2023-cü ildə Azərbaycanın neft yataqlarından 15 milyard 85 milyon 96 min kubmetr səmt qazı çıxarılıb ki, bu da illik müqayisədə 2,2 faiz azdır. İl ərzində ölkədə istehsal edilən səmt qazının 3 milyard 565,2 milyon kubmetri əmtəəlik məhsulun payına düşüb.

***XQ***



# Aqrar Sığorta Fondu 41 bitkinin əkinlərini himayə edir

**Süfrələrimizi bəzəyən mühüm qida məhsullarından olan pomidor dadınatamına görə seçilir. Bu tərəvəz növünə ilin bütün fəsillərində yüksək tələbat duyulur. Təkcə onu qeyd etmək kifayətdir ki, hazırda ölkəmizdə pomidorun adambaşına illik istehlak norması 21 kiloqram təşkil edir.**



Pomidor, həm də kənd təsərrüfatının ən gəlirli sahələrindən biridir. Buna görə də fermerlər və fərdi təsərrüfat sahibləri son illər pomidor əkininə daha çox maraq göstərirlər. Rəsmi məlumatlara əsasən, Azərbaycandakı açıq və qapalı sahələrdə, ümumilikdə, 18 min hektara yaxın ərazidə pomidor becərilir. Həmin sahələrdən isə ildə 800 min tondan artıq məhsul götürülür. Pomidor ölkənin bütün ərazilərində əkilsə də, bu sahədə birincilik Xaçmaz rayonuna (2 min hektara yaxın) məxsusdur. Şəmkirdə 1650 hektar, Lənkəranda 1121 hektar, Qubada 1000 hektar, Sabirabadda 900 hektar, Ucarda 776 hektar, Kürdəmir və Biləsuvar rayonlarının hər birində isə 600 hektar pomidor əkilir.

Əvvəlki dövrlərdə olduğu kimi, bu il də sahələrdə kifayət qədər pomidor əkilib. Torpağa basdırdığı hər bir şitilin nazını çəkən, ona xüsusi nəvaziş göstərən təsərrüfat sahibləri mövsüm ərzində sahələrdən bol məhsul götürəcəklərinə əmindirlər. İndi bostan sahibi özünü daha inamlı hiss edir. Necə deyərlər, “yağmadı yağış, bitmədi qamış” təhlükəsi də artıq onu qorxutmur. Çünki bu gün fermerin aqrar sığorta kimi etibarlı dostu, köməkçisi var. Məhz buna görə də son illər bütün kənd təsərrüfatı məhsullarının istehsalçıları kimi pomidor əkib-becərən fermerlər də sahələrini sığorta etdirməyə can atırlar.

Azərbaycanda pomidor sahələrinin sığortalanması dövrü isə aprel–may aylarına təsüdüf edir. Aqrar sığorta qaydalarına əsasən, əkin sahələrinin sığortası mövsümidir və müəyyən vaxt ərzində həyata keçirilməlidir. Bu baxımdan pomidor əkinlərinin sığortası dövrü may ayının ortalarına qədər davam edəcək. “Fermerlər əkinlərin yerləşdiyi regiondan asılı olaraq aprel–may aylarında pomidor əkinlərini sığortalaya, bu sahədəki məhsul və gəlirlərini risklərdən qoruya bilərlər”, – deyə Aqrar Sığorta Fondundan bildiriblər. Fond pomidor sahələrinin regionlar üzrə sığorta haqlarını da açıqlayıb. Məsələn, Salyan rayonunda 1000 manatlıq pomidor əkininin sığortalanması üzrə sığorta haqqı 20,2 manat təşkil edir. Bu məbləğin yarısını dövlət, qalan 10,1 manat sığorta haqqını isə fermer ödəyir. Quba–Xaçmazda bu məbləğ 11,8 manat, Mərkəzi Aran bölgəsində 10,5 manat, Qazax–Tovuzda 21,7 manat, Lənkəranda isə 11 manat təşkil edir.

Ölkəmizdə aqrar sığorta dövlət dəstəyi ilə fəaliyyət göstərdiyinə görə, əkin sahələrinin sığortalanması zamanı hesablanmış sığorta haqqının 50 faizi dövlət tərəfindən ödənilir. Bunun da nəticəsində fermerlər cüzi vəsait ödəməklə əkin sahəsini sığorta edə bilirlər. Yeri gəlmişkən, Azərbaycanda aqrar sığortanın tətbiqi Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə həyata keçirilən iqtisadi islahatların tərkib hissəsidir. Xatırladaq Prezident İlham Əliyev 2019-cu il avqustun 19-da ölkəmizdə “Aqrar Sığorta Fondunun yaradılması barədə” Fərman imzalayıb. Dövlət başçısının 27 iyun 2019-cu il tarixli fərmanı ilə “Aqrar sığorta haqqında” Azərbaycan Respublikasının Qanunu təsdiq olunub. Həmin sənədlər kənd təsərrüfatında risklərin sığortalanması ilə bağlı münasibətləri tənzimləyir, aqrar sığortanın hüquqi, iqtisadi və təşkilati əsaslarını müəyyən edir.

Dövlət başçısının imzaladığı məlum fərmana əsasən, ölkəmizdə aqrar sığorta sisteminin təşkilini, inkişafını və dayanıqlılığını, eləcə də idarəedici qurumun formalaşdırılmasını təmin edən və onun fəaliyyətinə nəzarəti həyata keçirən Aqrar Sığorta Fondu qeyri-kommersiya hüquqi şəxs yaradılıb. Aqrar sığorta mexanizminin tətbiqinin əsas məqsədi isə təsərrüfat sahiblərini və fermerləri gözlənilməz təbiət hadisələrindən müdafiə etmək üçün işlək bir mexanizmin yaradılmasından ibarətdir. Ötən müddətdə ölkə ərazisində baş verən leysan yağışları, sel-subasma da daxil olmaqla, demək olar ki, bütün təbii fəlakət riskləri – fırtına, sel, qasırğa, tufan, dolu və digər hadisələr sığorta təminatına daxil edilib. Ən çox sığortalanan əkinlər – buğda, arpa, pambıq, qarğıdalı, fındıq, şəkər çuğunduru, çəltik və üzüm sahələri, eləcə də meyvə bağlarıdır.

Göründüyü kimi, ölkəmizdə Aqrar Sığorta Fondunun yaradılmasından sonra aqrar sığorta xidmətlərinin əlçatanlığı xeyli artıb. Müqayisə üçün deyək ki, 2020-ci ildə bitkiçilik sığortası üzrə toplanan vəsait cəmi 1700 manat təşkil etdiyi halda, 2023-cü ildə bu rəqəm 13 milyon manata çatıb. Bu da əvvəlki ilin göstəricisini 4,2 milyon manat və yaxud 48 faiz üstələyib. Fonddan verilən məlumata görə, 2023-cü ildə Azərbaycanda 380 min 476 hektar əkin sahəsi sığortalanıb ki, bu da əvvəlki illə müqayisədə 43 faiz çoxdur. Bütövlükdə isə, ötən 4 il ərzində kənd təsərrüfatında sığorta mexanizminin tətbiqi Azərbaycanda dövlət-özəl sektor tərəfdaşlığına mühüm töhfələr verib.

## Ekspert rəyi

**Zülfü MƏMMƏDOV,**
**Aqrar Sığorta Fondunun müstəqil eksperti, Lənkəran Dövlət Universitetinin dosenti**



Ölkə əhalisinin ərzaq məhsuları ilə təminatında daxili istehsalın rolu ilbəil yüksəlir, idxal olunan kənd təsərrüfatı, o cümlədən ərzaq məhsullarının xüsusi çəkisi azalır, ixrac məhsullarının çeşidi və həcmi artır. Bu baxımdan son illər respublikamızda mühüm tərəvəzçilik məhsullarından sayılan pomidorun istehsalı və ixracı ildən-ilə çoxalır. Təkcə onu qeyd etmək yetərlidir ki, 2022-ci ildə ölkə üzrə 19 min 824 hektar sahədə pomidor əkilib, örtülü sahələrdən 354 min 500 ton məhsul toplanıb. Ötən il Azərbaycan pomidor ixracından təxminən 162 milyon dollar məbləğində qazanc əldə edib. Yeri gəlmişkən, Rusiya Federasiyası və Ukrayna həm etibarlı, həm də qiymət baxımından dövrün tələblərinə cavab verməyən bazar olduğundan Azərbaycanda istehsal olunan məhsullar yeni bazarlara (Avropaya, Ərəb ölkələrinə və s.) çıxarılmalıdır.

Aqrar Sığorta Fondu tərəfindən Azərbaycan şəraitində becərilən 41 bitki əkin sahəsi, ixrac potensialı və s. nəzərə alınmaqla sığortaya cəlb olunub. Bu siyahıda pomidor xüsusi çəkiyə malikdir. Pomidor bitkisinin meyvə hissəsinə dəymiş zərərin miqdarına isə sığorta müqaviləsi ilə təminat verilir. Bu bitkinin sığortası üzrə aqrar sığorta məhsulunun şərtləri “Aqrar sığorta haqqında” Azərbaycan Respublikası Qanununa və Nazirlər Kabinetinin 30 oktyabr tarixli 431 nömrəli qərarı ilə təsdiq edilmiş “Aqrar sığorta Qaydalarına” əsasən hazırlanıb.

Pomidor bitkisi canlı orqanizm olaraq xarici mühit şəraitinin təsirlərinə məruz qalır ki, bunlar da sığorta riskləri olaraq qəbul edilir. Həmin risklərə isə dolu, qasırğa, fırtına, sel və ya subasma, zəlzələ, torpaq sürüşməsi, bitki xəstəlik və zərərvericiləri, xüsusi təhlükəli ziyanvericilərin yayılması, yanğın, vəhşi heyvanların hücumu, üçüncü şəxslərin müdaxiləsi, eləcə də sığortalı və ya faydalanan şəxsin ailə üzvləri istisna olmaqla digər şəxslərin hərəkət və ya hərəkətsizliyi aiddir. Qeyd olunan risklərdən hər hansının baş verməsi nəticəsində zərərin yaranmasının müəyyən edilməsində müstəqil ekspertin və sığorta hadisəsinin baş verməsini təsdiqləyən səlahiyyətli dövlət orqanlarının rəyləri əsas götürülür.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

# Uğur formulu: dürüstlük və səmimiyyət

## Dövlət başçımız Azərbaycanın qazandığı uğurların təməl prinsiplərini göstərdi

**Azərbaycanın bir ölkə olaraq dünyada sabitlik məkanı, əmin-amanlıq adası, tolerantlıq nümunəsi kimi tanınmasını, özünü xarici risklərdən qorumağı bacarmasını, son iyirmi bir ildə böyük uğurlar qazanmasını şərtləndirən əsas amil, əlbəttə ki, ilk növbədə, xalq–iqtidar birliyidir. Bu amili ölkənin daxili və xarici siyasət kursunun başlıca prioritetinə çevirən strateq-diplomat, sarsılmaz birliyin möhtəşəm “binasının” memarı İlham Əliyevdir.**

Yadımıza 2020-ci ilin yanvar ayında Dünya İqtisadi Forumu çərçivəsində “Strateji baxış: Avrasiya” mövzusunda keçirilən panel iclasında iştirak edən Prezident İlham Əliyevə moderatorun verdiyi suala dövlət başçımızın cavabı düşür. Sual belə idi: “Avrasiyada indi böyük qüvvələr yerləşib, bir tərəfdən Rusiya, o biri tərəfdən Çin. Azərbaycanın Prezidenti kimi siz birinci növbədə kimə zəng edərsiniz – Moskvaya, yoxsa Pekinə?” Cənab Prezident bu suala dərhal “Bakıya” cavabını verdi.

Bir daha xatırladırıq ki, o zaman hələ 44 günlük müharibə, daha sonra bir sutkalıq antiterror tədbiri, Qarabağ iqtisadi rayonunun separatçılardan təmizlənməsi baş verməmişdi. Yəni, liderin hərbi-siyasi uğurlarının seriyası, zəfərlərinin paradı hələ irəlidə idi. İlham Əliyevin o birkəlməlik cavabı özündə Azərbaycanın müstəqil, heç kimdən asılı olmayan, milli maraqların daim uca tutulduğu siyasət yürütməsinin parlaq nümunəsini ehtiva edirdi. Həmin cavabın ardınca Prezidentimiz Azərbaycanın qonşu ölkələrlə münasibətlərini dostluq, mehriban qonşuluq, qarşılıqlı faydalı əməkdaşlıq prinsipləri üzərində qurduğunu söylədi. Bu mənada Azərbaycan Prezidenti İlham Əliyevin hər çıxışı proqram xarakteri daşıyır, milli doktrina prinsiplərinə söykənir, daxilə və xaricə ünvanlanan diplomatik tezislərlə zəngin olur. Aprelin 23-də ADA Universitetində “COP29 və Azərbaycan üçün Yaşıl Baxış” mövzusunda keçirilən beynəlxalq forumda dövlət başçısının səsləndirdiyi mesajların əsas ünvanı qonşularımız olan “Qafqaz evi”nin sakinləri, eləcə də qlobal təhlükələrlə üzləşən dünya gücləri idi.

### Sabitliyin yolu ədalətdən keçir

Beynəlxalq forum iştirakçılarının suallarını cavablandıran cənab Prezident ölkəmizə qarşı soyuq müharibə cəbhəsi açmış bəzi ölkələrə mesajlarını çatdırdı. Həmin ölkələrin, əslində, Azərbaycana qarşı soyuq müharibəyə başladıqlarını vurğulayan dövlətimizin başçısı bildirdi ki, biz də onlara qarşı eyni tədbirləri görürük, amma bu zaman qırmızı xətləri keçmirik.

Azərbaycan qazandığı uğurların səbəblərindən danışan Prezident İlham Əliyev bununla bağlı dedi: “Biz heç vaxt Azərbaycan üçün potensial təhlükə yarada biləcək heç bir işə qoşulmamışıq. Biz hər zaman İran, Rusiya, Gürcüstan və Avropa, həmçinin Türkiyədə qardaşlarımız ilə münasibətlərimizdə ədalətli olmuşuq. Uğurumuzun səbəbi bundadır”.

“Hesab edirəm ki, əsas çıxış yolu və üsul düzgün və səmimi olmaqdır. Biz qonşularla yaxşı və bəzi hallarda əla münasibətləri qura bilmişik. Düşünürəm ki, bu, məhz həmin keyfiyyətlərlə bağlıdır. Çünki onlar bizə etimadla yanaşa bilərlər və bilirlər ki, bizim tərəfdən “sürpriz”lər olmayacaq”.

Məhz cənab Prezidentin zərgər dəqiqliyi ilə hesablanmış xarici siyasətinin nəticəsində Azərbaycan təkcə regionda gedən hadisələrə deyil, eyni zamanda, beynəlxalq aləmdə cərəyan edən proseslərə təsir göstərmək səlahiyyəti qazanıb. Məhz buna görə hazırda çağdaş dünyamızı narahat edən, qlobal əhəmiyyət daşıyan bir sıra problemlərin həllində aparıcı dövlətlərin başçıları



Azərbaycan rəhbərinin mövqeyi ilə hesablaşırlar. Azərbaycan Prezidenti İlham Əliyevin yüksək diplomatik istedadı sayəsində son 21 il ərzində ölkəmizin dünyanın siyasi-iqtisadi mənzərəsini müəyyən edən aparıcı dövlətlərlə və beynəlxalq təşkilatlarla münasibətləri keyfiyyətcə yeni mərhələyə qədəm qoyub.

### Qapımız bədxahlara bağlı, dostlarımıza açıqdır

Son üç ildə hərbi-siyasi müstəvidə sərgilədiyi qələbələr sayəsində Azərbaycanın beynəlxalq nüfuzunun, çəkisinin daha da artması, mövqelərinin güclənməsi bədxahlarımızı, o cümlədən Ermənistanı da qıcıqlandırır. Avropanın haypərəst dairələrinin başlatdığı anti–Azərbaycan kampaniyası – “səlib” yürüşü özünün siyasi apogeyinə çatıb. Azərbaycanın diplomatik uğurları, irəli sürdüyü təşəbbüslərin, Bakı Qlobal Forumunda Prezident İlham Əliyevin dünya ölkələrinə ünvanladığı çağırışların beynəlxalq arenada müsbət rezonans doğurması, xüsusilə də Azərbaycanın COP29-a evsahibliyi edəcəyi erməni lobbisini, xaricdəki haypərəst dairələri, Azərbaycanı istəməyən xarici qüvvələri ciddi narahat edir. “Bizim dünyaya söyləyəcəyimiz məsələlər çoxdur. Həqiqəti söyləmək imkanımız var”, – deyən cənab Prezident COP 29-a həm də ən təxirəsalınmaz məsələlərin həllinə qlobal aləmdə töhfə vermək fürsəti kimi baxdığını açıqladı: “Bu gün biz bəzi ölkələrdən Azərbaycana qarşı əsassız hücumları görürük. Biz cavab tədbirləri görürük. Üzləşə biləcəyimiz yeganə potensial risklər xaricdən gələ bilər. Onda biz nə etməliyik? Biz qapılarımızı hərc-mərclik yaradanların üzünə bağlı, sadiq qonaqlarımızın üzünə isə açıq saxlamalıyıq. Cənubi Qafqazda ayırıcı xətləri çəkmək üçün bəzi cəhdlər göstərilir. Məhz bu səbəbdən Avropa Komissiyasının sədri, ABŞ-nin Dövlət katibi və Ermənistan baş nazirinin tarixdə görünməmiş Brüssel görüşündən narahatlığımızı bildirdik”. Dövlət başçısı sözlərinə onu da əlavə etdi ki, bu təsisatın (Avropa İttifaqının –red.) tarixində heç vaxt SSRİ-nin keçmiş respublikası ilə bu cür görüş olmayıb: “Hətta Ukrayna, Gürcüstan və Moldova ilə bu formatda görüş keçirilməyib”.

Prezident İlham Əliyev “COP29 və Azərbaycan üçün Yaşıl Baxış” beynəlxalq forumu iştirakçılarının suallarını cavablandırarkən Azərbaycan–Ermənistan münasibətlərinin normallaşması mövzusuna da toxunub: “Biz kənardan gələn ciddi təhdidlər və problemlərlə üzləşmişdik. Bizim bütün potensial risklərimizin kənardan gəldiyini söylədikdə mən bunu nəzərdə tuturdum”.

Yaşıl dünyaya yolun həmrəylikdən keçdiyini bəyan edən rəsmi Bakı qonşu Ermənistanla həll olunmamış məsələlərin ədalət və səmimiyyət prinsiplərinə söykənərək sülh yolu ilə çözülməsinə sadiqliyini həmişə nümayiş etdirib. Bu baxış bucağından baxdıqda Prezident İlham Əliyevin 2024-cü ili Azərbaycanda “Yaşıl dünya üçün Həmrəylik İli” elan etməsi təsadüfi sayılmamalıdır.

### “Yaşıl dünya üçün Həmrəylik İli”

Forumdakı çıxışında bölgədə sabitliyin pozulması üçün edilən kənar cəhdlərə də toxunan dövlətimizin başçısı Fransa, Hindistan və Yunanıstanın Ermənistanı bizə qarşı silahlandırdıqlarını, Azərbaycanın isə oturub gözləyə bilmədiyini diqqətə çatdırıb: “Özü də onlar bunu açıq və nümayişkaranə şəkildə edirlər və hətta, çalışırlar ki, bununla bizə nəyi isə sübuta yetirsinlər. Biz, sadəcə, oturub gözləyə bilmərik. Biz bu mövqeyi açıq şəkildə Ermənistan hökumətinə və bu gün Ermənistanın qayğısına qalmağa çalışan tərəflərə bildirmişik. Əgər özümüzə ciddi təhdid görsək, biz ciddi tədbirlər görməli olacağıq”.

Bəli, bu gün Azərbaycan ədalətə və səmimiyyətə söykənən yolunu tutub irəli gedir. Biz heç kəsin qarşısında başıaşağı deyilik. Bütün işlərdə özünü ləyaqətlə aparan, milli maraqlarını hər şeydən üstün tutan xalqın və onun liderinin siyasi iradəsi qarşısında duruş gətirəcək qüvvə yoxdur. Dövlət başçımız “bu gün siyasət var, bu siyasəti mən aparıram və heç bir qüvvə məni bu yoldan döndərə bilməz”,– deyəndə məhz dağ kimi güvəndiyi Azərbaycan xalqını nəzərdə tuturdu.

Səhv etmiriksə, bu, Uinston Çörçilin kəlamıdır: “Böyük diplomatiya milli maraqları müdafiəetmə bacarığı, ən doğru siyasət isə dürüstlükdür”.

Xalqa verdiyi bütün vədləri gerçəkliyə çevirməyi bacaran İlham Əliyevin Pezident kimi 21 ildəki fəaliyyəti milli maraqları qorumaq yolunda fədakarcasına göstərdiyi tarixi xidmətlərinin uğur tablosudur. O, dünyanın siyasət “nəhənglərinin” belə qibtə edəcəyi güclü diplomat keyfiyyətləri ilə beynəlxalq miqyasda canından çox sevdiyi və güvəndiyi xalqının və özünün imzasını təsdiqləmiş, nüfuzunu ali məqama yüksəltmiş alternativsiz lider, qüdrətli sərkərdədir.

***İmran BƏDİRXANLI***
***XQ***

**Ekspert rəyi**

**Rasim MUSABƏYOV,**
**Milli Məclisin deputatı, politoloq**



Hazırda parçalanan dünyada və ətrafımızda gərgin hadisələr baş verir. Hətta üçüncü dünya müharibəsinin getdiyi qənaətinə gələnlər də var. Belə gərgin şəraitdə Prezident İlham Əliyev Azərbaycanın qonşuları ilə münasibətləri korlamamaq şərti ilə Cənubi Qafqazda möhkəm və davamlı sülhün yaranması üçün çalışır.

“Köhnə qitə”nin etibarlı və strateji tərəfdaşına çevrilən Azərbaycan beynəlxalq platformalarda da mövqelərini gündən-günə gücləndirir. Doğrudur, hazırda ölkəmizə qarşı Avropadan, okeanın o tayından müəyyən təzyiqlər edilir. Cənab Prezident həmin qüvvələrə qarşı olduqca uğurlu adekvat addımlar atır, onların layiq olduqları cavabı verir. Bu barədə ADA Universitetində keçirilən forumdakı çıxışında İlham Əliyev məntiqə və arqumentə söykənən açıqlamasında bu gün ədalətin də, gücün də Azərbaycanın tərəfində olduğunu dedi.

İndi Qərbin ermənipərəst qüvvələri qara təbliğat, avantürist bəyanatlar yolu ilə ölkəmizə təzyiq göstərməyə çalışırlar. Amma onlar bununla heç nəyə nail ola bilməyəcəklər, sonda yenə Azərbaycan liderinin iradəsi ilə hesablaşmağa məcbur olacaqlar.

Aydın məsələdir ki, ermənipərəst qüvvələr hər vəchlə öz maraqları naminə Cənubi Qafqaz məsələsini açıq saxlamağa çalışırlar. Amma artıq reallıq ondan ibarətdir ki, “dqr”in status-kvosu kimi, Ermənistanın Azərbaycana qarşı torpaq iddiaları da fiaskoya uğradı. Qarabağ mövzusu artıq bağlanıb, geriyə yalnız sülh müqaviləsinin imzalanması qalır.

**Ekspert rəyi**



**Tofiq ABBASOV,**
**siyasi şərhçi**

Azərbaycan dövlətinin rəhbər tutduğu fundamental prinsipləri son dərəcə şəffaf və alidir. Bu prinsiplər ölkəmizin həm sözündə, həm də hərəkətlərində bütöv olmasının göstəricisidir. Çünki Bakı öz siyasətini başqa dövlətlərin mənafelərinə toxunmadan həyata keçirir. ADA Universitetindəki çıxışında cənab Prezident bu aspektdə bir çox vacib məqamlara toxundu. Azərbaycana qarşı “soyuq müharibəni” kimlərin təşkil etdiyini yaxşı bildiyini söyləyən dövlət başçımız o qüvvələrin ölkəmizin müstəqil siyasət yeritməsi ilə barışa bilmədiklərini vurğuladı. Onlara elə gəlir ki, dünyanın istənilən bölgəsindəki münaqişəni məhz özləri həll etməldiirlər. Rəsmi Bakının mövqeyi isə ondan ibarətdir ki, Xəzəryanı coğrafiyada, Qafqazda, ümumiyyətlə, Avrasiya arealında nəyə görə öz potensialımızı nümayiş etdirməməliyik? Həmin qüvvələri qıcıqlandıran da məhz budur.

Ermənistandan “marionet” kimi istifadə etməklə bölgədə proseslərin müsbət məcrada davam etməsini deyil, bu istiqamətin iflasa uğramasını təmin etməyə çalışırlar. Əlbəttə ki, bu, onların istəyidir. O qüvvələr ki, öz güclərinin təsdiqi üçün hazırda dünyadakı xaotik təmayüllərə təkan verirlər. Fəqət əgər onlar özlərini demokrat, inkişaf etmiş dövlətlər saymaqla yanaşı, “təcavüzkar demokratiyaya” əl atırlarsa, onda güzgüyə baxsınlar.

Azərbaycan nədən Fransanın ikiüzlü, dağıdıcı siyasətini bəyənməlidir? Yaxud işğalçı Ermənistanı qızışdırıb ortaya atan ABŞ-ı niyə dəstəkləməyik? Azərbaycan dövlətinin bu məsələlərə yanaşması olduca sağlam, şəffaf və məntiqlidir. Bu zaman bizə tutulan iradların, bildirilən narazılıqların heç biri özünü doğrultmur.

# Anti-paşinyançıların anti-erməni bəhanəsi

**(əvvəli 1-ci səhifədə)**

Elə bir neçə gün öncə R.Koçaryanın parlamentdəki “Hayastan” fraksiyasına daxil olan deputatlar hayların “Voskepar” adlandırdıqları Yuxarı Əskipara kəndində olublar. Görüşdə çıxış edən “Hayastan”ın deputatı Lilit Qalstyan bildirib ki, ermənilərin başına gələn bəlalarda yalnız bir nəfər və onun manqurtları təqsirkardır. Qalstyan baş naziri nəzərdə tutaraq deyib: “O, bugünlərdə parlamentdə bildirdi ki, iki cür Ermənistan mövcuddur: Tarixi və real. Hətta, ən qorxulu yuxularımızda belə biz nə vaxtsa erməni xalqının öz soyundan bu qədər uzaqlaşmış bir nümayəndəsinin dünyaya gələcəyini görə bilməzdik. Azərbaycan tərəfindən dəfələrlə bəyan edilib ki, onlar ötən 30 il ərzində vətənpərvər nəsil yetişdirdikləri üçün qalib gəliblər. Bəs bizim hazırkı hakimiyyət nə edir? Ermənistanda məhv edə biləcəyi hər şeyin axırına çıxıb”.

Qalstyan əlavə edib ki, Qarabağın və Ermənistanın vəhdəti hər zaman bizim dəyərimiz olub. Bu gün isə hakimiyyətin əsas vəzifəsi Qarabağ səhifəsini bağlamaqdır. Hökumət Qarabağdan olanların yerləşdirilməsi məsələsini həll etməklə işini bitmiş hesab edir. İndi isə onlar Tavuşun kəndlərini (?) qaytarmaq həşirindədirlər. Nikol qorxaq və satqındır. Cəsarətli olmaq və mübarizə aparmaq lazımdır. Əks-təqdirdə biz dövlətçiliyimizi itirəcəyik.

Ümumiyyətlə, hazırda Ermənistanda və xüsusilə Tavuş vilayətində vəziyyət gərgindir. Müxtəlif müxalif hərəkatlar vilayət mərkəzində və 4 kənddə aramsız etiraz aksiyaları keçirirlər. Onlar küçələri, əsas yolları, o cümlədən Ermənistan–Gürcüstan dövlətlərarası avtomobil yolunu bağlayır, vətəndaşları və Qarabağ ermənilərini öz sıralarına qoşmağa çalışırlar.

Hakimiyyətlə münasibətləri, yumşaq desək, sərin olan Erməni apostol kilsəsi də proseslərə qızışdırıcı təsir göstərməkdədir. Tavuşdakı etirazlara kilsənin vilayət yeparxiyasının rəhbəri Baqrat Qalstanyanın rəhbərlik etdiyini desək, yəqin ki, səhv etmərik. O, əhalinin 4 kənddən çıxmaması üçün xüsusi canfəşanlıq göstərir, onları müqavimətə səsləyir. Bir neçə gün öncə Yuxarı Əskiparada keçirilən mitinqdə çıxış edən Qalstanyan deyib ki, “Voskepar bizim üçün “qələbənin simvolu” olmalıdır. Hakimiyyət nümayəndələri dəfələrlə bəyan ediblər ki, vətənin bir qarışını da güzəştə getməyəcəklər. Amma onlar “Artsax”ı və digər əraziləri artıq təhvil veriblər. Bu adamlar ancaq yalan danışır, aldadır və öz xalqını terrora məruz qoyurlar. İndi onlar deyirlər ki, kəndlər Ermənistana məxsus deyil və biz onları qaytarmasaq, yeni müharibə başlaya bilər. Bu adamlar bizim “müqəddəs torpaqlarımızı” xarabalıq adlandırırlar. Demək istəyirəm ki, yeni müharibə başlasa, bunun təqsirkarı bütünlüklə indiki hakimiyyət olacaq. Ölkəni belə acınacaqlı vəziyyətə məhz onlar gətirib çıxarıblar. Bizə birləşmək və mübarizə aparmaq lazımdır. Ümid edirəm ki, bizim mübarizəmiz böyük hərəkata çevriləcək.

Bu arada “Hraparak” qəzetinin yaydığı məlumat diqqəti cəlb edir. Qəzet dünənki sayında qeyd edib ki, ölkədədaxili siyasi vəziyyət gərginləşdiyi üçün hakim “Mülki müqavilə” fraksiyasına daxil olan deputatlar ictimaiyyət arasına çıxmaqdan çəkinirlər. Nəşr bildirir ki, deputatların əksəriyyəti parlamentin aprelin 23-də keçirilən iclasına qatılmayıb, sadəcə, bir qismi iştirak edib: “Vəziyyət gərginləşən kimi fraksiya üzvləri gizli fəaliyyətə keçirlər. Tavuşda əhalinin ciddi şəkildə etiraza qalxması onları çox narahat edib. Qorxurlar ki, İrəvanda da etirazlar genişlənər və parlament binasına hücum edilər. Bu səbəbdən ictimaiyyət önündə çox görünməməyə çalışırlar. Hətta ötən gün parlamentin iclasına fraksiya üzvlərinin cəmi bir neçəsi qatılıb. Onlar Paşinyanın göstərişi ilə sosial şəbəkə hesablarında paylaşım etməklə hadisələrə münasibət bildirirlər. Deputat olaraq qazandıqlarının əvəzini bu şəkildə ödəyir, tapşırıqları belə icra edirlər”.

Aydındır ki, müxalifətin əsas məqsədi nəyin bahasına olursa-olsun hakimiyyəti ələ keçirməkdir. Onlar bu fikirlərini heç gizlətmirlər də. Məsələn, “Demokratiya, qanun və nizam-intizam” partiyasının yaradıcısı Vardan Qukasyan bildirib ki, əsas məqsədləri hazırkı hakimiyyətdən qurtulmaqdır.

Vilayətdə gərginlik dünən də davam edib. Radikal–revanşist qruplaşmalar Gürcüstanla dövlətlərarası avtomobil yolunu yenə də bağlayıblar. Onlar yolda barrikadalar quraraq tələblərini səsləndiriblər. Hökumət nümayəndələrinin etirazçılarla apardıqları danışıqlar isə səmərə verməyib. Aksiyada bölgədə fəaliyyət göstərən 27 kilsənin keşişləri xüsusi fəallıq göstəriblər. Qanunsuzluğun qarşısını almaq üçün hökumət bölgəyə İrəvandan əlavə olaraq, xeyli sayda xüsusi təyinatlı polis qüvvələrini və daxili qoşunların hərbçilərini göndərib. Onların sərt müdaxiləsindən sonra yolda hərəkət qismən bərpa olunub. Yerli mətbuatın məlumatına görə, etirazçıların ən fəal üzvlərindən 25 nəfəri polis tərəfindən saxlanılaraq İrəvana göndərilib. Onların arasında parlamentin deputatı Andranik Tevanyan da olub. Ancaq polisin sərt tədbirlərə əl atmasına baxmayaraq, aksiya sonra da davam etdirilib.

Hayların “Sevan” adlandırdıqları Göyçə şəhərində də ötən gün vəziyyət mürəkkəbliyi ilə seçilib. Göyçə–İrəvan magistral yolunu bağlayan etirazçılar hərəkəti iflic ediblər. Zəngəzurda da etiraz aksiyası keçirilib. Bölgənin mərkəzi olan Qafanda icra hakimiyyətinin qarşısına yığışan etirazçı kütlə hökumətin istefasını tələb edib.

Paytaxtda isə Paşinyan hakimiyyətinə müxalifətdə olan ayrı-ayrı siyasi qüvvələr və parlamentdə təmsil olunan “Hayastan” blokunun deputatları mərkəzi meydana toplaşaraq baş nazirin istefasını tələb ediblər. Sabiq prezident, Xocalı faciəsinin törədilməsinin bilavasitə iştirakçısı Serj Sarkisyan da onların arasında olub. Mətbuata açıqlama verən Sarkisyan Paşinyanı və komandasını istefa verməyə çağırıb. Əks-təqdirdə aqibətinin yaxşı olmayacağı ilə hədələyib.

Etiraz aksiyalarında polisin davranışı ilə bağlı “Freedom House” beynəlxalq hüquq müdafiə təşkilatı da münasibət bildirib. Təşkilatın “X” platforması hesabında bu barədə deyilir: “Ermənistan polisinin vətəndaşlara qarşı zorakılıq halları barədə məlumatların artması bizi narahat edir. Biz Ermənistan hakimiyyətini polisin qeyri-mütənasib güc tətbiqini və qeyri-insani rəftarını araşdırmağa və polis sistemində mühüm islahatları təşviq etmək və həyata keçirmək üçün vətəndaş cəmiyyəti ilə birgə işləməyə çağırırıq”.

**Ermənistandakı aksiyaların hansı nəticələr doğura biləcəyinə dair “XQ”yə şərh verən Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin şöbə müdiri, politoloq Cavid Vəliyev bildirdi ki,** son dörd il ərzində Paşinyan ona qarşı olan qüvvələri neytrallaşdırmağa nail olub. Onun sözlərinə görə, hazırda Paşinyan iqtidarına ciddi təhdidlər yoxdur: “Paşinyana qarşı olan etirazların nə ilə nəticələnə biləcəyinə dair bizdə fikir formalaşması üçün son dörd ildə kifayət qədər hadisələr baş verdi. Xatırlayırsınızsa, 2021-ci ilin qışında silahlı qüvvələrin baş qərargah rəisi Onik Qasparyanın başçılığı ilə ordunun yüksək rütbəli zabitləri Paşinyandan istefa verməyi tələb etdilər. Paşinyan Qasparyan da daxil olmaqla, həmin sənədə imza atanların hamısını vəzifədən uzaqlaşdırmağı bacardı. Daha sonra yaranmış siyasi böhran səbəbindən 2021-ci il iyunun 20-də keçirilən növbədənkənar parlament seçkilərində qalib gəldi. Bundan sonra da İrəvan küçələrində dəfələrlə mitinqlər keçirildi. Ancaq onlar heç bir nəticə vermədi. Paşinyan iqtidarını devirmək üçün, hətta, xaricdən də bəzi müdaxilələr oldu. Onlar da uğursuzluğa düçar oldular”.



C.Vəliyev hesab edir ki, indiki etirazların miqyası əvvəlkilərə nisbətən daha kiçikdir. Yəni, lokal xarakterlidir, Paşinyana qarşı olan qüvvələrin sıraları getdikcə seyrəlir.

Politoloq N.Paşinyanın fors-major hadisələrə, o cümlədən sui-qəsd hadisələrinə qarşı da ciddi şəkildə qorunduğunu bildirdi: “Radikal müxalifət, Ermənistan–Azərbaycan münasibətlərinin normallaşmasını istəməyən xarici qüvvələr ölkə daxilində vəziyyəti qızışdırırlar. Onlar prosesi baş nazirin əleyhinə çevirməyə çalışırlar. Bu, açıq-aydın görünür. Amma Paşinyan da hər dəfə bu cür hadisələrdən istifadə edərək, prosesləri öz lehinə çevirməyi bacarır. İndiki şəraitdə mən Paşinyan hakimiyyətinə qarşı hansısa təhdid olduğunu görmürəm”.

Göründüyü kimi, Ermənistanda revanşist kəsimi təmsil edənlər ölkəni vətəndaş qarşıdurmasına sürükləyirlər. Onların hakimiyyət böhranı, siyasi böhran yaratmaqla hakimiyyəti qəsb etməyə çalışdıqları göz önündədir. Bundan sonra isə yenidən Azərbaycanla əldə edilmiş razılıqları pozmaq və ölkəmizə qarşı ərazi iddiaları irəli sürmək niyyətindədirlər. Ancaq onlar unudurlar ki, Azərbaycanınn istənilən təxribata cavabı sarsıdıcı olacaq.

***Səxavət HƏMİD***
***XQ***

# Azərbaycanın davamlı inkişafı dostlarımızı ürəkdən sevindirir




**Artıq mühüm önəm daşıyan beynəlxalq tədbirlərin respublikamızda keçirilməsi ənənə halını alıb. Aprelin 23-də ADA Universitetində təşkil olunan "COP29 və Azərbaycan üçün Yaşıl Baxış" mövzusunda beynəlxalq forum da bu ənənənin davamı kimi dünyada diqqət çəkib.**

30 ölkədən 64 beyin mərkəzi nümayəndəsinin qatıldığı tədbirdə Prezident İlham Əliyev bir çox məsələlər – Cənubi Qafqazda ayırıcı xətlər çəkilməsi məqsədilə bəzi cəhdlər göstərilməsi, ölkəmizin ayrılmaz bir parçası olan Naxçıvanla əlaqə yaradılmasına Ermənistanın və havadarlarının maneələr törətmələri, habelə Azərbaycanın davamlı iqtisadi uğurlar nümayiş etdirməsi barədə ətraflı münasibət bildirib.

Xatırladaq ki, 2021-ci il aprelin 13-də dövlətimizin başçısının iştirakı ilə ADA Universitetində keçirilən "Cənubi Qafqaza yeni baxış: münaqişədən sonra inkişaf və əməkdaşlıq" mövzusunda beynəlxalq konfransda iştirakçılar Qarabağda beynəlxalq konfransın keçirilməsini təklif etmişdilər və dövlət başçısı da bu təklifi müsbət qiymətləndirmişdi. Bir il sonra – 2022-ci il aprelin 28-də Şuşada işinə başlayan və Bakıda davam edən "Cənubi Qafqaz: İnkişaf və əməkdaşlıq" mövzusunda beynəlxalq konfransa 23 ölkədən gəlmiş 40 iştirakçı qatılmışdı.

Budəfəki beynəlxalq forumu isə öz işini aprelin 24-də Laçında keçirilən konfransla yekunlaşdırıb. İqtisadi və "yaşıl inkişaf" çərçivəsində beyin mərkəzləri və akademik institutların nümayəndələri tərəfindən işğaldan azad edilmiş ərazilərimizdə "ağıllı şəhər", "ağıllı kənd" kimi innovativ yanaşmaların tətbiqi barədə danışılıb.

Xatırladaq ki, aprelin 23-də keçirilən forumda respublikamızın iqtisadi uğurları barədə məlumat verən dövlətimizin başçısı qeyd edib ki, hazırda neft və qaz ümumi daxili məhsulumuzun yarıdan az hissəsini təşkil edir. Lakin ixracın, təxminən, 95 faizi neft və qazla bağlıdır. Bu gün qarşıda duran əsas məqsədlərdən biri isə ixracı şaxələndirməkdir.

Prezident İlham Əliyevin bu fikrinə əsaslanıb qeyd edə bilərik ki, ölkə rəhbərinin son illərdə çevik və qətiyyətli, uzaqgörən siyasəti nəticəsində iqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektorunun dinamik inkişafının təmin olunması, habelə ixrac imkanlarının genişləndirilməsi istiqamətlərində mühüm tədbirlər həyata keçirilib. Eyni zamanda, investisiya qoyuluşunun sürətləndirilməsi, birbaşa xarici investisiyaların təşviqinə dair Strategiya, "Azərbaycana sərmayə" ("İnvest in Azerbaijan") və "Azərbaycanda ilk" ("First in Azerbaijan") təşviq mexanizmləri, ölkədə fəaliyyət göstərən müəssisələrin qlobal dəyər zəncirlərinə qoşulmasına dair Tədbirlər Planı hazırlanaraq uğurla reallaşdırılıb.

Azərbaycanın xarici iqtisadi əlaqələrinin genişlənməsində önəmli rol oynayan məsələlərdən biri də respublikamızın nəqliyyat infrastrukturunun müasir dünya standartlarına uyğunlaşdırılması, tranzit potensialının daha da artırılması ilə bağlı olub. Elə buna görə də həyata keçirilən layihələr və qlobal miqyaslı təşəbbüslər nəticəsində ölkəmiz mühüm nəqliyyat qovşağına və dəhlizlərin keçdiyi məkana çevirilib.

Forumda dayanıqlı inkişaf və enerji ilə bağlı fikirlərini diqqətə çatdıran Prezident İlham Əliyev Azərbaycanın iqtisadi göstəricilərinin və sosial proqramlarının bunu aydın şəkildə göstərdiyini bildirib. Dövlət başçısı neft və qaz gəlirlərinin işsizlik və yoxsulluq məsələlərinin həlli üçün istifadə edildiyini, onların bərabər şəkildə bölüşdürüldüyünü də vurğulayıb.

Prezident İlham Əliyev daha sonra deyib: "Enerji əməkdaşlığımızı və ilk gəlirlərimizi aldığımız zaman Azərbaycanda yoxsulluğun səviyyəsi 50 faizə yaxın idi, hər ikinci şəxs yoxsul idi. Qaçqınlar arasında isə bu göstərici 75 faizdən çox idi. Vəziyyəti təsəvvür edə bilərsiniz. İndi isə biz bunu 5 faiz səviyyəsinə qədər azaltmışıq. Eyni göstərici işsizliyə də aiddir".

Yeri gəlmişkən, Beynəlxalq Valyuta Fondunun (BVF) "Dünya iqtisadiyyatının inkişaf perspektivləri" hesabatına əsasən, Azərbaycan Cənubi Qafqazda ən aşağı işsizlik səviyyəsinə malik ölkədir. İşsizlik 2022-ci ildən etibarən dəyişməyərək 5,9 faiz səviyyəsindədir.

Dövlətimizin başçısı forumda Azərbaycan iqtisadiyyatını özünü təmin edən iqtisadiyyat kimi xarakterizə edib və bildirib ki, ölkəmiz, hətta böhran vəziyyətində də sabit artım göstərib. Prezident İlham Əliyev, eyni zamanda, Azərbaycanın xarici borcunun hazırda ümumi daxili məhsulun 8 faizindən də az təşkil etdiyini diqqətə çatdırıb. Yeri gəlmişkən, belə bir uğur ölkədə makroiqtisadi sabitliyin əsas meyarı olan qiymətlərin aşağı və sabit olmasını gerçəkləşdirib, idarəetmənin institusional çərçivəsinin təkmilləşdirilməsi və maliyyə bazarlarının səmərəli fəaliyyət göstərməsini reallaşdırıb.

Ölkə rəhbəri çıxışında respublikamızın bölgə dövlətləri ilə iqtisadi əməkdaşlıq məsələsinə, beynəlxalq nəqliyyat dəhlizlərinin inkişafında oynadığı rola, "yaşıl enerji" ilə zəngin enerji potensialımızın reallaşdırılması istiqamətində həyata keçirilən genişmiqyaslı layihələrin əhəmiyyəti ilə bərabər, dünyanın bundan sonra da uzun illər ərzində hasil edilən ənənəvi enerji mənbələrinə ehtiyac duyacağını da diqqətə çatdırıb.

Dünyanın buna, yəni tamamilə "yaşıl enerji"yə keçidə hazır olmadığını vurğulayan dövlətimizin başçısı bildirib: "Dünya iqtisadiyyatı və sənayesi bunun üçün hazır deyil. Fikrimcə, əldə oluna bilinməyən hədəfdənsə, ən yaxşı yol mütənasiblik yaratmaqdır və təkamül yolu ilə getməkdir".

Göründüyü kimi, bütün bu iqtisadi uğurlar qarşıdakı illərdə Şərqlə Qərbin qovşağı olan Azərbaycanın qüdrətinin daha da artacağına əminlik yaradır. Bu imkanlar 2030-cu ilə qədərki mərhələdə ölkəmizin iqtisadi suverenliyinin möhkəmləndirilməsinə və müasir həyat standartlarına əsaslanan yüksək sosial rifah cəmiyyətinə malik qüdrətli dövlətə çevrilməsinə zəmanət verir. Azərbaycan dövləti ölkədə əhalinin rifahının daha da artırılması üçün sosialyönümlü bazar iqtisadiyyatının inkişaf etdirilməsi yolu ilə inamla irəliləyir.

Beləliklə, bu gün tək regionda deyil, bütövlükdə postsovet məkanında söz sahibi olan Azərbaycan hər keçən gün iqtisadi uğurlarını davam etdirir. Respublikamız getdikcə iqtisadi imkanlarını genişləndirir, beynəlxalq arenadakı mövqelərini möhkəmləndirir. Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu iqtisadi siyasəti nəticəsində Azərbaycan Cənubi Qafqaz regionunda ən sabit və ən qüdrətli ölkə – lider dövlət kimi güclənir. Respublikamız strateji xətti, iqtisadi, siyasi, təhlükəsizlik məsələlərinə çox aydın baxışı ilə inamla gələcəyə doğru uğurlu addımlar atır, yeni nailiyyətlər əldə edir.

**XQ**

# Beynəlxalq forum Laçında konfransla yekunlaşıb

**"COP29 və Azərbaycan üçün Yaşıl Baxış" beynəlxalq forumu çərçivəsində aprelin 24-də Laçında 30 ölkədən 64 nüfuzlu ekspertin iştirakı ilə konfrans keçirilib.**

Panel müzakirələrdə "COP29 və Azərbaycan üçün Yaşıl Baxış" mövzusuna xüsusi diqqət yetirilməklə, regionda davamlı inkişaf üzrə əldə edilmiş mühüm addımlar müzakirə edilib.

"Qarabağda dayanıqlı inkişaf" mövzusunda keçirilən ilk panelin moderatoru ADA Universitetinin prorektoru Fariz İsmayılzadə olub.

Paneldə Laçın rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Məsim Məmmədov, Şuşa rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Aydın Kərimov və Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Vahid Hacıyevin çıxışları dinlənilib. Daha sonra sual-cavab sessiyası keçirilib.

Davamlı inkişafla bağlı müzakirələrdən sonra iştirakçılar Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin İdarə Heyətinin sədri Fərid Şəfiyevin moderatorluq etdiyi "Yaşıl infrastrukturun inkişafı təcrübələri və alternativ və bərpa olunan enerji təşəbbüsləri" mövzusunda ikinci paneldə iştirak ediblər. Ceymstaun Fondunun İdarə Heyətinin üzvü, beynəlxalq ekspert Metyu Brayza, Cenevrə Dövlət Universitetində Qlobal ətraf mühit siyasəti proqramının direktoru Aleksandr Hedjazi, "Tracadero" Forum İnstitutunun rəhbəri Ellen Vasilina və "Methinks" şirkətinin enerji təhlükəsizliyi məsələləri üzrə mütəxəssisi Con Roberts Azərbaycanın ehtiyaclarına uyğunlaşdırıla bilən beynəlxalq praktikadan bəhs ediblər. İqtisadi və "yaşıl inkişaf"a fokuslanan beyin mərkəzləri və akademik institutların nümayəndələri işğaldan azad edilmiş ərazilərimizdə "ağıllı şəhər", "ağıllı kənd" kimi innovativ yanaşmaların tətbiqindən danışıblar.

Forum, həmçinin iştirakçılara Laçında inkişaf layihələri ilə yaxından tanış olmaq imkanı yaradıb. Səfərin bu hissəsində günün əvvəlində keçirilən nəzəri müzakirələrin praktiki tətbiqləri nümayiş olunub.




Ceymstaun Fondunun İdarə Heyətinin üzvü Metyu Brayza Xəzəryanı dövlətlərin dəniz problemlərini həll etmək üçün toplanacağı Xəzər Dialoq Platformasının təşkil olunmasını tövsiyə edib.

Cenevrə Dövlət Universitetində Qlobal ətraf mühit siyasəti proqramının direktoru Aleksandr Hedjazi Azərbaycanın COP29-a hazırlıq məsələsinə yanaşma tərzinə heyran olduğunu bildirib.

Paneldə çıxış edən "Tracadero" Forum İnstitutunun rəhbəri Ellen Vasilina qlobal səviyyədə təhsilin əhəmiyyətini vurğulayaraq, gənclərə hazırkı qlobal problemlərə hazırlıqlı olmalarını tövsiyə edib, bu istiqamətdə ADA Universitetinin mühüm rolunu vurğulayıb.

"Methinks" şirkətinin enerji təhlükəsizliyi məsələləri üzrə mütəxəssisi Con Roberts paneldə səslənən bütün fikirlərə qoşulduğunu və Azərbaycanda keçiriləcək COP29 tədbirinin bütün dünyaya faydalı olacağına ümidvar olduğunu bildirib.

Panel sessiyasının yekununda iştirakçıların sualları cavablandırılıb.

**XQ**

# Baş prokurorun iordaniyalı həmkarı ilə görüşü

**Baş prokuror Kamran Əliyev İordaniya Haşimilər Kralliğının Baş prokuroru Yusuf Tiabat ilə videokonfrans formatında ikitərəfli görüş keçirib.**

Görüş zamanı Baş prokuror dövlətlərimiz arasında dostluq və əməkdaşlıq münasibətlərinin dövlət başçıları cənab İlham Əliyev və Kral II Abdullah ibn Al Hüseynin birgə səyləri nəticəsində siyasi, iqtisadi, hərbi, humanitar, mədəni və digər sahələrdə əlaqələrin hazırki yüksək inkişaf dinamikasına çatdığını vurğulayıb.

Kamran Əliyev dünyanın ən mötəbər beynəlxalq tədbirlərindən biri olan BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının - COP29-un ölkəmizdə keçiriləcəyi barədə həmkarına məlumat verib.



Yusuf Tiabat ölkələrimiz arasında mövcud əməkdaşlığın səviyyəsindən məmnunluq ifadə edərək cari ilin 29 sentyabr - 2 oktyabr tarixlərində ölkəmizdə keçiriləcək Beynəlxalq Prokurorlar Assosiasiyasının 29-cu İllik Konfransı və Ümumi Yığıncağına dəvət edildiyi üçün təşəkkürünü ifadə edib. Ölkəmizin hüquq-mühafizə orqanlarının, xüsusilə də Baş Prokurorluğun müsbət təcrübəsinin öyrənilməsi üçün qurumlararası işbirliyinin vacibliyi qeyd edilib.

Tərəflər qarşılıqlı əməkdaşlığın inkişaf etdirilməsi məqsədilə Anlaşma Memorandumunun imzalanması barədə razılığa gəliblər.

**XQ**

# Naxçıvam MR Ali Məclisinin komitə iclası



**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Humanitar siyasət komitəsinin iclasında muxtar respublika Nazirlər Kabinetinin 2023-cü ildə fəaliyyəti haqqında hesabat müzakirə edilib.**

Nazirlər Kabinetinin aparat rəhbəri Aləm Bağırov, humanitar və sosial məsələlər şöbəsinin müdiri Sevinc Cabbarova layihə barədə məlumat veriblər.

Müzakirələrdə komitənin sədri Elman Cəfərli, sədr müavini Hüseyn Niftəliyev, üzvləri Ehtimad Məmmədov, Əmir Babayev, Asim Əliyev, Vüsalə Əliyeva, Həbibə Allahverdiyeva, Turan Həsənova və Ali Məclis aparatının iqtisadi məsələlər şöbəsinin müdiri Nihad Möhbalıyev Nazirlər Kabinetinin hesabatının ilk dəfə Ali Məclisin komitələrində müzakirəyə çıxarılmasını yüksək qiymətləndirib, rəy və təkliflərini söyləyiblər.

Nazirlər Kabinetinin 2023-cü ildə fəaliyyəti haqqında hesabat irad və təkliflər nəzərə alınmaqla Naxçıvan MR Ali Məclisinin müzakirəsinə tövsiyə olunub.

**XQ**

KÖŞƏ

# Qırmızı paltar, qızmış öküzlər və yandırılan bayraqlar

**Ermənistanın baş naziri Nikol Paşinyan bir müddət əvvəl yerli televiziyada qonaq olarkən fikrini əsaslandırmaq üçün obrazlı ifadələrə yer vermişdi. O, proqramın aparıcısına demişdi: "Təsəvvür edək ki, biz əynimizə nənələrimizin tikdiyi qırmızı paltarı geyinib yola çıxmışıq və həmin yolda qızmış öküzlərə rast gəlmişik. İndi irəliləmək üçün öküzləri aqressiv davranmağa kökləyən qırmızı paltarı çıxarmaq lazımdır. Həm də həmin paltarı çıxarıb eksponat kimi muzeyə qoymaq vacibdir... Nikol daha nəyi deməli idi, bu barədə yazının sonunda söz açacağıq.**



Əvəz RÜSTƏMOV
evez.rustemov@gmail.com

Əslində, Paşinyanın qaldırdığı məsələ erməni cəmiyyətinin, az qala, hər künc-bucağı üçün aktualdır. Cəmiyyət xəstəlikdən qurtulmalı, özünü miflərdən azad erməli, reallığa söykənməlidir. Nəzərə almalıdır ki, keçmişdə ilişib qalmaq Ermənistanın gələcəyə doğru yolunu kəsir. Bəs buna nə dərəcədə ciddi yanaşılır? Ümumiyyətlə, hansısa formada əhəmiyyət verilirmi? Xeyr!

Erməni cəmiyyəti, obrazlı desək, paşinyanların, qriqoryanların, sarkisyanların və digər "yan"ların nənələrinin tikdikləri qırmızı geyimi nəinki çıxarmağı düşünür, eyni zamanda, artıq cırıq-cırıq olmuş, kirə-pasa batmış həmin libasları milli düşüncə sisteminin məhsuluna çevirir. Mətləbə keçərək deyək ki, mövzumuz qondarma "erməni soyqırımı" barədədir. Daha doğrusu, onun dünən qeyd edilmiş növbəti ildönümünə həsr olunmuş tədbirdəki diqqətçəkən yaramazlıq haqqında.

Əlbəttə, sözügedən yaramazlıqda Paşinyan iqtidarının əlinin olmadığını düşünmək sadəlövhlükdür. Axı Nikolun televiziya ekranlarından səsləndirdiyi, çıxışlarında dilə gətirdiyi mətləblər heç də səmimi deyil. Yəni, onun keçmişin qalığı kimi, "erməni soyqırımı" iddiasına dair fikirlərindəki pozitiv motiv də sürüşkəndir, tez bir zamanda sıradan çıxmaq potensialındadır. Erməni baş nazirin "soyqırımı"nı şübhələndirən dəst-xəttinə müsbət yanaşma göstəricisi qismində inanmaq da olmaz. Qondarma iddianın ildönümü münasibətilə İrəvanda keçirilmiş aksiya zamanı baş verənlər bunun təsdiqidir.

Bəli, "məşəl aksiyası" kimi adlandırılan və hər il keçirilən həmin aksiyada Azərbaycan və Türkiyənin bayraqları yandırıldı. Hadisə bir neçə cəhətdən diqqət çəkir. Əvvəla, bu, alçaqlıq və barbarlıqdır. Sübut olunur ki, erməni cəmiyyəti hətta ümummilli acı və dərd olaraq dəyərləndirdiyi nəyisə normal qaydada yaşamaq təfəkküründən uzaqdır.

İkincisi, Azərbaycan və Türkiyə bayraqlarının birgə yandırılması türk düşmənçiliyinin erməni cəmiyyəti üçün prioritet təşkil etdiyinin göstəricidir. Deməli, bu cəmiyyət regionda qərarlaşmış reallıqlara normal tərzdə reaksiya vermək iqtidarında deyil. Düşünmür ki, bayraqlarını yandırdıqları ölkələr Ermənistanı, loru necə deyərlər, cücə kimi boğarlar.

Üçüncüsü, Azərbaycanın və Türkiyənin bayraqlarının yandırılması konkret planlaşdırılmış işdir. Belə görünür, Cənubi Qafqazda sabitliyin pozulmasını istəyənlər "fəaliyyətdədirlər". Onlar hər vəchlə çalışırlar ki, region ölkələri arasında sülh və əmin-amanlıq olmasın. Ən əsası isə mövcud istiqamətdə gerçəkləşdirilən tədbirlər əhəmiyyətini itirsin. Nəhayət, düşmənçilik ab-havası daim "aktuallığını" qorusun.

Dördüncü məqam. Hesab edirik ki, "məşəl aksiyası"nda Azərbaycan və Türkiyənin bayraqlarını yandıranlar elə Paşinyanın nənəsinin tikdiyi qırmızı paltarı geyinib əyinlərindən çıxarmayanlardır. Görünür, onların ictimai həyatdakı rolu böyükdür. O qədər böyükdür ki, ölkə rəhbəri Nikolun sözü ilə əməlinin doğru olmadığına dair qəti qənaət formalaşır. Axı balıq başdan iylənir. Hər halda, hüquq-mühafizə orqanları hadisənin qarşısını ala bilərdilər. Amma almadılar.

Nəzərə alaq ki, bir müddət əvvəl İrəvanda keçirilmiş ağırlıqqaldırma üzrə Avropa çempionatının açılışında da Azərbaycan Bayrağı yandırılmışdı. O zaman bunu edən şəxs xalq qəhrəmanı obrazında təqdim edilmişdi. Həmin məxluqu heç tutmazdılar da. Sadəcə, böyük idman tədbiri keçirildiyindən məcbur qaldılar. Onu da deyək ki, yekunda bayrağa hörmətsizliyin cəzalandırılması məntiqi iflic duruma düşdü. Çünki hadisəni törədən tezliklə sərbəst buraxıldı.

Hazırkı olayla bağlı Paşinyan və komandasının reaksiyası yoxdur. Nə bilmək olar, bəlkə bu, insan azadlığına hörmətdir?! O zaman nəyə görə iqtidar ölkədə özünün əleyhinə danışanları həbsdə çürüdür? Necə olur ki, müxaliflərin hər sözünə sərt reaksiya verilir?

Yada salaq ki, bir neçə gün əvvəl Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan birbaşa "erməni soyqırımı" ifadəsini işlətməsə də, sırf onu nəzərdə tutaraq Ermənistana çağırış səsləndirmişdi. Türkiyə lideri bildirmişdi ki, Ermənistan keçmişin əsassız xatirələrini bir kənara qoymalı, regionda formalaşmış yeni reallıqlara adekvat davranaraq konstruktivlik nümayiş etdirməli, Ankara ilə normallaşma xəttinə sadiq qalmalıdır. "Məşəl aksiyası"nda Azərbaycan Bayrağı ilə yanaşı, Türkiyə Bayrağı da yandırıldısa, deməli, bu, həm də cənab Ərdoğanın çağırışına erməni cəmiyyətinin reaksiyasıdır.

Sonda yenidən Paşinyanın nənəsinin tikdiyi qırmızı paltar məsələsinə qayıdaq. Diqqətə çatdırdıq ki, Nikol televiziyadakı çıxışında ölkəsinin getdiyi yolda öküzlərin qarşısında məhv olmamaq üçün həmin paltarı çıxarıb muzeydə milli rəmz kimi saxlamağın vacibliyini bildirmişdi. Hesab edirik ki, elə bunun özü də riyakar yanaşmadır və fürsət düşdükcə mənfur libası geyinmək üçün şans saxlayır. Baş nazir həmin paltarın çıxarılmalı deyil, yandırılmalı olduğunu vurğulamalı idi. Yəni, Azərbaycan və Türkiyə bayraqlarını yox, məhz Paşinyanın nənəsinin tikdiyi qırmızı paltarı yandırmağa ehtiyac var.

Böyük Türk ailəmiz

# Ölkəmizdə Qırğız Mədəniyyəti Günləri

**Azərbaycan paytaxtında ilk Qırğız Mədəniyyəti Günlərinə start verilib. Qırğız Respublikasının Prezidenti Sadır Japarovun ölkəmizə dövlət səfəri ilə eyni vaxta düşən mədəniyyət tədbirləri qardaş xalqın zəngin mədəni irsinin təbliği baxımından əhəmiyyətlidir.**



Azərbaycan–Qırğızıstan münasibətləri həm beynəlxalq təşkilatlar çərçivəsində, həm də ikitərəfli əlaqələr kontekstində ildən-ilə dərinləşdir. Dövlət başçılarının siyasi iradəsi və birgə səyləri ilə ölkələrimiz arasında siyasi-iqtisadi sahədə olduğu kimi, mədəni əlaqələrdə dinamik şəkildə inkişaf edir. Ayrı-ayrı sənət adamlarının, yaradıcı kollektivlərin qarşılıqlı səfərləri, eləcə də müştərək mədəniyyət layihələri həyata keçirilir. Dünya şöhrətli qırğız yazıçısı Çingiz Aytmatov bu gün də Azərbaycanda sevilən yazıçılardandır. Onun 85 və 90 illik yubileyləri ilə bağlı ölkəmizdə tədbirlər keçirilib.

Ulu öndər Heydər Əliyev1995-ci ildə Türkdilli Dövlət Başçılarının Zirvə Görüşü və "Manas" eposunun 1000 illiyi ilə bağlı ilk dəfə Qırğızıstana səfər edib. Qardaş ölkədə 20 minə yaxın azərbaycanlı yaşayır ki, onların da əksəriyyəti Mərkəzi Asiyaya sürgün edilən repressiya qurbanlarının ailə üzvləridir. Soydaşlarımız Bişkek, Karabalta, Kant, Sokuluk, Oş şəhərlərində və ətraf rayonlarda yığcam halda məskunlaşıblar. Diaspor üzvləri arasında 3 elmlər doktoru, 22 elmlər namizədi, 9 əməkdar xadim var, 3 soydaşımız isə Qırğızıstanın "Şöhrət" medalı ilə təltif edilib. Qardaş ölkədə azərbaycanlıların dil və adətlərini qoruyub saxlamalarında heç bir problem yoxdur.

Münasibətlərimizin dinamikası ölkələrimizin və xalqlarımızın bir-birinə necə yaxın olduqlarını əyani göstərir. Prezident İlham Əliyev 3 dəfə qardaş ölkəyə səfər edib. 2022-ci ilin oktyabrında baş tutan dövlət səfəri zamanı siyasi və iqtisadi gündəliklə yanaşı, mədəni-humanitar tədbirlər də keçirilib. Qırğızıstan–Azərbaycan Dostluq Parkının, Heydər Əliyev adına 20 saylı "Məktəb-Gimnaziya Təhsil-Tərbiyə Kompleksinin, Nizami Gəncəvi adına 103 saylı orta təhsil məktəbinin açılış mərasimləri reallaşdırılıb. Azərbaycanla Qırğızıstan arasında informasiya sahəsində də sıx əməkdaşlıq mövcuddur.

Qırğız Mədəniyyəti Günləri ilə bağlı bu respublikanın mədəniyyət, informasiya, idman və gənclər siyasəti naziri Altınbek Maksutovun rəhbərliyi ilə incəsənət ustaları və bədii kollektivlərindən ibarət geniş nümayəndə heyəti ölkəmizə gəlib. Azərbaycan Respublikasının mədəniyyət naziri Adil Kərimli ilə görüşdə bu sahədə əməkdaşlığın genişləndirilməsi üçün münbit şəraitin mövcud olduğu vurğulanıb. Ötən il "Türk dünyasının mədəniyyət paytaxtı" olmuş Şuşanın qardaş ölkələrin sənət adamlarını və bədii kollektivlərini bir araya gətirdiyi bildirilib. Diqqətə çatdırılıb ki, qədim Şuşa 2024-cü il üçün "İslam dünyasının mədəniyyət paytaxtı" elan edilib və bu il Şuşa rəngarəng tədbirlərlə türk-islam dünyasının görüş məkanı olacaq.

Mədəniyyət günləri çərçivəsində Bakıdakı Nizami Kino Mərkəzində Qırğız kino günlərinin açılışı olub. Mərasimdə rəsmilər, iki ölkənin mədəniyyət və incəsənət xadimləri, ictimaiyyət nümayəndələri iştirak ediblər. Ölkələrin mədəniyyət nazirlərinin müavinləri Murad Hüseynov, Timurlan Ajımaliyev və səfir Kayrat Osmonaliyev kino xadimlərinin görüşünün əməkdaşlıq üçün yeni üfüqlər açacağına inam ifadə ediblər.

Son illərdə qırğız kinosunun inkişaf tendensiyası diqqət çəkir. Ötən il Bakıda keçirilən III Qorqud Ata Türk dünyası film festivalında "Göksan" kinematoqrafçılarının çəkdiyi "Tanrıverdi" filmi ən yaxşı rejissor nominasıyası üzrə qalib gəlib. Qırğızıstanın gənc kinematoqrafçılarının beynəlxalq festivallarda qazandığı böyük uğurlar da sevindiricidir. Bu baxımdan bir neçə ay əvvəl TÜRKSOY ölkələrinin vahid kino birliyinin təsis edilməsi də qarşıda mühüm perspektivlər açır. Sonra rejissor Ruslan Akunun qısa müddət ərzində Mərkəzi Asiya ölkələrində və Rusiyada uğur qazanmış tammetrajlı "Cənnət anaların ayaqları altındadır" filmi nümayiş olunub. Mərkəzdə qırğız kinematoqrafiyasına həsr edilmiş fotosərgi də açılıb.

Dünən isə Heydər Əliyev Mərkəzində Azərbaycanda Qırğızıstan Mədəniyyəti Günlərinin təntənəli açılış mərasimi keçirilib...

Bakı sakinləri T.Okeyev adına "Qırğızfilm" Milli Kinostudiyasında bu yaxınlarda çəkilmiş, rejissor Tınçtık Abilkasımovun ilk dəfə ekrana çıxan "XƏTA#404" filminə maraqla tamaşa ediblər. Qeyd edək ki, mədəniyyət günləri ərzində qırğız filmləri bir neçə seansla təqdim olunur.

Mədəniyyət günlərinin proqramına Qırğızıstan incəsənət ustalarının qala-konserti, ölkənin dekorativ-tətbiqi və təsviri sənət ustalarının əsərlərindən ibarət sərgi, geyim kolleksiyası və milli mətbəx nümunələrinin nümayişi də daxildir.

***Ə.DOSTƏLİ***
***XQ***

# Dünya şöhrətli alim soydaşımız Vətəndə

**AMEA-nın Rəyasət Heyətində Yaponiyada yaşayan məşhur azərbaycanlı alim, yeni nəsil displey ekranlar sahəsində tanınmış mühəndis, professor Xəlil Kələntərlə görüş iştirakçıların böyük marağına səbəb olub.**



Görüşdə çıxış edən AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli qonağı salamlayaraq akademiyada həyata keçirilən islahatların rəqəmsallaşdırma sahəsini də əhatə etdiyini bildirib. O deyib ki, dövri elmi jurnallara və alimlərin məqalələrinə DOİ identifikatoru verilib, elmi müəssisələrin əməkdaşları üçün "Vikipediya" təlimləri keçirilib, "Google Scholar", ORCİD və digər akademik sosial şəbəkələrdə alimlərin yeni profilləri yaradılıb. Akademik elektron hərəkatın daha da genişləndirilməsi məqsədilə Türkiyənin Elmi və Texnoloji Tədqiqat Şurası (TÜBİTAK) ilə əməkdaşlıq müqaviləsinin imzalandığını, AMEA–TÜBİTAK Koordinasiya Mərkəzinin açıldığını da diqqətə çatdırıb.

"Elektron Akademiya" şöbəsinin müdiri, riyaziyyat üzrə fəlsəfə doktoru, dosent Fariz İmranov "AMEA-da elektron hərəkat və yeni çağırışlar" mövzusunda təqdimatla çıxış edib. Şöbə müdiri AMEA-da çap olunan elmi jurnalların elektron resurslarının yaradılmasının cari vəziyyəti, onların beynəlxalq elmi bazalara daxil edilməsi, həmçinin "Milli Dərgi Park" elektron baza reyestrinin yaradılması ilə bağlı görülən işlərdən danışıb. Milli Aviasiya Akademiyasının prorektoru professor Xaqani Abdullayev elektronlaşma istiqamətində Azərbaycan Milli Elmlər Akademiyası ilə ortaq layihələrin həyata keçirilməsinin əhəmiyyətindən danışıb.

Xəlil Kələntər apardığı elmi-tədqiqat işləri, qazandığı patent və mükafatlar, imza atdığı elmi yeniliklər barədə danışıb. O, AMEA və Milli Aviasiya Akademiyası ilə birgə müştərək layihələrin həyata keçirilməsinə maraq göstərdiyini, bilik və bacarığının yerli alimlərimizin işlərinin tətbiqində yardımçı olmaqdan şərəf duyduğunu bildirib. Alim görüş iştirakçılarının suallarını cavablandırıb.

Görüşdə rəqəmsal elektronlaşma, elektron kataloqların hazırlanması, elmi bazaların hazırkı vəziyyəti, elektron xidmətlərin təşkili, süni intellektin humanitar və ictimai elmlərə tətbiqi və s. məsələlər barədə ətraflı fikir mübadiləsi aparılıb.

***XQ***

# Naxçıvan xəbərləri

## Beynəlxalq rəsm sərgisi

**Azərbaycanın qədim diyarı Naxçıvandakı Bəhruz Kəngərli adına Sərgi Salonunda muxtar respublikanın yaranmasının 100 illiyinə həsr olunmuş rəsm sərgisi fırça ustalarının yaradıcılıq nümunələrinə növbəti ictimai baxış kimi hər kəsdə xoş təəssürat yaradıb.**



Mərasimi açan Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri, Əməkdar rəssam Ülviyyə Həmzəyeva bildirib ki, sərgidə 2012-ci ildən Naxçıvanı dünyada tanıtmaq məqsədilə keçirilən "Naxçıvan – Bəşəriyyətin beşiyi" beynəlxalq rəsm festivallarında iştirak etmiş xarici və yerli rəssamların əsərləri nümayiş etdirilir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müavininin Anar İbrahimov Naxçıvanın muxtariyyətinin digər sahələrlə yanaşı, bölgənin mədəni inkişafına da sanballı töhfələr verdiyini deyib və vurğulayıb ki, texnologiyaların sıçrayışı dövründə belə incəsənət bizim həyata baxışımızı, zövqümüzü formalaşdıran sənət növüdür. "Nəqşi-cahan"ın tarixinin, zəngin mədəniyyətinin sərgilər vasitəsilə nümayiş etdirilməsi sənətsevərlərə dəyərli ərməğandır.

Türkiyə Respublikasının Naxçıvandakı Baş konsulu Asip Kaya ölkələrimiz arasındakı sarsılmaz dostluq və qardaşlıq münasibətlərindən, mədəni əlaqələrimizin davamlılığından danışıb, Naxçıvan Muxtar Respublikasının 100 illiyinin Türkiyədə müxtəlif tədbirlərlə qeyd olunmasını diqqətə çatdırıb.

Sonra ümummilli lider Heydər Əliyevə həsr olunmuş şüşə üzərində döymə əsəri muxtar respublika Ali Məclisi sədrinin müavininə hədiyyə edilib.

İştirakçılar sərginin ekspozisiyası ilə maraqla tanış olublar. Burada müxtəlif illərdə beynəlxalq festivallarda iştirak etmiş 52 rəssamın 54 əsəri nümayiş olunur. Əsərlərdə Naxçıvan təbiəti, abidələri, milli-mənəvi dəyərlərimiz rənglərin dili ilə dolğun şəkildə ifadə olunub.

## Şərurda poeziya axşamı

**Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyi və Şərur Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə keçirilən poeziya axşamının iştirakçıları əvvəlcə qədim diyarın şair və yazıçılarının əsərlərindən ibarət sərgiyə baxıblar.**



Şərur Rayon İcra Hakimiyyəti başçısının müavini Aysel Zeynalabdinova giriş sözü ilə çıxış edib. Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədri Asim Yadigar "Naxçıvan ədəbi mühiti 100" mövzusunda çıxış edərək muxtar respublikanın 100 illiyi ilə bağlı silsilə tədbirlərdən danışıb. O, poeziya axşamlarnın digər rayonları da əhatə etdiyini bildirib.

Sonra şairlər Elxan Yurdoğlu, Süreyya Nəsib, Ümmülbanu Musayeva, Püstə Gülsevən və digərləri vətənpərvərlik mövzusunda şeirlərini səsləndiriblər. Məktəblilərin çıxışları da alqışlarla qarşılanıb.

Sonda Şərur Rayon İcra Hakimiyyəti tərəfindən Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədri Asim Yadigara 70 illik yubileyi münasibətilə hədiyyə təqdim olunub.

***XQ***

Təqdimat

# Azərbaycan Xalq Cümhuriyyətinin milli dərsliyi – "Türk çələngi"



**AMEA-nın Ədəbiyyat İnstitutunda Abdulla Şaiqin "Türk çələngi" kitabının təqdimat mərasimi keçirilib.**



Tədbiri giriş sözü ilə Ədəbiyyat İnstitutunun elmi işlər üzrə direktor müavini filologiya üzrə fəlsəfə doktoru, dosent Mehman Həsənli açaraq bildirib ki, Abdulla Şaiqin Azərbaycan Xalq Cümhuriyyəti dövründə tərtib etdiyi "Türk çələngi" dərsliyinin yenidən nəşri klassik irsimizə qayğının bariz nümunəsidir. Azərbaycan maarifçi hərəkatının inkişafında və ədəbiyyat tarixində Abdulla Şaiqin böyük xidmətlərinin olduğu qeyd edilib.

Sonra Abdulla Şaiqin Mənzil-Muzeyinin direktoru, sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Ülkər Talıbzadə çıxış edib. O, muzeydə Şaiq irsinin qorunub saxlanması və araşdırılması ilə bağlı görülən işlərdən söhbət açıb. Filologiya üzrə fəlsəfə doktoru, dosent Arzu Hacıyeva "Abdulla Şaiq irsində "Türk çələngi"-nin yeri" mövzusunda məruzə edib.

Ədəbiyyat İnstitutunun alimlərindən professorlar İslam Qəribli, Asif Rüstəmli, Tahirə Məmməd, dosentlər Aygün Bağırlı, Lütviyyə Əsgərzadə və Eşqanə Babayeva Abdulla Şaiq irsinin ümumtürk hərəkatına töhfəsindən söz açıblar.

***Qabil YUSİFOĞLU***
***XQ***

Məhəmməd Burcəliyev – 110

# Müşfiqdən dərs almış səhnə fədaisi

**Xalq artisti Məhəmməd Burcəliyev səmərəli fəaliyyəti ilə Azərbaycanın teatr və kino mədəniyyətində iz qoymuş sənətkarlardandır. Düz 30 il əvvəl – 80 yaşında dünyasını dəyişsə də, tez-tez xatırlanır, gənc nəslə nümunə göstərilir.**



Məhəmməd İsmayıl oğlu Burcəliyev 1914-cü il aprel ayının 25-də Şəki şəhərində anadan olub.16 yaşında Bakıya gəlib və fabrik-zavod məktəbində oxuyub. Ədəbiyyat müəllimi şair Mikayıl Müşfiq olub. Elə sənətə də şairin şeirlərinin təsiri ilə könül verib. Sonra Fəhlə Pedaqoji Texnikumunda təhsil alıb. Məzun günündə təşkil olunan konsert proqramında gənc Məhəmmədin çıxışını bəyənən Sabit Rəhman onu Şəki Dövlət Dram Teatrına dəvət edib. Bir neçə ildən sonra o, Gəncə teatrında çalışmağa başlayıb və ömrünün sonuna qədər orada parlaq obrazlar qalereyası yaradıb.

Bir müddət əvvəl "XQ"-də Məhəmməd Burcəliyevin teatr və kino yaradıcılığı haqqında onun oğlu Anar Ərtoğrul Burcəliyevin qələmə aldığı "Gəncənin unudulmaz şəkili aktyoru" adlı xatirə oçerki dərc edilib. Buna görə də unudulmaz sənətkarın yubileyi günündə onun zəngin yaradıcılıq yolunun yalnız bəzi ibrətamiz məqamlarını xatırladırıq.

…Məhəmməd Burcəliyev 1944-1945-ci illərdə Fikrət Əmirovla birlikdə ilk dəfə olaraq Gəncə Dövlət Filarmoniyasını yaradaraq buranın direktoru kimi də fəaliyyət göstərib.

…O, həmçinin, 1950-1955-ci illər ərzində Gəncə Dövlət Dram Teatrının direktoru olub. Görkəmli aktyor 1955-ci ildə respublikanın Əməkdar artisti, daha 3 il sonra isə Xalq artisti fəxri adlarına layiq görülüb.

… Vaxtilə "Kommunist"in (indiki "Xalq qəzeti") müxbiri olmuş yazıçı-publisist, Əməkdar jurnalist Əhməd İsayev 1989-cu ildə yazırdı: "Əsl el adamıdır. Kimsənin xeyrindən-şərindən qalmaz. Elə ki, qəlbini açdın, qayğı-kömək umdun, o dəqiqə qabağa düşür, ərki çatan yerə məsləhətə, minnətə gedir. Özünün min bir qayğısı var. Yaşa dolub, oğul-uşağı da çox. Özgə dərdinə isə laqeyd qala bilmir. İllah da ki, aktyor ola, rejissor ola! 50 ildən çoxdur səhnəyə bağlanıb. Aktyor kimi, rejissor kimi. Bir silsilə komik obrazlar qalereyası yaradıb. Hamının sevimlisi, ağsaqqalı olub. Gəncə Dövlət Dram Teatrının səlnaməsinə adı əbədilik yazılıb. Xalq artisti Məhəmməd Burcəliyev".

…Bu isə Məhəmməd Burcəliyevin öz xatirələrindəndir: "1951-ci ilin soyuq yanvar ayı idi. Bir gün xəbər gəldi ki, Mir Cəfər Bağırov Ənvər Məmmədxanlının "Şərqin səhəri" pyesinin tamaşasına baxacaq. Mən də teatrın direktoruyam, həm də baş rollardan birini oynayıram. Fikrim bu oldu ki, Mir Cəfər Bağırovdan teatrın təmir olunmasını xahiş edim. İşıqçılara tapşırdım ki, Bağırov rolunu ifa edən aktyor, Xalq artisti Əşrəf Yusifzadə səhnəyə çıxan kimi projektorları tuşlasınlar lojada oturmuş katib Mir Cəfər Bağırovun üstünə. Ümid edirdim ki, bu, ona xoş gələr, mən də, fursətkən teatrın dərdlərini deyə bilərəm. Tamaşa qurtardı, qulbeçələrdən biri rəngi qaçmış halda qrim otağına gəlib dedi ki, Burcəliyev, "Kişi" səni çağırır. Onun sifətində mən öz faciəmi oxudum. Dedim, axı hələ qrimimi silməmişəm. Doğrusu, minlərlə adamı gedər-gəlməzə göndərən, elə bizim teatrdan Ələkbər Seyfini sürgün etdirən Bağırovla üz-üzə gəlməyə qorxdum. Qulbeçə getdi, bir azdan sonra daha qayıdıb bildirdi ki, Bağırov deyir, eybi yoxdur, qrimdə gəlsin. Sanki Sibirin şaxtası dondurdu burnumu…"

Mir Cəfər Bağırov onu xeyli süzdükdən sonra, gülümsünərək: "Təbrik edirəm, – deyib. – Yaxşı tamaşadır. Bəs teatrın binası niyə soyuqdur?" Direktor cəsarətə gəlib vəziyyəti izah edəndən sonra "Yoldaş Bağırovu"un tapşırığı ilə elə ertəsi gün teatrda təmir işləri başlanıb.

Bax, belə ürəkli kişi olub Məhəmməd Burcəliyev. Düz 61 il səhnədə oynayıb, həyatda isə heç vaxt, necə deyərlər, rola girməyib. Elə buna görə də hamının sevimlisi olub, indi də adı böyük hörmət-izzətlə çəkilir.

İndi isə onun oğlu Anar Ərtoğrulun atası haqqında dediklərini yada salaq: "Onun bir çox fikrini cib dəftərçəmə qeyd edirdim. Bir dəfə dedi: – Tamaşaçı teatra hər şeydən əvvəl aktyor yaradıcılığına baxmağa gəlir. O teatr bədbəxtdir ki, onun kollektivində tamaşaçı tərəfindən sevilən aktyoru yoxdur. O aktyor xoşbəxtdir ki, onun öz tamaşaçısı var. Keçmişdə teatr sahibləri tamaşaçı tərəfindən sevilməyən aktyorları işə götürməzdilər… Tamaşa maraqlı, məzmunlu olanda həmişə gəlirlər, baxırlar, xoş sözlər də deyirlər. Budur, Altay Məmmədovun "Kişilər" və ya Əfqanın "Qız atası" komediyaları 30 ildən çoxdur ki, oynanılır. Həmişə də salon adamla dolu olur…

Atam təkcə Gəncə Dövlət Dram Teatrının səhnəsində Əfqanın "Qız atası" komediyasında Cavad kişi obrazı ilə 35 ildə 3000 dəfədən artıq çıxış edib. Bu, hər sənətkara qismət olan rekord deyil".

Unudulmaz sənətkar olan Xalq artisti Məhəmməd Burcəliyev hələ çox-çox illər öz xatirələrinin işığında uzun bir yol gedəcək. Ruhu şad olsun!

***Ə.ƏLİYEV***
***XQ***

# "Beşlər"in diktatı Təhlükəsizlik Şurasını təhlükəyə aparır

**Dünyada özünə güvənli, iqtisadi cəhətdən pis-yaxşı ayaqüstə dayanmağı bacaran, təqribən, 40 dövlət var. Qalanları nisbətən zəif və kiçik ölkələrdir. Təhlükəsizlik Şurasında təmsil olunan 5 dövlət (ABŞ, Çin, Rusiya, Böyük Britaniya və Fransa) dünyanın siyasi-iqtisadi sistemindəki yeni reallıqları qəbul etmək istəmir. Məhz bu səbəbdən yerdə qalan böyüklü-kiçikli əksər ölkələr qlobal iqtisadi-siyasi sistemin idarəetmə mexanizmindən narazıdır.**




Bu narazılıq zaman keçdikcə artır ki, azalmır. Bu parçalanma, ilk növbədə, ümumbəşəri dəyərlərə və əxlaqi normalara ədalətsiz, qeyri-bərabər və laqeyd münasibətlərdən qaynaqlanır. Yəni, "5"-lər, özlərini, necə deyərlər, "burada mənəm, Bağdadda kor xəlifə" kimi aparırlar.

Görünən budur ki, TŞ-nin daimi üzvləri bir vaxtlar öz əlləri ilə yazdıqları beynəlxalq norma və qaydaları gözardı edirlər. Bu məsələdə "5"-lərin ən cığalı sayılan Makron Fransası xüsusilə fərqlənir. "Sahel Afrikası"ndan biabırcasına qovulan Fransa TŞ-də "haqqın və ədalətin düşməni" kimi bədnam ad çıxarıb. "Xoruzlar ölkəsi" son zamanlar xüsusilə tez-tez özünü gülünc vəziyyətə salır. Paris indi də Cənubi Qafqazı qarışdırmaq xəyalına düşüb. Təbii ki, bu səylər əbəsdir!

"Balıq başdan iylənər" deyib atalarımız. Bakı Dövlət Universitetinin professoru Atamoğlan Məmmədli hesab edir ki, çağdaş dünya nizamına xaos və qarışıqlıq gətirənlər daha çox əlahiddə səlahiyyətləri olan TŞ-nin daimi üzvləridir. Onlar yeni reallıqlarla barışmaq istəməyərək dünyanın idarə olunmasını digər dövlətlərlə paylaşmağı özlərinə rəva görmürlər.

Məsələ təkcə BMT-nin əsas və köməkçi strukturları ilə də bitmir. Son 15 ildə "5"lərin təkəbbürlü və üstün mövqeli idarəçiliyi onların rəhbərliyində təmsil olunduğu beynəlxalq təşkilatların nüfuzunu da əhəmiyyətli dərəcədə aşağı salıb və qlobal iqtisadi-siyasi sistemə inamı sarsıdıb.

İki qara "qu quşu", yəni COVID-19 pandemiyası və Rusiya–Ukrayna müharibəsi, üstəlik, son 7 ayda humanitar fəlakət həddinə çatan Qəzza böhranı milyonlarla insanı "5"lərin utancverici eqoizminin səbəb olduğu qəbuledilməz şərtlərə dözməyə vadar edir.

İstər ərzaq təminatı, istərsə də enerji təhlükəsizliyi, eləcə də pandemiya ilə mübarizədə buraxılan kobud səhvlər qlobal idarəçiliyə inamı kəskin azaldıb. Sivil, demokratik dəyərlərə sadiq qaldıqlarını iddia edən ölkələrdə elə utancverici haqsızlıqlar baş verir ki, insanlar bu barədə məlumat alanda, sadəcə, şoka düşürlər. Güclü dövlətlərin zəif qonşularına münasibətdə nümayiş etdirdikləri haqsızlıq, riyakarlıq adi həyat normasına çevrilir.

Sülh, təhlükəsizlik, inkişaf, firavanlıq, insan haqları, ətraf mühit, sağlamlıq, miqrasiya və terrorizm – bütün bu və s. məsələlər qlobal idarəetmə sisteminin struktur və normativ problemləri üzündən sanki tərk edilmiş vəziyyətdədir.

79 il əvvəl İkinci Cahan savaşının qalibi olan beş ölkə tərəfindən qəbul edilən və hələ də davam etdirilən "Soyuq müharibə fantastikası" hesab edilən TŞ-nin veto mexanizmi indi müxtəlif qlobal forumlarda daimi tənqid, etiraz obyektidir.

Prezident Rəcəb Tayyib Ərdoğanın 2013-cü ildə BMT Baş Assambleyasında ilk dəfə səsləndirdiyi "Dünya beşdən böyükdür" şüarı qlobal idarəetmə sistemində köhnəlmiş "Soyuq müharibə doktrinası"nın həyat qabiliyyətini inkar və rədd edir. Həqiqət budur ki, inkişaf etməkdə olan iqtisadiyyatlar və "Qlobal Cənub" ölkələri iqtisadi-siyasi sistemin qərar qəbuletmə mexanizmində layiq olduqları haqlı mövqeyə çatana qədər qlobal sistemə inam çətin olaraq qalır.

Yeri gəlmişkən, "G-20"lərin xarici işlər nazirlərinin son sammitində prezident Ərdoğanın məlum şüarını təkrarlayan Türkiyənin xarici işlər naziri Hakan Fidan "Qlobal idarəetmə islahatı" sessiyasında TŞ-nin bir çox mövzuda, xüsusilə də Qəzza problemi ilə bağlı fəaliyyətsizliyini kəskin pisləyib.

Prezident Ərdoğanın "Daha adil bir dünya mümkün" kitabında vurğulanır ki, bu gün dünyanın bütün dövlətlərinin maraqlarına səmərəli şəkildə xidmət edəcək qlobal idarəçilik sisteminin qurulmasına zərurət yaranıb. Türkiyə lideri həmçinin böhranlara tez reaksiya verilməsinin tərəfdarıdır və ölkələr üçün daha ədalətli və hesabatlı nümayəndəlik strukturunun yaradılmasını müdafiə edir.

Artıq "soyuq müharibə" dövrünün idarəetmə sisteminə qarşı geniş yayılmış narazılıq indi qlobal bir fenomenə çevrilib. Bu inkişaf kökündən müsbətdir, çünki biz qlobal idarəetmə sisteminin yenidən qurulması zərurətindən yaranan böhranları yalnız kollektiv narazılıq vasitəsilə həll edə bilərik. Tomas Edisonun sözləri ilə desək, "Narazılıq tərəqqinin birinci zərurətidir".

***Məsaim ABDULLAYEV***
***XQ***

### Ekspert rəyi



**Rüfət RÜSTƏMOV,**
**BDU-nun Türk filologiyası kafedrasının müdiri, professor**

Dünya bərqərar olandan çeşidli sivilizasiyalar meydana çıxaraq tarixin müəyyən dövrlərində başqa xalqlar və dövlətlər üçün cəlbedici ola bilmişlər. Türklər 26 imperiya və qüdrətli dövlət quran xalqdır və türk mədəniyyəti böyük bir coğrafi məkanda həlledici güc kimi yenidən boy verir.

Türkün heç kimin torpağında gözü yoxdur. Amma öz torpağının bir qarışını da düşmənə verən deyil. Türk mədəniyyəti bu gün həm də "yumşaq güc" rolunda çıxış edir. Çünki haqqın və ədalətin təntənəsi naminə çalışır.

Bu gün Prezident Rəcəb Tayyib Ərdoğanın liderliyi ilə Türkiyə dövləti dünyanın ən böyük güc mərkəzlərindən birinə çevrilib. Mən bütün varlığımla Türkiyə başda olmaqla Böyük Turanın parlaq gələcəyinə inanıram. Azərbaycan–Türkiyə dostluğu və qardaşlığı hürr və sabitliyin müjdəsi anlamına gəlir.

Türklərin çağdaş tarix səhnəsində ön sırada yer alması rəqiblərimizi və bədxahlarımızı ciddi narahat edir. Lakin onlar zamanın inkişaf təkərini geri döndərmək gücündə deyillər. Turanın quru yolla birləşməsi üçün Zəngəzur dəhlizinin açılması çox vacibdir və bu, zaman məsələsidir.

Sevindirici haldır ki, tarixdə türk dövlətlərinin sıx inteqrasiyası üçün böyük şanslar açılmışdır. Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin müdrik rəhbərliyi ilə Azərbaycan xalqının və Ordusunun son 4 ildəki parlaq qələbələri bütün türk dünyası üçün qürurverici hadisədir və güclü səfərbəredici rola malikdir. Gəlin, heç vaxt unutmayaq: Biz birlikdə güclüyük!

### Dahilərin qəribəlikləri

# "Oskar" qazanmış "Parıltı"nın pianoçu prototipi

**Dünya şöhrətli avstraliyalı pianoçu David Helfqottun qardaşı Less onun haqqında mətbuata danışarkən belə söyləyib: "Qardaşım Davidin xəstəliyi kritik həddə çatmışdı. O, görünməz qüvvələrlə danışır, anlaşılmaz söhbətlər edir, yaddaşını itirir, tez-tez evdən yoxa çıxırdı. 1983-cü ildə uzun müddət evə qayıtmayan Davidi şəhərdə axtarmağa başladım. Onun hərdən şərab içməsini xatırlayıb "Pert-Rikardo" şərab evinə girdim. Zənnimdə yanılmamışdım, barın bir küncündə oturub şərab içirdi.**



Barın xidmətçisi Davidin barda ilk dəfə necə peyda olması haqda danışarkən dedi ki, bir axşamüstü saç-saqqalı, damağında siqaret bir səfil bara girdi.

Küncdə oturub özünə şərab sifariş etdi. Biz ona candərdi xidmət göstərdik. Şərabdan qurtumladaraq öz-özünə danışan bu adam ağır həyat keçirmiş birinə bənzəyirdi. Birdən o, əlini irəli uzadaraq səhnədəki fortepianoya tərəf cumdu. Biz ona mane olmağa çalışsaq da, o, artıq stulda əyləşmişdi. Musiqi alətini zədələməsindən qorxsaq da, barmaqlarının piano dilləri üzərində uçuşu hər birimizi heyran elədi. Sonradan bildik ki, bomj saydığımız bu qəribə kişi məşhur musiqiçi David Helfqottdur… Qardaşım bir ildən sonra, 1984-cü ildə elə həmin barda tanış olduğu pərəstişkarı, astroloq Culian Morreylə evləndi".

Bu yazımız şizofreniya xəstəliyindən əziyyət çəkən məşhur avstraliyalı pianoçu David Helfqott haqdadır. David Helfqott 1947-ci ildə polyak əsilli yəhudi ailəsində dünyaya göz açıb.

David maraqlı davranışları ilə lap balacalığından qeyri-adi istedada malik olduğunu büruzə verir. Atası ona beş yaşından başlayaraq fortepianoda ifa etməyi öyrədir. On yaşına çatdıqdan sonra David məşhur pianoçu Frenk Arndtdan musiqi dərsləri almağa başlayır. O, bacısı Marqaret ilə, bəzən də tək çıxış edərək müxtəlif musiqi yarışlarının qalibi olur.

Uşaq yaşlarından populyarlaşan, insanlara vunderkind təsiri bağışlayan on dörd yaşlı Davidə ABŞ-ın nüfuzlu musiqi məktəblərinin birindən dəvət gəlir. ABŞ-da təhsilini davam etdirmək üçün maddi imkanı yetərli olmayan balaca musiqiçiyə yazıçı Katerina Priçard öz yardımını təklif edir. Lakin oğlunun getdikcə qabaran əqli problemlərindən narahat olan atası onun bu səfərinə mane olur. Musiqi fəaliyyətini Avstraliyada davam etdirən David ölkəsinin Gənc Performansçılar Simpoziumunda iştirak edərək altı dəfə ardıcıl birincilik qazanır.

Gənc pianoçu 19 yaşında təhsilini davam etdirmək üçün London Kral Musiqi Akademiyasına dəvət alır və tanınmış musiqiçi Sirill Smitə üç il şagirdlik edir.

David Helfqott kollecdə Sergey Raxmaninovun rəhbərlik etdiyi orkestrdəki parlaq çıxışına görə "Dannreuther" prizinə layiq görülür.

Adətən, dağınıq fikirli görünən və kütlə içində olmağı sevməyən Helfqott, bütün bu uğurlarına baxmayaraq, psixi, əqli pozuntulardan əziyyət çəkirdi. O, bir neçə dəfə musiqi müəlliminə belə demişdi: "Pianonun arxasına keçən kimi tanımadığım məxluqlar başıma yığılıb mənimlə söhbət etməyə çalışır, fikrimi yayındırırlar".

David Helfqott konsert verərkən səhnəyə, öz adəti üzrə qaça-qaça, çox sevdiyi qırmızı köynəyində çıxır. Pişiyi ilə oynamağı sevir, dediyinə görə, sevimli pişiyi onu stresslərdən xilas edir.

David 1970-ci ildə ruhi müvazinətini, qismən də olsa, düzəltmək üçün Pert şəhərinə qayıdır. Burada Klara Papp adlı bir qadın onunla xüsusi olaraq maraqlanır. Sənətinin vurğunu olan qadınla onun arasında qısa bir zamanda isti münasibət yaranır. Aralarındakı böyük yaş fərqinə və Klaranın 4 uşaq anası olmasına baxmayaraq, onlar evlənirlər. Bu evlilikdən bir müddət sonra onların arasında ziddiyyətlər yaranır. Nəticədə o xəstəliyi getdikcə şiddətlənən David psixi dispanserdə müalicə almalı olur. Müalicə dönəmində Klara ondan ayrıldığını birbaşa palatada sərt şəkildə bəyan edir. Pianoçu mütəmadi olaraq 10 il həmin xəstəxanada müxtəlif psixotrop dərmanlar və elektrosudurğa terapiyası qəbul edir.

Sonralar pianoçu haqda film çəkildiyini eşidən Klara belə demişdi: "David heç də brilyant musiqiçi deyil. Nüfuzlu konsert salonlarında çıxış etmək üçün onun nə əqli, nə də fiziki qabiliyyəti var!"

1996-cı ildə əfsanəvi pianoçunun həyatını və şizofreniya xəstəliyi ilə apardığı mübarizəsini əks etdirən "Shine" (Parıltı) adlı film çəkilir. Filmdə David Helfqottu canlandıran aktyor Geofrey Ruş ən yaxşı kişi roluna görə "Oskar" mükafatı alır.

Helfqottun dramatik yaşantılarını canlandıran film tənqidçilər tərəfindən birmənalı qarşılanmır. Üstəlik, Davidin bacısı Marqaret filmdə canlandırılan diktator ata obrazının həddən artıq şişirdildiyini, bunun gerçəyə uyğun olmadığını iddia edir.

Son zamanlar pianoçu Musorqski, Raxmaninov, Şopen, List, Şuman və Rimski-Korsakovun bəstələrini ifa edərək 2 albom buraxıb. Albomlar onun fanatları tərəfindən böyük məhəbbətlə qarşılanıb.

Davit Helfqott hazırda, onu öz sevgisi ilə dəlilikdən xilas edən həyat yoldaşı astroloq Culian Morreylə Uelsdəki malikanəsində yaşayır. Böyük konsertlərdən imtina edən dahi pianoçu arzu edənlər üçün öz evində hərdən mini performanslar təşkil edir.

**Murad KÖHNƏQALA**

### Həyatın içindən...

# Ad – əməl güzgüsü



**Ad vermək, ad qoymaq tarixən ən mühüm və ciddi məsələ olub. Xalqımızın ən qədim yazılı abidəsi olan "Dədə Qorqud" dastanında ulu ozan boy boylayib, soy soylayar və hər kəsin əməlinə uyğun adlar verərdi.**

Ad mərama, məqsədə uyğun veriləndə xüsusilə yerinə düşür və gözəl səslənir. Yenidənqurmanın ilk illərində yeni yaranan şirkət və kooperativlərə verilən bir sıra gözəl adlar indi də unudulmur: "Qasid" mətbuat yayımı, "Sünbül" çörək kooperativi, "Bərəkət" çörək mağazası, "Pürrəngi" çay evi və s.

İndi paytaxtda və payonlarda heç də az olmayan şadlıq saraylarına verilən adlarla onun məramı arasında çox vaxt uyğunluq tapmaq çətin olur. Məsələn, deyək ki, şadlıq sarayının "Sofiya", "Praqa", "San-Remo" və s. adlandırılması ilə məzmunu arasında hansı uyğunluq var? Doğrudanmı həmin saraylarda süfrəyə bolqar və çex mətbəxinin nümunələri təqdim olunur, yaxud həmin ölkə mədəniyyəti hansısa formada nümayiş etdirilir? Söhbət menyudan gedirsə, eyni və oxşar yeməklər digər saray və toy məkanlarında olduğu kimidir.

Son vaxtlaradək paytaxtda fəaliyyət göstərən şadlıq saraylarından yalnız "Kleopatra" və "Planet"də həmin uyğunluğu tapmaq mümkün idi. "Kleopatra"nın divarlarına bütünlüklə Misir mədəniyyəti nümunələri həkk edilib, "Planet"ə qədəm qoyanda isə, bir neçə saatlığa da olsa, sanki özünü başqa planetdə hiss edirdin.

Deyilənə görə, sovet vaxtı Mədəniyyət Nazirliyindən uşaq mahnıları bəstəkarı Rəşid Şəfəqə zəng edərək Əməkdar mədəniyyət işçisi adı almaq üçün sənədlərini hazırlamağı tapşırırlar. Rəşid müəllim təəccüblənərək soruşur:

– Axı hələ Oqtay Zülfüqarova bu ad verilməyib...

Nazirlikdən təkid edirlər:

– Sənin başqası ilə nə işin? Biz səni məsləhət bilirik...

Lakin bəstəkar təklifi qəbul etməyərək gözəl bir nümunə qoyur...

Görəsən, indi müxtəılif adlar alanların içərisində bircə nəfər də olsun beləsi olubmu?

Televiziya verilişlərinin birində bəstəkar, Əməkdar incənət xadimi Cavanşir Quliyevə belə bir sual verdilər: "Nəyə görə sizə "Şöhrət" ordeni verilmir?"

Bəstəkar həmin suala çox maraqlı bir cavab verdi: "Əgər "Şöhrət" ordeni, həqiqətən də, şöhrətli adama verilirsə, onda o orden artıq məndə var..."

Əslində, ad mərama, əmələ, fəaliyyət sahəsinə, görülən işə və xidmətə görə verilməlidir. Ad əməli əks etdirən güzgü olmalıdır.

İstər müəssisə və təşkilat adı olsun, istərsə də insan...

**Süleyman QARADAĞLI**

## "NEFTQAZMAŞ" Açıq Səhmdar Cəmiyyətinin 2023-cü il dekabrın 31-nə maliyyə hesabatı

*(manatla)*

| AKTİVLƏR | 2023-cü il | 2022-ci il |
|---|---|---|
| *Uzunmüddətli aktivlər* | | |
| Torpaq, tikili və avadanlıqlar | 2.245.047 | 1.929.614 |
| Qeyri-maddi aktivlər | 985 | 1.094 |
| Sair uzunmüddətli maliyyə aktivləri | | |
| **CƏMİ UZUNMÜDDƏTLİ AKTİVLƏR** | ***2.246.032*** | ***1.930.708*** |
| *Qısamüddətli aktivlər* | | |
| Ehtiyatlar | 1.327.346 | 905.831 |
| Qısamüddətli debitor borcları | 41.648 | 50.331 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 300.170 | 218.316 |
| Gələcək dövrün xərcləri | | 35.321 |
| Sair qısamüddətli aktivlər | 42.928 | 10.505 |
| **CƏMİ QISAMÜDDƏTLİ AKTİVLƏR** | ***1.712.092*** | ***1.220.303*** |
| **CƏMİ AKTİVLƏR** | **3.958.124** | **3.151.011** |
| **KAPİTAL** | | |
| Ödənilmiş nominal (nizamnamə) kapital | 767.890 | 767.890 |
| Kapital ehtiyatları | 1.256.531 | 473.848 |
| Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | 338.374 | 833.393 |
| **CƏMİ KAPİTAL** | **2.362.796** | **2.075.131** |
| **ÖHDƏLİKLƏR** | | |
| *Uzunmüddətli öhdəliklər* | | |
| Bank kreditləri | 331.000 | 20.000 |
| CƏMİ UZUNMÜDDƏTLİ ÖHDƏLİKLƏR | **331.000** | **20.000** |
| *Qısamüddətli öhdəliklər* | | |
| Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər | 130.822 | 94.232 |
| Qısamüddətli kreditor borcları | 445.996 | 164.938 |
| Sair qısamüddətli öhdəliklər | 424.963 | 494.063 |
| Dvidendlər üzrə təsisçilərə borclar | 262.547 | 302.647 |
| CƏMİ QISAMÜDDƏTLİ ÖHDƏLİKLƏR | ***1.264.327*** | ***1.055.880*** |
| **CƏMİ ÖHDƏLİKLƏR** | **1.595.327** | **1.075.880** |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | **3.958.123** | **3.151.011** |

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC

tabeliyindəki idarələrə tələb olunan tikinti materiallarının satın alınması məqsədilə

AÇIQ MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2024-cü il mayın 1-i saat 17.00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir). Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Əlaqə telefonu- (012) 404-37-00, daxili: 12-42.

Ünvan- AZ1003, Bakı şəhəri, Mikayıl Useynov küçəsi 2.

## "Neftqazmaş" ASC səhmdarlarının nəzərinə!

12 iyun 2024-cü il saat 17.00-da "Neftqazmaş" ASC səhmdarlarının illik ümumi yığıncağı keçiriləcəkdir.

İclasın gündəliyi:

1. Səhmdar cəmiyyətinin idarəetmə orqanlarının 2023-cü il üzrə maliyyə-təsərrüfat fəaliyyəti haqqında hesabatı.
2. Mənfəətin bölüşdürülməsi.

Tel – (012) 5502361, (012) 5502341.

Ünvan – Bakı şəhəri, Sabunçu rayonu, I Zabrat qəsəbəsi, Oktyabr küçəsi 29. "Neftqazmaş" ASC-nin iclas zalı.

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 83 (30487) 25 aprel 2024-cü il, cümə axşamı

# "Əyalət teatrlarının çətinlikləri ikiqat artıqdır"

## Müsahibimiz Lənkəran Dövlət Dram Teatrının 75 yaşlı aktyoru, Xalq artisti Qabil Quliyevdir



**– Qabil müəllim, gəlin söhbətimizə teatra gəlməyinizdən başlayaq. Əvvəl neftçi olmaq istəmisiniz, sonra aktyorluq təhsili almısınız. Neft hara, səhnə hara?**

– Neft Sənayesi Məktəbini bitirəndən sonra bir il Sabunçu rayonunda 8-ci neft mədənində operator işlədim. Sonra ali təhsil üçün indiki Azərbaycan Dövlət Neft və Sənaye Universitetinə sənəd verdim. İki imtahandan keçdim, üçüncüyə girmədim. Bir ildən sonra sənədlərimi İncəsənət İnstitutuna verdim və qəbul oldum. Valideyinlərim məni həkim görmək istəyirdilər. Dedim, öz istədiyim peşəni seçmişəm, daha dinmədilər. Sevdiyim filmlər, aktyorlar məni oraya yönəltmişdi.

Ali məktəbi bitirəndən sonra hərbi qulluğumu Moskvada Dövlət Kino Xidmətinin kinobazasında keçirdim. O dövrün böyük kino xadimləri ilə görüşdüm, ünsiyyətdə oldum. "Gürcüstanfilm"lə, "Mosfilm"lə işlədim. Azərbaycanda "Nəsimi", "Qatır Məmməd", "Səmt küləyi" filmlərinin çəkilişlərinə gəldim. Yəni əsgərlik dövrüm film çəkilişlərində keçdi. Hərbi xidmətdən sonra Moskvada qalıb işləmək təklifini alsam da, Bakıya döndüm. Amma, təəssüf ki, burada heç kim məni işə götürmədi. Artıq Akademik Dram Teatrına rəhbərlik edən ustadım Əliheydər Ələkbərov dünyasını dəyişmişdi. Kinostudiyada da mühit başqa idi, Adil İsgəndərov işdən azad edilmişdi. Üz tutdum Mədəniyyət Nazirliyinə. Nazir müavini Məmməd Ziyadovla görüşdüm. Mənə dedi ki, Lənkəranda teatr açırıq, get bir il orda işlə. Təcrübəlisən, yeni teatrda sənə ehtiyac var, sonra baxarıq. Beləliklə, o bir il oldu 51 il...

**– Ötən böhran illərində əyalət teatrının durumu necə idi? Lənkəran teatrı bu gün hansı qayğılarla yaşayır?**

– Lənkəran Teatrı da ölkənin bütün teatrlarının yaşadıqları çətinliklərlə üzləşib. Sovet İmperiyası dağıldı, rayonlarda böyük sənaye müəssisələri bağlandı, iş yerləri azaldı və insanların paytaxta axını başladı. Vaxtilə 250–300 min nəfər yaşayan Lənkəranda əhalinin sayı xeyli azaldı. Təbii ki, Lənkəran Teatrı paytaxt teatrlarından daha çox problemlərlə üzləşir. Əgər bu gün bizim 50–70 daimi tamaşaçımız varsa, bu böyük uğurdur. Əslində, çətinlik heç bunda da deyil. Əsas çətinlik əyalət teatrlarında kadr çatışmazlığıdır. Mədəniyyət və İncəsənət Universitetinin məzunları rayonlarda işləmək istəmirlər. Bakıda qalıb telekanallarda, özəl kinostudiyalarda işləməyə üstünlük verirlər. Ona görə də bölgələrdə aktyora böyük ehtiyac var. Aktyor televiziyada, kinoprodakşnda deyil, teatrda yetişir. Çoxdan həllini gözləyən bu problem sanki heç kəsi maraqlandırmır. Mədəniyyət Nazirliyi, sadəcə olaraq, məsləhət görür ki, əyalət teatrları sənət studiyaları yaradıb orda özləri üçün kadr yetişdirsinlər. Bəs Mədəniyyət və İncəsənət Universitetinin yüzlərlə məzunu hara gedir? Nə qədər ki, incəsənət və mədəniyyətlə bağlı təhsil müəssisələri Elm və Təhsil Nazirliyinin tabeliyindədir, bu problem həllini tapmayacaq.

**– Razılaşın ki, istedadlı aktyor əyalətdə də parlaya bilər. Orada uğur qazanmağın sizin kimi nümunəsi var. Lənkəran Teatrı sənət taleyinizdə yüksəliş səhnəsi olub, burada Xalq artisti fəxri adını almısınız...**

– Mənim Lənkəran Teatrına bağlanmağımın səbəbi bu sənətə vurğunluğumdur. Köçəri quşun yuvası olmur, – deyirlər. Sənətdə ilk addımlarımı atdığım, böyük obrazlar yaratdığım o sənət ocağına xəyanət edə bilməzdim. Lənkəran Teatrı fəaliyyətə başladığı gündən ordayam.

**– Siz həm də Lənkəran Dövlət Universitetinin müəllimi olmusunuz. Teatr təcrübənizi gənclərə necə öyrədirsiniz?**

– Tələbələrə estetika, etika və kulturologiyadan dərs demişəm. Bu universitetdə bir il aktyorluq şöbəsi də açıldı. Cəmi bir tələbəm vardı, təəssüf ki, növbəti il şöbə bağlandı. Naxçıvan Dövlət Universitetində aktyorluq fakültəsi fəaliyyət göstərir. Lənkəranda, Şəkidə universitetlər də var, teatrlar da. Bu universitetlərdə də aktyorluq fakültələri açılsa, çox demirəm, ildə 10 nəfər tələbəmiz olsa, onlardan 3-ü normal aktyor kimi yetişər. Onda əyalət teatrları kadr problemi yaşamaz.

**– Bəs Lənkəran Teatrının özündə yetişən gənc aktyorlar varmı?**

– Var, niyə yoxdur. Elə teatrın əsas yükünü onlar çəkirlər.

**– Teatr Forumunda iştirak etmisiniz. Forum səhnəyə yeni ab-hava gətirdimi? Qarşıya qoyulan məqsədlər necə gerçəkləşdirilir?**

– Forumda səsləndirilən problemlərin həlli ilə bağlı fikirlər elə orada da qaldı. Sözü demək, çıxış etmək asandır. Problemlərin həlli yollarını axtarıb tapmaq lazımdır. SSRİ vaxtı istedadlı uşaqları teatra gətirirdik, sonra onları təhsil almağa göndərirdik. İndi belə bir imkanımız yoxdur. Perspektivinə inandığımız gənci burda hazırlayıb göndəririk, sənət imtahanını uğurla verir, amma fənn imtahanlarından keçə bilmir...

**– Lənkəran Dövlət Dram Teatrında çoxsaylı obraz yaratmısınız. 75 yaşlı aktyor indi özünə sənət hesabatını necə verir?**

– 75 yaşlı aktyorun, Xalq artistinin sənət hesabatı necə ola bilər? Bu uzun illərdə 200-dən çox müxtəlif rollar ifa etmişəm. Amma hələ də arzusunda olduğum obrazlar var. Bilirsiniz, qəribə zamanda yaşayırıq. Rejissorun hazırlamaq istədiyi tamaşada aktyor oynamaq istəmir, aktyor arzuladığı əsəri isə rejissor qəbul etmir. Əgər təcrübəli aktyor əsəri, obrazı dəyərləndirirsə, rejissor onu niyə istəməsin? Sadəcə, özlərini əziyyətə salmırlar. İndi baş rejissorumuz Anar Babalı Cavid Zeynallının "Tanrı quşu gəlmədi" əsərinin motivləri əsasında tamaşa üzərində işləyir. Məşqlərdən görürəm ki, uğurlu tamaşa alınacaq.

*Söhbətləşdi:*
***Ramilə QURBANLI***
**XQ**

## "Prezident Kuboku–2024"də 20-dən çox ölkə iştirak edəcək

**Aprelin 30-dan mayın 3-dək Mingəçevirdə Ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr olunan "Prezident Kuboku-2024" beynəlxalq reqatası keçiriləcək.**




Yarışda 20-dən çox ölkədən komandalar qatılacaq. Reqatanın rəsmi paradı aprelin 30-da Mingəçevir şəhəri Heydər Əliyev prospektində keçiriləcək. Parad saat 12:00-da başlayacaq. "Prezident Kuboku-2024" beynəlxalq reqatasının açılış mərasimi və ilk yarışlar mayın 1-də tarixi torpağımız Suqovuşanda baş tutacaq.

Mayın 3-də Mingəçevirdə "Prezident Kuboku-2024" beynəlxalq reqatasının bağlanış mərasimi olacaq. Mərasimdə əvvəlcə qaliblər mükafatlandırılacaqlar. Kayak-kanoe və akademik avarçəkmə üzrə kuboklar sahiblərinə təqdim ediləcək. Daha sonra tədbir bədii hissə ilə davam edəcək.

Qeyd edək ki, "Prezident Kuboku" reqatası ardıcıl ikinci ildir Avropa Kanoe Assosiasiyasının (ECA) rəsmi təqvim planına daxil edilib.

## Stolüstü tennisçimizin 6-cı mükafatı

**Stolüstü tennisçimiz Onur Quluzadə "WTT Youth Contender" turnirində uğurla çıxış edib.**



Belçikanın Spa şəhərində təşkil olunan yarışa məşqçi Mixail Timofeyevin rəhbərliyi ilə qatılan idmançımız qrup mərhələsində Fransa, Belçika, Portuqaliya və Ukrayna idmançılarına 3:0 hesabı ilə qalib gələrək pley-offa lider kimi adlayıb. 1/8 finalda belçikalı Noa Varrandaya 3:1, daha sonra ispaniyalı Ladimir Mayorova 3:2 hesabı ilə qalib gələrək yarımfinala adlayan təmsilçimiz burada fransalı Nolan Konstona 2:3 hesabı ilə uduzaraq turnirin bürünc medalı ilə kifayətlənib.

Qeyd edək ki, bu, istedadlı idmançının cari ildə beynəlxalq yarışlarda qazandığı 6-cı mükafatdır.

## "Azərreyl"in qadın komandası da qalibdir

**Qadınlardan ibarət "Azərreyl" voleybol komandası da Azərbaycan çempionatının qalibi olub.**



Final qarşılaşmasında "Azərreyl" və "Abşeron" komandaları üz-üzə gəliblər. Bakı İdman Sarayında baş tutan oyun "dəmiryolçular"ın 3:1 hesablı qələbəsi ilə yekunlaşıb.

Bununla da "Azərreyl" 2023–2024-cü illər mövsümündə birinci yeri tutub.

Qeyd edək ki, bundan əvvəl "Azərreyl"in kişilərdən ibarət komandası finalda "Murov Az Terminal"a (3:2) qalib gələrək qızıl medal qazanmışdı.

Qadınların Yüksək Liqasında bürünc medalı "Gəncə"yə 3:0 hesabı ilə qalib gələn "Murov Az Terminal" əldə edib.

***L.SABİRQIZI***
**XQ**

**Hava**

## Aranda yağmursuz, dağlarda yağıntılı keçir

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən aprelin 25-də Bakıda və Abşeron yarımadasında hava, əsasən, yağmursuz keçəcək.**



Mülayim cənub küləyi əsəcək. Gecə 14-18°, gündüz 23-28° isti olacaq. Atmosfer təzyiqi normadan yüksək 763 mm civə sütunu, nisbi rütubət gecə 50-60, gündüz 40-50 faiz olacaq. Azərbaycanın rayonlarında, əsasən, yağmursuz keçəcək. Lakin gündüz saatlarında bəzi dağlıq ərazilərdə qısamüddətli az yağıntılı olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər bəzi dağlıq və dağətəyi rayonlarda zəif duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 13-18°, gündüz 27-31°, dağlarda gecə 8-13°, gündüz 15-20° isti olacaq.

***Q.QASIMOV***
**XQ**



## "Xərçəng" indi də mədə altına soxulub

**Xroniki pankreatit mədəaltı vəzin iltihabi xəstəliyidir. Onkoloq Yelizaveta Vasilyeva pankreatitin xərçəngə çevrilmə ehtimalından danışarkən deyib ki, mədəaltı vəz xərçəngi tibdə ən təhlükəli və sürətli inkişaf edən xəstəlikdir.**

Həkim onun ilkin mərhələdə aşkar etməyin, demək olar ki, mümkün olmadığını, tam simptomsuz inkişaf etdiyini bildirib: "Çox zaman isə hiylərcəsinə digər həzm problemləri altında gizlənir. Mədəaltı vəzin iltihabı, hüceyrələrinin nekrozu ilə nəticələnən pankreatit bu orqanda şişlərin yaranmasının əsas faktorlarından biridir. Əgər pankreatit irsidirsə, o zaman risk daha da artır.

Uzun illər davam edən, xüsusən nəzarət olunmayan pankreatitlər mədəaltı vəz xərçəngi riskini 25 dəfə artırır. Bu o deməkdir ki, mədəaltı vəz xəstəliyi olanlar maksimum diqqətli olmalıdırlar".

Onkoloq mədəaltı vəz xərçənginin risk faktorlarından danışıb. Bildirib ki, çox siqaret çəkmək, alkoqol qəbulu, heyvani qızartma ət və yağlara meyillilik təhlükəsi yarada bilər. O, həmçinin mədəaltı vəz xərçənginin yaranmasında irsi faktorun və şəkər xəstəliyinin rolu olduğunu qeyd edib. Deyib ki, diabet xəstələrində 10 il sonra mədəaltı vəz çökə bilir. Tədqiqatlar sübut edib ki, məhz şəkərli diabetin olması artıq mədəaltı vəzin fəaliyyət və stukturunun pozulmasının ilk əlamətidir.

**Z.HÜSEYNLİ**
**XQ**

## ALLAH RƏHMƏT ELƏSİN

Azərbaycan Respublikası Hərbi Prokurorluğunun rəhbərliyi və kollektivi Əhliman Əmiraslanova qardaşı

**VAQİF ƏMİRASLANOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
*Şəhadətnamə 022273*

İNDEKS 0282
TİRAJ 3881
SİFARİŞ 826
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Mirbağır YAQUBZADƏ

Çapa imzalanmışdır 00:00